

# MURAD

Qəhrəman tank komandiri, şair, şəhid leytenant
Murad Nağıyev



Murad Nağıyev
İstanbul, 2014



# MURAD

"TƏHSİL"



# MURAD

Nağıyev Murad

"TƏHSİL"

R e d a k t o r:
**İbrahim İlyaslı**

İ d e y a  m ü ə l l i f i:
**Orxan Nağıyev**

T ə r t i b ç i l ə r:
**Banu Hümbətli**
**Sərxan Nağıyev**

**M83 Murad.** *(Xatirələr və şeirlər)*. Bakı, "Təhsil", 2022, 264 səh.

Kitabda 44 günlük Vətən müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən şəhid leytenant, tank komandiri, şair Murad Nağıyevin keçdiyi həyat və döyüş yolundan bəhs olunur. Müharibənin ilk günündən döyüşə yollanan Murad Nağıyev Horadiz kəndinin alınmasında şücaət göstərmiş, Füzuli, Cəbrayıl, Hadrut və Zəngilanın düşmən işğalından azad edilməsində fəal iştirak edərək düşmənin strateji əhəmiyyətli obyektlərini, çoxsaylı texnikasını və canlı qüvvəsini məhv etmişdir.

Həm də istedadlı şair olan leytenant Murad Nağıyevin şeirləri, xüsusilə də cəbhədə olarkən qələmə aldığı sətirləri kitabın ikinci hissəsinə daxil edilmişdir.

Murad Nağıyev 11 oktyabr 2020-ci ildə Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. İkinci Fəxri xiyabanda dəfn olunan şəhid leytenant Murad Nağıyev vəfatından sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

$M \frac{4702060204}{053} 2022$

**© Orxan Nağıyev, 2022**

ISBN: 978-9952-518-37-5

# BİR ƏLDƏ QILINC, BİR ƏLDƏ QƏLƏM

Əslində, bu kitab "Ön Söz"ündən tutmuş "Son Söz"ünə qədər sətir-sətir, duyğu-duyğu, məna-məna qəhrəman şəhid leytenant, cəsarətli tank komandiri, gənc və istedadlı şair Murad Nağıyevin öz taleyidir. Mənimlə birlikdə bu kitabda xatirələrini qələmə alan hər kəs sadəcə və sadəcə o taleyin içindən keçənlərdir ki, bu şəffaf taledə nələr duyduqlarını sözə çeviriblər.

Mən, ilk öncə, Muradın taleyinin özəlliklərini onun şeirlərindən oxuyub duydum. Sonra özkeçmişi, ömür və döyüş yolu ilə tanış oldum. Şəhidlik zirvəsinə ucaldığı ana qədər bütün tale yoluna işıq salan xatirələri oxudum və çox duyğulandım, çox kövrəldim. Anası Xavər xanımın, qardaşları Orxan və Sərxanın onun körpəliyindən və yeniyetməliyindən söz açan xatirələri, orta məktəbdə, liseydə və ali təhsil aldığı məktəbdə ona dərs demiş müəllimlərin, kursant yoldaşlarının xatırlamaları, döyüş yoldaşlarının şahidi olduqları qəhrəmanlıqları... Hər bir xatirə yazısı böyük səmimiyyət və sevgi ilə qələmə alınmışdır. Sevdiyi xanımın kitabda yer alan xatirə-yazısını isə qəlb göynədən bir nakam "Məhəbbət Dastanı" olaraq oxudum. Bu dastan qəhrəmanlarının dilində mənim də bir sevgi şeirimin səsləndiyini duyunca isə daha çox kövrəldim, daha çox duyğulandım, daha çox kədərləndim. Murad onu tanıyanların hər birinin xatirəsində silinməz izlər buraxmış, qəlbində özünə əbədi bir saray ucaltmışdır. Hər xatirədən Muradın fərqli bir özəlliyi boylanırdı. Bu yazılar onun çox ciddi bir xarakterə malik olmasından xəbər verirdisə, şeirləri onun köksündə eyni zamanda kövrək və duyğusal bir şair ürəyinin döyündüyündən xəbər verirdi. Bu cür qoşalığa həm hərb tariximizdə, həm də ədəbiyyat tariximizdə çox az halda rast gəlinir. Amma olmamış da deyil. Türkün bir əlində qılınc olanda bir əlində də qələm olub, qopuz olub. Təsadüfi deyil ki, Muradın dünyaya göz açdığı

Qazax torpağı Azərbaycana zaman-zaman həm Əli ağa Şıxlinski, İbrahim ağa Vəkilov, Fərrux ağa Qayıbov və s. kimi misilsiz hərbçilər, həm də M.P.Vaqif, M.V.Vidadi, S.Vurğun kimi böyük şairlər bəxş etmişdir. Şəhid leytenant, gənc şair Murad Nağıyevin adı da indi bu sırada öz yerini bəlirləyib.

Əlyazmalarını oxuyandan sonra ilk görəcəyim iş Muradın şeirlərini bizim "Ədəbiyyat qəzeti"nin, Türkiyədə nəşr olunan "Kardeş Kalemler" dərgisinin və 44 günlük müharibədə qazanılan zəfərlə bağlı nəşr olunan şeir antologiyalarının oxucularının diqqətinə çatdırmaq oldu. Şəhid şairimizin şeirləri ilə bağlı həm ədəbi ictimaiyyətin nümayəndələrindən, həm də oxuculardan sevgi və kədər dolu dəyərləndirmələr və mesajlar aldıq. Oxuyanlar heyrətlə qarşıladılar.

Murad lisey təhsilini Türkiyədə – Kuleli Hərbi Liseyində, sonrakı təhsilini isə Kara Harp Okulunda almış, ali hərbi təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbində tamamlamışdır. Onun təkcə təhsil göstəriciləri ürəyi daim Vətən və millət eşqi ilə döyünən, orta məktəb yaşlarından ilahi sözə könül vermiş Muradın qəhrəman bir hərbçi və istedadlı bir şair olacağından xəbər verirdi. Murad qısa bir ömür içində bunları öz canı, qanı bahasına, istedadı ilə sübut etdi.

Muradın şeirləri ayrıca bir söhbətin mövzusudur. İlk tanışlığımda yazmışdım ki, müəllifinin yeniyetmə olmağına baxmayaraq bu şeirlər peşəkar bir şairin şeirləridir. Həm quruluşu, həm məzmunu, həm də poetik deyimləri ilə bu şeirlər çağdaş Türkiyə poeziyası nümunələridir. Murad bir müddət Türkiyədə təhsil aldığından, görünür, Türkiyə ədəbiyyatını daha geniş mütaliə etmiş, Türkiyə türkcəsini dərindən mənimsəmişdir. Amma şeirləri heç kimin təkrarı deyil, özünəməxsusluğu, orijinallığı ilə seçilir. Yalnız yaşadıqlarını yazmaq bir şair üçün ən vacib şərtdir. Murad hərbi təhsilə başladığı anda keçirdiyi hissləri başdan ayağacan o qədər gözəl qələmə alıb ki, sitat üçün hansı bəndi seçməkdə çətinlik çəkdim və elə ilk bəndi nümunə gətirdim:

*14 yaşında giydik üniformayı*
*cılız bedenlerimize,*
*Gençliğimizi harcadık Vatan uğruna.*
*Ama hiçbir zaman keşke demedik biz,*
*Siz sıcak yataklarınızda uyuyun diye.*

Bir gənc şair özünün saf məhəbbətini, sevgi hisslərini daha necə qələmə ala bilərdi ki... Dil, duyğu, poetika, səmimiyyət bu bir bənddə elə çulğaşıb ki, oxuyunca heyran olmaya bilmirsən:

*Gözlerinde bulduğum huzuru*
*ebedi uykumda bile bulamam, sevdiğim.*
*Değil seni üzmek, seni severken bile*
*incineceğinden korkarım, sevdiğim...*

Muradın bəzi şeirləri isə, yeniyetməliyinə rəğmən, həyat haqqında mükəmməl təcrübə toplamış müdrik bir insanın düşüncələrini xatırladır. Bu düşüncələrin alt yapısında həm də onun öz gələcəyi ilə bağlı müəyyən kodlar gizlənir, deyə düşünürəm. "İstanbul və həyat" şeiri belə başlayır:

*Yeni bir gün başlat hayatta.*
*Sabah güneş kendini göstermeye başlar,*
*Sonsuz ufuklarda.*
*İlk ışıklar akseder deniz üstünde.*

Şəhid olduğu andan Murad da "yeni bir gün başlatdı" həyatda. "Hər sabah özünü sonsuz üfüqlərdə göstərməyə başlayan günəş" onun uyuduğu müqəddəs xiyabandan baxdıqca Xəzər dənizinin üzərində "ılıq işıqlar" əks etdirir. Şəhidimiz Murad bunu öncədən duyubmuş. Müqəddəs Vətən torpağı da, Vətən göyləri də əbədiyyətəcən şəhidlərimizin keşiyində olacaq.

**İbrahim İlyaslı**

*Ə.Kərim adına Poeziya Evinin direktoru,*
*Türk Ədəbiyyatı Vakfının fəxri üzvü*

## MURADIN HƏYAT YOLU

Murad Mayıl oğlu Nağıyev 9 fevral 1997-ci ildə Qazax rayonunda ailənin sonbeşiyi olaraq dünyaya gəlmişdir. O hələ bir yaşı tamam olmamış ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş, burada Bakıxanov qəsəbəsində yaşamağa başlamışdır.

Təhsilə 2003-cü ildə Sabunçu rayonu, Bakıxanov qəsəbəsində yerləşən 271 nömrəli tam orta məktəbdə başlayan Murad Nağıyev tezliklə həm öz zəkası, həm də tərbiyəsi ilə digərlərindən seçilmiş və müəllimlərinin sevimlisinə çevrilmişdir. O burada 8 il təhsil aldıqdan sonra 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul imtahanlarında iştirak etmiş və burada yüksək nəticə göstərdiyinə görə İstanbulda yerləşən nüfuzlu Kuleli Askeri Lisesinə (Kuleli Hərbi Liseyi) seçilmişdir.

Murad Nağıyev Kulelidə də özünü doğrultmuş, xüsusilə də riyaziyyatdan yüksək nəticələr göstərdiyinə görə müəllimləri tərəfindən ona “matematik dehası” (riyaziyyat dahisi) adı verilmişdir. O həm də erkən yaşlarından müxtəlif silahlarla tanış olmuş, yay toplanışlarında və təlimlərdə iştirak etmiş və NATO-nun ən böyük ikinci ordusunda nümunəvi zabit kimi formalaşmağa başlamışdır. Daha sonra Murad Nağıyev liseyi müvəffəqiyyətlə bitirərək 2015-ci ildə Ankarada yerləşən digər bir nüfuzlu ali hərbi təhsil müəssisəsi olan Kara Harp Okuluna (Quru Qoşunları Məktəbi) daxil olmuşdur. O, 2016-cı ildə azərbaycanlı kursant yoldaşları ilə birlikdə vətənə geri qayıtmış və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) təhsilini davam etdirmişdir. Murad Nağıyev 2020-ci ildə buranın Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin “Zabit ixtisas kursu”nu bitirmiş və “Tank bölmə, hissə və birləşmələrin döyüşə tətbiqi” ixtisası üzrə məzun olmuşdur. Bununla da o ümumilikdə 9 illik yüksək səviyyəli hərbi təhsilə yiyələnmişdir.

Murad Nağıyev Azərbaycan Respublikası müdafiə nazirinin 19 iyun 2020-ci il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi almışdır. O, Bakı yaxınlığında yerləşən N saylı hərbi hissədə tank taborunun tank bölüyünün tank taqımının komandiri vəzifəsində xidmətini davam etdirmişdir.

Murad Nağıyev 27 sentyabrda başlayan Vətən müharibəsinə elə həmin gün yollanmışdır. Qızğın döyüşlərin getdiyi Füzuli istiqamətində hərbi əməliyyatlarda iştirak etmişdir. Komandirlərinin əmrlərinə və rütbəcə yüksək yoldaşlarının israrlarına baxmayaraq o: *"Mən zabitəm, öz tankımda özüm gedəcəyəm! Həm də siz ailəlisiniz, uşaqlarınız var, mən isə subayam",* – deyərək ən ön sıralarda döyüşə atılmışdır. Komandiri təbəssümlə: "İndiyə qədər əmrimə tabe olmayan bir Murad oldu", – deyərək xatırlayır o anları.

Murad Nağıyev tank komandiri olaraq Kənd Horadizin alınmasında şücaət göstərmiş, Füzuli, Cəbrayıl, Zəngilan və Hadrut istiqamətlərindəki döyüşlərdə düşmənin xeyli sayda strateji obyektini, atəş nöqtələrini, zirehli texnikasını və 50-yə yaxın şəxsi heyətini məhv etmiş, düşmən texnikasını qənimət götürmüşdür.

O, oktyabrın 11-də Cəbrayıl istiqamətindəki döyüşlərdə düşmənin uzaqdan idarə olunan tank əleyhinə raket zərbəsi nəticəsində şəhidlik zirvəsinə ucalmışdır. Silahdaşlarının dediyinə görə Murad həmin gün də israr etmişdi ki, *bu gün kolonda bizim tank birinci gedəcək*.

Onun şəhid olduğu ərazi 8 gündən sonra tam nəzarətə götürülə bilmiş və həmin gecə bayrağa sarılı nəşi Bakıya gətirilmişdir. Murad Nağıyev oktyabr ayının 20-də İkinci Fəxri xiyabanda dəfn olunmuşdur.

Murad Nağıyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Leytenant Murad Nağıyev həm də Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Murad Nağıyev uşaq yaşlarından incəsənətə maraq göstərmiş, müxtəlif musiqi alətlərində ifa etməyi öyrənmiş, həmçinin həm türkcə, həm də ana dilində şeirlər yazmışdır. Onun şeirləri müəllimləri tərəfindən yüksək qiymətləndirilmiş və hələ Kulelidə təhsil alarkən 2015-ci ildə "Mürekkebimdir Kuleli" kitabında çap edilmişdir. Şəhadətindən sonra isə Murad Nağıyevin şeirləri müxtəlif ədəbiyyat çevrələrində tanınıb bəyənilmiş, "Kardeş Kalemler" jurnalında və "Ədəbiyyat qəzeti"ndə dərc olunmuşdur.



# Murad xatirələrdə

## Xavər Məhəmmədi
***(anası)***

Muradım dünyaya gələndə soyuq bir qış günü idi. Onun gəlişi evimizə istilik, sevinc gətirdi. Murad ailəmizin sevimli körpəsi oldu. Biz ona uşaq kimi baxsaq da, o həmişə özünü böyük kimi aparardı.

Balamın adını özüm qoymuşam. Sərxanı həkimə gətirmişdik. Xəstəxanada Murad adlı bir uşaq var idi. Anası onu şirin-şirin çağıranda mənim də xoşuma gəlmişdi. Həm buna, həm də həyatdakı bütün gözəl arzuları təmsil edən mənasına görə "Murad" adını seçmişdik. Nə biləydik ki, muradımız yarımçıq qalacaq.

Payız ayı idi. Yağışlı bir gün idi. Balamın 2 yaşı vardı. Mənim başım qarışıq olub. Birdən ayıldım ki, Muradım yoxdur. Mənim üçün çox qorxulu, həyəcanlı dəqiqələr oldu. Hər kəs onu axtarmağa başladı. Biz onda binanın 9-cu mərtəbəsində yaşayırdıq. Baxdıq ki, Murad özü təkcə 9-cu mərtəbədən pilləkənləri enib, həyətdə suya girib, oynayır.

Murad mənim sonbeşiyim idi. Bir gün balamla Qazaxdan gəlirdik. O vaxt Muradın 10 yaşı var idi. Avtovağzalda hərbi formada bir kursant gördük. Dedim ki, Murad, gör necə gözəl yaraşır. Baxıb dedi ki, *istəyirsən, mən də elə olum?* Mən də eyni sualı ona verdim. *"Əlbəttə, əgər sən istəsən, mən də hərbçi olaram!"* – deyə cavab verdi.

Canım, ailəmizin hər zaman sevimlisi, çırağı olan balam... Bu gün mənə onsuz çox çətin və ağrılıdır.

Murad uşaqlığından birinciliyə can atardı. Həmişə istəyərdi ki, ən öndə gedənlərdən olsun. Harada olursa olsun, adı siyahının ən yuxarısında olmalı idi. Elə müharibədə də ən irəlidə getdi.

Murad evimin körpəsi olsa da, o, 14 yaşından anadan ayrı, çöllərdə oldu. Türkiyədə oxudu. Orada da həm savadına, həm də tərbiyəsinə görə hamının hörmətini qazandı.

Kulelidə oxuyarkən tətil günlərini həsrətlə gözləyirdim. Hər dəfə Murad Bakıya gələndə evimizdə toy-bayram olardı. Qayıdanda da ancaq ağlaya-ağlaya yola salardım Muradı. Heç Murad da mənsizliyə dözə bilmirdi. Bakıda olduğu müddətdə çalışırdım ki, istədiyi hər şeyi edim. Sevdiyi yeməkləri – düşbərə, xəngəl, qutab, döşəməli aş bişirərdim, gül, çiyələk, qoz mürəbbəsi ilə isti çay verərdim, qulluğunda durardım. Özümü belə ovudurdum ki, balamın könlünü alam. Amma onun üçün çox çətin idi körpə yaşında anadan, ailədən ayrı düşmək. Mənim üçün də çox çətin idi, amma indi necə dözürəm, heç özüm də bilmirəm.

Bəzən elə olurdu ki, mənim xətrimə dəyirdi. Amma səhvini tez də başa düşürdü. Özünü bağışlatmayınca telefonum susmurdu. Heç vaxt istəmirdi ki, mənim gözümdən yaş axsın. Bir-birimizə çox bağlı idik. AAHM-də oxuyarkən belə, evə gələndə deyərdi ki, *ana, 10 dəqiqə də olsa, bir az səninlə yatım*. Məncə, o vaxtlar özü hiss edirmiş ki, bir gün onsuz qalacağam.

Murad hər kəsin sevimlisi idi. Böyüklərin hörmətini saxlayar, hər kəsə əl tutardı. Hamının məsləhət yeri idi mənim balam. Hətta özündən böyüklər də yeri gələndə ondan məsləhət alardı.

O, dostlarına qarşı çox həssas idi. AAHM-də oxuyanda tətil günlərində dostlarının bəziləri növbətçi qalmışdı. Murad həmin gün məndən xahiş edib: *“Ana, bişirdiyin yeməklərdən ayır, mən uşaqlara aparacağam”,* – demişdi.

2020-ci ildə AAHM-dən məzun olub, Bakı yaxınlığındakı N saylı hərbi hissəyə təyinat aldı. Orada cəmi iki ay işləsə də, tez bir zamanda hamının hörmətini qazandı o balaca canıyla, o körpə canıyla.

Bakıya düşməyinə çox sevinmişdim. Fikirləşirdim ki, neçə illik əziyyətimizin bəhrəsini görəcəyik. Hər gün sevinclə yola salıb, sevinclə qarşılayırdım. Deyirdim, hərbi hissədən çıxanda xəbər et, yeməyi hazır edim ki, gəlib, isti-isti yeyəsən. Qapıdan içəri gülər üzlə, xoş əhvalla girərdi. Zarafat etməyi, deyib-gülməyi çox xoşlayırdı.

Murad hər zaman deyərdi ki, *mən şəhid olacağam*. Deyərdim ki, general olacaqsan sən. *"Yox, ana, generaldan üstün şəhidlikdir,* – deyərdi, – *sən bilmirsən onu".*

Murad mənə Füzulidə – cəbhədə olduğunu deməmişdi. Mən elə bilirdim ki, o, Beyləqandadır. Telefonla danışa bilmirdim, çünki səsini eşidən kimi ağlayırdım, o da narahat olurdu. Ona görə də çox vaxt mənə mesaj yazırdı. Şəhid olmağından 3, ya da 4 gün əvvəl bildim ki, qabaqdadır. Danışanda dedim:

– Narahat olma, qorxma, hər şey yaxşı olacaq. Mən səni Allaha əmanət etmişəm, sənin üçün hər gün dua edirəm. Sən bircə ehtiyatlı ol, hər şey yaxşı olacaq. Dualarını et.

– *Eh, ay ana, bilsən ki, yanımda nə qədər şəhid dostlarım var, heç belə rahat danışmazsan,* – deyə cavab verdi.

Mən də dedim ki, nə şəhid, nə danışırsan? Bəs sən Beyləqanda deyilsən? Onda dedi ki, *yox, Füzulidəyəm*.

Balamla xatirələrim, təbii ki, çoxdur, amma mənim üçün onları Muradsız xatırlamaq çox ağırdır. Murad çox ağıllı, kamallı bir övlad idi.

Murad şəhid olanda onun 23 yaşı var idi, amma mən elə bilirdim, o hələ 8-ci sinifdə oxuyur. Çox saf uşaq idi. Həmişə deyərdim ki, nə vaxt böyüyəcəksən sən, Murad? Amma indi anlayıram ki, balam bir ana kimi mənim gözümdə körpə imiş, əslində isə mənim balam körpə deyilmiş, o çox böyük, qəhrəman bir övlad imiş. Cəbhədə olduğu o 15 gündə daha da böyüyübmüş, mən bilməmişəm. Həyatımın mənası olan, xəyallarımda hər zaman körpə qalan balam...

Balam çox qoçaq, vətənpərvər bir övlad idi. Vətəninə, anasına, ailəsinə çox bağlı idi. Amma, deməli, Murad ən çox vətəni sevibmiş, ona daha çox bağlı imiş ki, sonda anasını yox, vətəni seçdi. Mənim üçün nə qədər ağır olsa da, mən qürur duyuram ki, mənim Murad kimi övladım var.

## Orxan Nağıyev
***(qardaşı)***

Murad dünyaya gələndə 6 yaşım var idi. O zamanlar kənddə yaşayırdıq. Fevral ayı, qarlı günlər idi. İlk dəfə həyətdəki daxmada olanda bildim ki, qardaşım dünyaya gəlib. Qəribə hisslər idi. Başa düşmürdüm ki, bu nədir. Mən və Sərxandan fərqli olaraq sağlam, göyçək bir uşaq idi.

Murad dünyaya gələndən bir neçə ay sonra Bakıya köçdük. Heç 1 yaşı tamam olmamışdı o zaman. Üç qardaş ilk şəklimiz Bakıya köçdüyümüz həmin qış çəkilmişdi. Qar yağmışdı, yaşadığımız köhnə "doqquzmərtəbə"nin həyətində qonşu çəkmişdi şəklimizi. Həmin vaxtın şəkillərinə baxanda görürəm ki, o daima gülərüz idi, mənsə qaraqabaq. Əslində, həyata yanaşmamızın necə fərqli olduğu o gündən görünürdü. Murad pozitiv, yaşamağı sevən, həyəcanlı uşaq idi, mənsə tam əksinə...

O vaxtdan yadımda qalan qısa epizodlar var. Bağçaya aparardım. Təkcə anam həmin bağçada işlədiyinə görə yox, özünə görə hamı çox istəyirdi onu, şirin uşaq idi.

Birinci sinfə başladığı il artıq başqa evə köçmüşdük. Mən ikinci növbə dərsə getsəm də, adətən, səhərlər birinci onu aparıb məktəbə qoyardım. Həmin il Sərxan rayonda xalamgildə yaşamalı olmuşdu. Muradla ikimiz qalmışdıq.

Bir gün evə gəldim ki, Murad sakitcə oturub, ağzını dəsmalla tutub, heç səsi də çıxmır. Sən demə, danışa bilmirmiş. Yelləncəkdən elə yıxılmışdı ki, dodaq, damaq, diş – hamısı bir-birinə qarışıb şişmişdi. Neçə gün normal yemək yeyə bilməmişdi.

"Naxçıvanski"yə hazırlaşdığı vaxtlarda sağlamlıq yoxlanışından da keçməli idi. Həmin o ərəfələrdə məhəllədə futbol oynayarkən gözünü top zədələdi. Sağ gözü qısa bir vaxtda kiçilməyə başladı. Bəlkə də, bu, bir işarə idi. Gözümüzün bu günləri görməməsi üçün bir işarə... Amma keçdi yoxlanışdan, imtahandan da çox yüksək bal topladı. İmtahanı verdikdən sonra çox sevincli, həm də məğrur

idi. Özünü həyata qarşı ilk isbatlaması, ilk qalib gəldiyi imtahanı idi. Yüksək bal topladığına görə Türkiyədə təhsil almaq təklifi isə onda bir başqa motivasiya yaratmışdı.

O yay xatirimdən heç vaxt çıxmaz. Çətin bir mərhələdən keçirdik. Amma həm Muradın, həm də Sərxanın İstanbula təhsil almaq üçün yollanmaları sanki ailəmizə, ən çox da anama bir ümid olmuşdu. Beləcə Muradın həyatında Türkiyə dövrü başlamış oldu.

Cəmi 14 yaşı vardı gedəndə, uşaq idi. Elə vaxt olurdu, Azərbaycana qayıtmaq istəyirdi, tətilə gələndə Türkiyəyə geri dönmək istəmirdi. Amma təhsilini sevirdi, tez dostlaşmışdı oradakı kurs yoldaşları ilə. Murad İstanbulda olanda iki dəfə orada görüşə bilmişdik. Birinci dəfə işlə bağlı 3–4 günlük getmişdim. Bir gününü bir yerdə keçirmişdik. İlk dəfə o gəzdirmişdi mənə İstanbulu. İkinci səfər isə onun yaxın dostu Emrenin vaxtsız vəfatından sonra görüşmüşdük.

İstanbulda liseyi bitirdikdən sonra Ankarada ali hərbi məktəbdə təhsilini davam etdirdi. Liseydən ali məktəbə keçid zamanı quru, hava və dəniz qüvvələri arasında seçim edərkən çox müzakirələr apardıq. Quru qoşunlarını özü seçdi. General olmaq istəyirdi və inanırdı ki, “karacı” (quru qoşunları) olarsa, bu yolda daha əmin irəliləyə bilər.

Ankarada cəmi bir il oxuya bildi. 2016-cı ilin iyulunda Türkiyədə çevriliş cəhdindən sonra hərbi məktəblər bağlandı və Murad Bakıya qayıtdı. Həyatındakı əsas dönüş nöqtəsi bu çevriliş oldu. Amma o, son ana qədər inanırdı ki, yenidən Ankaraya qayıdacaq. Oranın təhsilinə çox öyrəşmişdi.

AAHM-də yenidən 1-ci kursdan təhsil almağa başlaması ona çox pis təsir etmişdi. Üsyan edirdi ki, *çox geri qalıram yaşıdlarımdan*. Qismətindən şikayətlənirdi.

Bir dəfə Murad təcrübə üçün qatarla Ağstafaya gedəndə vağzalda onu yola salırdım. Hərbi polisin müşayiətində kolonla gəlmişdilər. Orada baş verən bir hadisədən sonra təklif etdim ki, Murad, istəyirsənsə, günü sabah çıx hərbi-

dən, mülki təhsilə başla. Qətiyyətlə rədd elədi ki, *nə danışırsan? Olmaz elə şey*.

Hərbi təhsili müddətində onu sıxan əsas şey sərbəstliyin olmaması idi. Təbiətən çox sərbəstruhlu insan idi. Yaxşı geyinməyi, saç-saqqalına forma verməyi xoşlayırdı. Ən çox da gəzməyi, qohum-əqrəba, dost-tanışla vaxt keçirməyi sevirdi. Vaxtının çoxunu AAHM-də keçirdiyi üçün isə bunları doyunca edə bilmirdi. Murad Bakıda təhsil aldığı 4 il müddətində, bir dəfə də olsun, evə avtobusla gəlmədi. Səbəbi isə, həmişə qınasam da, qısa, hərbi saç düzümündə görünməyi sevməməsi idi.

Maşın həvəskarı idi, həm də həddindən artıq... Qorxurdum bu həvəsindən. Həmişə düşünürdüm ki, bu həvəs başına nəsə iş gətirəcək. Amma elə olmadı. Bir dəfə mənim maşınımı götürüb dostuyla gəzməyə getmişdi. Bir də gördüm ki, gəlir gülə-gülə. Soruşuram ki, qaqa, maşın hanı? Deyir, *"ştrafnoy"da*. Həmin günün səhəri də uzaq bir yerə getməli idim. Əsəbiləşdim ki, işə saldın məni. *"Əşşi oldu da, kişinin başına iş gələr",* – deyə gülə-gülə cavab vermişdi.

Fərqli yeməkləri sevirdi, amma balığı heç xoşlamırdı. Hətta dəniz kənarında balıq yeməyə gedəndə belə o, toyuq-filan sifariş edərdi. Ən sevimli menyusu "çiğ köfte" və acılı şalğam suyu idi. Qış vaxtı xəstələnəndə zəng vurub: *"Oradan mənə təcili acılı şalğam suyu gətir",* – deyə tapşırardı. İndi hər dəfə "çiğ köfte" görəndə o söhbətlər yadıma düşür.

İmtahan vaxtları idi, idmandan bir az problemi varıydı. Qıcıqlandırıb deyirdim, 10 dənə turnik nədir ki, sən boyda kişi onu vura bilmirsən? Bir gün qan-tər içində olduğu şəklini göndərib, dedi ki, *qaqa, keçdim imtahandan*. Bütün imtahanlardan keçəndən sonra sanki olacaqları hiss edirmiş kimi belə bir mesaj göndərmişdi:

*– Bu il çox atəşfəşanlıq olacaq, deyəsən. Elə bir qoxu var. Mənə yaxşı baxın, xətrimə dəyməyin.*

2020-ci ilin yayı... Heç istədiyi kimi keçmədi. "Məzun günü" üçün qurduğu planların heç biri baş tutmadı. Nə

biz orada iştirak edə bildik, nə də o, “Məzun günü”ndən sonra arzusunda olduğu məzuniyyətə çıxa bildi.

Təyinatını Ağcabədiyə istəyirdi. Deyirdi, *qabaq yaxşıdır, baş ağrısı az olur*. Amma alınmadı, Bakı tərəfə çıxdı təyinatı. Sevindik ki, evin içində olacaq, rahat gedib, gələcək işə. Hər gün səhər saat 6-da işə gedirdi. Yeni başlamışdı deyə növbətçi olduğu günlər çox olurdu. Sanki hər şey onun bəxtindən pis gətirmişdi. Pandemiya vaxtı hər yer bağlı olduğu üçün heç normal qeyd edə də bilmədik işə başlamasını.

N saylı hərbi hissədə tank taborunda başladı xidmətə. İşindən razı idi, həvəslə gedib, gəlirdi. Elə alınmışdı ki, əvvəlcə “Qarayev”də, sonra isə Sumqayıtda polislə birgə “karantinə nəzarət”ə göndərilmişdi.

Tovuz döyüşləri vaxtı çox sakit, təmkinli idi. Çox şey danışmırdı. Elə bir ab-havası vardı ki, elə bil nəyisə gözləyirdi.

Sentyabrın 26-sı, gecə müharibə söz-söhbətləri başlayanda zəng vurdum, amma zəngimi götürmədi. Mesaj yazdı ki, *yaxşıyam, narahat olma*. Bütün gecəboyu silah-sursat yükləməklərindən, tankları qatarlara qaldırmaqlarından bir kəlmə də demədi. Gecə telefonum sönüb. Səhər oyandım ki, deyirlər, müharibə başlayıb, Murad səni axtarır. Telefonlara zəng getmir, internet bağlanıb. Birtəhər Muradla danışa bildim. Qatarda idi, səhərdən yola çıxmışdılar. Mənə yenə də düzünü demədi, Beyləqanda – arxada olacaqlarını dedi. Elə gün oldu ki, heç danışa bilmədik. Amma hər dəfə imkan tapan kimi, şəbəkə olanda bir kəlmələik də olsa, zəng edirdi.

Müharibə başlayandan bir neçə gün sonra yoldaşlarımla birgə cəbhəyə yardım üçün müəyyən vəsait topladıq. Planımız gedə biləcəyimiz yerə qədər gedib, yardımı çatdırmaq idi. 2 oktyabr günü toplanan pulla ehtiyacları almaq üçün Sədərək bazarına getdik. Elə orada olanda Muraddan zəng gəldi. Vəziyyəti danışandan sonra dedi ki, *gəlmək istəyirsənsə, elə mənim yanıma gəl*. O ana qədər

ağlıma gəlmirdi ki, Muradın yanına gedə bilərəm. Nələr aldığımızı dedikcə, *“Əla, əla, bacardığın qədər çox şey gətirməyə çalış”,* – deyirdi. Orada qərarlaşdırdıq ki, elə həmin günün səhəri Füzuliyə – Muradın olduğu yerə gedək.

Əlavə şeylər də istəmişdi. Amma öz çəkdiyi siqaretdən istəmək əvəzinə, yoldaşlarının çəkdiyi siqareti soruşub, tapşırmışdı, öz çəkdiyini heç deməmişdi.

3 oktyabr günü səhər tezdən Bakıdan çıxdıq ki, komendant saatına qədər gedib, qayıda bilək. Bakıdan baxanda müharibənin dəhşəti, ağrı-acısı, demək olar ki, hiss olunmurdu.

Cəbhəyə yaxınlaşdıqca təcili yardım maşınları daha çox gözə dəyməyə başlayır, sanki alova yaxınlaşırmışcasına hər kilometrdə müharibə öz istisini daha çox hiss etdirirdi. Yolboyu danışırdıq Muradla, zarafatlaşırdıq. Xüsusi bir tapşırığı olan mesaj gəldi birdən:

– *Buraya gələndə mərmi-zad atılsa mənim yanımda, mənə bax, mən tərpənmirəmsə, sən də tərpənmə. Deməsinlər, qorxur. Tamam mı, abim?*

Beyləqanda “Üç yol” deyilən yerə çatanda yolun bağlandığını gördük. Polislər post qurmuşdular və oradan irəliyə ancaq yerli sakinləri buraxırdılar. Çox dil tökdük, amma bizi də buraxmadılar. Cəbhəyə yardım apardığımızı, bundan əlavə, qardaşımın zabit olduğunu, onun yanına getdiyimizi desəm də, xeyri olmadı. Muradla əlaqə saxladım. Vəziyyəti danışandan sonra post rəisi ilə danışmaq istədi. Dedi:

– *O polis elə bilir ki, mən qərargah zabitiyəm. Qərargah zabiti deyiləm e mən, döyüş zabitiyəm!*

Amma Muradın danışmağının da xeyri olmadı. Bizi buraxmadılar. Onun olduğu yerə başqa mülki adamlar gələ bilirdilər deyə lap əsəbiləşir, bu ədalətsizliyə üsyan edirdi ki, *bu qədər adam gələ bilir, amma mənim qardaşımı buraxmırlar*.

Həmin vaxt çox danışdıq, çox çarə axtardıq. Özüm də bir tərəfdən kənar yol tapmağa çalışdım. İnternet olma-

dığı üçün telefondakı xəritə tətbiqi də işləmirdi. Dolanbac bir kənd yolu tapa bildik. Həmin yolla gedirdik, Murad zəng vurdu ki, *qayıt geri, bizim uşaqlar təchizat üçün gedəcəklər o tərəfə, qayıdanda səni də götürərlər*. Amma həmin adamlar sonra zəng vurdular ki, alınmır, götürə bilməyəcəyik. Bəlkə də, geri qayıtmayıb, kənd yolu ilə getsəydim, görüşə bilərdik.

Yenidən həmin kənd yolu ilə getmək qərarına gəldik. Amma nə qismət idisə, getdiyimiz yerdə qarşımız kəsildi, yolu bağladılar. Yaxşı ki, bu dəfə Murad kömək edə bildi. Bir tanış vasitəsilə postdan keçə bildik. Muradın yanına çatmağıma, təxminən, 15 dəqiqəlik bir yol qalmışdı ki, zəng gəldi. Murad idi:

– *Qardaşım, biz qabağa gedirik, gəlmə, görüşə bilməyəcəyik.*

O an dondum. Nə deyəcəyimi, nə düşünəcəyimi bilmədim. “Getmə” deyə bilmədim, amma “get” də deyə bilmirdim. “Gözlə, çatıram”, – dedim, amma olmadı. O an əslində, başa düşdüm ki, mən bir daha Muradı görə bilməyəcəyəm...

Üstündən bir az keçəndən sonra Muraddan mesaj gəldi. O mesaj həyatımda o ana qədər aldığım ən böyük zərbə idi. Bir yumruq kimi hiss etdim o mesajı:

– *Qardaşım, gedirəm mən. Haqqınızı halal eləyin. İnşallah, görüşərik. Öpürəm hamınızı.*

Bir mesajla haraya getdiyini, nəyə getdiyini ifadə etmişdi əslində. Sonradan öyrəndik, bu mesaj ona rahatlıq veribmiş ki, halallaşdı hamıyla.

Muradın döyüş yoldaşları danışırlar ki, həmin gün tabor komandiri Murad gənc olduğu üçün onun yerinə başqa bir heyət göndərmək istəyib. Amma Murad israr edib ki, *öz tankımda özüm gedəcəyəm, zabitəm mən.* Komandirinə deyib ki, *komandir, siz imkan verəcəksiniz, mən döyüşüm, yoxsa yox?* Yerinə keçmək istəyən zabitə isə əsəbiləşərək:

– *Ay bədbəxt, sənin övladın var, haraya gedirsən?! Yenə mən subayam, gözləyənim yoxdur,* – deyə qışqırıb və tankdan düşməyib. Belə bir israrla döyüşə girib mənim qardaşım.

Füzulidə bəzi postlara baş çəkib, apardığımız yardımı təhvil verdikdən sonra Muradın istədiyi əşyaları oradakı mağazaya verdim ki, ona çatdırsınlar. Forması cırıldığı üçün yeni forma və başqa şeylər istəmişdi. Təzə aldığı uzunboğaz çəkmələrini də aparmışdım. Çəkmələri istəyəndə tərəddüd etmişdi. Gətirimmi, ya gətirməyimmi deyə çox düşünmüşdü. Axırda demişdi ki, *gətir*. Türkiyədən sifariş vermişdi həmin çəkmələri. Məncə, düşünürdü ki, qayıdanda geyinər... Amma sonra dedi ki, *gətir*. Bilirdi, bəlkə də, qayıda bilməyəcəyini, geyinə bilməyəcəyini...

Füzulidən qayıdanda yolda Murad yenə zəng vurdu. Səsini eşidəndə özümü saxlaya bilməyib: "Səsinə qurban, qardaşım", – dedim. O vaxta qədər nə vaxtsa Muradla belə açıq, belə səmimi danışdığım yadıma gəlmir. Sanki ölümdən qayıtmışdı və səsini eşitdimsə, daha hər şey yaxşı olacaq deyə düşünmüşdüm. Dedim, qaqa, ehtiyatlı ol, sən hamıya sağ lazımsan. Məğrur-məğrur cavab verdi:

– *Qorxma, qardaşım, analarını ağladacağıq.*

Amma mən artıq həmin gündən bilirdim ki, getdiyi yol dönüşü olmayan bir yoldur və o da buna hazırlamışdı özünü.

Həmin günün axşamı zəng vurub dedi:

– *Qardaşım, bilirsən, əlimdə nə var? Erməni qumbarası tutmuşam əlimdə, onların postundayıq.*

Dedim, ehtiyatlı ol, "kaska"nı başından əskik eləmə, birdən pusqu qurmuş olarlar. Belə məsləhət verdiyim adam isə odun, alovun içi ilə gedib, tarix yazırdı o günlərdə...

Sonrakı bir həftə boyunca, demək olar, hər gün zəng edirdi. Elə gün olurdu ki, gün ərzində bir neçə dəfə danışırdıq. Bir dəfə zəng vurub həyəcanla:

– *Qardaşım, şanlı bayrağımız Füzulidə dalğalanır,* – dedi.

O, xəbər verəndən 3–4 gün sonra xəbər rəsmiləşdi. O qədər fərəhli, qürurlu idi ki... Gördüyü iş və tutduğu yolla, bəlkə də, heç vaxt bu qədər fəxr etməmişdi.

Əvvəldə dediyim kimi, Murad çox həvəsli idi avtomobilə qarşı. Bütün söhbəti, işi-gücü maşınlardan danışmaq idi. Əslində, mən Muradın nəyin içində olduğunu da yenə

maşın mövzusunda danışanda dərk etmişdim. Müharibənin ilk günləri idi, hələ yeni getmişdi. Günorta vaxtı zəng vurub hal-əhval tuturdu. Birdən qayıdıb dedi:

– *Qardaşım, qayıtsam, maşınını biraylıq verərsən... Yox... İkiaylıq verərsən də mənə. Dəyişərik.*

Dedim, qurbandır sənə. Danışıb qurtarandan sonra isə hönkürtü tutdu məni. *"Qayıtsam..."* – demişdi Murad, yəni qayıtmaya da bilərdi... Cəbhədə olanda tez-tez hansısa planlarından, arzularından danışırdı. Adətən, maşınla bağlı olurdu bu planlar. Amma hər səfərində nəyisə deməzdən əvvəl "qayıtsam" deyirdi. Deyirdim ki, niyə elə şərt qoyursan? Qayıdacaqsan. Deyirdi: *"Nə bilim e, qardaşım, görək qayıda bilirəmmi?"*

Orada olanda günlərlə torpağın üstündə, yağışın altında yatmışdı. Böyrəkləri soyuqlamışdı. Zəng vurdu ki, *nə edə bilərəm, çox ağrımasın?* Dedim, orada çətin ki dərman tapasan, heç olmasa belini bağla, isti saxla.

Cəbhədə həm də şərait olmadığına görə çimə bilmirdilər. Təmizkar olduğu üçün bu onu narahat edirdi. Bir dəfə danışanda dedi ki, *qaqa, 10 gündür, çimmirəm, bədənimə su dəymir.* Dedim, sən qayıt, gəl, hamama aparacağam səni, yaxşıca çimərsən. Dedi, *hamamlar işləmir axı*. Dedim ki, sən narahat olma, özünü qoru, sağ-salamat qayıt, mən sənin-çün təşkil edəcəyəm.

Döyüş yoldaşlarına qarşı çox həssas idi. Hər dəfə danışanda olduğu yerlə, yoldaşları ilə necə qürur duyduğunu hiss edirdim. Gəncə hadisələri isə ona xüsusilə ağır təsir etmişdi. Düşmənə qarşı nifrəti birə-on artmışdı.

Bir gün danışanda gördüm ki, qanıqaradır. Nə olduğunu, niyə bikef olduğunu soruşanda dedi: *"Necə olum e, qardaşım? Yanımdakını apardılar".* Sonradan öyrəndim ki, tuşlayıcısı tankın üstünə çıxanda yanlarına "minamyot" düşüb, tuşlayıcını qəlpəsi tutub. Şükür ki, yarası ölümcül deyildi, amma o belə Murada çox təsir etmişdi.

Bir dəfə də danışanda dedi ki, *qardaşım, kabab eləmişəm*. Dedim, nə kababı, ay Murad?

– *Ee nə kababı olasıdır? Adam kababı,* – deyə cavab verdi. Sonradan öyrəndim ki, düşmənin kəşfiyyatçısını 2000 metr məsafədən ayrıca bir tank mərmisi ilə vurub.

Son danışığımız oktyabrın 10-u oldu qardaşımla. Günorta zəng vurmuşdu. Oradan-buradan danışdıq. Kefi də yaxşı idi:

– *Qardaşım, burada bir dənə pikap sürdüm, bilirsən, nə babatdır? Tankdan düşüb, buna minəndə elə bilirsən, pambıqdır. Qərar vermişəm, qayıtsam, maşını satıb, pikap alarıq mənə,* – dedi.

Dedim ki, Murad, “qayıtsam” filan demə. Qayıdacaqsan. Söz ver mənə ki, qayıdacaqsan. Ürəksiz, məcburi formada: *“Söz verirəm, qayıdacağam”,* – dedi.

Bir də həmin günün axşamı zəng vurdu. Oğlum Atilla ilə danışmaq istəyirdi. Uşaq mızıldandı bir az. Dedi: *“İşin olmasın uşaqla, nə istəyir, eləsin”.*

Bu, son danışığımız olmuşdu. *“Uşaqlar sərhədi bağlamağa getmişdilər. Gəldilər. Görüm necə oldu”,* – deyib sağollaşmışdı. Elə rahat danışmışdı ki...

Həmişə uşaq xasiyyətli olduğuna görə qınadığım Murad müharibə vaxtı böyümüşdü. Müharibənin insanları dəyişdirdiyini deyirlər, amma bu qədərini düşünməzdim heç...

Ən son oktyabrın 11-i, səhər saat 8-in yarısı mesaj yazmışdı:

– *Sabahın xeyir, qardaşım, yaxşıyam.*

Həmin gün dəfələrlə zəng vurdum, amma Muradın nömrəsinə zəng çatmadı. Öz-özümə dedim, yəqin əməliyyatdadır, şəbəkə yoxdur.

Tank düzülüşündə belə bir qayda var imiş ki, qrupun komandiri kolonun önündə getməlidir. O günə qədər həmişə bölük komandiri birinci gedib. Məhz şəhid olduğu gün Murad israr edib ki, *bu gün kolonda bizim tankımız birinci gedəcək*.

Oktyabrın 12-si, səhər tezdən dostu Elçin zəng vurub dedi ki, Muradın şəklini paylaşıblar, üzərinə də belə yazıblar: “Sən hər birimizin ucalmaq istədiyi zirvəyə yük-

səldin, cənab leytenant". Mən qardaşımın şəhid olduğunu bir şəkillə öyrəndim...

Murad üçün təkcə qardaşım olduğuna görə yox, həm də bir insan olaraq çox darıxıram. Arxam, dayağım getdi. Nə qədər desələr də ki, getdiyi yer hamının arzusunda olduğu yerdir, məncə, əslində onun arzusu cavanlığını doyunca yaşamaq idi. Bir insan ancaq onun qədər həyat dolu ola bilərdi.

Murad o vaxtdan bəri bir neçə dəfə yuxuma gəlib. Birinci yuxuda evdə idi, geri qayıtmışdı. Məni qucaqlayıb, gülümsəyirdi ki, *gəldim*. Elə möhkəm qucaqlaşmışdıq ki, sanki həqiqi idi. Yuxu da olsa, hələ də o qucaqlaşmanın istiliyini hiss edirəm. İkinci səfər isə onu böyük bir süfrənin ətrafında görmüşdüm. Ancaq cavanlar var idi orada. Gülümsəyərək mənə süfrənin ətrafında oturanları göstərirdi. O qədər xoşbəxt, rahat görünürdü ki...

İnsanın nə vaxtsa qardaşı haqqında xatirələrini yazacağı heç vaxt ağlına gəlməz. Düşünürsən ki, daima birlikdə olacaqsınız. Bəzən bir çox şeyi ertələyirsən ki, sonra edərəm, vaxt boldur. Amma ölümlü dünyadır. Nə qədər vaxtın qaldığını bilmək olmur. Murad çalışırdı ki, hər gününü sanki son günüymüş kimi yaşasın. Həyəcanlı, səbirsiz idi. Sanki daima nə üçünsə tələsirdi.

Murad elə bir istiqamət, elə bir iz qoydu ki, o bizə ömürlük yol göstərəcək bir işıq olacaq. Aramızda olmasa da, hər an, hər addımda onu hiss edirəm. Qalan vaxtımı elə yaşamağa çalışıram ki, onu, bəlkə, yenə görə biləm. Bəlkə, nə vaxtsa yenə onun dilindən "qardaşım" deyə bir səsləniş eşidəm...

## Sərxan Nağıyev
***(qardaşı)***

Muradla mən İstanbula eyni vaxtda getmişdik. O, Kuleliyə, mən isə universitetə yollanmışdım. Həmin vaxt qavramamışdım, yaxşı dəyərləndirə bilməmişdim, amma indi şəkillərə baxanda görürəm, daha yaxşı başa düşürəm.

Murad evdən çıxanda hələ uşaq idi, bığ yeri təzə-təzə tərləyirdi. O, 14 yaşında, onun yaşıdlarının hələ məktəbə valideynləri ilə birlikdə gedib-gəldikləri bir vaxtda isti evini, ana qucağını, ailəsini geridə qoyub oxumağa yollanmışdı. Nə qədər “qardaş ölkə” desək də, yad ölkədə, İstanbul kimi böyük bir şəhərdə baş çıxarmaq asan iş deyil. Murad o şəhərin bu başından girib, digərindən çıxırdı. Harada Azərbaycanla bağlı nə var idisə, hamısını tanıyırdı. Yeməyə Azərbaycan restoranına gedər, dostları ilə Azərbaycan kafelərində görüşərdi. Tətilləri səbirsizliklə gözləyərdi. Hər tətildə Azərbaycana gələrdi Murad. Evdə vaxt keçirər, dostları ilə görüşər, gəzməyə gedər, əvvəllər oxuduğu məktəbə gedib, keçmiş müəllimlərini ziyarət edər, dərslərdə oturardı.

O, Kulelini qazananda hədsiz qürur duymuşdum. Mənim, eləcə də ailədəki hamının arzusu onu general olaraq görmək idi. Murad Kulelidə yüksəkkeyfiyyətli təhsil alacaq, sonra ali hərbi məktəblərin birində (quru, hava, ya da dəniz) ixtisaslaşacaq, NATO-nun ən böyük ikinci ordusunda nümunəvi zabit kimi yetişəcəkdi. Daha sonra isə vətənə qayıdıb, uğurlarına uğur əlavə edəcəkdi. Hamımız belə xəyal qururduq. Amma Muradın arzusu başqa imiş.

Murad Kulelidə yüksəkkeyfiyyətli təhsil almışdı. Onlara həm mülki dərsləri, həm də hərb elminin sirlərini öyrədir, kursantları həm fiziki, həm də mənəvi olaraq gələcək peşələrinə hazırlayırdılar. Murad riyaziyyatdan xüsusilə yüksək nəticələr göstərdiyinə görə müəllimləri ona “matematik dehası” (riyaziyyat dahisi) adını vermişdilər. Hərdən mən məktəbə gedər, Muradın müəllimləri ilə də görüşərdim. Hamı onun həm tərbiyəsindən, həm də zəkasından ağız dolusu danışardı. Muradgili yayda təlimlərə göndərərdilər. O, kursantların “cehennem haftası” adlandırdığı İzmirin Menteş düşərgəsində komando hazırlığı kursu keçmiş, müxtəlif atış təlimlərində iştirak etmiş, həmçinin yüksəktexnologiyalı hərbi texnikalarla yaxından tanış olmuşdu. Murad Kulelidə həm də vətənpərvər ruhda yetişmiş, bayrağımızı, ölkəmizi layiqincə təmsil etmiş-



di. O, Çanaqqala şəhidlərini ziyarət etmiş, “57. Alay Vefa Yürüyüşü”ndə iştirak etmişdi.

İstanbulda ailədən təkcə mən var idim. Ona görə də biz Muradla, demək olar, hər həftəsonu görüşər, gəzməyə gedərdik. Muradın tarixə, şeir və sənətə böyük marağı var idi. Tarixi romanlar oxuyar, məşhur şairlərin kitablarını yanından ayırmazdı. Topqapı sarayına gedər, orada Osmanlı sultanlarının taxt-tacına, yeniçərilərin geyimlərinə və qılınclarına böyük maraqla tamaşa edərdi. Ayasofyaya da gedərdik, Qalataya da, İstanbul dəniz muzeyinə də. Hərdən sahildə oturub çay içər, mənzərəyə baxıb, həyatdan, həyatın mənasından danışardıq. Muradın həyatdan böyük gözləntiləri var idi. Hamını özü kimi bilər, pis şeylər düşünməzdi. Dünyagörüşü kifayət qədər geniş idi və yaşıdları ilə müqayisədə daha güclü xarakterə malik idi. Mən çalışardım, ona başa salım ki, insanlardan heç nə gözləmək lazım deyil, həyat adil deyil. Təəssüf ki, mən bunu bacara bilmədim, Murad elə özü kimi qaldı.

O, həyata fərqli pəncərədən baxardı. Həyatın hər bir anını dolu-dolu yaşayardı. Bir gününü boş keçirməz, həmişə nə iləsə məşğul olardı. Arzular qurardı, xəyallara dalardı. Arzularını, planlarını yerinə yetirənə, istədiyinə çatana qədər dincəlməzdi. Cəbhədə də bu xüsusiyyətindən əl çəkməyib. Qarabağı azad etmək üçün çıxdığı yoldan Qarabağı azad etməmiş geri qayıtmadı.

Murad da hər evin sonbeşiyi kimi nazının çəkilməyini istəyərdi. Orxan və mənim yaş fərqimiz cəmi bir il olduğu üçün biz tay-tuş sayılardıq, ona görə də birlikdə daha çox vaxt keçirərdik. İkimiz də Muraddan yaşca xeyli böyük olduğumuz üçün onu hər yerə özümüzlə aparmazdıq. Düzdür, onun istədiklərini yerinə yetirməyə çalışar, xətrini xoş tutardıq, amma bu onu qane etməzdi. İndi başa düşürəm ki, özümüz böyük olsaq da, ağlımız uşaq ağlı imiş.

Muradın hündür boyu, geniş çiyinləri, qüvvətli qolları var idi. Əllərinin codluğu keçdiyi təlimlərin izlərini daşıyırdı, barmaqlarının incəliyi, yanağının qırmızılığı, üzünün

bəyazlığı və alnının açıqlığı isə heç vaxt itirmədiyi uşaq saflığından xəbər verirdi. Mən ondan 5 yaş böyük olsam da, o məndən çəkinməzdi. Tez-tez zarafatlaşardıq. Məni qucaqlayıb, nəfəsim kəsilənə qədər sıxardı. Hərdən güləşərdik. Məni yıxmağı heç 5 dəqiqə çəkməzdi. Ondan sonra məni yaxşıca əzişdirib, anamgil deyinənə qədər buraxmazdı. Qolları məngənə kimi idi Muradın. Sıxdısa, kim gəlir gəlsin, aça bilməzdi.

Dediyim kimi, Murad həyat dolu idi. Çox şeyə marağı var idi. Gəzməyi, əylənməyi sevirdi. Hər cavan oğlan kimi o da maşına həvəsli idi. Maşın sürməyi də məndən qabaq öyrənmişdi. Bir dəfə Orxanın maşınını götürdük ki, Murad mənə də maşın sürməyi öyrətsin. Səbirlə mənə nəyin necə olduğunu başa salır, həyəcanlananda məni sakitləşdirirdi. Bir az sürəndən sonra gördüm ki, bacarmıram, dözmədim, dedim, öyrənmək istəmirəm, lazım deyil. Murad özünəxas formada gülüb dedi: *"Düş e, düş, səndən maşın sürən çıxmaz..."* Düşüb, sakitcə yanında oturdum.

Qara, tünd şokoladı xoşlayardı. *"Kofe ilə əla gedir",* – deyərdi. Mən hər Bakıya gələndə tapşırardı ki, ona mütləq qara şokolad alım.

Muradın uşaq yaşlarından şeir yazdığını hamımız bilirdik. Əvvəllər heç kəslə bölüşməsə də, sonralar arabir mənlə paylaşırdı. Məndən kitab məsləhətləri istəyirdi. Deyirdi ki, *ürəyim doludur, sinəm duyğularla dolub-daşır, amma onları ifadə edə biləcək sözləri tapa bilmirəm*. Dilini zənginləşdirəcək kitablar oxumaq istəyirdi. Mən onun şeirlərini çox bəyənirdim, amma, açığı, onların bəzilərindəki bədbinlik məni narahat edirdi. Səbəbini soruşanda da həmişəki kimi zarafata salırdı. Bəlkə də, mən onun şair ürəyinin demək istədiklərini anlaya bilmirdim, ona görə də şeirləri mənə bədbin gəlirdi.

Murad və kirvəsi Yunusun qardaşı Emre çox yaxın dost idilər. Onlar tez-tez görüşərdilər. Murad ona dərdlərini danışar, sirlərini bölüşərdi. Emre gənc yaşda vəfat etmişdi. Murad onda hələ uşaq sayıla biləcək yaşda idi,

amma bu hadisə ona çox təsir etmişdi. Düzdür, Murad bunu çox büruzə verməzdi, amma Emrenin vəfatı onda dərin iz qoymuşdu. O, **"Emre'ye veda"** şeirini *(bax: səh. 166)* onun xatirəsinə yazmış, duyğularını, üzüntüsünü, özləmini bu şeirlə dilə gətirmişdi. Muradın çox kövrək ürəyi var idi.

Murad dostlarına çox bağlı idi. İstanbulda olanda hərdən həftəsonları da məktəbdən çölə çıxa bilmirdilər, mən də ona ürəyi istəyən yeməkləri aparırdım. O heç vaxt dostlarını yaddan çıxarmazdı. Murada nə yemək aparardımsa, onu mütləq dostları ilə bölərdi. Sevdikləri içkiyə qədər tapşırardı. Murad AAHM-də oxuyanda da belə idi. Kursant yoldaşı danışır ki, bir gecə növbətçi olanda acıb, yemək axtarmaq üçün ətrafı gəzirmiş. Bunu görən Murad yatağından qalxıb və nə axtardığını soruşub. O deyəndə ki, acdır, yemək axtarır, Murad öz yeməyini ona verib. Deyib ki, *bu dönəri səhərə özüm üçün saxlamışdım, amma götür, yarısını sən ye, mənə yarısı da bəsdir*. Bundan başqa, bayramda o, evə gələr, yoldaşları növbətçi qalardısa, Murad onları heç vaxt yaddan çıxarmazdı. Onlara evdə bişən bayram aşından aparar, sonra gəlib özü yeyərdi.

Yeni insanlar tanımağa maraqlı idi. İstanbulda olanda mənim dostlarımla da tanış olmuşdu. Tez bir zamanda onlarla qaynayıb-qarışmış, hamı ilə dostlaşmışdı.

2016-cı ildə Türkiyədə dövlət çevrilişinə cəhd olanda Murad Ankarada Kara Harp Okulunda (KHO) oxuyurdu. Həmin ali məktəb Türkiyə parlamentinə bitişik yerləşirdi. Şəhərin mərkəzində parlament qırıcılarla bombalananda, küçələr döyüş meydanına dönəndə, KHO-da çevrilişçilər məktəbin idarəsini ələ keçirməyə çalışanda belə Murad gənc yaşına baxmayaraq bir damla belə qorxu hiss etməmişdi. Biz onunla bütün gecəboyu səsli mesajlarla danışmışdıq. Mən alçaqdan uçan qırıcıların səsini, bombaların gurultusunu, silah səslərini eşidirdim. Muradın səsində isə bir damcı qorxu yox idi. Mənə deyirdi ki, həm yaşca kiçik olduqlarından, həm də xarici kursant olduqlarından müqavimətə qarışmırlar, amma Muradın necə fəxrlə özündən

böyük kursantların çevrilişçiləri tərk-silah etmələrini danışması yaxşı yadımdadır. Lakin həmin gecənin səhərində və sonrasında baş verənlər, xüsusilə də heç nədən xəbəri olmayan əsgərlərə, Kulelidə 14–15 yaşlı kursantlara edilən rəftar onu çox kədərləndirmişdi. Murad oxuduğu məktəblərlə çox fəxr edirdi. Həmin məktəblərin bağlanması Murad və yoldaşlarına, onların şərəfli formalarına qarşı haqsızlıq idi və bu, Muradda çox böyük iz qoymuşdu. Məncə, o düşünürdü ki, xəyanətə məruz qalan təkcə Türkiyə yox, həm də Muradgil idi.

Murad AAHM-ə gələndə artıq burada keçilən mövzuların, haqqında təlim verilən, öyrədilən silah və texnikanın hamısından xəbərdar idi. Murad çox qabiliyyətli kursant idi və o bunu dəfələrlə sübut etmişdi.

O həmişə deyirdi ki, təyinatını cəbhə bölgəsinə istəyir. Ağlındakı Ağcabədi idi. Qismət elə gətirdi ki, Bakı yaxınlığındakı hərbi hissələrin birinə düşdü. Buna həm çox sevinmişdim, həm də rahatlaşmışdım. Deyirdim, evimizin içidir, nə olacaq ki? Rahat evə gəlib, gedər, daha əziyyət çəkməz. Həm də ki 30 ildir, dondurulmuş münaqişə Murad məzun olan kimimi alovlanacaq? Haradan bilərdik ki, müharibə başlayanda Murad ən ön sıralarda gedəcək. Murad isə bilirmiş. O hələ məzun olmamışdan hiss edirmiş ki, müharibə başlayacaq.

Sentyabrda təlimlər başlayanda mən tez evə zəng vurdum. Muraddan nigaran idim. Soruşdum ki, Murad, nə olub, nə məsələdir? Dedi ki, *qaqa, toy olacaq*. Mən başa düşmədim. Murad həmin vaxt da zarafatlarından qalmırdı. Bilirdim ki, evlənmək istəyir, ona görə də elə bildim, öz toyunu deyir. Dedim, bunun məsələyə nə dəxli var? Mən soruşuram ki, təlimlər nə məsələdir? Dedi ki, *deyirəm, toy olacaq da. Gəlin maşınlarını bəzəyirik, xonça yığırıq*. Mən yenə başa düşmədim. Evdəkilər dedilər ki, toy müharibəyə deyir, gəlin maşınları tanklardır, xonçalar isə silahlar. *Ermənilərə toy tutacağıq*, deyirmiş. Mən yenə inanmadım, çünki Murad bunları gülər üzlə, sakit-sakit deyirdi. Səsin-

də qorxudan, heç olmasa cüzi də olsa, narahatlıqdan əsər-əlamət yox idi. Dedim, Murad, qorxutma bizi. Nə toy, nə müharibə? Gülə-gülə dedi: *"Hə, toy olacaq, mən də şəhid olacağam..."*

Murad bəy olmalı yaşında şəhid oldu...

## Nərmin Səfərli
### *(Orxanın həyat yoldaşı)*

Yəqin ki, hamı yaxınını itirəndə: "Zamanı geri qaytarmaq mümkün olsaydı, çox şeyi fərqli edərdim", – deyə düşünüb. Çox təəssüf ki, mən də eyni düşüncədəyəm.

Muradla tanışlığımız 2014-cü ildən başlayıb. O vaxtlar Murad Kuleli Askeri Lisesində təhsil alırdı. Qardaşı ilə münasibətimizi bildiyi gün mənə mesaj yazıb, tanış olmaq istədiyini bildirmişdi. Muradgilin bacısı olmadığı üçün həmişə mənə "bacı" deyə müraciət edərdi. İlk zamanlar tez-tez əlaqə saxlayırdıq. Bir problemi olanda məndən kömək istəyər, dərdini mənimlə bölüşərdi. Mən də bacardığım qədər ona kömək edərdim.

Murad İstanbulda olduğu üçün biz ancaq telefonla əlaqə saxlayırdıq. Azərbaycana ancaq bayramlarda gəldiyi üçün onunla bağlı xatirələrim çox azdır. Danışıb, qərarlaşdırmışdıq ki, Bakıya gələn kimi görüşək. Bakıya gələndə görüşüb, əyləncəli vaxt keçirdik. Metroparka gedib, isti şokolad içdik, boulinq oynadıq. Murad yaxşı vuruş etdiyi üçün mənə qalib gəldi. Bu qalibiyyəti onu çox sevindirmişdi.

2016-cı ildə mən ailəmlə Ankaraya getmişdim. O vaxt Murad Ankarada Kara Harp Okulunda təhsil alırdı. Yenidən orada görüşüb, ənənəmizə sadiq qalaraq boulinq oynamağa getdik və bu dəfə də Murad məni udub, qalibiyyətinə sevindi. Uzun-uzadı söhbət edib, yaxşı zaman keçirmişdik. Muradın istirahət günlərində yenidən görüşər, birlikdə zaman keçirərdik. Murad mənə tez-tez şeirlərini oxuyar, fikrimi bildirməyimi istəyərdi.

Həmin ərəfələrdə Türkiyədə hərbi çevrilişə cəhd olmuşdu. Biz xarici vətəndaş olduğumuza görə evdən çıxmağımız təhlükəli idi. Murad da Ankarada olduğu üçün axşam gəlib, bizdə qalmışdı. Bizdə qonaq olduğu vaxt mən otağımı müvəqqəti olaraq Murada vermişdim. O vaxtdan sonra Türkiyədən söhbət açılanda mən Murada, "Mən otağımı, yerimi heç kimə verməzdim. Sən məndəki dəyərini gördünmü?" – deyirdim. Muradı çox istəyir, ona həmişə dəyər verirdim. Bu sözüm həmişə onun xoşuna gəlirdi.

Ankara mənim üçün çox əzizdir. İki ən yaxın, ən doğma insanla – Murad və bibimlə (təəssüf ki, artıq hər ikisi yanımızda yoxdur) maraqlı, xoş xatirələrim var.

Murad bir müddət bizlə qaldıqdan sonra Azərbaycana qayıtdı. Biz qayıtdıqdan sonra ailəvi İsmayıllıya gedib, maraqlı gün yaşamışdıq. Birlikdə Asma körpüdən keçmiş, görməli yerləri gəzmişdik. Əyləncəli oyunlar oynayıb, o gözəl günlərdən bizə xatirə qalacaq şəkillər çəkdirmişdik.

Növbəti il mən qardaşı ilə evlənmişdim. Hər həftəsonu ailəvi olaraq maraqlı, əyləncəli yerlərə gedib, birlikdə zaman keçirərdik. Murad həmişə, *"Sizin övladınıza mən hər ay maaşımdan bahalı hədiyyə alacağam",* – deyirdi. Aylar sonra Atilla dünyaya gəldi. Murad sözünü tutub, hər ay maaşından Atillaya fərqli oyuncaqlar, bahalı hədiyyələr alırdı. Murad Atillanı çox istəyirdi. O da Atillanın sevimli "Muad" (Murad) əmisi idi. Təhsilindən, daha sonra da işindən vaxt elədikcə Atillanı görməyə gələr, onunla yaxşı vaxt keçirərdi.

Muradı sonuncu dəfə görəndə (kaş bu görüşün son olduğunu bilsəydik) Atilla onu qəribə bir şəkildə möhkəm qucaqladı, boynundan qoxlayıb öpdü. Bu səhnəni sonradan xatırlayanda düşündüm ki, biz bilməsək belə, Atilla əmisi ilə son görüşü olduğunu hiss edibmiş.

Murad ailəcanlı, çox istiqanlı idi. Ürəyində kin, pislik olmayan insan idi. Dalaşıb küsəndə mən kin saxlayırdım, amma Murad həmin an unudurdu. Çox xoşlayırdı ki, birlikdə restoranlara gedək, gəzək, istirahətə gedib dincələk.

İşə təzə başlayanda elə hey deyirdi ki, *maaşımı alım, sizi bahalı restorana aparacağam*. İndi onsuz nəsə etməyə utanırıq. Evimizin səsi-küyü onunla birlikdə getdi.

Bir gün sosial şəbəkədə səfərbərliklə bağlı xəbər oxudum. Narahat olub, tez Muradla əlaqə saxladım. O da hər zamankı kimi mənim bu təlaşımı zarafata salıb, gülmüşdü. Halbuki Murad çox yaxşı bilirdi ki, vəziyyət yaxşı deyil. Narahat olmayım deyə məni sakitləşdirib, hər şeyin yaxşı olduğuna inandırmaq üçün əlindən gələni etmişdi.

27 sentyabr günü Murad mənə zəng edib: *"Artıq gedirik, yoldayıq",* – deyəndə mən dayanmadan ağlamışdım. Hər gecə səhərə kimi, "Görəsən, Murad sabah necə olacaq?" – deyə fikirləşib ağlayırdım.

Murad cəbhədə olanda tez-tez əlaqə saxlayırdıq. Səsindən kefsiz olduğunu hiss edəndə bütün gün onu fikirləşir, "Görəsən, nə baş verib ki, həmişə gülən Murad indi belə danışır?" – deyirdim. Murad cəbhədə ən irəlidə olduğu üçün son günlər qayıdacağına dair bütün ümidlərim itmişdi.

Sonuncu gecə – oktyabrın 10-u bizimlə uzun-uzadı danışıb, orada çəkdirdiyi şəkilləri göndərmişdi.

Həyatımın ən ağır günü – 12 oktyabr... Səhəri pis xəbərlə açdıq. Və beləliklə Muradsız günlərimiz başladı. İlk gün anasına bildirməyib, evdə təkbaşına qalmışdıq. Ürəyim yanırdı. Bilmirdim, nə edim, nə hiss edim. Muradın yoxluğunu qəbul edə bilmirdim. Ən dəhşətli gün isə bu xəbəri anasına dediyimiz gün oldu. Bu mənim üçün çox ağır, çox çətin idi. Ömürboyu həmin səhnəni unutmayacağam.

Əvvəllər yuxuma tez-tez gələr, evimizdə olduğunu hiss etdirərdi. Həmişə fikirləşirdim ki, Murad məndən incik getdi, könlünü ala bilmədim. Elə hey onunla bağlı nələrisə xatırlayıb, özümü danlayırdım. Deyirdim, Murad, gəl, denən ki, məndən inciməmisən. Bir gecə yuxuma gəlib, mənə gülümsəmişdi. Çox sevinmişdim ki, məni eşidib. Son günlər daha çox darıxır, onu görmək, qucaqlamaq istəyirdim. Yuxuma gəlib, sakitcə gülümsəyib, məni qucaqlayıb, getdi. İndi nə yuxuma gəlir, nə də ki, evimizə...

Murada bir söz vermişəm, qismət olsa, reallaşdıracağam. Bəlkə, onda az da olsa, rahat nəfəs alaram.

Bağışla bizi, Murad. Mənim əlimdən gələn Atillaya necə qəhrəman, ürəyi gözəl, gülərüzlü əmisi olduğunu danışmaqdır.

Sən Atillanın, bizim Qəhrəmanımızsan!

## Banu Hümbətli

Muradla biz 2016-cı ildən tanışıq. Dayım qızı Nərminin ikinci qaynıdır. Özünü tanıdıqdan sonra Murad olaraq hörmət edir, onu çox istəyirdim. Hərbçi olduğunu biləndən sonra bir başqa çox istəyib, hörmət edirdim. Həmişə deyirdim ki, sən hərbçi olmaqla həyata 2–0 öndə başlamısan. O da bu yolda çəkdiyi bütün əziyyətlərə baxmayaraq, öz şərəfli peşəsi ilə fəxr edir, özü ilə daima qürur duyurdu. Hərdən elə olurdu ki, hansısa cümlədə "həmişə" sözünü işlədirdisə, o sözdən sonra mütləq: *"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam"*, – deyə əlavə edirdi. Murad dediyi kimi də həmişə özü ilə, peşəsi ilə, torpağı ilə fəxr edib. Çox vicdanlı, işinə, vətəninə sadiq bir zabit idi.

AAHM-də oxuduğu üçün həftəsonları və ya tətillərdə görüşməyi planlaşdırsaq da, alındıra bilmirdik. Çox vaxt bir-birimizi təsadüfən görürdük. Bir-birimizi tez-tez görə bilməsək də, görüşdüyümüz vaxt söhbətlərimiz səmimi alınırdı.

İlk öncə, deyim ki, Murad çox yaxşı insan idi. Sanki o lap əvvəldən həm xasiyyəti, həm savadı, həm dünyagörüşü, həm də sevgisi ilə hamıdan fərqli, seçilmiş bir insan idi. Murad hamıya sevgi ilə yanaşır, həyata sevgi dolu baxırdı. Biz təzə tanış olanda mən elə bilirdim ki, o, soyuq və ciddi bir insandır. Amma onu daha yaxından tanıdıqdan sonra nə qədər yanıldığımı gördüm. Əslində isə o çox mehriban, qayğıkeş, zarafatcıl bir insandır. Bir az da bəzi şeylərdən

narazı. Daha doğrusu, lap əvvəllər narazı idi. Bu narazılığı AAHM-i bitirdikdən sonra yavaş-yavaş ondan uzaqlaşdı. Özü bunu etiraf edib: *“Əvvəl hər şeydən narazı idim, amma zamanla bunun yaxşı bir şey olmadığını görürəm və öz üzərimdə bu mənfi xarakterimi dəyişmək üçün çalışıram”,* – demişdi.

Murad özündən əvvəl qarşısındakını düşünən, dəyər verdiyi insanların istəklərini öz istəklərindən üstün tutan, onlar üçün özünü, sözün əsl mənasında, közə atan bir insandır. *“Mən özümü sevirəm, amma çox zaman başqalarını özümdən daha çox sevirəm”,* – deyə bir dəfə demişdi. İkimiz də yaxşı bilirdik ki, bu xarakteri onu bəzən çox incidir. Ona görə də mən ona dəfələrlə hamıdan əvvəl sən özünü düşünməlisən deyirdim. Onu inandırmağa çalışırdım ki, başqalarını sevmək, əslində, yaxşı xüsusiyyətdir, amma özündən çox sevmək lazım deyil. Özü də bunun fərqində olub, verdiyi dəyərin qarşılığını görmədiyini, bəzi dostlarının bu vaxta kimi onu çox incitdiyini demişdi. *“Bu mənim xarakterimdir. Kiməsə dəyər verirəmsə, şam kimi yanıram ondan yana, amma nə hikmətdirsə, tez söndürürlər”,* – deyib:

*Mən çox başqasını görmüşəm,*
*Hərəsinə biraz-biraz yanmışam.*
*Hər dəfə ümidlə baxmışam,*
*Həyatımı uğurlarında yandırmışam.*

– sözlərini yazmışdı.

Bu sözləri oxuyanda gördüm ki, həqiqətən, Murad həmişə özündən çox qarşısındakı insanı düşünüb. Və mən bir daha əmin oldum ki, o çox yaxşı insandır. Onu nə qədər incitsələr də, Murad hər zaman doğru bildiyini edir.

Murad mənə də çox dəyər verirdi. Bunu hər saniyə, hər an hiss edirdim. Hərəkətləri, sözləri, baxışı ilə bunu mənə dəfələrlə hiss etdirib. Cəbhədə olarkən mən narahat olmayım deyə, yaxşı olmadığını bilsəm də, ancaq yaxşı olduğunu, hər şeyin qaydasında olduğunu deyirdi. Səsindən hiss edib məcbur danışdıranda bilirdim ki, yaxşı



deyil. Cəbhəyə yeni getdikləri vaxt telefonu şarj etmək çətin olurdu. Bizim narahat olduğumuzu bilib, hamıyla tez-tez əlaqə saxladığına görə də telefonunun şarjı tez bitirdi. Bir gün mənə zəng edib: *"Telefonun şarjı bitir. Biz qabaqda, şarj kabeli isə arxada olacağı üçün telefonu şarj edib əlaqə saxlaya bilməyəcəyəm. Ancaq biz arxaya qayıdan kimi telefonu şarja qoşacağam. Mən sənə zəng edənə kimi narahat olma",* – demişdi. Amma 1 saat sonra zəng edib: *"Narahat olacağını bildiyim üçün arxaya gedənlərdən xahiş etdim ki, telefonu aparıb şarja qoşsunlar",* – dedi.

Onun çox yaxşı, pambıq kimi ürəyi vardı. Ona görə də mən Murada "Pambıq" deyə müraciət edirdim. Hər dəfə daha çox əmin olurdum ki, Murad çox ürəyitəmizdir.

Murad pozitiv, şən, gülərüz bir insan idi. Həmişə çöhrəsində gülüş olardı. Yorğun, yuxusuz olmağına baxmayaraq üzü həmişə gülərdi. Cəbhədə olanda belə hər zamankı zarafatlarından geri qalmazdı. O özü pis olsa da, mənim yaxşı olmağım üçün əlindən gələn hər şeyi edər, üzümü güldürməyə çalışardı... Bir dəfə mənə: *"Sən çox çətinlik yaşamısan, çox yara almısan. Mən nə qədər ki varam, yanındayam, sənin üzünü güldürməyə çalışacağam. İcazə verməyəcəyəm ki, nəyəsə pis olub, incinəsən. Ben senin yaralarını saracağım",* – deyib, **"Dərmanım ol"** şeirini *(bax: səh. 186)* yazmışdı. Şeiri oxuyandan sonra onun sevgisinə, verdiyi dəyərə daha çox əmin oldum. Mənə sevilməyi, başqası tərəfindən dəyər verilməyi Murad öyrədib.

Mən də Muradı sevir, ona çox dəyər verirdim. Və hələ də verirəm! Ümumiyyətlə, indiki dövrdə Murad kimi ürəyi olan insan çox azdır. Buna görə də mən onun necə mükəmməl bir insan olduğunu bilib, onu itirməmək, layiq olduğu dəyəri ona vermək üçün əlimdən gələni edirdim. Murad mənim, sözün əsl mənasında, ən dəyərlimdir. Həmişə ona: "Murad, sən mənim xəzinəmsən!" – deyirdim.

Murad çox yaxşı insan olduğu üçün mən onu incitməkdən, itirməkdən qorxurdum. İkimizdə də nə vaxtsa bir-birimizi itirəcəyimizlə bağlı qəribə bir hiss var idi. Bunun

səbəbini nə o, nə də ki mən bilirdim. İndi başa düşürəm qorxumuzu. Biz elə o vaxtdan bir gün yarımçıq qalacağımızı hiss etmişdik. 2020-ci ilin avqust ayında Murad Kürdə çimərkən, az qala, batmışdı. Onu itirməyin mənim üçün dözülməz olduğunu ilk dəfə həmin vaxt anlamışdım.

Muradla xasiyyətlərimiz çox oxşar idi, amma o, şirindilli olması ilə fərqlənirdi. Mən bir dəfə ondan soruşmuşdum ki, səncə, sən necə bir insansan?

– *Safam, hər şeyə tez inanıram, yalanı sevmirəm, çəkingən, utancaq bir insanam. Bəzən çox adam olan yığıncaqlarda kompleksim yarana bilir və aşırı (dərəcədə) qoruyucuyam,* – deyə cavab vermişdi.

Mən də onun necə gözəl bir ürəyə sahib olduğunu və necə mükəmməl bir insan olduğunu demişdim.

Muradın fikrincə də, bizim xasiyyətlərimiz çox oxşar idi. *"Sən mənim ruh əkizimsən ki",* – deyə bir dəfə demişdi. – *Bax iki müsbət müsbət edir,* – deyib, oxşar xasiyyətlərimizi, düşüncələrimizi, istəklərimizi sadalamış, hətta danışarkən seçdiyimiz sözlərin də oxşar olduğunu demişdi.

Bizim ortaq maraqlarımız çox idi. Bunlardan biri də avtomobildir. O da, mən də həddindən artıq avtomobil həvəskarıydıq. Demək olar ki, çox vaxt avtomobildən danışırdıq. Bir dəfə mənə: *"Görək hansımız birinci maşın alacağıq, amma ümid edirəm, birinci mən alaram",* – demişdi. Dediyi kimi birinci özü aldı. Avtomobilinin şəklini mənə göstərəndə: *"Səncə, necə maşındır? Məncə, bəyənməyəcəksən, bir az yaxşı deyil",* – demişdi. Amma mən çox bəyənmişdim. Demişdim ki, çox qəşəngdir, rəngi, görünüşü sənə yaraşır. Necə tərifləmişdimsə, çox sevinmişdi.

Murad da avtomobilini çox sevir, vaxtlı-vaxtında qulluq edir, həmişə təmiz saxlayırdı. On metr uzaqlıqdan belə salondan gələn ətrin qoxusunu hiss etmək olurdu.

Ümumiyyətlə, Murad avtomobillə bağlı hər şeyi bilirdi. Həvəskar olduğu üçün avtomobillərin çoxunu idarə etmişdi. Avtomobilinin onun həssas yeri olduğunu bildiyim üçün çox vaxt ya onun avtomobili yaxşı idarə etmədiyini, ya

da yaxşı park edə bilmədiyini deyib Muradı cırnadırdım. Əslində isə o çox yaxşı avtomobil idarə edirdi. Bir dəfə piyadanın ani hərəkətinə görə, az qalsın, qəza şəraiti yaranacaqdı. Murad bir saniyənin içində həm piyadanı, həm də bizi xilas etmişdi. Özü də bu hadisədən bir az pis olmuş, mənə dönüb: *"Məndə bir günah yox idi, gördün də",* – demişdi. Mən də onun sözünü təsdiqləyib: "Narahat olma, sən çox yaxşı sürücüsən", – demişdim.

Muradgilə həyəcan siqnalı verildiyi gün hərbi hissəyə tələsdiyi üçün özü də bilmədən radara düşmüşdü. Elə cəbhədə olduğu vaxt bundan xəbəri olmuşdu. Mənə zəng edib: *"Eh, səhər-səhər kefim pozuldu, radara düşmüşəm, mesaj gəlib. Necə ola bilər bu?"* – demişdi. Mən də demişdim ki, narahat olma. Olub olub da, bundan ötrü kefini pozma. *"Yox, ola bilməz axı belə bir şey",* – deyib, ancaq necə belə bir səhvə yol verdiyini fikirləşmişdi.

Muradın avtomobili "mexanika" idi. Mən isə onda mexanika idarə edə bilmirdim. Murad biləndə ki mən mexanika idarə etməyi bacarmıram, *"Sən mexanika idarə edə bilmirsən?"* – deyə soruşdu. Dedim ki, yox, amma "avtomat" maşın idarə etməyi ki bilirəm. Əsas avtomatdır. Başladı məni cırnatmağa ki, *bəs avtomatı hamı bilir, mexanikanı bacarmaq çətindir. Hər adam onu idarə edə bilməz. Sən də çətin ki idarə edə biləsən*. Dedim, yaxşı, mən gedib onu öyrənərəm, baxarıq bacararam, yoxsa yox. Mənə dedi ki, *niyə təlimə gedirsən? Gəl gedək, istəyirsənsə, mən sənə öyrədim*. "Yox, ay Murad, çox sağ ol, başqasının avtomobilini idarə etməkdən xoşum gəlmir", – dedim. Dediyim sözdən bir az tutulub: *"Mən sənin üçün başqasıyam?"* – deyə soruşdu. Gördüm ki, sözüm xətrinə dəydi. Tez könlünü almağa çalışdım. Amma nə etdimsə, faydası olmadı. Axırda dedi, *gəl gedək öyrədim, onda biləcəyəm ki, mən sənin üçün başqası deyiləm*.

Murad məni necə həvəsləndirdisə, bir də gördüm ki, mən, doğrudan da, mexanika idarə edirəm. Düzdür, mən sükan arxasında olanda Murad çox həyəcanlanırdı. Mən

də onu bir az hövsələdən çıxartmışdım. Amma o bununla belə çox səbirlə izah edirdi. Ümumiyyətlə, mənim bilmədiyim nə var idisə, Murad mənə hamısını səbirlə, təmkinlə başa salıb, öyrədib. O, avtomobilini çox sevirdi. Mən inanmazdım, o nə vaxtsa icazə verə ki, onun avtomobilinə elə zülm verilə. Amma dəfələrlə özü israr edib ki, *gəl öyrən*!

Bilirdi ki, mən də avtomobil almaq istəyirəm. Hərdən mənə avtomobil şəkilləri göndərir, deyirdi ki, *gəl sənə bunu alaq*. Seçdiyi avtomobillərin, demək olar, çoxu hündür, iri idi. Mən də ona hələ ki elə böyük yox, bir az yığcam avtomobil istədiyimi deyirdim. O isə cavabında: *"Yox, sənə belə avtomobili yaraşdırıram, sən bunlara layiqsən",* – demişdi. Seçim edə bilməyəndə də: *"Sən niyə avtomobil alırsan ki? Mənim var da, gəl onu bir yerdə idarə edək",* – deyirdi.

Bir dəfə yenə bir-birimizə avtomobil şəkilləri göndərib seçim edirdik. Mənim göndərdiklərimi Murad, Muradın göndərdiklərini də mən bəyənmirdim. Sonda mənə pikap şəkli göndərib: *"Həm sportiv, həm də dağçı avtomobilidir. Çox rahatdır. Bundan alarıq, ikimiz də idarə edərik",* – demişdi.

Cəbhədə avtomobillərin çoxu pikap idi. Bir dəfə zəng edib: *"Burada pikaplar var, istəyirəm ki, onlardan birini sürüm",* – demişdi. Oktyabrın 10-u zəng edib:

– *Axır ki, istədiyimi etdim,* – demişdi.

– Nə etdin yenə?

Gülümsəyərək:

– *Axır ki, pikap sürdüm. Çox rahatdır. Qayıdan kimi ondan alacağam,* – demişdi.

Murad hər anının dəyərini bilən insan idi. *"Zaman əlimizdə varkən hər anımızın dəyərini bilməliyik",* – deyirdi. Bir şeyi xəyal edirdisə, o xəyalına tez çatmağa çalışırdı. Mən nə qədər tələsmə, zamanla həll edərik – deyirdimsə, Murad cavabında: *"Mənim zamana inamım yoxdur, vakit nakitdir",* – deyirdi.

Murad savadı, ağlı, dünyagörüşü ilə də fərqlənirdi. Hərdən elə sözlər deyir, elə məsləhətlər verirdi ki, elə bilirdim,

qarşımda 23 yaşlı oğlan yox, daha yaşlı, daha təcrübəli bir insan var. Muradın hər sahədə məlumatı var idi. Məncə, onun bilmədiyi nə isə yox idi. Elə buna görə də Muradla məsləhətləşməyi, onun mənə yol göstərməsini çox xoşlayırdım. Bir məsələ haqqında çox düşünüb narahat olanda Murad mənə deyirdi: *"Bu qədər düşünmə, bolazlama dal getsin. Üçgünlük dünyadır, nəyisə belə çox düşünməyə ehtiyac yoxdur".*

O çox hazırcavab insan idi. Heç bir sözü cavabsız qoymazdı. Həmişə fərqli və özünəməxsus cavabları olardı. Muradla söhbətləşmək, zarafat etmək, doğrudan, çox yaxşı alınırdı. Mənim yadıma gəlmir ki, hansısa sözü deyəndən sonra həmin sözün mənasını ona izah etməli olum. Həmişə dediyim sözü anlayar, zarafatlarıma daha gülməli cavablar verərdi.

– Sənin bu xasiyyətini elə bəyənirəm ki... Haradan deyirəm, oradan cavab verirsən. Bu da mənim çox xoşuma gəlir, – deyə bir dəfə demişdim.

*– Bəs necə olmalıdır? Mənimlə hər cür söhbət, zarafat edə bilərsən,* – deyə cavab vermişdi.

Murad ailəsinə çox bağlı insan idi. Qardaşları arasında heç vaxt fərq qoymazdı. Anasına da bir başqa bağlı olub həmişə. Deyirdi ki, *anam bizə görə çox əziyyət çəkib. Mən çalışacağam ki, bundan sonra qoymayım, nə anam, nə də ki digər sevdiklərim əziyyət çəksin*. Qardaşlarını da bir başqa çox istəyirdi. Onların da onu çox istədiklərindən əmin idi. Murad qardaşlarından yaşca çox kiçik olduğu üçün uşaq vaxtı anası işdə olanda qardaşları ona qulluq edib. *"Qardaşlarım həmişə mənim nazımla oynayıb, mənim qulluğumda dayanıblar",* – deyirdi. Bir "qardaşım" deyişi var idi ki, səsindən qardaşları ilə necə fəxr etdiyi, onları necə sevdiyi hiss olunurdu. Nə vaxt hədiyyədən söz düşsə, mütləq qardaşlarının aldığı hədiyyələrdən danışardı. Sərxan Murada Kulelidə oxuyan vaxt "tank", Orxan isə saat hədiyyə etmişdi. Sərxanla Türkiyədə gəzməklərindən, Orxanla isə avtomobilə görə olan mübahisələrindən

danışırdı. Murad AAHM-də oxuyanda sürücülük vəsiqəsi olmadığı üçün Orxan ona avtomobil idarə etməyə icazə vermirdi. Bir dəfə etiraf edib: *“Orxan mənim əlimdən çox çəkib. Onunla ancaq avtomobilə görə dava edirdim. Uşaq olub elə hərəkət etdiyimə, onu incitdiyimə görə indi bir az peşmanam”,* – demişdi. Orxanın oğlu Atillanı bir başqa sevirdi. Həmişə: *“Canımın içidir o mənim”,* – deyirdi. Elə Atilla da hamımız kimi Muradı çox sevir, onu görəndə qucağından düşmürdü. Murad bir dəfə: *“Arzumdur ki, hamımızın birlikdə qala biləcəyi bağ evimiz olsun. Yay fəslində yığışıb hamımız orada dincələk”,* – demişdi.

Bəzi haqsızlıqlara görə hərbi sahədə həmişəlik qalmaq istəmirdi, amma tankını, ixtisasını, işini çox sevirdi. *“Əvvəl çox şikayət, narazılıq edirdim, amma indi hərbini daha da çox sevirəm. İşimi dəyişən, tankımı atan, nə olur olsun hərbidən çıxan deyiləm”,* – deyə bir dəfə demişdi. Mən isə onu dəstəkləyib: “Sən çox savadlı zabitsən. Kiməsə görə o gözəl formanı əynindən çıxartmamalı, işini yarımçıq qoymamalısan”, – deyə cavab vermişdim. İnsanlara qarşı çox yaxşı, anlayışlı olduğu üçün mən ona demişdim ki, sən heç elə bil zabit deyilsən, çox safsan, sərt deyilsən, üzüyolasan. O isə cavab vermişdi: *“Ola bilməz. Leopard gibi adamım. Tankistəm e mən, ağırlığım yeter”.*

İşə başladığı ilk 2 həftədən sonra məsuliyyətini daha da çox dərk edib, tabeliyində olan əsgərlərə qarşı çox anlayışlı, mərhəmətli və məsuliyyətli olmuşdu. Qarovulda olan zaman daha da diqqətli olur, həmin gecəni, demək olar ki, yatmırdı. Bir dəfə qarovulda olan zaman əsgərlərdən birinin vəziyyəti pisləşmişdi. Murad bundan çox pis olmuş, əsgər yaxşılaşana kimi nigaran qalmışdı.

Murad yazı-pozu işlərində də bacarıqlı idi. Sənədləri, dəftərləri qarşısına töküb həvəslə işləyər, verilən hər işin öhdəsindən uğurla gələrdi. Onun həm də liderlik qabiliyyəti yüksək idi, kollektivlə işləməyi yaxşı bacarır, ətrafındakılara hörmətlə yanaşırdı. Buna görə də, məncə, o həm də çox yaxşı qərargah zabiti ola bilərdi.

O, təhsilə çox önəm verir, özünü daima inkişaf etdirməyə çalışırdı. Türkiyədə hərbi akademiyada oxuyanda kompüter mühəndisliyində ixtisaslaşmağı arzulayırdı. Heyif ki, bu arzusu yarımçıq qalmışdı. Amma Murad bu arzusunu unutmamış, AAHM-i bitirdikdən sonra planlaşdırmışdı ki, kursa yazılsın. Bundan əlavə, cəbhədə olanda razılaşmışdıq ki, geri qayıdanda birlikdə ingilis dili kursuna başlayaq.

İşə vaxtında çatmaq üçün hər gün səhər 05:30-da yuxudan oyanmalı idi. Mən daha tez oyandığım üçün hər gün saat 05:15-dən oyanana kimi ona zəng edirdim. Muradın yuxusu ağır olduğu üçün tək mən yox, yoldaşları da zəng edirdi. Bir gün səhər biz telefonla danışan vaxt Murada zəng gəldi. Dedi, *iş yoldaşımdır, ondan da hər ehtimala qarşı xahiş etmişəm ki, mənə oyananda zəng etsin. Gərək deyim ki, daha narahat olub zəng etməsin, çünki həyatımda mükəmməl, yuxudan oyanmaq problemi olmayan, "akıl dengesi yerinde olmayan", məndən sonra yatıb, məndən əvvəl oyanan bir insan var*. *O, hər gün məni oyadır*. Razılaşdıq ki, həmin gündən sonra hər səhər, anasının onu oyatmağına baxmayaraq, Murada zəng edərək mən də oyadım və günə bir-birimizin səsini eşidib başlayaq. Dediyimiz kimi də etdik. Daha sonra da cəbhədə olmasına baxmayaraq yenə söz verdiyimiz kimi günə birlikdə başlayırdıq.

Murad çox anlayışlı, düşüncəli idi. Küsməkdən, kin saxlamaqdan xoşu gəlmirdi. Ümumiyyətlə, o mübahisə etməyi, mübahisəni uzatmağı sevmirdi. Çox nadir hallarda mübahisə edər, qısamüddətli fikir ayrılığı yaşayardıq. Amma mütləq günün sonunda ortaq bir qərara gəlib mübahisəni sonlandırardıq. Bəzən mübahisə etdiyimiz vaxtlarda belə hər səhər mən zəng edib rəsmi üslubda: "Sabahınız xeyir, cənab leytenant! Oyanmaq vaxtıdır!" – deyərdim. Bir dəfə zəng vurub onu oyatsam da, aramızda olan incikliyə görə danışmamışdım. Evdən çıxanda mənə səs yazısı göndərib: *"Mən sənə demişdim axı, səninlə danışanda mənim günüm xoş keçir, uğurlu olur. Mənə nəsə*

*olsa, vicdanın necə dözəcək buna, hə? Özü də bu gün atışa (təlimə) gedirəm",* – dedi. Mən də bu dediyindən sonra zəng edib: "Sən mənim zəif yerimi bilirsən, ona görə belə deyirsən", – demişdim.

Onu itirməkdən qorxduğumu yaxşı bilirdi. Bir dəfə ölümdən danışırdıq. *"Biz dünyada yaşayırıq və dünya da fanidir. Əldən gələcək bir şey yoxdur, gec-tez hamı gedəcək. Önəmli olan o vaxta kimi yaşadığımız hər anın qədrini bilməkdir, həyatı doya-doya yaşamaqdır. Çünki sonra olmaya bilər ertələdiklərimiz, "sonra..." dediklərimiz",* – demiş, *"Hər kəsin bir ömrü var və o ömrün də sonu var",* – deyə əlavə etmişdi...

Bir dəfə də zamana olan həssaslığından danışanda Murad belə demişdi:

*– Mənim zamana inamım yoxdur. Zamandan elə qorxuram ki... Çünki **"Bu dünyanın dərdi bitmir"** şeirimdə (bax: səh. 182) də dediyim kimi "zaman alır, hey aparır..."*

Bir dəfə mən Murada bizim münasibətimiz alınmaz, mən səni sonda çox incidərəm, ona görə də gəl münasibətimizi sonlandıraq deyəndə o belə cavab vermiş:

*– Məni incitsən də, eybi yoxdur, səndən gələn hər şeyə razıyam. Bir də ki kim deyir, bizdə alınmaz? Alınacaq! Çox yaxşı alınacaq! Sən bilmirsən ki, mən xəyallarımı gerçəkləşdirirəm? Mən nəyi istəyirəmsə, çətinliklə də olsa, istədiyimi mütləq yerinə yetirməliyəm,* – davamında da **"Sənsiz"** şeirini *(bax: səh. 187)* yazmışdı.

Muradın istəkləri, arzuları, xəyalları bitib-tükənmirdi. Çox əzmkar olduğu üçün arzularını həmişə həyata keçirib. Bilirdim ki, illərdir, təhsilini bitirib, savadlı zabit olmağı xəyal edirdi. 2020-ci ildə 9 illik əziyyətindən sonra "leytenant" ulduzlarını taxaraq savadlı zabit kimi işə başladı. Ən birinci bu xəyalını, bir müddət işləyəndən sonra isə özünə avtomobil alaraq növbəti xəyalını gerçəkləşdirmişdi. Əlbəttə ki, arzuları bunlarla bitməmişdi. Onun bitib-tükənməyən arzuları var idi. Növbəti arzusu ev alıb, ailə qurmaq idi. Planlaşdırmışdıq ki, oktyabr ayında

məzuniyyətə çıxsın və bizə elçiliyə gəlsinlər. Müharibə başlamamışdan əvvəl torpaq elanlarına baxır, gələcək evimizin xəyalını qururduq. İkimiz də həyət evi arzulayırdıq. Muradın istəyi ilə ev mütləq üçmərtəbəli olmalı, üçüncü mərtəbə isə teras olmalı idi:

– *Üçüncü mərtəbə teras olacaq, çünki hər axşam mütləq ulduzlara baxmalıyıq,* – demişdi. Xoşumuza gələn yerlərin əlaqə nömrələrini götürüb, məzuniyyətə çıxan kimi maraqlanmağı düşünmüşdük... Amma, çox təəssüf ki, hər arzusunu gerçəkləşdirən Muradın bu arzusu yarımçıq qaldı...

Murad elə müharibənin olacağı xəyalını da qururdu. Avqust ayında təlimlər olmuşdu. Təlimlərin olmağı belə Muradı sevindirirdi. Tank idarə etmək onun ən çox xoşladığı iş idi. Son vaxtlar müharibəni tez-tez dilinə gətirər, müharibədə tankın əvəzsiz rolundan və ən əsası bir tankçının necə şəhid olmasından danışardı. Tankçı demiş, hər il sentyabr ayının 2-ci bazar günü tankçılar günüdür. Mən fikirləşmişdim ki, Murad üçün istədiyi tankın ("T-90") oyuncağını hədiyyə alım. Amma anidən qərarlaşdırıb görüşdüyümüz üçün ilk gördüyüm mağazadan Muradın istədiyini tapa bilməyib, başqa bir tank ("T-55") aldım. Hədiyyəsini verəndə çox sevinmişdi. *"Gözləmirdim ki, mənə tank hədiyyə edəsən. Çox sağ ol, bunu maşınımda saxlayacağam",* – dedi. Dedim ki, tələsdiyim üçün "T-90" tapa bilmədim, amma söz verirəm ki, gələn il bayramda mütləq sənə "T-90" tapıb hədiyyə edəcəyəm. *"Səbirsizliklə gözləyəcəyəm. Mümkünsə T-90 olsun və materialı da dəmirdən olsun",* – demişdi. Hədiyyəsini əlində saxlayıb sevincli-sevincli mənə tanklardan danışmışdı:

– *Bu, Sovet döyüş tankı olan T-55-dir. Amma mənim tankım T-90-dır.*

Tankların ağırlığından, ekipaj sayından, silahlanmasından, tankın hissələrindən, komandirin vəzifələrindən, ekipajın tankın içində harada yerləşməsindən danışmışdı. Ən sonda da: *"Düşmənin tank əleyhinə raket zərbəsi nəticəsində tank vurulur və ekipaj şəhid olur. Əgər müharibə olsa*

*və mənim də tankım vurulsa, mən də şəhid olacağam”,* – demişdi. Mən də: “Allah eləməsin. Buraya kimi yaxşı gəlmişdin, niyə belə sonlandırma edirsən ki?” – deyib, kövrəlmişdim. O da gülümsəyərək: *“Nə bilim, sözdür də, dedim. Gələcəkdə necə olacağıq – bilmirik. Ona görə də əlimizdəki zamanı bir yerdə xoş keçirib, qədrini bilməliyik”,* – deyib, sonra başqa mövzudan söhbət açmışdı.

Biz sonuncu dəfə 24 sentyabrda təsadüfən, planlaşdırmadan görüşmüşdük. Onda bilmirdik ki, Vətən müharibəsi başlayacaq. Sanki başımıza gələcəkləri bilirmiş kimi həmişə gülüb-danışan insan susqunluğa qərq olmuşdu. Yolboyu heç nə danışmamış, ancaq mənə qulaq asmışdı. Günün sonunda bizim evə çatmağımıza az qalmış Murad avtomobilin sürətini azaltdı. Əvvəlcə, elə bildim ki, avtomobil xarab olub:

– Murad, nəsə olub? Niyə dayandın?

– *Yox, narahat olma, özüm dayandım.*

– Niyə?

– *İstəmirəm, gedəsən. Dayandım ki, 2–3 dəqiqə də olsa, mənimlə qalasan, ayrılmaq istəmirəm.*

– Elə deyirsən, elə bil bir də heç vaxt görüşməyəcəyik. Həftəsonu yenə görüşərik, belə etmə, – deyə onun könlünü almaq istədim.

Görüşün sonunda Murad elə bil hiss edirmiş kimi sağollaşmağımızı istəmirdi. Biz həmin gün dəfələrlə sağollaşıb ayrıldıq. Murad sonuncu sağollaşmada: *“Heç istəmirəm, gedəsən. Elə qəribəyəm ki...”* – demişdi. Evə gələndən sonra ona mesaj yazıb, ilk dəfə idi ki, onu belə susqun, fikirli gördüyüm üçün narahat olduğumu dedim. O da mənə: *“Yox, narahat olma, hər şey yaxşıdır”,* – deyib, ardınca da **“Varımsan”** şeirini *(bax: səh. 189)* göndərmişdi. Onda bir daha əmin oldum ki, mən Muradı ruhlandırmağı bacarıram.

Sentyabrın 25-i, axşam Murad mənə mesaj yazıb: “*Təcili görüşməliyik, toy olacaq”,* – dedi. Mən elə başa düşdüm ki, həftəsonu görüşək deyə belə bir söz deyir:

– Nəsə olub?

– *Məxfidir, üz-üzə danışmalıyıq. Ola bilər ki, toya getdim.*

– Nə toy? Harada?

– *O tərəflərdə toy olacaq, dəvətnamə var.*

– Ciddi deyilsən yəqin. Görüşmək üçün deyirsənsə, buna ehtiyac yoxdur!

– *Ciddiyəm. Pal-paltar, qızıl almışıq.*

– Nə vaxt olacaq toy?

– *Dəqiq vaxt bilinmir. Sabah xonçalara qızılları yerləşdirməliyik.*

– Nə vaxt görüşək?

– *Sabah alınmayacaq. 27-si mütləq görüşək!*

– Yaxşı.

Mən başa düşdüm ki, müharibəni deyir. Fikirləşdik ki, təxminən, 1 həftəyə hazırlıqlar bitməlidir. Danışdıq, razılaşdıq ki, bazar günü – 27 sentyabrda görüşək. Amma həmin günün səhəri – 26 sentyabr, günorta saat 12-də Murad mənə dedi ki, *gedirik, görüşməyimiz alınmayacaq*. İnana bilmirdim ki, müharibə başlayır və Murad cəbhəyə gedir.

Sonuncu dəfə elə həmin gün videozənglə bir-birimizi gördük. Tankın içində, əynində tankçı forması, üzündə də məcburi gülüşü ilə Muradın hisslərini, fikirlərini o demədən gözlərindən oxuya bilirdim. Onun gözlərində həyəcan, parıltı var idi. Bu həyəcanın səbəbinin çoxdandır, arzusunda olduğu müharibənin başlanması olduğunu bilirdim. Lakin bu həyəcanla birlikdə ayrılıq kədərini də görürdüm. Sanki ikimiz də hiss etmişdik ki, bu bir-birimizi son görüşümüzdür. Həmin gün bütün gecə yol getdikləri üçün tez-tez, demək olar ki, saatbaşı əlaqə saxlaya bilirdik. Gecə yatmayıb onun zəngini gözləyəcəyimi demiş: "Saat neçə olur olsun, çatanda xəbər et", – deyə xahiş etmişdim.

27 sentyabr, səhər saat 05:30-da zəng etdi ki, *çatmışıq, cəbhədəyik*. Səsindən, o deməsə belə, hansı hisslər keçirdiyini, həyəcanını hiss etdim. Nə baş verdiyini ikimiz də dərk edə bilmirdik. Özümü toparlayıb dəstək olmağa çalışdım. Narahat olmamağımı, növbəti zəngini gözləməyimi xahiş etdi və sağollaşdıq.

Həmin gün internet işləmədi, şəbəkə, demək olar ki, yox idi. Təsadüfən, ancaq aradabir zəng etmək mümkün olurdu. 3-cü zəngimə cavab verib: *"Salamatlıqdır, narahat olma, özüm əlaqə saxlayacağam",* – dedi. Dediyi kimi də etdi! İmkan yaradıb tez-tez əlaqə saxlayırdı. Elə həmin gün, axşam saat 22:15-də nə hiss etmişdisə: *"Ömrüm, həyatdır, bilmək olmaz. Haqqını halal elə, səni sevirəm",* – mesajını yazdı. O mesajdan sonra gözüm telefonda idi. Bilirdi ki, narahatam. Ona görə də tez-tez: *"Yaxşıyam, narahat olma..."* – deyə mesaj yazırdı.

Günbəgün həyəcanım, qorxum daha da artırdı. Muradın geri qayıtmayacağı düşüncəsi belə məni qorxudan dəli edirdi. Amma bunu Murada hiss etdirməməyə çalışırdım. Bilirdim ki, mənim nə qədər narahat olduğumu bilsə, özü də bir o qədər pis olub mənimlə narahatlığını bölüşməyəcək. Ona görə də bacardığım qədər hər zəngində bir əvvəlkindən daha xoş, daha rahat danışırdım. Dediyi hər sözü zarafata salıb onu güldürmək üçün əlimdən gələni edirdim.

Bilirdim ki, Murad kefsiz, fikirli olanda ağlından keçənləri, düşüncələrini yazıya yazır. Bir dəfə mənə də təklif etdi ki, *nə vaxt özünü pis hiss etsən, yaz, istəsən, mənimlə də bölüş. Danışa bilməsən də, yazdıqlarını oxuyaram...* Sentyabrın 28-i mesajla əlaqə saxlasaq da, səsini eşidə bilməmişdim. Təxminən 3–4 saat sonra zəng etdi. Həmin vaxt Murada qorxularımı bildirməmək üçün sanki o oxuyurmuş kimi hisslərimi bir vərəqə yazırdım. Necə olduğumu, nə etdiyimi soruşdu. Mən də hər zaman olduğu kimi söhbəti zarafata salıb, Aqşin Yeniseyin "Məktub" şeirinin "Sənə məktub yazıram, Yazıram ki, bağışla... Burda hava pis keçir, Ara vermir yağışlar" hissəsini özümüzə uyğunlaşdıraraq bir az dəyişik formada oxudum. Murad buna ürəkdən güldü. Təbii ki, zarafat etdiyimi bilirdi. Gülə-gülə dedi:

– *Nə yazırsan elə? Oxu, mən də bilim.*

– Sənə deyə bilmədiyim sözləri yazıram ki, gələndə oxuyasan.

– *Doğrudan, məktub yazırsan? Bəs necə göndərəcəksən?*

– Məktub deyil ki... Amma istəsən, yazaram. Göndərməyin yolunu da taparıq.

Sevinə-sevinə:

– *Hər gün məktub yazacaqsan mənə?* – deyə soruşdu.

– Aha. Sən sağ-salamat gələnə kimi hər gün yazacağam, amma yazdıqlarımı oxumayacağam. Sağ-salamat gəl, özün oxu!

– *Yaxşı, onsuz da biz hər gün qabağa getdiyimiz üçün göndərməyin alınmayacaq. Sən yaz, hamısını mən gələndə oxuyacağam. Görək mən gələnə nə qədər olacaq.*

Birdən dedi ki, *mən də burada vəsiyyətimi bir vərəqə yazıb cibimə qoyacağam. Mən şəhid olanda tapıb oxuyarsınız...*

– Nə yazacaqsan?

– *Sənə olan sevgimdən... Qoy onu tapan oxuyub bilsin ki, mən səni nə qədər çox sevirəm. Onda hamı Muradın sevgisini də, sevdiyini də biləcək.*

– Yaz, amma sən sağ-salamat qayıdacaqsan, ona görə də özün hamıya oxuyacaqsan.

– *İnşallah,* – deyib, gülmüş, sonra başqa şeylərdən danışmışdı.

*“Bu gün də yazmısan? Ümumi neçə dənə olub?”* – deyə hər gün ona məktub yazıb-yazmadığımı soruşurdu. Çox vaxt ya məktub yazdığım, ya da yazını bitirdiyim vaxt zəng edirdi. “Elə indi sənə yazırdım”, – deyəndə də çox sevinirdi. Bir dəfə yenə məktubların sayını soruşub, oxumağımı xahiş etdi. Mən də totem etdiyim üçün oxuya bilməyəcəyimi dedim. O da gülüb:

– *Bir dəfədən heç nə olmaz. Oxu, ona görə qərar verim ki, gəlim, ya yox,* – dedi.

Ən birinci yazdığım məktubu oxudum. Mən məktubu oxuduqca telefonda Muradın gülüş səslərini eşidib sevinirdim... Məktubu oxuyub bitirdikdən sonra orada erməni əsgərinə yazılmış məktub tapdığını dedi:

– *Burada da məktub tapmışam. Məktubda rəngli formada ürək şəkli çəkilib, içində də adları yazılıb. Sən də elə yazırsan?*

Dedim, yox, mən başqa cür yazıram, sənə özəl. O da özünəxas formada gülüb: *“Buradakı məktubun şəklini telefonla çəkmişəm ki, gələndə sənə göstərim”,* – demişdi.

Vəsiyyət yazmaq haqqında söhbətimizdən bir neçə gün sonra ürəyimdə verəcəyi cavabın qorxusu ilə tərəddüd edərək soruşdum:

– Yaza bildin məktub?

Gülümsəyərək:

– *Yox, mən burada kağız-qələmi haradan tapım? Zarafat edirdim,* – dedi.

– Yaxşı ki, tapa bilmədin. Dediyini düşünmək əvəzinə qayıtmağı düşün. Yaxşı düşün, yaxşı olsun...

Bəlkə, biz bilmirdik, bəlkə də, o nəyin yaxşı, nəyin pis olduğunu daha yaxşı bilirdi. Bildiyi üçün də qayıtmağa ümid bağlamayıb, şəhid olmaq istəyirdi. *“Mən xəyallarımı çox zaman reallaşdırıram, əzizim”,* – deyə bir dəfə demişdi. Bəlkə də, şəhid olmaq onun xəyalı imiş.

Bir dəfə təlimlər vaxtı müharibədən danışırdıq. Birdən Murad dedi:

– *Mən də sənə qələbə mesajı göndərəcəyəm... Yazacağam ki, Qarabağ bizimdir, Qarabağı azad etdik!*

Bir insan hər dediyini edərmi? Muraddırsa, edər! Fikirləşdiyi, ürəkdən istədiyi hər şeyi yerinə yetirər!..

30 sentyabr 2020-ci il... 44 günlük müharibənin 4-cü günü... Nəhayət ki, sevinclə, qürurla, fəxrlə, bir o qədər də şəhid dostları üçün duyduğu dərin hüznlə: *“Füzulidə bayrağımızı dalğalandırdıq!”* – mesajını yazmaqla arzusunu yerinə yetirdi. Sanki arzusunda olduğu qələbə xəbərini verəcəyini əvvəlcədən hiss etmişdi. Orada yaşadığı çətinliklərə, aclığa, susuzluğa, yuxusuzluğa baxmayaraq, ürəyində, ağlında ancaq və ancaq bir hiss var idi: *Olduğu yerdən daha da irəliyə getmək və bayrağımızın Qarabağın ən yüksək zirvələrində dalğalandığına şahid olmaq*!

Muradgil Füzulidə olanda türk jurnalistlər çəkiliş üçün oraya getmişdilər. Bunu biləndə fikirləşmişdim ki, əgər Murad müsahibə vermiş olsa, onda heç olmasa iki-üçsani-

yəlik də olsa, üzünü görə bilərdik. Sevincək soruşmuşdum ki, səni də çəkiblər? Murad gülüb: *"Yox, təbii ki, mən çəkilmədim. Mənim yerim kamera qarşısı deyil. Səbir edin, gələndə görəcəksiniz üzümü",* – demişdi.

Oktyabr... Ağrılı, acılı, ayrılıq qoxulu oktyabr!.. Biz nə ümidlərlə, nə arzularla bu ayı gözləyirdik. Haradan biləydik ki, həsrətlə gözlədiyimiz bu ay elə bizi bir-birimizə həsrət qoyub, arzularımızı puç edəcək! Mən hələ də arzusunda olduğumuz həmin o oktyabr ayını gözləyirəm. Müharibədən əvvəl Muradın oktyabrda məzuniyyətə çıxmağını, birlikdə daha çox zaman keçirməyimizi və ən əsası, ailələrimizə münasibətimizi bildirib, rəsmiləşdirməyi düşünmüşdük. Hər şey biz düşündüyümüz kimi olsaydı, necə olardı, görəsən?

Oktyabrın 1-i... Yenə də ümidimizi itirməyib, oktyabrdan bizə nələrisə verməyini gözləyirdik. Hər həftənin əvvəli deyirdim ki, müharibə bu həftəsonu bitəcək, sən də sağ-salamat qayıdacaqsan! Murad isə sadəcə qulaq asır, ümidimi qırmamağa çalışırdı.

Oktyabrın 3-ü, şənbə günü Orxan Muradın olduğu istiqamətə getmişdi. Həmin gün Murad Orxanla görüşəcəyi üçün çox sevincli, həyəcanlı idi. Orxanın oraya – odun, alovun içinə getməyi onu həyəcanlandırsa da, qardaşını görəcəyi fikri onu çox sevindirirdi. Murad cəbhəyə gedəndə heç kimlə görüşə, sağollaşa bilməmişdi. Ona görə də həmin gün danışanda dedim ki, görəsən, alınar, Orxanla buraya gəlib, bizlə görüşüb, sağollaşıb, yenidən cəbhəyə qayıdasan? Mənə belə cavab verdi:

– *Sən nə danışırsan? Buranı necə qoyub gəlim? Vətəndir bura, başqa yer deyil, Vətən!*

Həmin gün heç qardaşı ilə də görüşə bilmədi. Görüşməklərinə 15–20 dəqiqə qalmış Muradgilə təyinat gəldi ki, hərəkətə keçməlidirlər.

Həmin gün xoş danışmağımıza baxmayaraq Muradın səsində qəribə bir narahatlıq hiss etmişdim. Saat 12:36-da mənə zəng etdi. Uzun-uzadı danışdıq. O günlərin ikimiz

üçün də çox çətin olduğunu, sevdiklərini narahat qoyduğu üçün pis olduğunu dedi. Mən də:

– Sən bizi fikirləşmə. Əsas özünü düşün, sən hamını tək-tək düşünmə, – dedim.

Bir az susdu... Sonra:

– *Sənə bir söz demək istəyirəm. Bu gün bir əməliyyat olacaq, qabağa gedəcəyik. Nə olacaq, bilmirəm. Həyatdır, hər şey ola bilər, mənə nə olacaq, bilmirik. Güclü ol, hər xəbərə hazır ol, haqqını halal elə. Sənin mənim həyatımda olmağın mənim üçün ən böyük uğurdur,* – dedi.

Özümü saxlaya bilməyib ağladım... İlk dəfə idi ki, Muradın sözlərinin qarşısında o qədər çarəsiz, aciz qalmışdım. Nə deyim, necə özümü toparlayım – bilmədim. O susdu. Mən isə səssiz-səssiz ağladım... Bir az sonra:

– *Ağlayırsan? Ağlama! Dik dur! Sən güclüsən axı!* – dedi.

Mən də sakitcə:

– Sənsiz güclü olmaq istəmirəm! Mən belə güclü olmaq istəmirəm! – dedim.

İkimiz də susduq... Bir az sonra ağlamağımı kəsib, Muradın dediyi kimi güclü olub, onun mənim üçün necə dəyərli olduğunu, onu çox sevdiyimi, bu yaşda yaşadığı çətinliklərə görə pis olduğumu dedim. Uzun danışıqdan sonra hər şeyin yaxşı olacağına onu inandırdım. İkimiz də ümidli idik. Əmin idik ki, Murad bu çətinliyin də öhdəsindən gələcək! Çox keçməmiş mənə, *"Gedirəm mən, cıqqılım, haqqını halal elə. İnşallah, görüşərik, Allah kərimdir",* – deyə mesaj yazdı.

Günboyu gözümü telefondan çəkmədim. Mənə nə qədər çətin olsa da, ona problem olmasın deyə özüm zəng etməyib, Muradın növbəti zəngini gözlədim. Və, nəhayət, 19:37-də gözlədiyim zəng gəldi. Həyəcanla zənginə cavab verdim. Mən "Alo" deməmiş xəttin o biri tərəfində adımı dediyini eşidən kimi səbəbsizcə ağladım. *"Çox şükür yaxşıdır hər şey, narahat olma",* – dedi. Mən də ağlaya-ağlaya: "Çox şükür", – dedim. *"Ağlayırsan? Dedim axı, ağlama! Bax ağlasan, bir də zəng etməyəcəyəm",* – dedi. Mən də söz

verdim ki, o, sağ-salamat gələnə kimi ağlamayacağam... Çətin olduğunu, amma sonda hər şeyin istədikləri kimi bitdiyini dedi. Gülə-gülə: *"Düşmənlərimiz çox qorxaq millətdirlər. Görərdin, necə qorxub qaçırlar",* – dedi. Səsindən necə sevincli, qürurlu olduğunu hiss edirdim. Nəhayət, həmin gün Suqovuşanda bayrağımızın dalğalandığı xəbərini verdim. O da belə cavab verdi:

*– Bilirəm, xəbərim var. Cəbrayılda da, inşallah, sabah olacağıq. Artıq Nüzgar kəndi bizdədir. Buradan görürəm. İnşallah, Laçını, Qubadlını da alacağıq. Oradan evimiz olacaq, yayda gedib qəşəng dincələcəyik...*

Bir neçə dəqiqə mesajlaşdıqdan sonra yenidən odlu-alovlu dünyasına geri döndü.

Laçını yazmağının səbəbi var idi. Müharibədən əvvəl oranın gözəlliyindən, nə vaxtsa oraya gedəcəyimizdən danışırdıq. Mənə dedi ki, *səni Laçına aparacağam*. Mən də dedim ki, görək də nə edəcəksiniz.

– *Az qalıb, alacağıq... Səni oraya gəzməyə aparacağam,* – dedi.

Muradın ürəyi kimi üzü də gözəldir, yaraşıqlıdır. Mən ona "yakuşuklu" deyə müraciət edirdim. Doğrudan da, çox yaraşıqlı idi. Gülüşü, gülüş səsi üzündən də gözəl idi. Güləndə gözləri ulduz kimi parlayar, yanaqları alma kimi qızarardı. Amma yanaqlarının qızarması xoşuna gəlməz, *"Qış fəsli tez gəlsəydi, yanaqlarımın qızartısı bilinməzdi",* – deyərdi.

Bir dəfə keçirdiyi çətin bir günün sonunda axşam zəng etmişdi. Zəngə cavab verən kimi soruşdum:

– Hey, yakuşuklu, necəsən?

– *Eh, daha o yakuşukludan əsər-əlamət yoxdur. Çox yorulmuşam, yorğunluqdan üz-gözüm şişib.*

– Bir az da səbir et, sağ-salamat qayıt, ürəyin istəyən kimi istirahət edərsən.

– *Elə çox dincəlmək istəyirəm ki...*

– Az qalıb, dincələcəksən. Həm də siyahımız var axı bizim, qayıt, oradakıları bir-bir yerinə yetirək.

– *Oxu, yadıma sal, görək nələr edəcəyik.*

– Deməli belə, birinci, yüksəklik qorxunu yenəsən deyə paraşütlə tullanış, sonra da üzməyi sevdiyimiz üçün dalış...

– *Hə, hə, hamısı yadıma düşdü. Amma bunların hamısı cavan ruha aiddir, mənim isə indi ruhum qocalıb... Gərək siyahını dəyişək. Mənim istədiyim bir şey var, amma bu siyahıya uyğun olmayacaq.*

– Nədir istəyin?

– *İstəyirəm ki, yaşıl meşədə, çayın qırağında qəşəng dincəlim. Təsəvvür et, meşədəyəm, çayın qırağında, çayın səsinə qulaq asa-asa dincəlirəm.*

– Bir çadır çatmır, çadır da istə, tam olsun.

– *Yox, neyləyirəm ki çadırı. Çadır bağlıdır. Mən tulumda yatmaq istəyirəm. Həm ulduzlara da baxmaq olar tulumda.*

– Bu ki qoca ruha aid deyil, bu da cavan ruha aiddir. Sənin ruhun qocalmayıb, sadəcə yorulub. Qayıt, gəl, bu arzunu da yerinə yetirərik.

– *Yaxşı...*

Biz birlikdə mahnıya qulaq asmağı çox xoşlayırdıq. Müharibə başlayana kimi, demək olar ki, hər axşam videozənglə danışıb, birlikdə mahnıya qulaq asırdıq. Ümumiyyətlə, mənim mahnı oxumaqdan xoşum gəldiyi üçün çox vaxt Murada sözümü mahnı oxuyaraq deyir, verdiyi suallara mahnı sözləri ilə cavab verirdim. Elə bir dəfə cəbhədə olan vaxt bir neçə saat xəbərləşə bilmədiyimiz üçün narahat olub yatmazdan qabaq ona mesaj yazmış, sonunda da sevdiyini bildiyim üçün Nəsibə Abdullayevanın "Səndən Nigaranam" mahnısının sözlərini əlavə etmişdim:

*Yalnız səni, səni soruşaram*
*Səndən nigaranam...*

Mesajdan iki-üç saat sonra zəng etməsinə baxmayaraq mənim səsimi eşidən kimi eyni mahnının sözləri ilə cavab vermişdi:

*Bütün dünya dağılsa da, dünya dağılsa da,*
*Təkcə səndən nigaranam, səndən nigaranam...*

Hər ikimizin şeirə bir ayrı marağı vardı. Tez-tez bir-birimizə şeirlər göndərir, onları müzakirə edirdik. Bir dəfə mən təklif etdim ki, gəl bu gün mahnı yox, poeziya günü olsun. Murad da razı olub, **"İstərəm"** şeirini *(bax: səh. 178)* mənə göndərdi. Bir az onu müzakirə etdik. Sonra mən də ona müxtəlif şairlərin şeirlərini göndərdim. Mənim göndərdiyim şeirlər təsadüfən ayrılığa aid olduqları üçün Muradın xoşuna gəlməmişdi.

– *Deyəsən, ağlında ayrılıq var, ona görə belə şeirlərə qulaq asırsan, xoşlayırsan,* – demişdi.

Mən də bunun təsadüf olduğunu, sadəcə sözlərinin xoşuma gəldiyini demişdim. Bir az şeirlərin müzakirəsini apardıqdan sonra **"Bilirsən, nələri fikirləşirəm?"** şeirini *(bax: səh. 188)* yazıb göndərmişdi. Mən də pis olub, niyə belə şeir yazdığını soruşmuşdum. Bir daha ona ayrılığı düşünmədiyimi, sadəcə təsadüfən belə şeirlər göndərdiyimi demişdim. *"Şeirdir də, yazdım",* – demiş, sonra da hər ikimizin xoşladığı, İbrahim İlyaslının "Necəsən?" şeirini göndərib:

– *Mənə bu şeirdəki sözləri qismət eləmə,* – demişdi.

– İstəmirəm ki, qismət olsun, – deyə cavab vermişdim.

– *Bundan sonra nə şeirlərimizdə, nə mahnılarımızda, nə də ki həyatımızda ayrılığa aid heç nə olmasın,* – deyib müzakirəni sonlandırmışdı.

Müharibə başlamamışdan öncə avtomobillə bağlı mərcləşmişdik. Uduzan tərəf saat almalı idi. Təbii ki, mərci Murad qazanmış və məndən saat istəmişdi. Oktyabrın 5-i yenə qabağa irəliləməli idilər. Mesaj yazıb: *"Bir neçə saat mənə zəng çatmayacaq. Narahat olma. İmkan olan kimi özüm əlaqə saxlayacağam",* – dedi. Dediyi kimi bir neçə saatdan sonra zəng edib hər şeyin yaxşı olduğunu bildirdi. Onunla fəxr etdiyimi, hər çətinliyin öhdəsindən gələcəyinə inandığımı dedim. Söhbət əsnasında saatının sındığını dedi:

– *Bilirsən, nə olub? Döyüşə gedirdik, saatım qolumdan qırılıb düşdü. Mən də çantaya qoymuşam. Sənin mənə saat sözün var idi, yadındadır? Onu nə vaxt alacaqsan?*

– Sən gəl, gedib birlikdə seçərik.

– *Eh, gələnə kimi qolum qalacaq boş,* – deyib gülmüşdü.

Murad həyat dolu insan olub. Hər gününü doya-doya, dərdsiz, fikirsiz, rahat yaşamaq istəyirdi. Həyatında hər şeyin asan olmasını, çətinlik yaşamamasını arzulayırdı. Bir dəfə həyatda yaşadığımız çətinliklərdən söhbət edərkən Murad dedi:

– *Mən istəmirəm ki, sevdiyim biri əziyyət çəksin. Nə qədər ömür yaşayacağam bilmirəm. Amma yaşadığım ömrü rahat, xoş yaşamaq istəyirəm. Bilmirəm, sabah başıma hansı iş gələcək. Yaxşı da yaşaya bilərəm, pis də, amma mən nə qədər ki varam, yanındayam, hər şeyin ən yaxşısını sənin üçün edəcəyəm, sənin üzünü güldürmək üçün çalışacağam. Və əlimdən gəldiyi qədər qoymayacağam ki, əziyyət çəkəsən.*

Cəbhədə nə qədər çətinlik yaşasa da, onu mənə, bizə bildirmirdi. Onun üçün nə qədər narahat olduğumuzu bilir, buna görə özü də pis olurdu. Nə qədər çətinlik yaşasa da, yaxşı olduğunu deyir, yalandan da olsa gülürdü.

Oktyabrın 6-sı Murad və heyəti yeni bir qəhrəmanlıq arxasınca getmişdilər. Həmin gün mesaj yazıb yaxşı olduğunu demişdi. Zəng edib səsini eşidən vaxt bildim ki, yaxşı deyil. Niyə belə olduğunu soruşduqda heç nə olmadığını, sadəcə yorğun olduğunu dedi. Axşam zəng edib uzun-uzadı danışdıq. Səsindən yaxşı olmadığını hiss edirdim:

– Sənə nəsə olub, ilk dəfədir, beləsən. Nə olub? Niyə demirsən? – deyə soruşdum. Uzun israrımdan sonra axır ki:

– *Bu gün, az qala, ölürdük,* – deyib, nələrin baş verdiyini, hansı çətinliklərdən keçdiklərini danışdı.

O danışdıqca mən lap qorxuya düşdüm. Axır dözə bilməyib: "Danışma daha... Dayan. Dözə bilmirəm..." – dedim. Muradın orada – odun-alovun içində nələr yaşadığını bildikcə daha da çox qorxurdum. İçimdəki onu itirmək qorxusunun odunu söndürmək bir qırağa, daha da alovlanmasına əngəl ola bilmirdim. Yenə də çarəsizcə bir-birimizə ümid verib, yaxşı olacağına inanıb sağollaşdıq.

Oktyabrın 7-si ürəyimizdə müharibənin tez bitəcəyi ümidi ilə günə yenə birlikdə başladıq. *"Sənə şeir yazmışam, bir azdan göndərəcəyəm",* – dedi. Mən də gülə-gülə: "Orada da şairliyinə davam edirsən?" – dedim. Gülərək: *"Hə, edirəm. İstirahət vaxtı bir-iki sətir yazdım. Oxuyarsan, görək necədir",* – dedi. "Yaxşı", – deyib mesajını gözlədim. Bir neçə dəqiqə sonra **"Fikrim hey ondadır"** şeirini *(bax: səh. 190)* göndərdi. Şeiri oxuduqca hər sətrində onun yaşadığı çətinlikləri gözümün qarşısına gətirir, iki yol ayrıcında qaldığı üçün kədərlənirdim. Sevdiklərindən, yaşadığı həyatdan bir an olsun düşünmədən imtina edəcəyini bilirdim. Bacardığım qədər onu bizə bağlamağa çalışırdım... Şeirin hər hərfini göz yaşları içində oxuyub, bu sözlərdən sonra onu necə fikrindən döndərəcəyimi fikirləşirdim. Şeirin son sətrini oxuyub bitirən kimi zəng etdim:

– Nə gözəl şeir yazmısan, şair...

– *Bəyəndin? Necədir?*

– Əla! Həmişəki kimi əla!

O da gülüb:

– *Çox sağ ol,* – dedi.

– Niyə bəs elə şeir yazmısan? Bəs deyirsən, hər şey yaxşıdır? Sən deməsən belə, yaxşı olmadığını bilirdim, hiss edirdim.

– *Bilmirəm, bura necədirsə, elə də yazmışam.*

– Bəs bilirsən də, sən qayıdacaqsan? Danışmışdıq səninlə bunu... Qayıtmalısan! Hələ sən çox gözəl günlər yaşamalısan...

Çarəsizcə davam edib:

– Bilirsən, hə? – deyə soruşdum.

– *Bilirəm. Narahat olma.*

– Onda başqa şeir yaz. Amma belə odlu-alovlu olmasın. Əksinə, güllü-çiçəkli olsun. Bəlkə, o şeiri oxuyub, qayıdacağına inanasan.

– *Yaxşı, yazacağam,* – deyə söz verdi.

Həmin gün tez-tez əlaqə saxlayırdıq. Bilirdim ki, yenə qabağa getməlidirlər. Yaşadığı çətinlikləri bildiyim üçün daha çox narahat olur, yaxşı olması üçün dua edirdim.

Günorta Murada zəng etdim. Tankda olduğu üçün səs-küydən nə dediyini yaxşı eşidə bilmirdim. Səs-küy artdıqca qorxub zəngi sonlandırdım... Çox keçməmiş Murad özü zəng edib: *“Qabağa gedirik. Telefonu söndürməyi unutmuşam. Mən sənə zəng edəcəyəm, narahat olma!”* – dedi.

Oturub səbirsizliklə zəngini gözlədim... Nəhayət, axşam zəng edib hər şeyin yaxşı olduğunu dedi. “Necəsən?” – sualıma, gülə-gülə: *“Əlimdə erməni qranatı var. Səncə, necə olmalıyam? Təbii ki, əlayam. Əla!”* – deyə cavab verdi. Daha da qürurlu bir şəkildə əlavə etdi:

– *Yenə də biz qalibik. Onlara bizim gücümüzü göstəririk. Biz həmişə qalibik, həmişə də qalib olacağıq!*

Səsindən sevincini, özü və heyəti ilə necə fəxr etdiyini hiss edirdim. Mən də Muradla qürur duyur, sevincinə şərik olurdum. Amma içimdəki qorxunun şiddəti də günü-gündən artırdı. Günorta onunla telefonda danışanda özümü necə hiss etdiyimi deyib, onun da qorxub-qorxmadığını soruşdum:

– Mən burada o səs-küyü, bağırışları eşidib çox qorxdum. Sən, amma, düşmənin üstünə getdiyin halda heçmi qorxmadın?

– *Yox! Niyə qorxum? Biz qabağa gedirik. Ona görə də onlar qorxmalıdırlar, biz yox!!!* – deyə cavab verdi.

Oktyabrın 8-i, səhər yenə günə birlikdə başladıq. Saat 07:30-da zəng etmişdi. Orada hava soyuq, yağışlı keçirdi. Səsindən havanın necə soyuq olduğunu, Muradın üşüdüyünü hiss etdim. İsti otaqda olmağıma baxmayaraq mən də onunla birlikdə üşüdüm...

– Əynin nazikdir, hə? Çox soyuqdur? Bircə xəstələnməyəsən...

– *Yox, narahat olma, hava yaxşıdır. Sadəcə bir az yağış yağır. Axşam yaman üşümüşdüm. Ulduzlara baxa-baxa tulumda yatmışdım. Gecə hiss etdim ki, üzümə su damcıları tökülür. Gözümü açdım ki, yağış yağır. Mən də gedib tankımın altında yatdım.*

– Əynin yaşdır, hə?

– *Yox. Dedim axı, narahat olma, hər şey yaxşıdır, hər şey qaydasındadır.*

– Bilirəm ki, yaxşı deyil, amma mən narahat olmayım deyə belə deyirsən. Məni fikirləşmə, özünü fikirləş.

Sevdiyini itirmək duyğusunu ilk dəfə 2020-ci ilin mart ayında anamı itirəndə yaşamışdım. Murad əlimdən tutub, məni heç vaxt qoyub getməyəcəyinə inandırıb, gələcəyə birlikdə addımlamağı təklif etmişdi. Anamdan sonra onu da itirməyin mənim üçün necə çətin olacağını yaxşı bilirdi. Bildiyi üçün də oktyabrın 8-i mənə mesaj yazıb demişdi:

– *Bir şeyə görə çox pis oluram. Çox pis oluram ki, sənə eyni acını ikinci dəfə yaşadacağam.*

Mən də ağlaya-ağlaya:

– Mənə söz vermisən. Söz verib, üzümü güldürüb, həmişə yanımda olacağını demisən axı, – dedim.

– *Yaxşı, ağlama, bir sözdür, dedim.*

Muradı qayıdacağına dair ümidləndirmək istəyirdim. Birdən dedim:

– Həftəsonuna az qalıb. Kaş deyələr ki, müharibə qurtarır. Təsəvvür et, müharibə qurtarır, sən də sağ-salamat qayıdırsan.

Murad bir az susub, sonra dedi:

– *İnanmıram, elə bir şey olsun. Mümkün deyil. 3 günə müharibə qurtara bilməz, hələ 2 ay davam edəcək...*

– 2 ay? Nə danışırsan? Niyə belə uzun?.. Ehh, icazə vermədin ki, xəyal qurum, – dedim.

Özünəməxsus gülüşü ilə:

– *Yaxşı, yaxşı, qur xəyalını,* – dedi.

Mən də Murada xəyalımı dedim. Dedim, 3 gün gözümüzü yumub-açacağıq ki, müharibə qurtarıb, sən də sağ-salamat qayıtmısan və biz yenə birlikdəyik...

Həmin gün həm də əvvəlcədən söz verdiyi kimi "güllü-çiçəkli" **"Oldu"** şeirini *(bax: səh. 191)* hissə-hissə göndərib: – *Bunlar bir-birinin davamıdır, birləşdir,* – demişdi. Şeiri oxuduqca gülümsəyir, Murad kimi bir şairin sevdiyi oldu-

ğum üçün fərəhlənirdim. Şeiri bitirən kimi zəng edib: – Çox əladır, çox bəyəndim, – demişdim.

Anamdan sonra Murad, sözün əsl mənasında, mənim həyatıma ulduz kimi parlayıb, qaranlıq yoluma işıq olmuşdu. Elə buna görə də onu “Mənim həmişə par-par parlayan, heç sönməyən ulduzum” adlandırırdım. Murad, doğrudan da, ulduz kimi idi.

Oktyabrın 9-u videozənglə danışmağa, bir-birimizə şəkil göndərməyə çalışsaq da, internet probleminə görə bacarmadıq. Həmin gün çox cəhd etsək də, “MMS” (multimedia mesajı) vasitəsilə də şəkil göndərə bilmədik. Mən təklif etdim ki, elektron poçtu yoxla, bəlkə, alındı. 10 dəqiqə sonra telefonuma mesaj gəldi ki, *elektron poçtunu yoxla, sən də şəklini göndər*.

Şəklini görən kimi nə qədər çox darıxdığımı hiss edib, onun orada – cəbhədə hansı çətinlikləri yaşadığını gözlərindən oxuya bildim. Murad o 2 həftə ərzində çox böyümüşdü. Hətta bığ saxlamağa başlamışdı. Burnunda da yara izi var idi. Mən ona zəng etdim ki, burnuna nə olduğunu soruşum. Zəngə cavab verən kimi, mən sualımı verməyə macal tapmamış Murad özü dilləndi:

– *Burnuma tankın qapağı düşüb. Narahat olma, yaxşıyam. Yeri də ağrımır.*

Sonra da əlavə etdi:

– *Bığım necədir? Yaraşıb? Gələnə kimi saxlayacağam, amma gələndən sonra kəsəcəyəm, yaxşı?*

– Sən nə gözəl olmusan. Bığın da yaraşıb. Böyüyüb 1992-ci ilin kişilərinə oxşayırsan lap, – deyə cavab verdim. Bu mövzuda bir az danışıb, həmişəki kimi zarafatlaşdıq.

Gülmək... Muradın zarafatlarına gülmək... Muradın gülməyi məni çox yaxşı edirdi. Bilirdim ki, heç olmasa bu bir neçə dəqiqə ərzində o da yaxşı olur, üzü gülür. Amma yenə də gəlməyə ümidi yox idi. Qayıtmayacağını bilirdi, amma qayıtmağı çox istəyirdi. Yenə bir-birimizə müxtəlif mahnı sözləri ilə göndərmələr edib, gülə-gülə qayıdanda edəcəklərimizdən danışırdıq:



– *Gələndə sənə 51 dənə qızılgül alacağam.*

– 51?

– *Yaxşı, olsun 101!*

– 101?

– *Yaxşı, yaxşı, 201!*

Gülümsəyərək:

– 201? – deyə soruşdum.

– *Bəs neçə dənə istəyirsən?*

– Neyləyirəm ki mən qızılgülü? Onu sən xoşlayırsan axı. Ona görə də mən sənə alaram.

– *Hə, yaxşı, papatya alacağam sənə.*

– Sən sağ-salamat gəl, mənə heç nə lazım deyil. Özün ki bunu yaxşı bilirsən.

– *Bilirəm, yaxşı bilirəm! Qismət olsa, gələcəyəm...*

Sonra ümidsiz halda dedi:

– *Əgər qayıda bilsəm, nə olacaq?*

Bu sualı verəndə donub qaldım. Bilirdim ki, qayıtmaqla bağlı ümidi yoxdur. Həmin sualı yenidən verdi:

– *Əgər qayıda bilsəm, nə olacaq?*

– Hər şey qoyub getdiyindən də yaxşı olacaq. İstədiyin kimi həyatımız olacaq!

– *Məsələn, necə?*

– Daha mehriban, daha şən, daha xoşbəxt!

– *Bəs gələcəkdə necə olacağıq? Sən xəyal qur, mən də ona uyğun qərar verim ki, qayıdım, ya yox.*

– Yaxşı. Sizə danışıram gələcəkdən, cənab leytenant. Təsəvvür elə, arzuladığımız kimi 3 mərtəbəli və 3-cü mərtəbəsi teras olan evimiz var. Biz də terasdayıq və birlikdə sənə yazdığım məktubları oxuyuruq. Oxuya-oxuya gah kövrəlir, gah da gülürük. Elə-belə şey deyil e, kino kimi həyat yaşamışıq müharibə vaxtı!

– *İnşallah, gələcəyəm, ömrüm. Hər şey arzuladığımız kimi olacaq. Xoşbəxt olacağıq səninlə.*

Danışığından başa düşürdüm ki, məni indidən qayıtmayacağına hazırlayır. Məni çox sevdiyini, mənim onu yaxşı etdiyimi, bu ayrılığın ona da, mənə də çətin olduğunu

dedi. Mən də onun mənim üçün necə dəyərli olduğunu, məni xoşbəxt etdiyini, incitmədiyini dedim və ona olan sevgimi, birlikdə hər çətinliyin öhdəsindən gələcəyimizi, yaxşı gündə də, pis gündə də bir-birimizin yanında olacağımızı, hər nə yaşayırıqsa, sonda hər şeyin ürəyimizcə olacağını bildirdim. Sağollaşandan sonra yenə də ürəyim dözmədi və ona sevgimi bildirdiyim, yolunu gözlədiyimi dediyim bir mesaj yazdım. Yarım saat sonra mənə **"Son"** şeirini *(bax: səh. 192)* yazıb göndərdi. Şeiri oxuyanda Muradın qayıtmağı çox istədiyinə, amma qayıdacağına ümidi olmadığına bir daha əmin oldum. Mən yenə də ümidimi itirməyib, onu sevdiyimi, məni çox xoşbəxt etdiyini, birlikdə daha yaxşı, xoşbəxt günlərimizin olacağına inandığımı bildirdiyim bir mesaj yazdım... Mesajı oxuduqdan sonra zəng edib: *"Nə qəşəng mesaj yazmısan, gülümsəyərək oxudum. Boşuna sən mənim üzümü güldürürsən deməmişəm",* – dedi.

Tərtər və Gəncənin bombalanmasından sonra Murad tamam dəyişmişdi. İçində əvvəlkindən də çox düşmənə qarşı nifrət hissi var idi:

– *Elə ancaq gücləri silahsız adamlara çatır. Burada isə qorxularından silahlarını, texnikalarını qoyub qaçırlar. Oturduqları yerdən raket atmağı bilirlər. Eybi yoxdur, biz hamının qisasını alırıq, alacağıq da!* – demiş, – *amma sən də işə gedib-gələndə ehtiyatlı ol, hər an hər şey edərlər,* – deyə mənə xəbərdarlıq etmişdi...

Narahat olmasın deyə Murada onsuzluğun necə çətin olduğunu, hər gün ondan gec xəbər biləndə nələr fikirləşdiyimi, bir saat zəng etməyib, mesaj yazmayanda nigaran qaldığımı deməmişdim. Bəzən olurdu ki, mən ağlayan zaman Muraddan zəng gəlirdi. Bilirdim ki, mən deməsəm belə, səsimdən hiss edəcək. Ona görə də zənginə bir az gec cavab verirdim.

Müharibə vaxtı ailə üzvlərinin arasında ən çox Orxanla əlaqə saxlayırdı. Murad Orxanın avtomobilini xoşlayırdı, amma vaxtının çoxunu təlimlərdə, hərbi hissədə keçirdiyi

üçün avtomobili idarə edə bilməmişdi. Elə Füzulidə olanda bir gün zəng etdi ki, *qardaşımla razılaşmışam. Gələn kimi avtomobillərimizi biraylığına dəyişəcəyik. Avtomobilimi də təmir elətdirib, təkərlərini dəyişdirəcək.* Dedi ki, *görürsən də, məni necə çox istəyir. Bir sözümlə hamısını həll edəcək*. Bu söhbətdən iki gün keçmişdi ki, zəng edib sevincli halda: *"Bilirsən, nə olub? Orxana zarafatyana dedim ki, avtomobilinlə sağollaş, biraylıq mənimdir. O da dedi ki, istəyirsən, bir yox, iki ay sənin olsun. Qurbandır sənə. Təki sən sağ-salamat gəl!"* – dedi. Mən də dedim ki, gözün aydın, axır ki, arzuna çatdın.

Anası ilə çox danışa bilmirdi. Bu onu həddən artıq narahat edirdi. *"Hər dəfə zəng edəndə ana ağlayır. Onu belə incitdiyim üçün pis olur, zəng edə bilmədiyim üçün də mesaj yazıram",* – deyirdi. Bir dəfə zəng edib gülə-gülə: *"Axır ki, ana ağlamadan danışa bildim",* – dedi.

Qohum-qonşu, dost-tanış da tez-tez Muradla əlaqə saxlayırdı. O da mənimlə danışanda kimlərin ona zəng etdiyini, nə hisslər keçirdiyini, nələr danışdığını deyirdi. Bir dəfə dedi: *"Müharibə nə gözəl şey imiş. Aylardır, məni axtarmayan insanlar indi axtarır, halımı, yerimi soruşur. İnsanlar belədirlər də. Gərək başına bir iş gələ, ondan sonra dəyərin bilinsin".*

Səhəri gün mənə zəng edib dedi:

*– Bilirsən, ömrüm, burada elə şeylər olur ki, elə tapşırıqlar verilir ki, mən hamıdan tez qabağa atılıram. Amma bəzən anaya, sənə görə narahat olub, çox fikirləşirəm ki, anidən qərar verməyim.*

– Mən onsuz bilirdim ki, sən orada sakit qalmayıb, təkcə öz işini görməyəcəksən. Öz işindən başqa hamının yerinə də qabağa atılmaq istəyəcəksən. Mən buna görə çox narahat idim. Amma sevindim ki, bizi fikirləşirsən. Bundan sonra tək bizi yox, qardaşlarını da, səni sevənləri də düşün. Bilirsən axı, sən hamı üçün dəyərlisən, əzizsən!

*– Bilirəm, amma ən əsas sizi düşünürəm!*

Çox vaxt telefonla danışanda atəş səslərindən bir-birimizi eşidə bilmirdik. Bir dəfə sakitlik olduğunu görüb soruşdum:

– Nə yaxşı atəş səsləri gəlmir? Deyəsən, sakitləşirlər.

– *Yox, hara sakitləşirlər? Elə indicə "kabab çəkib" gəlmişəm. Heyif ki, telefona çəkə bilmirəm. Onları necə susdurduğumu sənə göstərərdim.*

– Eybi yoxdur, əllərinə sağlıq, – deyib, bir daha qəhrəman Muradla qürur duymuşdum.

Hər ikimiz hərbi sahədə işlədiyimiz üçün gedişatın hansı mərhələdə olduğunu çox yaxşı bilirdik. Bəlkə də, elə bunları bildiyimizə görə bir də əvvəlki kimi yan-yana, göz-gözə ola bilməyəcəyimizi bilirdik...

Murad yemək yeməyi çox xoşlayırdı. Həmişə: *"Ac olanda yaxşı fikirləşə bilmirəm, gözlə, yeməyimi yeyim, beynim işə düşsün",* – deyirdi. Balıqdan başqa sevmədiyi yemək, demək olar ki, yox idi. Mərci supundan tutmuş, döşəməli aşa qədər bir çox yeməkləri xoşlayırdı.

O, yemək bişirməyi də çox sevir, bəzən Xavər xala evdə olmayanda özü də yemək bişirirdi. Ən çox pomidor-yumurta hazırlamağı xoşlayırdı. Bir dəfə mənə bişirdiyi pomidor-yumurtanın şəklini göndərib: *"Bu pomidor-yumurta baldır, bal",* – deyə fərəhlə demişdi. Bir dəfə də makaron bişirmişdi. Şəklini göndərib: *"Əldə olan güclü vasitələrin köməyi ilə belə bir yemək yaratmağa çalışmışam. Pendirli, mayonezli, pomidorlu və kolbasalıdır. Ət olmadığı üçün kolbasadan istifadə etmək məcburiyyətində qalmışam",* – demişdi. Sonuncu dəfə Xavər xaladan makaronu fərqli bişirməyini istəyib. Makaronu, əti, pomidoru ayrıca bişirtdirib, sonda da onları qat-qat düzüb, üzərinə pendir əlavə edib, sobada bişirməyini xahiş etmişdi.

Çox şeydə olduğu kimi, yemək seçimlərimizdə də oxşarlıq var idi. Məsələn, ikimiz də çiyələk mürəbbəsini xoşlayırdıq. Murad hər dəfə çiyələk mürəbbəsi ilə çay içəndə mütləq mənə şəkil göndərib: *"Yerin məlum, gəl qonaq ol",* – deyirdi. Bir dəfə Murad bizə qonaq gələndə onun üçün

göbələkli plov bişirmişdim. Yeməyin həm dadı, həm də görünüşü Muradın çox xoşuna gəlmişdi. Cəbhədə çox vaxt yaxşı yemək yeyə bilmirdilər. Bir dəfə zəng edib dedi:

– *Hamı mən gələndə sevdiyim yeməkləri bişirməyi söz verib, bəs sən mənə nə bişirəcəksən?*

– Ürəyin nə istəyir, bişirərəm.

– *Ürəyim hələ də sənin o məşhur yeməyindən istəyir.*

– Baş üstə! Elə təkcə o yeməyi?

– *Başqa da pizza, düşbərə, xəngəl...*

– Pizzanı bişirərəm, amma düşbərə, xəngəl bişirməyi, bilirsən ki, bacarmıram. Sən təki sağ-salamat gəl, mən onları da sənin üçün bişirərəm.

– *Gələcəyəm...*

Təminatçılar olduqları yerə yemək çatdıra bilmədikləri üçün bəzən günlərlə ac qalırdılar. Oktyabrın 7-si Murad zəng edib dedi ki, *bu gün kabab yedik*. Mən də sevindim ki, nə yaxşı, heç olmasa bir gün yaxşı yemək yemisiniz. Murad məyus halda dedi:

– *Bilirsən, amma kabab donuz ətindən idi. Neçə gündür ki, ac idik, biz də donuz tapdıq, onu kabab etdik. Amma mən çox yeyə bilmədim. Bir az yedim. Görəsən, günah olar?*

– Yox, olmaz, məncə. Neçə gündür, acsınız. Allah günahınızdan keçər, narahat olma.

Oktyabrın 10-u, Muradın səsini sonuncu dəfə eşitdiyim gün... Həmin gün yenə gün ərzində danışıb xəbərləşirdik. Axşam uzun-uzadı danışdıq. Murad çox kefsiz idi. Səbəbini soruşduqda isə sadəcə yorğun olduğunu dedi. Amma mən hiss edirdim ki, tək səbəb yorğunluq deyil. Onun əhvalını düzəltmək üçün atəşkəsin elan olunmasına sevindiyimi, müharibənin tez bitəcəyinə dair ümidim olduğunu dedim:

– Məncə, artıq sondur. Hiss edirəm ki, artıq sona yaxınlaşırıq. Sənin də bu günə kimi çəkdiyin əziyyətlər sonlanır. Sağ-salamat qayıdacaqsan...

Murad isə yaxşı bilirdi ki, hələ son deyil, amma həmişəki kimi sözlərimə qulaq asır, qayıdacağına dair, az da olsa, ümid edirdi.

– Belə kefsiz olmağın məni pis edir. Nə edim ki, həmişəki kimi güləsən? – deyə soruşdum.

Darıxdığını, çətin bir gün keçirməyinə baxmayaraq üzünü güldürdüyümü, onu yaxşı etdiyimi dedi:

– *Yaxşı ki, telefonda şəkillər, videolar var. Zəng etməmişdən qabaq sənin şəkillərinə baxır, videonu izləyib ürəkdən gülürdüm. Sənin nə isə etməyinə ehtiyac yoxdur, sən məni burada da yaxşı etməyi bacarırsan.*

Mən də gülümsəyərək:

– Söz vermisən, gələcəksən və biz birlikdə qaldığımız yerdən davam edəcəyik, – dedim.

– *Bilirəm... Gələcəyəm...*

Yanında heyəti olduğu üçün danışa bilmədiyini, mesaj yazacağını deyib sağollaşdı. Sanki bunun bizim son danışığımız olduğunu hiss edirmiş kimi nə o sağollaşmaq istəyirdi, nə də ki mən...

Sonuncu dəfə mesajlaşanda darıxdığını demiş, qayıdanda etmək istədiklərindən danışmışdı:

– *İnşallah, qayıdım, yeməklərdən başlayacağam.*

– Sən yola çıxmamış xəbər et, yeməkləri bişirim.

– *Ooo, iddialısın. Görək gələndə də belə iddialı ola biləcəksənmi?*

– 4 yemək demisən, 2-ni bişirəcəyəm, 2-si gələcəyə qalacaq...

Murad gülmüş, mən də qayıdacağına ümidli olduğu üçün sevinib gələcəyi günün xəyalını qurmuşdum...

11 oktyabr 2020-ci il... Hər səhər olduğu kimi yenə Muradın yazdığı mesaj ilə günə başladım. Haradan biləydim ki, bu mənə yazdığı sonuncu mesajdır. Axı hər səhər, *"Sabahın xeyir..."* – deyə mesaj yazır, mənim cavabımı oxuyur, sonra isə zəng edib necə olduğumla maraqlanır, sevgi dolu sözlərini deyir, – *Xidmətdəsiniz? Haraya kimi irəliləmisiniz? Dayanmayın, hərəkət edin ki, biz də qabağa gedə bilək,* – zarafatını edib məni güldürür, sonda da sağollaşıb, qəhrəmanlığına davam edirdi.

Gecə yuxumu qarışdırdığım üçün mesajı oxuyan kimi istədim, zəng edib Muradın səsini eşidim, amma sonra



birdən danışa bilməz deyə düşündüm... Hər zaman olduğu kimi mesajına cavab yazıb, zəng etməyini gözlədim. Fikirləşdim ki, bir azdan özü zəng edəcək və mən günə yenə Muradın səsi, gülüşü, sevgi dolu sözləri ilə başlayacağam. Amma təəssüf ki, nə o mesaj gəldi, nə də ki o zəng...

Narahat olub yarım saat sonra özüm zəng etdim. Operatorun "Bu nömrəyə zəng çatmır" sözünü eşitdiyim vaxt hiss etdim ki, bir də o nömrəyə heç vaxt zəng çatmayacaq və mən bir də heç vaxt Muradın gülüşünü eşitməyəcək, o gözəl üzünü görməyəcəyəm. Bunu bilə-bilə dəfələrlə o nömrəyə zəng edib, Muradın cavab verməyini gözlədim. O gündən sonra bir daha Muradın nömrəsinə zəng çatmadı...

Məndən soruşulsa ki, Murad sənin nəyindir? Mən o suala heç vaxt bir sözlə cavab verə bilmərəm. Çünki Muradın mənim üçün ifadə etdiklərini bir sözlə izah etmək mümkün deyil. Qısacası, Murad mənim arzularımı gerçəkləşdirən, sevincimə, kədərimə, çarəsizliyimə şərik olan dostum, çıxılmaz, qaranlıq yollarıma işıq, yol yoldaşım, gələcəyə ümidləndirən əzizim idi!

Muradı yuxularımda tez-tez görür, hər çətin anımda yanımda hiss edirəm. Bir dəfə də yuxuma gəlib mənə olduğu yerdən danışırdı... Oranı mənə göstərib:

– *Bax gör, nə gözəl yerdir bura. Tam mənə uyğundur. Yaşıl meşəlik, çayın səsi... Arzuladığım kimidir hər şey, burada çox yaxşıyam, rahatam,* – deyir, hər zaman olduğu kimi gülümsəyirdi.

Bir dəfə Murada onu yaxşı tanımadığımı demişdim. *"Sən məni çox yaxşı tanıyırsan, mənim haqqımda hər şeyi bilirsən",* – deyə cavab vermişdi. Muradı tanımaq, onunla qısa da olsa, yol yoldaşı olmaq sözlərlə ifadə edilə bilməyəcək qədər gözəl bir duyğudur.

Muradı tanıdığım gündən onunla fəxr edir, qürur duyurdum. Yaşadığım müddətcə hər saniyə Muradla fəxr edəcəyəm. O bir dəfə demişdi ki, *qayıdanda əvvəlki Murad olmayacağam*. Dediyini etdi. Əvvəlki Murad olmadı.

Əvvəlkindən də daha əziz, daha sevimli, daha qəhrəman bir insan oldu. İndi o mənim qəlbimdə daima qəhrəman olaraq yaşayacaq!

## Tamella Süleymanova
***(xalası)***

Mən Muradın böyük xalasıyam. Qazax rayonunun sərhəd kəndi olan – Məzəm kəndində yaşayıram.

Murad haqqında çox danışa bilərəm. O tez-tez kəndə gələrdi, mənə də baş çəkərdi. Murad boylu-buxunlu, çox çılğın, istiqanlı uşaq idi. O həm də çox ağıllı, dərrakəli, qoçaq idi. Həmişə deyərdi ki, *mən hərbçi olacağam.* Uşaqlıqdan istəyi, arzusu hərbçi olmaq idi. Deyirdi: *“Xala, gərək mən bu ermənilərin axırına çıxam”.* Vaxt gəldi, vədə yetişdi, Murad orta məktəbi bitirib, hərbi məktəbə daxil oldu. Oxudu, hərbçi oldu. Rütbəsi leytenant idi. Üç ay idi, məktəbi qurtarıb işləyirdi ki, İkinci Vətən Müharibəsi başladı. O da digər gənclər kimi, vətənimizin igid oğulları kimi yurdumuzun müdafiəsinə yollandı. Oktyabrın 11-i Füzuli–Cəbrayıl istiqamətində gedən döyüşlərdə şəhid oldu.

Vətənə sədaqət, məhəbbət, igidlik və qoçaqlıq Murada həm də irsi olaraq keçmişdi. Mən mühacir qızıyam. Atam – Məhəmmədi Qəzənfər Cənubi Azərbaycanın azadlığı uğrunda üsyanda iştirak etmiş və 1946-cı ildə məlum məsələyə görə Azərbaycana köçmüşdür.

Mən şəhid anasıyam. Muradın xalası oğlu – mənim kiçik oğlum Süleymanov Şahin 1973-cü il təvəllüdlü idi. Hələ 19 yaşı tamam olmamışdı. O, 1992-ci ildə Birinci Vətən Müharibəsində Odun dağı deyilən yüksəklik uğrunda gedən döyüşlərdə topçu yoldaşları ilə xəyanətə uğrayıb, şəhid olmuşdur.

Böyük oğlum Süleymanov Bəhruz Birinci Vətən Müharibəsində polis dəstəsində torpaqlarımızın bütövlüyü uğrunda vuruşub, indi isə təqaüddədir. Üç nəvəm hərbçidir.

İkisi Sərhəd Qoşunlarında, biri Daxili Qoşunların xüsusi təyinatlı dəstəsində vətənə qulluq edir. Kəndimizdə mənfur düşmənlərlə nə qədər atışmalar olub, başımız min cür bəlalar çəkib, evimiz-eşiyimiz dağılıb, mən yenə də heç vaxt kənddən qırağa çıxmamışam. 74 yaşım var, bu yaşımda da canımı vətən üçün fəda edərəm.

Muradın indisi də, keçmişi də vətənə bağlı insanlar olub. Murad da onların yolunu davam etdirib.

Muradın çox arzuları var idi. Hamısı yarımçıq qaldı. Vətən sağ olsun!

Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bütün şəhidlər hamısı bizim balalarımızdır, hamısı bizim övladlarımızdır. Ruhları qarşısında şəhid anası kimi dönə-dönə baş əyirəm.

## Tahirə Məhəmmədi
***(xalası)***

**Tahirə:** Ah Murad! Murad! Yarımçıq qalmış arzular... Qəhrəman Murad!

Heç fikirləşməzdim ki, nə vaxtsa Murad haqqında xatirələrimi danışacağam. Onun haqqında danışmaq mənim üçün həm çətin, həm də qürurvericidir. Bizim gözümüzdə həmişə körpə, məsum qalan Murad elə 14 yaşında ayağına əsgər çəkməsi geyinib, ana nəvazişindən, ailə qayğısından uzaq yaşayandan qəhrəman imiş.

2020-ci ilin iyul ayının 29-u idi. Murad bizə gəlmişdi. Anasıgil də bizdə idi. Həmişə səsli-küylü, gəlişi toy-bayram olan, gülərüz, şən Muradı ilk dəfə idi ki, belə yorğun, belə qəmgin görürdüm. Kaş biləydim, o anda hansı hissləri keçirirdi.

– *Görəsən, Murad müharibənin başlayacağını, özünün də şəhid olacağını əvvəlcədən hiss etmişdimi?*

**Tahirə:** Murad şəhid olacağını, elə bil, əvvəlcədən bilirdi. 2020-ci ilin may ayı idi. Məzun olmasına az bir vaxt

qalırdı. Evə gəlmişdi, oturub söhbət edirdik. Hamımız sevinib, onu təbrik edirdik ki, məzun olursan, məktəbi bitirib işləyəcəksən. O isə bizə baxıb dedi: *"Məktəbi qurtaran kimi şəhid olacağam".* Murad, bəlkə də, həmin vaxt qəhrəmanlıq salnaməsinin ilk pillələrini yaşayırmış, amma biz onu duya bilmədik.

– *Muradın hansı arzuları var idi?*

**Tahirə:** Arzular çox, ömür az... Onun arzuları çox idi. İstəyirdi ki, az müddətdə həm işində, həm də şəxsi həyatında uğurları olsun. Hər şeyin yolunda olması üçün çox tələsirdi.

Nəhayət, Murad məktəbi bitirib ilk arzusuna çatdı. "Leytenant" rütbəsi alıb, tank komandiri olaraq işə başladı. Ancaq amansız müharibə imkan vermədi. Sentyabrın 27-də bütün vətən oğulları kimi Murad da müharibəyə getdi. Heç kimə demədən, heç kimlə görüşmədən...

– *Onunla heç olmasa telefonla danışa bildinizmi?*

**Tahirə:** Mən 10 gündən sonra bildim ki, Murad müharibəyə gedib, çünki mənə demişdilər ki, onları aparmayıblar. Həmin an hansı hisslər keçirdiyimi ifadə edə bilmərəm. Elə həmin gün onunla telefonla danışdıq. İlahi, Murad necə ürəkli, necə gülə-gülə danışırdısa, biranlıq onun müharibədə, odun-alovun içində olduğunu unutdum. Bu cəsur, qorxmaz Muradım az bir vaxtda necə də olğunlaşmış, elə bil neçə yaş böyümüşdü.

Onun döyüş yoldaşlarının xatirələrinə qulaq asdıqca, Muradın müharibənin ilk günündən şəhid olduğu ana qədər necə qəhrəmancasına döyüşdüyünü, hər zaman irəlidə getdiyini, dayanıb-dincəlmədən, gecə və gündüz torpaqlarımızın azadlığı uğrunda vuruşduğunu dinlədikcə sinəmiz qürur hissi ilə dolub-daşır.

Bilmirəm, Muradı qəlbimizdə necə yaşadaq. Qəhrəman şəhidmi, həvəskar musiqiçimi, yoxsa gözəl şeirlər müəllifi kimimi? Həmişə zirvələrdə olmağı istəyirdin. Şəhidliyinlə ən uca zirvələrdəsən, cənab leytenant!

## Aynurə və Samirə Həsənovalar
### *(xalası qızları)*

**Aynurə:** Murad bizim evin balacası, sevimlisi idi. Onun körpəliyi, uşaqlığı bizdə keçmişdi. Hamımızın əzizi, dəyərlisi idi. O çox ağıllı, tərbiyəli, hər kəsə qarşı sevgi dolu, canayaxın bir uşaq idi. Hamımız onu əzizləyir, çox istəyirdik. O bizim kiçik qardaşımız, canımız idi. Onun yoxluğu hamımıza çox böyük dərddir. Muradın artıq həyatda olmadığına inanmaq çox çətindir.

**Samirə:** Murad haqqında danışmaq mənim üçün çox çətindir. Muradgilin bacısı yoxdur, amma biz ona bacı kimi idik, o da bizim qardaşımız, heç vaxt böyüməyən körpəmiz idi.

Murad deyəndə mənim gözümün qabağına dağ başında yaşayan qartal gəlir. O da bir qartal kimi qorxmadan, çəkinmədən düşmənin üzərinə şığıdı. Murad həmişə birinci olmaq istəyərdi. Çalışardı ki, həmişə ən ön sıralarda olsun. Elə Vətən müharibəsində də ən ön sıralarda iştirak etdi.

**Aynurə:** O, uşaqlığında hər il yay tətilini bizdə keçirərdi. Muradın artıq 6 yaşı tamam olmuşdu və həmin il o, məktəbə başlamalı idi. Həmin yay mən onun əlindən tutub, ilk dəfə hərfləri yazmağı öyrətməyə başladım. Murad çox həvəsli və bacarıqlı idi. Buna görə də o tez bir zamanda bütün hərfləri öyrəndi və artıq sərbəst yazmağa başladı. Lakin oxumaqda bir az çətinlik çəkirdi. Hətta yadımdadır, onu bir neçə dəfə danladım ki, bütün hərfləri tanıyırsan, bəs niyə oxuya bilmirsən? Bundan sonra o təkbaşına çalışıb, oxumağı da öyrəndi. Murad çox əzmli və bacarıqlı olduğu üçün cəmi bir neçə ay ərzində sərbəst yazıb-oxumağı öyrənmişdi.

Həmin yay mən Murada latın əlifbası ilə yazıb-oxumağı öyrətmişdim. Amma bizdə həm də kiril əlifbası ilə olan xeyli kitab var idi. Murad o kitablara da böyük maraq göstərirdi. Buna görə də o, kiril əlifbasını heç kimin köməyi olmadan təkbaşına öyrəndi və həmin kitabları da oxuma-

ğa başladı. Bu onun kitaba, elmə, oxumağa olan həvəsinin nəticəsi idi. O çox bacarıqlı və istedadlı bir uşaq idi.

– *Uşaqların əzbərlədikləri ilk şeir, adətən, Abdulla Şaiqin “Xoruz”, ya da “Keçi” şeirləri olur. Bəs Muradın öyrəndiyi ilk şeir hansı idi?*

**Samirə:** Murad da o şeirləri lap körpəliyindən bilirdi, amma yadıma gəlir ki, onun özünün oxuyub əzbərlədiyi ilk şeir Əhməd Cəmilin “Can nənə, bir nağıl de” şeiri idi. Şeir 6-cı sinfin kitabında olsa da, Murad bu şeiri əzbərləyəndə onun cəmi 5, ya da 6 yaşı var idi.

**Aynurə:** Bunlar onun gələcək təhsilindəki uğurlarının ilk nişanələri idi. Murad məktəbdə də biliyi və bacarığı ilə seçildi və yüksək balla Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olundu.

**Samirə:** Birinci olmaq, qabaqda getmək onun lap uşaq vaxtlarından olan xüsusiyyəti idi. O həmişə deyərdi ki, böyük evi, bahalı avtomobili olacaq. Heç vaxt kiçik şeylərlə kifayətlənməzdi. Həmişə və hər şeydə birinci olmaq istəyərdi. Oxumaqda da, gəzməkdə də... Məhz bu birinci olmaq istəyi, vətən eşqi Muradı müharibəyə də, döyüşə də birinci apardı.

– *Bəs Muradın xarakteri necə idi?*

**Aynurə:** Murad çox kövrək, incəqəlbli, təmizürəkli bir uşaq idi. Bütün uşaqlar kimi dəcəllikləri, təbii ki, var idi, amma o heç vaxt heç kimi incitməzdi, hamıya qarşı sevgi dolu idi. Muradın musiqiyə, şeirə olan marağı da onun qəlbinin saflığından, incəliyindən, sevgi dolu olmağından irəli gəlirdi.

**Samirə:** O, uşaq vaxtlarından hamının sevimlisi idi. Muradı tanımayan adamlar belə onun danışığına, şirinliyinə valeh olurdular.

Evimizin yanında park var idi. Xalası, yəni anam onu parka aparanda Murad həmişə gedib özündən yaşca böyük insanlarla söhbət edərdi. Anam da hirslənərdi ki, sən niyə yaşıdlarınla oynamaq əvəzinə gedib tanımadığın adamlarla danışırsan?

Bir dəfə Muradla qonaq gedirdik. Yolda dondurma istədi. Mən də pul verdim ki, gedib alsın. Geri qayıdanda gördüm, həm dondurma, həm də pul hələ də əlindədir. Soruşdum ki, pulu niyə verməyibsən? Dedi ki, *verdim, amma satıcı götürmədi*.

**Aynurə:** Bu gün Murad haqqında keçmiş zamanda, bir xatirə kimi danışmaq çox çətin və ağırdır. Nə ürəyimiz, nə də beynimiz bunu heç cür qəbul edə bilmir. O hər zaman bizim ürəyimizdə, qəlbimizdə yaşayacaq.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, eyni zamanda bizim Muradımıza. Hamımız səni çox istəyirdik, Muradım. Yerin cənnət olsun. Əminəm ki, məhz elə oradasan.

## Türkanə Əsgərova

***(xalası oğlunun həyat yoldaşı)***

2019-cu ilin son günü idi. Biz hamımız bir süfrə arxasında əyləşib, deyib gülə-gülə, şən yeni ilin gəlişini qeyd edirdik. Yaşayacağımız acı, kədər dolu ayrılığın yaddaşımıza hüznlü, dərin iz qoyacağı ilin – 2020-ci ilin gəlişini sevinclə qeyd edirdik. Murad həmişəki kimi uşaqları – Atilla və Mehinbanunu ətrafına yığıb, onlarla uşaq kimi əylənirdi. Bütün bayramları birlikdə qeyd edərdik. O gecə bizim Muradla keçirəcəyimiz son bayram idi.

Murad uşaqların balaca əmisi idi. Uşaqlar onu hamıdan çox istəyirdilər, çünki o, uşaqlarla uşaq, böyüklərlə böyük olurdu. Zaur əmiləri cavan yaşda vəfat etdiyindən bizim uşaqların əmisi olmayıb. Murad həmişə onların könüllərini almağa, sevindirməyə çalışardı. Hər gəlişində uşaqlar üçün hədiyyələr, oyuncaqlar alardı. Biz ona deyinərdik ki, uşaqları pis öyrətmə. O isə cavabında deyərdi: *“Mən onların əmisiyəm, mənə almaq olar”.*

Murad 6 yaşından bizim gözümüzün önündə böyüyüb. Uşaq yaşlarında necə saf, təmizqəlbli, mehriban,

deyib-gülən, şən idisə, böyüyəndə də o uşaq xasiyyəti dəyişməmişdi. Onun nə vaxt böyüdüyünü biz heç hiss etmirdik. O bizim gözümüzdə balaca, sarışın, toppuş, şirin uşaq olaraq qalıb. Amma Murad döyüşdə göstərdiyi igidliyi, qəhrəmanlığı ilə bizə sübut etdi ki, o, vətən üçün canını qurban verəcək qədər böyüyüb.

Murad ana torpaq və sevdikləri arasındakı seçimdə bir vətənpərvər oğul kimi vətəni, torpağı seçdi. Biz isə böyük təəssüf hissi ilə onun yoxluğunu qəbul etməyə çalışırıq. Bizim üçün Muradın yoxluğu çox acı, kədər doludur.

Mehinbanunun, Zaurun, Olcayın sevimli əmisi, səni heç vaxt unutmayacağıq. Səninlə qürur duyur, fəxr edirik. Sən bizim qəhrəman əmimizsən.

## Elnurə Bingöl
***(kirvəsinin həyat yoldaşı)***

Nə vaxtsa Murad haqqında xatirələrimi bölüşəcəyim ağlımın ucundan belə keçməzdi. Bəlkə də, sağlığında onun belə böyük, belə unudulmaz bir insan olacağını bilə bilməzdik. Amma o bizim hamımıza nümunə, örnək olacaq şəhadətə yetişdi. Murad hamımızın içinə elə bir yol açdı, o yolu da elə bir atəşlə yandırdı ki, onun adı gələndə bu yol hamımızın ürəyini yandırır.

İstanbulda oxuyanda Murad arada bizə gələrdi. Söhbətlərimizdə görürdüm ki, incəsənəti, musiqiyə qulaq asmağı, kitab oxumağı çox sevir. Gözəl şeirlər yazdığını da bilirdim.

Vaxtsız gedişlərin yerini heç nə doldurmur. Məncə, anasız övlad, övladsız ana – hər ikisi boşdur. Bir övlad neçə yaşında olursa olsun, anasını istəyir, ana da neçə yaşına gəlirsə gəlsin, övladını qorumaq istəyir. Biz nə etsək də, şəhid analarının içindəki atəşi hiss edə bilmərik. Allah hamısının ürəyinə səbir suyu səpsin ki, ən azından onların xatirələri ilə ovuna bilsinlər.

Mən Muradın qohumu olmağımla fəxr edirəm, qürur duyuram. Biz onu hər zaman xatirələrimizdə özləmlə anacağıq, çünki insanın xatirəsi elə onun ürəyində hiss etdiyidir. Allah bütün şəhidlərimizə rəhmət etsin.

## Ayişə Səfərli
***(Nərminin bacısı)***

Nağıyevlər ailəsi... İlk ağıla gələn şey doğmalıq, mehribanlıq və ürəkaçan xatirələrdir. Təbii ki, bu cür mehriban qohumluğun başlıca səbəbi Nağıyevlər ailəsinin bacıma olan sevgi və hörmətidir. Nağıyevlər ailəsi ilə bağlı xoş xatirələri uzun-uzadı yazmaq mümkündür. Ancaq bu xatirələri Vətən müharibəsi yarıda qoydu...

Murad hər iki ailənin sevimlisi, əzizi idi. Onun haqqında ancaq gülümsəyərək danışmaq mümkündür. Muradın məzun olmağını hamımız səbirsizliklə gözləyirdik. Bizim onunla ortaq arzumuz avtomobil almaq idi. O həmişə deyirdi ki, *Ayişə, sən məndən qabaq maşın alsan, gərək mən maşın sürməyim*. Bir dəfə bizdə qonaqlıqda sağlıq deyib, *hər ikimiz üçün avtomobil, özü üçün isə doqquzillik əziyyətinin axırında məktəbi bitirib, ulduzlarını taxmağı* arzu etmişdi. Bir neçə il sonra hər iki arzusuna çatdı. Amma indi, mən düşünürəm ki, kaş onda biz hamımız Muradın həmişə bizim aramızda olması üçün sağlıq deyərdik.

Bizim ortaq sevgimiz bacım oğlu Atilla idi. Hərdən mənə onunla bağlı irad tuturdu. Axırıncı dəfə Atilla ilə telefondakı proqramda gülməli şəkillər çəkdirmişdik. Murad həmin şəkilləri görəndə etiraz edib: *"Uşağı kişi kimi böyüdün!"* – deyə iradını bildirmişdi... Hə, Murad! Bir zamanlar üzərində sənin addımladığın, uğrunda canını verdiyin torpaqda, vətəndə Atillalar ancaq kişi kimi böyüyə bilər...

Muradı ağıllı, tərbiyəli, mehriban, gülərüz, öz istəklərini yerinə yetirən bir insan kimi tanıyıram. Adi həyatda olduğu kimi müharibədə də öz hədəflərinə çataraq bunu bir daha hamımıza sübut etdi.

Müharibəyə hazırlıq gözümüzün önündə gedirdi, amma Ermənistanla sərhəddəki Cəfərli kəndində yaşayan nənəmgilin həyətində qazılan səngər belə bizi inandıra bilməmişdi ki, doğrudan da, müharibə başlaya bilər.

Mən sentyabrın 26-sı rayondan Sumqayıta qayıdarkən yolboyu üzü Qarabağa tərəf hərəkət edən tankları müşahidə edirdim. Heç ağlıma belə gəlməzdi ki, bu tankların arasında Muradın komandiri olduğu tank da var və biz həmin günün səhərini müharibə xəbəri ilə açacağıq.

27 sentyabr, müharibənin ilk günü... Həmin gün bacım və Atilla bizdə idilər. Müharibə xəbərini eşidəndən sonra bibim qızları da bizə gəldilər. Hamımız çaşqınlıq içində idik. Elə hey Murada zəng edib, ondan bir xəbər almağa çalışırdıq. Muradın da cəbhəyə yola düşdüyünü öyrənəndən sonra onun üçün daha çox narahat olub, hər günümüzü bir-birimizdən Muradın halını soruşaraq keçirirdik... Hər dəfə birimiz Murada zəng edib, bizim üçün dəyərli olduğunu ona hiss etdirirdik.

Müharibə vaxtı Muradla tez-tez əlaqə saxlasam da, çox danışa bilmirdim. Təkcə səsini eşidib, onu bir az da cəsarətləndirib, özünə yaxşı bax, deyib, sağollaşırdım. Bir dəfə Muradın nömrəsinə zəng etdik, ancaq operatorun başqa dildə nəsə dediyini eşidən kimi ağlımıza “Murad əsir düşüb” fikri gəldi. Çox narahat idik. Bir neçə saat sonra Murad özü zəng edib, hər zaman olduğu kimi gülə-gülə: *“Qorxmayın, yaxşıyam”,* – deyib, bizi sakitləşdirmişdi. Günlərimiz ondan xəbər gözləməklə keçirdi. Ta ki həmin acı xəbəri alana kimi... O gündən sonra isə, bəlkə, Murad özü gələr deyə gözümüz yollarda qaldı...

12 oktyabr səhəri yuxuda gördüm ki, bir yerə çoxlu insanlar yığışıb. Sanki pis xəbər olduğunu duyub, oradan qaçıb uzaqlaşmaq istədim. Ancaq mən qaçdıqca bu insanlar yenidən qarşıma çıxırdı. Taqətdən düşüb yıxıldım. Və telefonun zənginə oyandım... Zəngə cavab verən kimi bacım dedi ki, deyəsən, Murad şəhid olub, bizə gəl! Bu qısa, ancaq çox acı cümlə hər zaman yaddaşımda qalacaq.

"Bağışla, Murad, bəlkə də, mən yuxuda yorulub yıxılmasaydım, belə olmazdı", – deyə həmin an düşündüm.

Oktyabrın 20-si, Murad dəfn olunan gün Atilla bunu hiss edib, yuxudan "Muad" (Murad), "Havər" (Xavər) deyə sayıqlayıb oyanmışdı.

Murad o gündən sonra yuxularıma həyatda olduğundan da şən, gülər üzlə gəlir.

Bir neçə gün əvvəl işdə bizə şəhidlərlə bağlı qısa video hazırlamağı tapşırmışdılar. Mən də Muradla bağlı video düzəltmək istədim. Bir neçə şəklinin üzərində işlədikdən sonra davamını gətirə bilmədim və əlimi saxlayıb, sanki Murad qarşımdaymış kimi ona gileyləndim. Dedim ki, onsuz da bunların bir mənası yoxdur. Sizlər üçün nə etsək də, boş yerədir sanki. Həmin gecə yenə yuxuda Muradı gördüm. Səmada XTQ (Xüsusi Təyinatlı Qüvvələr) ilə məşq edirdilər. Murad həmişəki kimi halından çox məmnun idi. Ancaq mənə tərəf baxıb, narazılığını bildirdi. Ona: "Nə mənası var bunların? Onsuz da sən qayıtmırsan", – deyirmişcəsinə baxdım. Murad isə mənə: *"Sən məndən narahat olma. Mən haradayam, necəyəm, sən onu fikirləşmə. Mənə bura rahatdır! Sən əlindən gələni et!"* – dedi. Bu yuxunun təsirindən hələ də çıxa bilməmişəm. Ancaq söz verdim ki, yaşadığım müddətcə Muradın xatirəsini yaşadacaq işlər görəcəyəm.

Murad, sən bizi duyur, görürsən! Amma kaş biz də səni biranlıq görə biləydik.

Bəzən düşünürəm ki, həyatda ən çətin şey yaxınını itirmiş birinə səbir elə, keçər – deməkdir. Təbii ki, kənardan deyilməsi asan olan bu kəlmələri biz də məcbur olub ətrafımızdakılara demişik. Ancaq canını bizlərə görə fəda edən gənc şəhid Murad Nağıyevin anasına hansısa sözlərlə təsəlli vermək çox ağırdır. Mən, yəqin ki, illər keçsə də, Xavər xala ilə bu barədə danışa, ona heç cür təsəlli verə bilmərəm. Ancaq bunu demək istəyirəm ki, Xavər xala, siz nə qədər əzab çəksəniz də, sizə bu həyat çox acı və dözülməz olsa da, Murad üçün tam əksidir.

## Fidan Hümbətli
***(Nərminin bibisi qızı)***

Murad! Murad! Sənin haqqında fikirlərim qarma-qarışıq olsa da, bölüşməliyəm.

Murad dayım qızının qaynıdır. Tanışlığımız 2016-cı ilin yay aylarında oldu. Həmin vaxt Murad Ankarada təhsil alırdı, valideynlərim isə orada səfərdə idilər. Onlar orada Muradla tanış olmuşdular. Anam mənə Muradla birlikdə çəkdirdikləri şəkli göndərib, “Baxın, burada kim var?” mesajını yazmışdı. Muradı onda tanıdım. Həmin vaxta qədər sadəcə adını eşitmişdim. Bu gün Murad və anam – hər ikisi yanımızda deyillər, şəkildəki kimi ikisi də bir yerdədirlər. Əminəm ki, olduqları yerdə rahatdırlar.

Muradı tanıdığım gündən öz doğmammış kimi hiss etdim. Mən Muradı mehriban, şən bir insan kimi tanıdım. Çox vəfalı, zarafatcıl, şirindil, əylənməyi sevən, həyat dolu insan olub. Muradla tanışlığımız qısaömürlü olsa da, onunla bağlı hər zaman xoş xatirələrim olub.

Heç vaxt unutmaram, Muradın Türkiyədən Azərbaycana qayıtdığı ilin yayında dayımgil, Muradgil və bizim ailə İsmayıllı rayonuna istirahətə getmişdik. Orada olduğumuz müddətdə çox əyləncəli və unudulmayacaq xatirələrimiz oldu. Birlikdə İsmayıllının ən gözəl yerlərində olduq. Biz gənclər qardaşı Orxanın avtomobilində Lahıca getdik. Biz Muradla yolboyu arxa pəncərədən çölə boylanaraq getmişdik. Hətta həmin andan xatirə birlikdə şəklimiz belə var. O şəkli daima saxlayacağam. Şən, qayğısız, həyat dolu, xoş xatirəli şəkil...

Bir dəfə Murad qızılca olub, xəstəxanada yatmışdı. O sağalıb xidmətə qayıtdıqdan sonra mən də qızılca olub, həmin xəstəxanada yatdım. Murad bunu bilib, məni ziyarətə gəlmişdi. Orada olduğum müddətdə onu tanıyan bütün tibb işçiləri Murad haqqında xoş sözlər deyirdilər. Kollektiv hamısı onu çox istəyirdi. Murad

ünsiyyəti, xoş rəftarı və şirin dili ilə heç tanımadığı insanların xatirələrində yaxşı insan kimi qalmağı bacarırdı.

2020-ci il, 27 sentyabr... Səhər yuxudan oyandım ki, bazar günü olsa da, atamı işə çağırıblar. İnternetin olmadığını gördüyüm an müharibənin başladığını anladım. Televizoru açıb baxanda artıq xəbərlərdə müharibənin başladığını, Muradların orada tarix yazdığını gördüm. İlk ağlıma gələn "Atam Bakıda, cəbhədən gəlmiş yaralı əsgərlərin keşiyində, Murad isə cəbhədə, ön sıralarda, vətənin keşiyində..." düşüncəsi oldu. Biri illərin vətənə xidmət edən hərbi qulluqçusu, digəri isə hələ xidmətə yenicə başlamış, ancaq gələcəyi parlaq gənc zabit...

Murad cəbhədə olanda onunla tez-tez əlaqə saxlayırdım. Hər dəfə gülərək, zarafat edərək danışırdı. Bilirdim ki, ona danışmaq rahat deyil. Nə vaxt harada olduğunu soruşsam, gülərək ya *"Yerimizdəyik, hərəkət etmirik"*, ya da *"Qabağa gedirik"* sözlərini deyirdi. Bir gün Xavər xalayla danışa bilib-bilmədiyini soruşdum. Dedi ki, *danışa bilmirəm. Anam səsimi eşidən kimi ağlayır, mən də pis oluram.*

Bir dəfə iki-üç gün idi ki, zəng vura bilməmişdim. Özü mənə zəng edib:

– *Niyə məni axtarmırsan?* – deyə soruşdu.

Mən də gülüb:

– Murad, elə danışırsan, elə bil harasa gəzməyə getmisən, – demişdim.

Atam həmişə zarafatla: "Səndən hərbçi olmaz, Murad", – deyib, onu cırnadırdı. Amma Murad qəhrəman oldu! Onun cəbhədə olduğunu biləndə "Murad əliboş qayıtmayacaq", – deyə düşündüm. Elə də oldu. Murad əliboş qayıtmadı. O, canını, gəncliyini, gələcəyini xalqına, vətəninə verdi, amma 30 illik həsrətə də son qoydu. Onun şəhid olacağını ağlıma belə gətirməzdim. Heç indi də ağlım qəbul etmir. Muradın yoxluğu, müharibə, şəhid-

lərimiz – bütün bu yaşananların hamısı mənə hələ də yuxu kimi gəlir.

İtirmək acı bir hissdir. İnsanın sevdiyi bir doğmasını itirməsi çox çətindir. İnsan bunu asanlıqla qəbul edə bilmir. Bilirsən ki, həmin insan sənin yanında yoxdur, amma qəlbin, ağlın bütün xatirələrinlə onu yaşadır. Nə xoş ki, Murad sevənlərinin xatirələrində həmişə xoş, mehriban, gülərüz bir qəhrəman kimi yaşayacaq.

Sən hər birimizin xatirəsində yaşayacaqsan, Murad. Səni tanıdığıma görə çox şadam. Səninlə fəxr edirəm! Sən bizim Qəhrəmanımızsan!

## Polkovnik-leytenant Ramin Kərimov
***(tabor komandiri)***

Mən Muradın tabor komandiri olmuşam. Murad döyüşdən qabaq, döyüşün tarixiylə götürsək, 3 ay olardı, ya olmazdı bizim kollektivə qatılmışdı. Buna baxmayaraq, biz elə bilirdik ki, Murad üç ildir, bizimlə bərabər xidmət edir. O öz qanacağı, qabiliyyəti və mehribanlığı ilə hamının hörmətini qazanmışdı. Verilən tapşırıqları uğurla yerinə yetirir, bilik və bacarıqlarına görə başqalarından geri qalmırdı. Buna görə də onun üç ayın zabiti olduğu hiss olunmurdu.

Sentyabrın 26-sı həyəcan siqnalı verildi. Həyəcan siqnalı verilən zaman biz Qarabağ, Füzuli istiqamətində təxliyə olunduq. Taboru orada yerləşdirdik. İlk birinci bölüyümlə döyüşə girdim. İkinci və üçüncü bölükləri növbəti tapşırıqları yerinə yetirmək üçün hazırlıq vəziyyətinə gətirib ehtiyatda saxladım. Birinci bölüklə döyüşə girəndə hamıyla görüşdük. Tapşırdım ki, həmişə əlaqədə olsunlar. Ayın 30-da Füzulidə, Alıxanlı istiqamətində birinci tank bölüyümlə döyüşə girdik. Bizə verilən tapşırığı yerinə yetirərkən şəhid və yaralılarımız oldu, amma verilən tapşırığı da yerinə yetirdik. Daha sonra növbəti tapşırığı yerinə yetirmək üçün ehtiyatda olan bölmələrimin yanına qayıtdım. Muradın xidmət etdiyi ikinci tank bölüyüylə Füzulinin digər istiqamətində yarma əməliyyatı yerinə yetirəcəkdik. Murad, Rəhimli (Əziz), tibb maşınının sürücüsü və başqaları məni qarşıladılar. Görüşəndən sonra tibb maşınına gəldik. Kiçik yaralanmalarım var idi, həkim onları müayinə edirdi. Heç vaxt unutmaram, Murad dedi:

– *Nə təhər oldu döyüş?! Neylədilər?! İrəliləyə bildilər?!*

Dedim, irəlilədilər.

– *Şəhidlərimiz var?!*

Dedim, Murad, narahat olma. Mən onlara demək istəmirdim ki, kimlər şəhid olub, kimlər yaralanıblar. Amma

artıq qəhər məni boğur, gözlərimdən damcı-damcı göz yaşı gəlirdi. Eşitdim, arxadan deyir:

– *Gizlətməyin bizdən! Biz qorxmuruq! Biz gedib onların qisasını alacağıq!*

Göz yaşımı silib dedi:

– *Rəis, narahat olmayın. Möhkəm olun! Biz buradayıq, yanınızdayıq.*

Gətirdi, şokolad açıb verdi. Dedi*, görürəm halsızsınız, enerjiniz tükənib. Şokolad yeyin. Biz, inşallah, onların qisasını alacağıq.* Biri su gətirdi, bir başqası təmiz paltar verdi.

Oktyabrın 2-si biz Muradın bölüyü ilə, bölük komandirləri ilə Füzulinin digər istiqamətində, Lələtəpə istiqamətində yarma əməliyyatı yerinə yetirərək orada Kənd Horadiz istiqamətində döyüş tapşırığını yerinə yetirirdik. Ora dağlıq ərazi olduğu üçün mən taktiki qruplar yaratdırdım. Kənd Horadizi aldıqdan sonrakı günün səhəri isə mən iki tankla düzünə tuşlamaya getdim və Muradgili digər beş tankla birlikdə ehtiyatda saxladım. Onların tapşırığı biz hücum edərkən bizim arxamızca dəstək qüvvə kimi azad edilmiş həmin əraziləri təmizləmək, atəş mövqelərini tutmaq və hücum edən qüvvələrin atəşini dəstəkləmək idi. Həmin o tapşırıqla da biz Füzulinin 6 kəndini aldıq.

Ayın 5-i günü – Muradın mənim üstümə qışqırdığı, mənim onu tanımadığım gün... Həmin gün səhər-səhər biz hazırlaşırdıq ki, yenidən Füzuli istiqamətində başqa bir tapşırığı yerinə yetirmək üçün gedək. Planlaşdırmışdıq ki, Füzulinin arxa tərəfindən gedib erməniləri mühasirəyə alaq. Mən istədim, orada bəzi heyətlər daha təcrübəli olsun. Muradı da istəyirdim, ehtiyatda saxlayım ki, bir zabit də ehtiyat kimi qalsın. O isə buna qarşı çıxdı. Dedi ki, *mən ehtiyatda qalmayım, başqası qalsın, mən də döyüşə getmək istəyirəm*. Nə mənə qulaq asdı, nə də onun yerinə getmək istəyən baş leytenant yoldaşına. Mən dedim, düş, o dedi, *yox, mən gedirəm.* Axırda mənim üstümə qışqırdı:

– *Ay komandir, sən mənə imkan verəcəksən, mən döyüşə gedim?! Mən özüm döyüşəcəyəm! Mən gedib döyü-*

*şəcəyəm, qardaşlarımın qisasını alacağam! Düşmürəm mən!!!*

Oturdu tankına, düşmədi. Dedim, heç olmasa onda imkan ver, yanındakı əsgərini dəyişim. Əsgərin də eynəklədir, gözü zəifdir. Əsgəri də ağladı ki, mən komandirimi buraxmıram. Azər (Abdullazadə) gəldi, o əsgəri çıxartdı ki, sən çıx, leytenant Nağıyevlə mən döyüşə gedəcəyəm. Təsəvvür edin, zabit zabiti – baş leytenant leytenantı düşürdə bilmədi. Həmin gün onun dediyi oldu və Muradla getdik döyüşə. İki gün onlarla döyüşdük. 16 km irəlilədik.

Ondan sonra biz Hadrut–Xocavənd istiqamətində getdik. Orada gecəylə bizə yerdəyişmə tapşırığı gəldi. Bu zaman mən onlara tapşırıq vermişdim ki, həm bir-ikisaatlıq dincəlsinlər, həm də maşınlara (tanklara) sursat yükləyib, yanacaq doldursunlar. Tankları kolona qoyanda ardıcıl olaraq bir-bir maşınları çağırırdım. Muradın maşınına çatanda Murad əlaqədə yox idi. Nə qədər çağırsam da, cavab vermirdi: "Ay "27", cavab ver mənə!" Amma "27" (Muradın tankı) yox idi. "27" cavab vermirdi. Düz 5–6 km boyunca mən onu çağırdım, amma o cavab vermədi. Axırda rəhmətlik bölük komandiri dedi ki, mən gedirəm, gəldiyimiz yolla qayıdıram. Birdən onları tapa bilmərəm, qalarlar. Dedim, hə, sən get, tibb maşını da oradadır. Yəqin çıxmayıblar. Fərrux getdi. Yenə çağırdım ki, "27", ay "27". Birdən cavab verdi ki, *"27" qəbulda.* Dedim, ay Murad, sən haradaydın? Haradan gəldin? Sən maşında idin? Dedi, *hə, bir 10 dəqiqə gecikdim, qaçdım, mindim maşına.* Sən demə, tibb maşınında imiş. Bilmirəm, ağrısı var idi, ya nə idisə, tibb maşınında oturubmuş. Amma ağıllı iş görmüşdü. Rabitəni götürüb, yanında qoşub. Görüb ki, kolon çıxır, bunu çağırıram. Tibb maşınının sürücüsü yolu tanıyırmış. Murad da deyib ki, *məndə avtomat var, gedək, narahat olma.* Gediblər ermənin içindən fırlanıblar ki, kəsə olsun, tez gəlib kolona çatsınlar. Mən heç o yolu tanımırdım. Riskə girib, düz ermənin postunun altından fırlanıb qabağımıza çıxıblar. Səhəri çatmışıq oraya, deyirəm, sən

haradaydın? Deyir, *tibb maşınında idim.* Dedim, Murad, inşallah, ölməsək, qalsaq, sən bunun cəzasını çəkəcəksən. Heç vaxt unutmaram, Murad belə cavab verdi:

– *Cənab polkovnik, inşallah, torpaqları alaq, ölməsək, qalsaq, hər zaman cəzamızı çəkməyə hazırıq. Əsas odur ki, mən vaxtında, zamanında, qorxmadan gəlib sizin yanınıza çatdım. Sizi tək qoymaram.*

Sonra biz xüsusi təyinatlılarla taktiki qruplara bölündük. Muradgilin qrupu Araz istiqamətində, mənim qrupum isə Xocavənd istiqamətində hərəkət etdik. Döyüşə getməmişdən qabaq dedim ki, Murad, onsuz hamımız eyni vaxtda hücum etməyəcəyik, sən ikinci eşalonda ehtiyatda get. Sən hələ gəncsən, səni başqası əvəz etsin. Sən ikinci maşında öz atəşinlə dəstək ver. Mənim üstümə bozarıb: *"Cənab polkovnik, niyə mən?! Mən zabitəm! Mən bu tapşırığı yerinə yetirəcəyəm!"* – deməyi gözümün qabağından getmir. Hətta az qalmışdı ki, üstümə silah çıxartsın. Səsini qaldırıb əsəbi-əsəbi demişdi:

– *Siz mənə imkan vermirsiniz, mən qardaşlarımın qisasını alım! Mən düzünə tuşlamaya çıxmayacağam. Mən hücum edən maşında olacağam!*

Dedim, Murad, burada hamı döyüşməlidir, amma hərənin öz vəzifəsi, öz tapşırığı var. Murad dedi, *gedəcəyəm.* Dedim, gedəcəksən, buyur, əmr edirəm, get!

Mən sonradan öyrəndim, biz bölünəndən sonra da hər əməliyyatda özünü qabağa verirmiş ki, *mən gedəcəyəm*. Orada iki zabit idilər – bölük komandiri və Murad. Hər biri öz maşınından əlavə bir maşını da idarə edirdi. XTQ sızma edə bilsin deyə yarma əməliyyatı edirdilər. Dağıdıb bölgəyə girirdilər.

Axırıncı dəfə Muradı Arazqırağı döyüşlərin ortasında, şəhid olmamışdan üç gün öncə gördüm. Öz maşınımda "plitka" şokolad var idi. Heç vaxt yadımdan çıxmaz, onu gətirib Muradın heyətinə böləndə dedi ki, *cənab polkovnik, bu şokoladın bütöv bir dənəsi olsaydı, nə yeyərdim.* Dedim, inşallah, müharibə qurtarandan sonra hamımız

şokoladın içində üzəcəyik. Təki qələbəni əldə edək, şəhidlərimizin qisasını yerdə qoymayaq, işğal olunmuş torpaqlarımızı azad edək, inşallah, şokoladı da yeyərik.

Murad gözəl insan idi. Qanacaqlı, qabiliyyətli, vətənpərvər bir zabit idi. Yenə deyirəm, yenə təkrar edirəm: O, üç ay xidmət etsə də, mən elə bilirdim, onun üçillik xidməti var. Yəni elə bilirdim ki, o mən tabor komandiri təyin olunandan mənimlə bərabər xidmət edirmiş. Özünü kollektivə elə sevdirmişdi, bilik və bacarıqlarını elə göstərmişdi ki, mən elə bilirdim, o, uzun illərdir, xidmət edir. Allah rəhmət eləsin. Allah şəhadətini mübarək etsin.

## Baş leytenant Namiq Səfərov
***(döyüş yoldaşı, dostu)***

## Gizir Elsevər Hümmətli
***(döyüş yoldaşı, Muradın komandiri olduğu tankın mexaniki)***

*– Muradla ilk dəfə necə tanış olmusunuz?*

**Elsevər:** Komandirlə ilk dəfə o, AAHM-dən məzun olub bizim bölüyə təyinat alanda tanış olmuşam. 2020-ci il, iyul ayının 11-də.

*– Zəhmət olmasa, Murad haqqında xatirələrinizi bizimlə bölüşün. Onun arzu və istəklərindən, döyüş yolunuzdan danışın.*

**Elsevər:** Nüzgar kəndində gecəni səhərə qədər tankın içində yatdıq. Səhərə qədər yağış yağmışdı. Texnikanın içi nə qədər bağlı yer olsa da, kənarlarından üstümüzə yağış suyu tökülürdü. Səhər oyananda gördük ki, hamımız – bütün heyət suyun içindəyik. Orada meşəlikdə döyüş də gedirdi. Günümüz daim texnikanın içində keçirdi. Bir-birimizin üzünü elə də çox görmürdük, tək-tük hallarda bir yerə düşürdük. Ancaq döyüşdə olurduq. Ondan sonra bizi qruplara bölüb kəşfiyyatla, xüsusi təyinatlılarla birlikdə Cəbrayıl istiqamətində göndərdilər.

Bir dəfə gecə kiçik bir ocaq qalayıb oturmuşduq. Düşmən də bir tərəfdən atırdı. Orada xeyli adam var idi – özümüz idik, kəşfiyyatın uşaqları da var idi. Murad birdən qayıdıb dedi ki, *elə hamımız bir-birimizə baxırıq, amma bilmək olmaz, bəlkə, biz də sabahın nurüzlü şəhidləriyik.* Hamı dedi ki, sakit dur görək. Biz buraya ölməyə yox, öldürməyə gəlmişik. *"Onsuz da öldürürük, amma bilmək olmaz, burada ölmək də var, qalmaq da var",* – deyə cavab verdi.

Döyüşmədiyimiz, ya da döyüşə hazırlaşmadığımız vaxtlarda əsasən telefonla məşğul olurdu, sevdikləriylə əlaqə saxlayırdı. Günün çox hissəsini texnikanın üstündə keçirirdi. Gənc zabit olduğu üçün təcrübəsi az idi, amma öyrənməyə can atırdı. Kimi tuturdusa, texnikanın üstünə aparırdı ki, ondan nə isə öyrənsin. İlk dəfə döyüşə girəndə tabor komandirimiz onun gənc olduğunu nəzərə alıb istədi, Muradı texnikadan çıxartsın, amma o razı olmadı. Dedi: *"Texnika mənimdir. Buraya qədər gəlmişəmsə, buradan qabağa da gedəcəyəm!"* Əsgərimizi dəyişdirib yerinə Azəri verdilər. Komandirlə Azər bir-birlərinə dayaq idilər. Onlar yan-yana otururdular, daim birlikdə idilər. Bir-birlərini öyrədirdilər, birlikdə deyib-gülürdülər.

Bir dəfə Zəngilan yolunun üstündə hərbi hissə var idi, oranı dağıdırdıq. Gizir gəldi ki, mən oranı bilirəm, əsgər getməsin. Əsgərin yerinə o gizir getdi. Heyət olaraq Murad qayıtdı ki, *biz gedirik, maşını (tankı) işə sal.* Mənə, özü də, mexanik demirdi, sürücü deyirdi. Deyirdim, komandir, mən mexanikəm, mənə sürücü demə. Şəxsi sürücü deyiləm mən. Deyirdi: *"Sür e, sür, işə sal maşını".* Haradasa 15 km getdik. Zəngilan yolunun üstündəki hərbi hissəyə çatdıq. Dərənin arasında hərbi hissə idi, bu tərəfində də biz idik. Bir təpənin üstünə qalxıb oradan mövqe dəyişərək vurmalı idik. Oradan qalxdıq, 2-ni, 3-nü atandan sonra dedi ki, *buradan vurmaq olmur, sür ağaclığa.* Sürdüm, ağaclığın arxasında saxladım. Oradan başladılar hərbi hissəni dağıtmağa. Texnikadan çölə çıxıb, kəşfiyyat qrupunun

komandirinin binoklunu alıb baxırdı ki, görsün, haranı dağıdıb. Dedim, komandir, gir içəri. Biz tankın üstündə açıqdayıq. Yenə kəşfiyyat qrupunun yanında ağaclıq var, arxasında qorunurlar. Sən tankın üstündəsən, qırağa düşən nə isə olsa, sənə dəyə bilər, gir içəri. Baxandan sonra dedi ki, *bir də sür həmin yerə.* Həmin yerə bir də verdim. Bir-iki yer qalmışdı, oranı da dağıtdılar. Qayıtdı ki, *mərmimiz qurtardı. Qayıdaq, sursat yükləyək, lazım olsa, bir də gələk.* Bir az arxaya verdim. Artıq torpaq yoldan asfalta çıxırdım, birdən qayıtdı ki, *dur!* Dayandım. Dedim ki, komandir, nə oldu, niyə dayandıq? Sursatımız yox, yanacağımız da az qalıb. Qayıtdı ki, *dur, qoy bir də baxım.* Elə onu təzəcə demişdi, qayıtdı ki, *sür, sür, sür!* Aramızda 5–6 saniyəlik anlaşılmazlıq oldu. Həmin vaxt ərzində texnikanın yanına nə isə düşdü. Partlayış oldu. Gördüm ki, gizir texnikanın üstündən düşür, qolunu tutub. Komandir də içəridə bağırır ki, *sən niyə dayandın?* Dedim, komandir, sən dedin, dayan, dayandım. Deyirsən, sür, sürürəm. Nə olub? Nə məsələdir? Dedi ki, *"minamyot" atdılar.* Komandirin bəxti gətirdi ki, tankın qapağını təzəcə açırmış. O, qapağı açan vaxt "minamyot" düşüb. Qəlpə onu tutmamışdı, amma giziri tutmuşdu. Qolundan və bədənindən qəlpə yarası almışdı. Oradan qayıdandan sonra bir gün məni danışdırmadı. Getdim-gəldim ki, ay komandir, məndən niyə küsübsən? Niyə danışdırmırsan? Dedi ki, *sən tankı sürmədin, ona görə də gizir yaralandı.* Bir gün yalvar-yaxardan sonra birtəhər barışdıq onunla.

*– Gizir yaralananda Murad ona nə isə köməklik göstərdi?*

**Elsevər:** Əlbəttə. Murad onun texnikadan çıxmağına kömək etdi, kəşfiyyatın maşınına mindirib arxaya yola saldı. Təzədən qayıdıb gəldi. Dedi ki, *sür.* Dediyim kimi, bir gün mənimlə danışmadı. Dedim, başına dönüm sənin, mənlik nə var? Özünüz də bilirsiniz ki, hərbi hissəni dağıdırıq. Bu hərbi hissədə bir nəfər deyil, iki nəfər deyil. Allah bilir, neçə min adam var. Hərəsi götürüb bir şey atsa, haraya düşəcək – bilmirik. Bir gündən sonra birtəhər

barışdıq. Həmin yerdən qayıdanda da mənə dedi ki, *bir az yavaş sür, ağrıyıram.* "Minamyot"un dalğası onu da vurmuşdu. Dedim, yaxşı. Yavaş-yavaş sürürdüm, arxamızdan birini də atdılar. Bundan sonra mənə dedi ki, *sən sür, dayanma, arxaya mən baxıram.* Dedim, nə oldu? Texnikanın səsindən arxada nə baş verir, mənim xəbərim olmur. Dedi ki, *sən sür, arxadan atırlar.* Bir az sürəti artırdım. Dedi ki, *yox, tam sürətlə sür*. Tam sürətlə sürüb gəldik. Çatanda mənə dedi ki, *sən niyə yolda yavaş sürdün? Bizi arxadan vursaydılar, nə olacaqdı?* Dedim, komandir, başına dönüm, sən demədin yavaş sür? Dedi ki, *nə olsun mən elə dedim? Sən sürətlə sürməli idin.* Dedim, yaxşı, bundan sonra sən mənə desən ki, yavaş sür, mən sürətlə sürəcəyəm.

Bir də gördün sevinə-sevinə gəlir.

– Nə olub, komandir?

– *Heç nə, qardaşım deyib, gəl, maşını sənə verəcəyəm, bir ay sürərsən, mən istəmirəm.*

Deyirdim:

– Komandir, sən canın bir qərar ver də, ya onu seç, ya bunu. Hansını istəyirsən?

– *Yox e, pikapı alacaqlar, o heç, amma qardaşım söz verib, öz maşınını da verəcək, bir ay sürəcəyəm.*

– *Maşına həvəsli idi, hə?*

**Elsevər:** Bəli. Bütün maşınlara da baxırdı. Kəşfiyyatın maşınına qədər gedib baxmışdı ki, *görüm bu necədir, bundan ala bilərəmmi*? Deyirdim, komandir, sən zirehli maşını neynirsən? Sənin maşınının zirehi ondan qalındır. Deyirdi: *"Yox e, xoşuma gəlir, bunun görünüşü qəşəngdir".* Axır ki, kəşfiyyatın pikapını alıb sürdü.

**Orxan (qardaşı):** Axırıncı gün sürmüşdü, ayın 10-u.

**Elsevər:** Hə, aldı, Cəbrayılın dairəsində sürdü. Qayıtdı ki*, mən bundan alacağam.* Qardaşı ilə danışanda dedi ki, *mən artıq sənin maşınından istəmirəm, pikap istəyirəm.* Qardaşı da söz vermişdi ki, ondan alacaq.

Axırıncı gün döyüşə gedirdik. Səhər tezdən idi. Heç yemək də yeməmişdik. Dedilər ki, tərpənirik, cəld olun,

gedirik. Yeməyi sonra gəlib əlavə sursat yükləyəndə yeyərsiniz. Dedik ki, heç nə, əsas döyüşdür, gedək. Komandir mənə dönüb dedi ki, *heyət, sənə sürprizim var.* Dedim, komandir, de görək nədir? Dedi: *"Yox, gedək, gələk, deyəcəyəm".* Dedim, komandir, nə olar de. Gedirik, heç olmazsa, ürəyimdə xal qalmasın. Bilim, görüm, nəyə görə gedirik. Nədir mənə sürprizin? Mən kolbasanı çox xoşlayıram. Komandir də kolbasa yeyən idi, mən də. Neçə gün idi, deyirdim ki, komandir, ürəyim kolbasa istəyir. Sonradan öyrəndim ki, sən demə, o, gecəylə kolbasa gətizdirib, birini mənim üçün ayırıb, qırağa qoyub. Mən həmin vaxt bunu bilmirdim. Oturduq texnikaya. Həmişə ikinci gedirdik. Qabaqda bölük komandiri gedirdi, arxasınca da biz. Tankları işə salıb sıraya qoyanda komandir dedi ki, *heyət, bu gün qabaqda biz gedirik.* Dedim, komandir, həmişə ikinci getmişik, gəl indi də ikinci gedək. Yolu-izi də tanımırıq. Əsas bölük komandiridir, onun rəhbərliyi altında gedirik. Dedi, *qabaqda biz gedək, mən əlaqə saxlayacağam.* Tərpəndik. Cəbrayılın Saatlı kəndi istiqamətinə getdik. Kəndin içindən təzəcə keçirdik. Bir kəlmə bunu eşitdim:

– *Heyət, dur!*

Ondan sonra mən onun səsini bir də eşitmədim. Tankın mühərriki söndü. Birtəhər onu yenidən işə salıb təhlükəsiz əraziyə çıxartdım. Özüm tankdan çıxdım, əsgəri də çıxartdım. Azər tanınmaz vəziyyətdə idi. Lazım olan yerlərə məlumat verdim ki, heyətimdən bir şəhid, bir də yaralı var. Şəhidi çıxara bilmədim. Ancaq yaralını çıxarmışam, hospitala aparıram. Azəri aparıb hospitala çatdırdım, ancaq mən özüm orada qalmadım.

– *Sənə bir şey olmamışdı?*

**Elsevər:** Olmuşdu. Məndə hal-hazırda kəllə-beyin travması var. Arabir yaddaşım itir, amma olan şeydir, düzələcək.

– *Kolbasanı yediniz?*

**Elsevər:** Xeyr, kolbasa tankın üstündə qaldı. Azər komandirin kolbasa götürdüyünü bilirdi. O, sonradan mənə dedi ki, komandirin sənə sürprizi kolbasa idi.

Bütün əşyaları tankın üstündə idi. Təkcə qol saatından başqa. Döyüşə gedəndə həmin saat texnikanın üstündə nəyəsə ilişib qırılmışdı. Komandir cibinə qoyurdu. Dedim, qoyma, ver mənə, çantaya qoyum. Onsuz da buraya geri qayıdacağıq.

– *Siz ikinci getsəydiniz də, belə ola bilərdi?*

**Elsevər:** Biz ikinci getsəydik, bizim önümüzdəki tanka olacaqdı. Məlum məsələ idi. Yəni birinci tank biz idik, bizə dəymişdisə, deməli, bizdən qabaqda gedən olsa, ona dəyəcəkdi. Çünki düşmən düz qarşımızda idi. Qismət... Bölük komandirimiz özündən qabaqda getməyə heç kəsə icazə vermirdi. Həmin gün Murad özü razı olmadı. Dedi: *“Yox, bu gün mən gedəcəyəm”.* Bölük komandiri nə qədər israr etsə də, dedi: *“Yox, komandir, icazə ver, bu gün mən gedim”.*

– *Birinci getməkdə məqsədi nə idi?*

**Elsevər:** Öndə olmaq. Deyirdi: *“Həmişə ikinci getmişəm, bu gün də birinci gedim, nə olacaq ki?”* Nəyəsə rəhbərlik etməyə, liderliyə can atırdı. İstəyirdi, idarə etsin. Düzdür, həm texnikanı, həm də heyəti çox gözəl idarə edirdi.

**Namiq:** Orada bölük komandirinə heç nə olmadı, amma döyüşün qurtarmağına 6 saat qalmış o da şəhid oldu.

– *Siz Muradla necə tanış olmusunuz?*

**Namiq:** Mən də Murad bizim hərbi hissəyə taqım komandiri kimi təyinat alanda tanış olmuşam. Murad üçüncü taqımın komandiri idi, mən isə ikincinin. Mən hərbi akademiyanı Muraddan 4 il əvvəl bitirmişəm.

Muradın xətrini, həqiqətən, çox istəyirdim. Mən insanlarla asanlıqla ünsiyyət quran adam deyiləm. Bir az çətin adamam. 3 ay ərzində mən Muradla necə münasibət qurmuşdumsa, elə bil ki, onu illərdir, tanıyırdım. Murad həmişə mənə deyirdi ki, *mən istəyirəm, sən bölük komandiri olasan, mən də sənin taqım komandirin olum.* O da ki qismət olmadı. İndi mən həmin bölükdə bölük komandiriyəm, amma Murad yoxdur.

Həmişə mənə “abi” deyirdi. Türkiyədə oxumuşdu deyə bu söz onun dilindən düşmürdü.

Hərbi hissədə hər həftə tank qarajına gedirdik. Oraya gedəndə həmişə onu sıxışdırırdım. Deyirdim, get filan şeyi elə, bəhmən şeyi elə. İstəyirdim ki, öyrənsin. İmkan vermirdim, onun yerinə kimsə işləsin. Çünki zabit olan şəxs hər şeyi bilməlidir. O hər şeyi bacarmalıdır, çünki o, komandirdir. O kiməsə öyrədir, o kimdənsə öyrənməli deyil.

İlk gəldikləri gündən mən Murad və Əzizə (Rəhimli) müəyyən şeyləri başa salmağa çalışırdım, çünki təzə gələnlərə qarşı pis niyyətləri olanlar var idi. Onları oyuna düşməsinlər deyə təhbeh edirdim. Murad ürəyiaçıq idi. Mən ona bir böyük kimi başa salırdım, elə davransın ki, heç kəs onun ürəyiaçıqlığından istifadə etməyə çalışmasın.

*– Heç Muraddan sui-istifadə edildiyi olubmu? Ya o kimdənsə sui-istifadə edibmi? Haqsızlığı olubmu?*

**Namiq:** Xeyr, onun elə bir şeyi olmayıb. Mən onu görmüşəm. Gələn gündən onun cibində həmişə pulu olub. O heç vaxt başqasından sui-istifadə etmək niyyətində olmayıb. Amma ona o niyyətlə yaxınlaşanlar olub. Mən ona gəldiyi gündən demişdim ki, əgər kimsə səndən pul istəsə, əvvəl gəl məndən soruş. Mən desəm ki, ver, onda verərsən. Çünki mən oradakıları tanıyırdım. Mən ona deyirdim ki, sən insanları tanımırsan, çünki gəncsən. Mən də sənin kimi gənc zabit olmuşam. Mənim başıma gəlib, çünki mənə deyən olmayıb. Amma istəmirəm ki, eynisi sizin də başınıza gəlsin.

*– Elə bir haqsızlıq ona olmayıb ki?*

**Namiq:** Xeyr, olmayıb.

*– Demək istədiyim odur ki, yəni haqqını yedizdirən adam olmayıb?*

**Namiq:** Xeyr. O sadəcə ürəyitəmiz idi. Bir az kimsə özünü “artistliyə” qoysa, inanıb bütün pulunu verərdi. Mən bunu Murada elə ona görə demişdim. Mən ona demək istəyirdim ki, burada “artist” çoxdur. İnsanlara tez inanma, ehtiyatlı ol. Zabit əgər təzə mühitə düşürsə, o, altı aya insanları tanımalıdır.

Zabit təzə gələndə ilk iki ayı çox əziyyət çəkir. Çünki 7 illik kursant psixologiyasından çıxmaq çətin olur. Məruzə

edəndə “leytenant filankəsov” demək əvəzinə “kursant filankəsov” deyirsən. Ona görə də zabitin zabit olmağı üçün, ən azı, 6 ay keçməlidir ki, o, kursant psixologiyasından çıxsın. Zabit bərkə-boşa düşməlidir ki, zabit olduğunu dərk etsin.

Bir də biz zabitlər arasında belə bir şey var. Təzə gələnlər bir kurs aşağı olsalar belə, onları zarafatla “balaca” adlandırırdıq. Deyirdik, sənin böyüməyin üçün üstünə ən az bir buraxılış gəlməlidir. Bu adət nəsil-nəsil ötürülür. Mənə də vaxtilə elə deyiblər, mən də Murada deyirdim eyni şeyi. O da cırnayırdı. Deyirdi ki, *mənə niyə elə deyirsən?* Mən də deyirdim, gələn il üstünə kurs gələndə onda biz də birləşib təzə gələnlərə deyəcəyik.

Axırıncı günlərdə Kənd Horadizin üstündə, Nüzgar kəndinin ətrafında çox çətin bir yer var idi, vura bilmirdilər. Tabor komandiri Murada dedi ki, get, sən vur. Mən onu qoymadım. Niyə qoymadım? Ona görə yox ki, o bunu bacarmayacaqdı. Mən sadəcə onu müdafiə edirdim. Çünki təzə idi, 3 ay idi, gəlmişdi. Ata bilirdi, amma mən qorxurdum ki, birdən nə isə olar. Ona görə də onu qorumağa çalışırdım. Həminki yerdə də məndən incidi. Elə bildi ki, mən onu pis eləməyə çalışıram. Amma mən o niyyətlə etməmişdim. Bacardığımız qədər onları qorumağa çalışırdıq. Mən onu qoymadım, onun yerinə özüm gedib atdım.

Murad bir az arxayın, rahat insan idi. Heç nə üçün narahat olmazdı.

Mənim ondan qabaq maşınım var idi. Hər gün mən onu “Neftçilər”dən götürürdüm, birlikdə işə gedirdik. Bir gün də səhər-səhər gəlib gördüm ki, yoxdur. Nə qədər zəng vurdum, cavab vermədi. Gedib işə çatmışdım, axır ki, 31-ci zəngimə cavab verdi. Muradın da yuxusu ağır idi. Sən demə, yatıb qalıbmış. Bir saata gəlib özünü çatdırdı. Ondan sonra hər gün mən “Əhmədli”də evdən çıxmamış Murad zəng vururdu ki, *mən “Neftçilər”dəyəm.*

İstəyirdi, qardaşının maşınından sürsün. Deyirdi, *çox gözəl maşındır.* Öz maşınını təzə almışdı, onu bir az

sürdü, sonradan da mənim maşınıma gözü düşdü. Dedi, *sənin maşının çox qəşəng maşındır.* Bir-iki dəfə mənim maşınımı sürmüşdü. Deyirdi: *"Bəlkə, öz maşınımı satıb, səninkindən alım?"* Mən də ona deyirdim ki, bir şey istə də. Gah onu istəyirsən, gah bunu. Deyirdi: *"Neyləyim e, xoşum gəlir".* Deyirdim, xoşun gəlir, hələ tələsmə. Üç aydır, zabitsən, təzə gəlibsən, yenə də min şükür maşının var. Heç o olmayanlar da var. Bir müddət işlə, mənim maşınım köhnədir, pul yığıb daha yaxşısını alarsan. Deyirdi ki, *yox, onu istəyirəm.* Muradın istəkləri tez-tez dəyişirdi. Döyüş vaxtı da fikrini dəyişib və deyib ki, *mən pikap istəyirəm.* Ondan mənim xəbərim yox idi, düzdür, çünki o ərəfədə mən orada olmamışam.

Murad həddindən artıq yaxşı, çox gözəl oğlan idi. Hərtərəfli... Yoldaşlığa yarayan adam idi. Mən də yaxınlıqda qalıram. Dəfələrlə mənim maşınım işləməyəndə məni gəlib işə aparıb, qayıdanda evə gətirib. Üzərimdə çox haqqı var.

*– Allah bəzən bir insanı yaradarkən onu elə hərbçi kimi yaradır. Murad da belələrindən idi?*

**Namiq:** Əlbəttə. O bir zabit kimi istəmirdi ki, kimsə əzilsin, kiminsə haqqı yeyilsin. Həmişə istəyirdi ki, düzgünlük olsun. Ədalətli olmağa çalışırdı. Zabit üçün ən vacib keyfiyyətlərdən biri elə budur.

*– Əsgərlərinə qarşı heç haqsızlığı olub?*

**Namiq:** Xeyr, haqsızlığı olmayıb, amma gənc olduğu üçün vaxtından tez qərar vermələri olub. Onu da mən başa salmışam ki, belə olmaz.

**Elsevər:** Tələbkar idi.

**Namiq:** Məncə, Murad həm də çox yaxşı qərargah zabiti ola bilərdi. Onun əl səliqəsi, hər şeyi çox gözəl idi. Mən onu bölüyə yaxın qoymurdum. Bütün sənədləri verirdim ona və Elsevərə, deyirdim, gedin işləyin. O elə şeylərə çox yaxşı idi. Əl səliqəsi gözəl idi. Onun yazdığı yazını imzaya aparırdım, heç vaxt geri qayıtmırdı.



*– Sizə heç sevdiyi qızdan, evlənmək arzularından danışıbmı?*

**Namiq:** Bəli. Bir gün hərbi hissədə saat 12:00–13:00 arası olardı. Oturub söhbət edirdik. Heç kəs yox idi, tək ikimiz idik. Otağın qapısını arxadan bağladı. Dedi ki, *abi.* Dedim, hə, buyur görək nə deyirsən. Dedi ki, *istəyirəm, yanvarda toy edim.* Dedim ki, inşallah. Mən əslində, onu nişanlı bilirdim.

– *Sevdiyi ilə tez-tez əlaqə saxlayırdı?*

**Namiq:** Bəli, danışırdı. Bilirsiniz, qadınla danışanda insanın danışıq tempindən bilinir, bu kiminlə danışır. Zəng gələndə kənara gedirdi. Bilirdim ki, istədiyi var. Telefonla yazışmağa, danışmağa çox vaxt ayırırdı. Mən həmişə ona deyirdim ki, heç olmasa maşın sürəndə telefonla oynama. Maşın sürəndə belə mesaj yazırdı. Dəfələrlə birlikdə gedib-gələndə demişəm ki, olmaz. Hətta telefonunu əlindən almışam ki, olmaz. Get, evə çat, ondan sonra danışarsan. Maşın sürəndə bir səhv sənə baha başa gələ bilər.

– *Muradın şeirləri var idi. Siz heç eşitmişdiniz?*

**Namiq:** Onu eşitdim. Elsevərdən soruşdum. Orada olduğu müddətdə dəftərçəsi var idi. Mən elə bilirdim, oraya nömrə yazır. Sən demə, şeir yazırmış.

**Elsevər:** Həmişə ürəyinin üstündə gəzdirirdi. Ancaq özündə saxlayırdı, heç kəsə vermirdi. Otururdu tankın üstündə, baxırdın, nə isə iş görür. Balaca bir qara dəftərçə idi, yazırdı. Deyirdim, komandir, neyləyirsən? Deyirdi ki, *heç nə, getdiyimiz yerləri yazıram.* Biz yaxınlaşan kimi örtürdü, qoyurdu cibinə, başlayırdı telefonla oynamağa. *"İcazə verin də, bir işim var, telefonla danışım",* – deyirdi. Biz uzaqlaşan kimi təzədən dəftərçəni çıxarırdı.

– *Heç olubmu ki, Murad sizə şeirlə cavab versin?*

**Namiq:** Onun şeir yazdığını biz bilmirdik. Sonradan öyrəndik. Bir az özünəqapanıq idi. İstəyirdi, hər şeyi özü həll etsin.

– *Xəyalpərəst idi?*

**Namiq:** Bəli, xəyalpərəst idi. Mənə həmişə deyirdi ki, *sən keç bizim bölükdə bölük komandiri ol, mən də sənin taqım komandirin olum.* Deyirdim, komandiriniz var da. Deyirdi, *yox, mən istəyirəm, sən olasan.*

*– Cəbhədə birlikdə olduğunuz müddətdən nə kimi xatirələriniz var?*

**Namiq:** Oktyabrın 7-si səhər-səhər bizi Kənd Horadiz istiqamətindən Cəbrayıl istiqamətinə aparanda 8 tank idik. Bizi orada parçaladılar. 4 tankı bir yerə verdilər, 4-nü də başqa yerə. Biz bölünəndə Murad mənim qrupuma düşmədi. Onu bölük komandirinin yanına verdilər. İki zabit onları bir yerə göndərdilər. Zabit kimi məni də digər qrupla başqa yerə göndərdilər. Həmin gündən sonra mən Muradı görmədim. Səhər saat 7 olardı. Üç gün idi ki, güclü yağış yağırdı. Üç gün ərzində bütün paltarlarımız yaş olmuşdu. Yemək yemirdik. Yemək demişkən, Murad bir dəfə gəldi ki, *abi, acam e.* Dedim ki, gözlə, bir şey tapacağıq. Olduğumuz yerə yemək də çatdıra bilmirdilər. Həm soyuq idi, həm də ac olduğumuz üçün daha çox üşüyürdük. Fikirləşdik ki, neyləyək, necə edək. Elə oldu ki, orada bir kənd var idi. Dedik, kəndə girək, bəlkə, oradan yeməyə nə isə tapdıq. Getdik oraya. Daha doğrusu, MAHHXHQ-lərdən (Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Hərbi Qulluqçu) birini göndərdim, getdi kəndə girdi. Gəldi ki, komandir, orada 15–20 qoyun var. Sürüdürlər. Gedim, bəlkə, birini tutub gətirim, burada kəsib, kabab eləyək? Dedim, get gətir.

*– O qoyunlar ermənilərin idi, hə?*

**Namiq:** Elə bil həmin kənddə daimi yaşayış olmayıb. Cəmi üç evdə yaşayış olub, orada da ki fermerlər yaşayıb. MAHHXHQ getdi, gəldi ki, komandir, gördüklərim qoyun yox, donuz imiş. Ev donuzu. Dedim, 30 nəfər burada qalmışıq. Üç gündür, yemək yemirik. Gətirib çatdıra bilmirlər. Heç nə olmaz. Gətir, birtəhər yeyəcəyik. Neyləyək? Ac qalası deyilik ki. Gedib, birini avtomatla vurub gətirdilər. Onu orada tankın topundan asıb soyduq, kabab elədik. Elə donuzu kabab edən vaxt bizim yemək təminatımız gəldi. Sosiska və başqa şeylər gətirmişdilər. Gördüm ki, Murad sosiskanı şişə taxıb odun üstündə bişirmək istəyir. Çağırdım ki, gəl də. Allah günahımızdan keçsin. Vəziyyət pisdir, yeməliyik. Orada ona bir-iki tikə zorla o ətdən yediz-

dirdim. Dedim ki, başqa variantımız yoxdur, yoxsa ac qalacağıq. Nə bilirsən, bir də yemək nə vaxt gələcək? Mənə qayıtdı ki, *bəs axı günahdır.* Dedim ki, Allah günahımızdan keçsin. Yəqin ki, bu vəziyyətdə bunu bizə günah saymaz.

Bayaq dediyim kimi, ayın 7-si, səhər saat 7 idi. Üç gün idi ki, başımıza yağış yağırdı. Nə paltar gəlirdi, nə də yemək. Getdik, səhər tezdən iki saat ərzində tanklara mərmi yüklədik.

– *Yaş paltarda idiniz, hə?*

**Namiq:** Orada üç gün ərzində yaş paltarda idik. Bizə təzədən paltar gətirib verdilər. Yemək də gətirdilər, paltar da. Yarısı yaş, yarısı quru birtəhər geyindik. Heç iki saat çəkmədi. Səhər-səhər yemək yedik, yeməkdən sonra da bizi böldülər. 4 tank xüsusi təyinatlıların bir qrupu ilə getdik, 4-ü də başqa. Həmin gün səhər saat 9-dan sonra mən Muradı bir də görmədim. Amma telefonla əlaqə saxlayırdıq.

– *Şəhidlik xəbərini necə eşitdiniz?*

**Namiq:** Oktyabrın 8-i mənim tankımı vurdular. Tank olmadığı üçün arxaya göndərdilər. Füzulidə olanda öyrəndim ki, Muradın tankı vurulub, Murad şəhid olub.

– *Murad şəhid olacağını hiss etmişdi?*

**Namiq:** Məncə, Allah şəhid olacaq insana bir-iki gün qabaqcadan bunu hiss etdirir. Murad da bunu hiss etmişdi. O, şəhid olmamışdan qabaq deyib ki, *mən çox yaxşı bir şey etdim.* Soruşublar ki, nə etdin? Cavab verib ki, *mən zəng vurub hamı ilə halallaşdım.* Şəhid olacağını, məncə, çox adam əvvəlcədən bilir. Muradın şəhidlik heç ağzından düşmürdü.

**Elsevər:** Muradın şəhidliyindən bir gün qabaq idi. Gecə dedi ki, *biz gələcəyin nurüzlü şəhidləriyik.*

**Namiq:** Döyüş vaxtı Murad mənə bir neçə dəfə dedi ki, *abi, mən qayıdan kimi ixtisasımı dəyişəcəyəm, tankçı olmaq istəmirəm.*

– *Niyə?*

**Namiq:** Bilmirəm, niyəsini soruşmadım, amma deyirdi ki, *tankçı olmaq istəmirəm.* Həmin vaxta qədər elə söz deməmişdi.

– *Murad ermənilərə qarşı necə idi?*

**Elsevər:** Döyüş deyəndə sevinirdi. Deyirdi:

– *Gedirik konsertə, hazırlaşın.*

– Nə konsert, ay komandir?

*“Heç nə,* – deyirdi, – *biz çalacağıq, onlar oynayacaqlar. Getdik”.* O dağdan, bu dağdan ata-ata gedirdik. Deyirdi: *“Mexanik, gördün oynamaqlarını?”* Deyirdim, komandir, Allahhaqqı mən 1000 metrdən uzağı görmürəm, nə görürsənsə, sən görürsən. Nə təhər oynayırdılar? Arada bir çək, mən də baxım. Orada video, şəkil çəkməyə vaxt yox idi.

Başıma oyun açırdı. Qalxırdım təpənin üstünə, bilirdim ki, buradan atacaqlar. Birdən deyirdi ki, *qayıt arxaya, o biri tərəfdən çıx.* Deyirdim, buraya qalxmışıq daha, buradan at heç olmasa, boş yerə qayıtmayaq. Deyirdi ki, *yox, qayıt, o tərəfdən çıx. Buradan bizi vurarlar, bayaq çıxmışıq.* Təzədən qayıdıb o biri tərəfdən çıxırdım. Tez-tez yer dəyişməyə maraqlı idi. Düşünürdü ki, *buradan rahat görürəm, gedim görüm o biri tərəfdən necə görürəm?* Ən çox vuracağı yeri dəqiq seçməyi xoşlayırdı.

Deyirdi: *“Girək e, girək! Girək e, girək!”* Kim gəlib deyirdi, harayasa getmək lazımdır, tapşırıq verirdi, komandir özünü qabağa atıb deyirdi: *“Biz!”*

İki qrup idik, hər qrupda da iki tank. O biri qrup gedəndə deyirdi: *“Hə, yaxşı, gedin, amma biz də hazır gözləyirik. Mərminiz azalanda deyin, biz də gələk”.* Deyirdim, komandir, qoy o qrup getsin, bəlkə, qurtarıb gələcəklər. Nə olub? Haraya tələsirsən? Deyirdi: *“Yox e, yox! Biz də gedək”.* Deyirdim, biz bu tərəfdən (başqa tapşırıqdan) indi gəlmişik də. Qoy mərmini yükləyib qurtaraq, sonra gedərik. Deyirdi: *“Yox!”*

Atışa hədsiz dərəcədə çox marağı var idi. Texnikaya çox meyilli idi. Deyirdi ki, *bu şans bir də əlimə düşməyəcək. Qoy nə qədər imkan var, bunları qırım.* Deyirdim, komandir, yaxşı da, səbirli ol. Heç olmasa yavaş-yavaş edək də, birdən-birə gedə bilmərik ki.

– *Elə bir döyüş olubmu ki, Murad orada qəhrəmanlıq edib?*

**Elsevər:** Bəli, hamısında.

– *Yox, yox, bilirsiniz necə? Yəni qeyri-adi bir şey edib?*

**Elsevər:** Bəli. Məsələn, bir dəfə qalxmışdıq, mən heç bilmirdim, sistem qoşulmamışdı. Haradasa düşmənlə 1700 metr məsafəmiz var idi. Elə bil ki, qarşımızdakı təpənin üstündə onlar idi, bu tərəfdə də biz idik. Qalxırdıq, oranı vururduq, qayıdırdıq. Mövqeni dəyişməli olduq. Dəyişəndən sonra qalxdıq. Komandir başladı ərazidə kəşfiyyat aparmağa ki, yəni görək harada nə var, haranı vururuq. Biranlıq qayıtdı ki, *mexanik, arxaya ver!* Bu dəmdə həm arxaya ver, dedi, həm atış apardı, həm də tüstü qumbarası atdı. Eyni vaxtda. Arxaya verdim. Dedim, komandir, bu nə idi? Aləmi tüstü-duman götürdü, bizə heç nə olmayıb? Dedi: *"Yox. Gördüm, bizi nişan alıblar". "Oradan,* – dedi, – *mərmi atıldı".* İdarəolunan raket işıltı verir, bu da tank komandirinin və tuşlayıcının nişangahında aydın görünür, bilirsən ki, nə isə gəlir. Ona görə də eyni vaxtda həm tüstü qumbarası ilə mərmini yayındırmağı bacardı, həm hədəfi vurdu, həm də heyəti xilas etdi. Bu özü böyük bir qəhrəmanlıqdır. Bir saniyənin içində olan bir şeydir. Düşməni gördüyün anda üç qərarı birdən vermək böyük bacarıq tələb edir. Mən deyərdim, elə adam var ki, orada çaşıb qala bilərdi. Məsələn, mərmini atardı, amma sonra donub qalardı. Komandir isə eyni vaxtda həm texnikanı idarə edirdi, həm tuşlayıcını idarə edirdi, həm düşməndən yayınırdı, həm də düşməni məhv edirdi.

– *Murad orada kiminsə həyatını xilas edibmi?*

**Elsevər:** Dediyim kimi, öz heyətini xilas edib. Bizim əsas vəzifəmiz kəşfiyyatçılarımızı, xüsusi təyinatlıları qorumaq, düşmənin ağır texnikalarını və yüksəkliklərini dağıtmaq idi ki, onlar sağ-salamat irəliləyə bilsinlər.

**Namiq:** Kənd Horadiz istiqamətində döyüşə girəndə belə bir şey oldu. Bizə tapşırıq gəldi, ilk hazır olan 4 tankı göndərdilər qabağa. Onda Murad da bizimlə idi. Dedilər,

qarşıda iki erməni tankı var, onları məhv edəcəyik. Mən qrup rəhbəri idim deyə tabor komandiri dedi ki, sən idarəetmə üçün arxada qal. Qabağa bir dənə başqa tank burax. Dedim, mən belə idarə edəcəyəm, qabaqda mən gedim, Muradgil də arxamca. Getdik, qarşımıza 21 ədəd erməni tankı çıxdı. Halbuki biz 2 tank bilirdik. Onların 5-ni biz məhv etdik, 9 tankı da HAROP-lar. Həmin vaxt mənim tankımda mərmi az qalmışdı deyə ləngimə baş verdi. Erməni tankıyla 10 metrlikdə üz-üzə gəldik. Gördüm, məndə atmır, düşmən məni vuracaq. Tez Muradgilə əmr verdim. Murad gəlib, o tankı vurub partlatdı, bizim həyatımızı qurtardı.

**Elsevər:** Açıq döyüşə daha çox girirdik. Biz girirdik düzənlik sahəyə, bilmirdik ki, başımızın üstündə nə var. Onlar təpənin üstündə dayanırdılar. Biz onların durduğu təpənin ətəyinə çatanda onlar qoyub qaçırdılar ki, tanklar çatdı.

**Namiq:** Ermənilər çox vaxt tank döyüşünə girmirdilər. Tək-tük hallarda gəlirdilər, onda da tank görən kimi qorxub qaçırdılar. Müharibə qanunlarına görə tibb maşınlarını vurmaq olmaz, amma onlar tibb maşınlarını da vururdular.

**Elsevər:** Onlarınkı döyüşmək deyildi, terrorizmlə məşğul idilər.

**Orxan:** Oktyabrın 10-da, birinci atəşkəsdən sonra mən Muradla danışanda maraqlandım ki, ermənilər atəşkəsə əməl edirlərmi? Dedi ki, *yox e, nə danışırsan? Nə atəşkəs? İndicə birini bişirib gəlmişəm.* Onda nəyi nəzərdə tuturdu?

**Elsevər:** Bir nəfəri ayrıca mərmi ilə vurmuşdu, onu deyir. Təpənin üstündə düşmənin kəşfiyyatından bir nəfər durub müşahidə aparırdı. Qayıtdılar ki, o bir nəfəri oradan rədd eləyin, getsin. Yanına bir-iki mərmi atın, yoxa çıxsın. Murad da, gözünə döndüyüm, nə təhər vurdusa, o bir nəfər birdəfəlik yoxa çıxdı.

– *Yəni onu Murad tuşladı, hə?*

**Elsevər:** Bəli. Tuşlayıcının nişangahı elə dəqiqliklə vura bilmir. Tank komandirində əlavə olaraq başqa bir nişangah var. O, tuşlayıcının nişangahından daha effektiv,

daha sərrastdır. Onunla nişan alıb, özü atəş açmışdı. O da bir mənzərə idi. Görürdük ki, 2000 metr məsafədə təpənin üstündə bir nəfər var, hərəkət edir, o yan-bu yana gedib-gəlir. Özü üçün gəzir. Birdəfəlik də gəzdi. Komandir vurandan sonra da dedi ki, *get indi gəz doyunca.*

*– Düzdür, erməni də olsa insandır. Murad onları öldürdüyünə görə peşman olurdumu? Ki insandır da, mən onu niyə öldürdüm?*

**Elsevər:** Yox, qəti. Düzdür, döyüşlərin ilk günlərində bir az pis olurdu, amma insan üçün çətini öyrəşincədir. Artıq öyrəşəndən sonra gedirdi, gəlirdi, deyirdi: *"Bu gün heç nə etməmişik ki, 5–6 nəfər öldürmüşük. Gəlin yenə gedək".* Deyirdik ki, heç nə etməmişik nədir? 5–6 nəfər az deyil. *"Yox e, heç nə etməmişik, gəlin bir də gedək",* – deyirdi.

**Namiq:** İlk dəfə gedəndə mən də fikirləşirdim ki, mən insan öldürə bilmərəm. İnsanınkı qan görənə qədərdir. Amma gedib görəndə ki, bizdən kimsə orada yaralanıb, şəhid olub, ondan sonra insan artıq heç vaxt heç nəyə peşman olmur. Biz müharibənin ağır üzünü görəndən sonra dərk etdik ki, haradayıq. O vaxta qədər elə bilirdik ki, həmişəki kimi təlimə gedirik, qayıdacağıq.

Həmişə demişəm. Qismətdir. Təzə getmişdik. Muradın tankından taborun mərkəzinə doğru gedirdim. Murad onda mərmi yükləyirdi. Bizim olduğumuz yerin yuxarı tərəfini vurdular. Özümü qorumaq üçün əyildim, düz arxama qəlpə düşdü.

**Elsevər:** Muradla mənim üstümüzdən keçdi o qəlpə.

**Namiq:** İki saniyə gec tərpənsəm, beynimi ortadan bölüb aparmışdı. Yəni hər şey qismətdir.

*– Muradı bir kəlmə ilə necə xarakterizə edərdiniz?*

**Namiq:** Fədakar.

**Elsevər:** Qorxmaz.

*– Murad bizim üçün – Azərbaycan xalqı üçün qəhrəmandır. Siz hərbçilər üçün necə?*

**Namiq:** Əlbəttə, qəhrəmandır. Bayaqdan danışdıqlarımızdan əlavə, mən onun başqa bir qəhrəmanlığını deyim

sizə. Biz birinci hissə-hissə girdik döyüşə. Bir taboruq. Üç ədəd bölüyümüz var. Hər bölükdə də 10 ədəd tank olur. Birinci bölüyümüz girdi döyüşə, orada onların 9 tankı vuruldu. 1 ədəd tankları qalmışdı. Orada həm də 4 nəfər şəhid oldu, 10 nəfərə yaxını da yaralandı. Qalanları salamat idilər, qayıdıb bizim yanımıza gəldilər. Bizi düzdülər sıraya. İkinci bölük biz idik. Bizi aparanda tabor komandirimiz Murad təzə gəldiyi üçün onu tankdan düşürtmək istədi. Murad düşmədi. Tabor komandiri ona əmr verdi, amma Murad bu əmri yerinə yetirmədi. Dedi: *"Bu tank mənimdirsə, burada mən gedəcəyəm döyüşə, başqası yox!"* Onun özü elə böyük bir qəhrəmanlıqdır.

## Əsgər Azər Abdullazadə
***(döyüş yoldaşı, Muradın komandiri olduğu tankın tuşlayıcısı)***

– *Muradla ilk tanışlığınız necə olub?*

**Azər:** Komandirlə ilk dəfə o, növbətçi olanda tanış olmuşuq. Bizə sıra hazırlığı keçirdi. Mənə suallar verdi, mən hamısına cavab verdim.

Bir dəfə də biz qarovul olanda yoxlama gəlmişdi. Qarovulun vəzifə borcu haqqında suallara düzgün cavablar verdim, bu da komandirin xoşuna gəldi. Ondan sonra hər dəfə o, qarovul rəisi çıxanda mən də özümü qarovula yazdırırdım. O da həmişə çıxanda tapşırırdı ki, mən də qarovula çıxım.

Bir dəfə qarovul rəisi leytenant Nağıyev idi. Şəxsi heyət düzüldü, qarovul təyin edildi, sonra qarovula istirahət verildi. Həmin vaxt tank qarajında idik, tankları təmizləyirdik. Komandir soruşdu ki, *orada nə yemək bişirə bilərsiniz?* Dedim, komandir, problem deyil, ürəyiniz nə istəyir, bişirə bilərik. Dedi, *ürəyim toyuq qızartması istəyir.* Dedim, problem deyil, mümkündür. Lazım olan şeylər alındı. Əti qızartdıq, ayrıca qoyduq kənara, kartofu da

qızartdıq. Axırda dedi ki, *yox, hamısını birləşdirib gətirin.* Biz də dediyi kimi yeməyi birləşdirib gətirdik. Bir də “Coca-Cola” alıb gətirmişdi. Kola, fanta kimi qazlı suları xoşlayırdı.

Biz yeməyi hazırladıq, çörək qoyduq, süfrəni hazırladıq. Oturdu, sonra bizə dönüb dedi ki, *əziyyət çəkmisiniz, gəlin, siz də oturun, yemək yeyin bizimlə.* Dedim ki, komandir, bizim yeməyimiz var, biz yemişik. Dedi ki, *bildim, amma gəlib oturub mənimlə də yeyəcəksiniz.* Biz də əsgərlərlə gəlib oturduq, birlikdə yedik. Şokolad da almışdı, sonra çay dəmlədik, birlikdə çay içib, söhbət etdik.

Mənim tərxis olunmağıma az qalmışdı, saçımı uzadırdım. Saçıma görə məni danlayıb dedilər ki, bu həftə saçını kəsdirməlisən. Mən də pis oldum ki, özüm bərbərəm, başqalarının saçını düzəldirəm, mənim saçım niyə kəsilir? Bilinirdi ki, saçım uzundur, kəsilməlidir. Pilləkəndə oturub fikirləşirdim, necə edim ki, kəsdirməyim. Həmin vaxt komandir gəldi, dedi, *nə olub, niyə fikirlisən?* Dedim ki, saçımı kəsdirirlər, amma tərxisə az qalıb deyə kəsdirmək istəmirəm. Dedi ki, *fikir eləmə, kəsdirirlər kəsdirirlər, sən də dibindən kəsdir.* Qoluma girib məni aşağıda bufetə apardı. Üç dənə bulka, üç dənə də yarımlitrlik “Pepsi” aldı. Dedim, yəqin, verər mənə, qaldıraram yuxarı. Yəqin hansısa zabitə alıb göndərir. Dedi, *get, otur stulda, mən də gəlirəm.* Şəhid baş leytenant Hüseynov Fərrux da gəldi. Üçümüz oturduq. Komandir dedi ki, *aç, ye.* Dedim, necə yəni aç, ye? Mənə almısınız bunları? Dedi ki, *sənə almışam bunları, aç, ye.* Açıb yedik. Sonra tanklardan, qarovulun vəzifə borcundan filan söhbət elədik. Dönüb baş leytenant Hüseynova dedi ki, *mən təzə gəlmişəm, amma bu əsgər məndən çox bilir qarovulun vəzifə borcunu filan. Haradan deyirəmsə, oradan cavab verir.* Baş leytenant Hüseynov dedi ki, inanmaram. Dedi, *mənə inanmırsan, inanma, mən gözümlə gördüyümü deyirəm. Neçə dəfə tapşırdığım işin öhdəsindən gəlib.* Baş leytenant Hüseynov mənə suallar verdi. Cavab verdim. Qayıtdı ki, hə, sözüm

yoxdur. Sonra biz ikimiz qol-qola girib zirzəmidəki bufetdən yuxarıya – 2-ci mərtəbəyə qalxdıq. Qalxdıq, dedi, *fikir eləmə, mən tapşıracağam, sənin saçın kəsilməsin.* Mən oturmuşdum şkafın yanında. Gəlib başımı qucaqlayıb dedi ki, *narahat olma, sənin saçını kəsdirməyə qoymayacağam. Hələ bundan da artıq uzadacaqsan.* Zabitlər hamısı başımıza yığılmışdı ki, nə olub yenə qucaqlaşmısız? Komandir dedi ki, *bu, başqa adamdır. Saçını kəsdirmək istəyirlər, amma mən razı deyiləm.* Dedilər ki, yaxşı, sən tapşırarsan, kəsilməz. Sonra başqa bir zabit gəldi. Komandir dedi ki, *bilirsən də, bu da yaxşı əsgərdir?* O da komandirin nə deyəcəyini yoxlamaq üçün zarafatyana qayıtdı ki, yox əşi, bunun harası yaxşı əsgərdir? Yaxşı əsgər deyil, heç nə bilmir. Komandir dedi ki, *yox, yox, yaxşı əsgərdir.* Sonra komandir sənəd yazmaq üçün öz otağına getdi. Mən də öz otağıma getdim.

Qarovulda həftəlik dərs cədvəlləri və konspektlər yazılır. Hətta bəzən yaxşı xətti olan əsgərlərə yazdırırdılar. Mən də yazırdım, kömək edirdim, amma bir o qədər hövsələm çatmırdı. Mənə yazmaq üçün veriləndə təzə-təzə özüm yazırdım, sonradan isə mən də verirdim, başqası yazırdı, özüm yazmış kimi aparıb təhvil verirdim. Axırıncı dəfə gətirib vərəq verdi, dedim ki, mənlik deyil, yaza bilməyəcəyəm. Danladı ki, *yox, alınmır belə.* Dedim, alınar, verərik, başqası yazar. Nəysə, verdik, başqası yazdı. Bu dəftər iki dəfə yazılmalıydı, amma yağış yağdığına görə mənim başım palçıq təmizləməyə qarışdı, yaza bilmədim ikincini. Komandir özü oturub yazdı. Elə ondan sonra bir-birimizlə çox mehriban olduq. Mənə güvəndi, inandı. Həmişə nə lazım olsa, mənə deyirdi, *get, gətir.* Bir dəfə yağış yağmışdı, bölük komandiri məni nə isə almağa göndərmişdi. Mən də o vaxt özümə uzunboğaz çəkmə almağa pul yığırdım. Məni çağırdı, maşınının açarını verib dedi ki, *get, mənim maşınımda hərbi geyimim var, onu gətir. Tapa bilməsən, mülki geyimim var, onu gətir, paltarım islanıb.* Mən də öz-özümə dedim ki, komandir mən-

dən birinci hərbi formanı istəyib, gərək mən onu tapam. Gedib, maşının içini ələk-vələk eləyib, çətinliklə də olsa, tapıb gətirdim.

Növbədən çıxanda yorğun olurduq. Deyirdim, komandir, məni burax da. Amma o, icazə vermirdi. Deyirdi: *"Yox, bütün əsgərlər necə, sən də elə".* Yəni əsgərlərin yanında mənə fərq qoymurdu. Ayrılıqda şəxsi münasibətimiz başqa, amma əsgərlərin arasında mənimlə hamıyla olduğu kimi rəftar edirdi.

Komandir, sözün hər mənasında, çox yaxşı insan idi. Xidmətin axırlarına yaxın ev üçün darıxırdıq. Komandir telefonu bizə verirdi ki, evlə danışaq. Çox adamdan biz xahiş edəndə telefonununu vermirdi, əsgərə telefonunu verməyə risk etmirdi. Amma bütün əsgərlər təsdiq edə bilər ki, gedib komandirdən telefon istəyəndə o heç vaxt yox deməyib, telefonunu verib.

Sentyabrın 26-sı hərbi hissədə həyəcan siqnalı verildi. Biz çıxdıq. Yol gəldik. Zabitlər ayrı otururdu, biz ayrı. Sentyabrın 27-si tezdən gəlib çatdıq Füzuliyə. Tankları yerləşdirdik, özümüz də yerləşdik.

Komandirlə biz əvvəlcə ayrı tanklarda idik. O, ikinci bölükdə tank taqım komandiri idi, mən birinci bölüyün əsgəri idim. Biz sentyabrın 30-u Füzuli istiqamətində döyüşə girdik. Orada çox ağır döyüş getdi – yaralanan, şəhid olanlarımız oldu. Orada vurulduq, qayıdıb hospitala yerləşdik. Səhəri gün hospitaldan çıxıb, arxadakı ehtiyata getdik. Çatandan 1–2 saat sonra qalxdım yuxarıya, 2-ci və 3-cü bölüyün yanına. Hamı gəldi, mənimlə görüşdü. Hərbçilər arasında belə bir şey var ki, bir-birinizlə aranız olmasa belə, müharibə vaxtı hamı qardaşdır. Sən döyüşdən salamat qayıdanda hamı şəxsi ədavəti bir kənara qoyub, səni qucaqlayıb öpür. Hamımız oturduq, komandir də gəldi. Alma var idi, yedik, söhbət etdik. Sonra nə isə səs-küy oldu, hamı öz yerinə getdi. Mən dedim ki, 2-ci, ya da 3-cü bölükdə yer olsa, yenidən döyüşə girmək istəyirəm. Dedilər, hə, yaxşı.

Bir neçə gün sonra bizdən yenə döyüşə gedənlər oldu. 3-cü bölüyə yaxınlaşdım, kimə dedimsə ki, mən artıq bir dəfə döyüşdə olmuşam, bilirəm, düş, mən gedim, heç kəs düşmədi. Sonra 2-ci bölüyün yanına getdim. Taqım komandirimə dedim ki, biz eyni tankda girək döyüşə. Mənə dedi ki, narahat olma, mən hansı tankla getsəm, səni də özümlə tuşlayıcı aparacağam. Tankların heç birində yer yox idi. Bir də gördüm ki, 27 saylı tank çıxıb, gəlir. Baxdım ki, tank komandiri leytenant Nağıyev əsgəriylə gəlir. Taqım komandirim onun gənc olduğunu nəzərə alıb leytenant Nağıyevə dedi ki, sən düş tankdan, həm cavansan, həm də mən və əsgər Abdullazadə bir dəfə döyüşdə olmuşuq. Sənin üçün hələ tezdir döyüşə getmək. Taqım komandirim və tabor komandiri nə qədər israr etsələr də, leytenant Nağıyev razı olmadı. Mən də dedim ki, heç olmasa icazə verin, tuşlayıcının yerinə mən gedim. Mən bir dəfə döyüşdə olmuşam. Razı oldular. Leytenant Nağıyevin yanındakı əsgər düşdü, onun yerinə komandirlə mən döyüşə getdim. Tankın üstünə bayrağımızı taxıb, sevinc və coşğuyla yola düşdük. Yol kənarındakı hərbçilərin və mülkilərin sevinc nidaları arasında Horadizi keçdik, Lələtəpənin altından irəlilədik. Lap irəlidə tabor, yanında da bulaq var idi. Oraya yerləşdik. Hər gün gedib, hədəfləri vurub dağıdır, sonra geri qayıdıb, mərmimizi yükləyir, hazır vəziyyətdə növbəti əmrləri gözləyirdik. Gecələr böyük tut ağacının altında oturur, ocaq qalayıb isinirdik.

Yaralanmamışdan bir gün əvvəl quru yemək yeməkdən mədəm ağrıyırdı. Bölüyün baş çavuşundan xahiş etdim, bizə mərci şorbası bişirib gətirdilər. Biz vurulan gün bizə mərci şorbası gəldi, amma biz görmədik. Səhər tezdən bizə konservdən yemək gəldi. Mənim yeməyə imkanım olmadı, amma komandir məni məcbur etdi ki, yeyim, birdən anidən çıxmalı olarıq. Yeməyə yenicə oturmuşduq ki, atışma düşdü, biz çıxmalı olduq.

Biz çox yerləri vurmuşduq. Düşmənin "val"larını (qorunmaq, dayanıb atəş açmaq üçün istehkam – *red.*) vurur-

duq, qorxudan qışqırışıb dağılırdılar. Daha sonra onların çadırdan olan qərargahını vurduq. Hər uğurlu vuruşumuzda sevincdən qışqırırdıq. Köhnə bir ev var idi, onun arxasında da Kamaz. Kamazın təkcə burnu göründüyü üçün biz başa düşdük ki, onu vura bilməyəcəyik. Ona görə də yerimizi dəyişdirdik. Zərbəmizin şiddətindən Kamaz göyə qalxıb, yerə çırpıldı, darmadağın oldu. Orada həm də hərbi hissənin həyətində hərbitəyinatlı minik maşını var idi, yanında da bir neçə nəfər. Açığı, mən onu görməmişdim, komandir mənə dedi ki, *mənim sənə göstərdiyim yeri vur.* O mənə koordinatları verdi, mən də həmin yeri vurdum və maşını darmadağın etdik. Sonra dedi ki, *gözünün qabağında nə qədər tikili var, hamısını vur, dağıt.*

*– Bəs siz tuşlayanda onlar sizin tankı görmürdülər?*

**Azər:** Biz vururduq, sonra tankı geri çəkirdik. Sonra bir də vururduq.

Komandir mənə dedi ki, *birinci əsasları vur, sonra qalanlarını dağıt.* Mən də baxdım ki, ikimərtəbəli bir bina var, hər pəncərəsində də sərinkeş. Fikirləşdim ki, sərinkeş varsa, mühim bir yer olar. Birinci oranı vurub dağıtdıq, sonra da hərbi hissənin geri qalanını. Həmin gün həm də iki Kamaz, iki UAZ, bir də hərbi minik maşınını vurduq. Çadırdan olan qərargahı vurduğumuz gün isə həm də başqa bir ərazini vururduq. Orada ağaclar var idi, biz vurduqca onlar qaçıb ağaclar olan tərəfə yığıldılar. Biz oranı vuranda isə qaçıb səngərdə gizləndilər. Komandir mənə dedi ki, *tək-tək vurma, qoy hamısı bir yerə yığılsın, sonra vur.* Gözlədik, hamısı yığıldı səngərin ağzına, daha sonra vurduq. Haradasa 25 nəfər olardılar, hamısını elə məhv elədik. Yenə həmişəki kimi bizim tankdan sevinc və qışqırıqlar yüksəldi. Bir şey var ki, ermənilər qorxaqdır, vururduq, görürdülər ki, yox, tab gətirə bilmirlər, qaçırdılar.

Ondan sonra başqa bir "val" var idi. Oranı vurmağa getmişdik. Üç ədəd təpə idi. Həmişə komandir birinci piyada tək gedib hədəfə baxır, gəlib bizə izah edir, sonra

da tankla gedib oranı vururduq. Bu dəfə dedim ki, mən də sizinlə gedim. Razılaşdı, getdik.

Tankları aşağıda saxladıq, mexaniklər qaldı tankda. Biz görünməmək üçün sürünə-sürünə üzüyuxarı qalxdıq. Bizə 3 təpəni göstərib dedilər ki, soldan başlayaraq nə görürsünüzsə, dağıdın. Durbinlə hamısına baxdıq. Sonra komandir mənə dedi ki, *gördün, haranı vuracaqsan?* Dedim, hə. Dedi, *sol təpə bizlikdir.* Dedim, yaxşı.

Qayıdıb gəldik, əmr verdilər, başladıq vurmağa. Bir dəfə vurduq, ikinci dəfə vurduq, üçüncü dəfə vuranda tankımız xəbərdarlıq siqnalı verməyə başladı. Bu o demək idi ki, bizi nişan alıblar. Biz maşını maskalamaq üçün tüstü qumbarası atıb geri qayıtdıq, tankı gizlədib gözlədik. Sonra başqa istiqamətdən çıxdıq, amma tank yenə xəbərdarlıq siqnalı verdi. Yenə geri qayıdıb, yerimizi dəyişib çıxdıq, bu dəfə tapa bilmədilər.

– *Siqnal o deməkdir ki, silahı sizə qarşı tuşlayıblar?*

**Azər:** Bəli, o deməkdir ki, bizi nişan alıblar.

Sonra başqa istiqamətdən çıxıb, həmin yerləri vurduq. Sonra bizə rabitədən xəbər gəldi ki, həmin yerləri vurmusunuz. Komandir çevrilib mənə göz vurdu ki, yəni qurtardı, vurduq, hazırdır. Sonra əmr verildi ki, qayıdın öz yerinizə, mərmi yükləyib, ehtiyatda gözləyin.

Oktyabrın 6-sı Füzulidə olanda gecə çox soyuq idi. Hamımız dərənin içində soyuqdan qorunmaq üçün qucaqlaşıb yatmışdıq. Komandirlə mən kürək-kürəyə yatmışdıq. Hava çox soyuq olduğu üçün komandir soyuqdan əsirdi. Mən isti olsun deyə onu qucaqladım, amma sonra özüm də titrəməyə başladım. Başqa bir yoldaşımız gəldi, o da məni qucaqladı, üçümüz kürək-kürəyə verib yatdıq. Səhər oyananda da üşüyürdük. İsinmək üçün hərəkət etdik, yemək axtarıb tapdıq.

– *Nə tapdınız?*

**Azər:** Konserv, ancaq konserv idi. Bir də pryannik və peçenye...

– *Özümüzünkülər vermişdi, yoxsa?*

**Azər:** Hə, hə, amma onlarınkıları da tapırdıq.

Sonra qabağa erməni postuna getmişdik. Paltarlarımız yaş idi. Oradan axtarıb şokolad tapdıq, yedik. Onu da videoya çəkmişik. Sonra komandir getdi ki, görsün, başqa nə var. Oradan bir paket nəm salfet tapdı, bir ədəd də batareya. Dedi, *aparacağam evə.* Bir ədəd qayçı, üç ədəd də köynək gətirdi formanın altından geyinməyə. Mənim kəmərim yox idi, onun əvəzinə ip bağlayırdım. Mənə kəmər gətirdi. Bir də üç qutu siqaret tapıb gətirdi. Hamısını yığdı tanka ki, *aparıb aşağıda hamıya göstərəcəyəm.* Orada bir neçə saat qaldıq. Sonra dedilər, bir tank lazımdır, yuxarıda hədəf var, oranı vurmağa. Hamı özünü irəli verdi ki, mən gedəcəyəm. Başqa bir tank var idi, o qalxıb vurdu. Sonra oradan çıxıb, aşağıda Lələtəpənin altına qayıtdıq. Əynimiz yaş idi, yemək yeməmişdik, bir də mərmi yükləməli idik. Tanka mərmi yüklədik, əynimizi dəyişdik (soyuq olmasın deyə altdan tapdığımız paltarlardan da geyinmişdik). Paltar gəldi bizə, əynimizi dəyişdik, yeməyimizi yedik, oradan çıxıb irəli tərəfə qayıtdıq. Çıxmamışdan qabaq ehtiyat üçün əlavə yemək və paltar da götürdük. Həmin gün böləndük. 4 tank bir istiqamətə getdik, 4 tank da başqa bir istiqamətə. Orada komandirin uzunboğaz çəkməsi dözmədi, cırıldı. Ayaqyalın qalmışdı. Soraq elədik ki, uzunboğaz çəkmə lazımdır. Uzunboğaz çəkmə yox, amma təzə çəkmə tapdılar. Komandirin forması da cırılmışdı. Komandirə dedilər ki, sizə evdən bağlama göndəriblər. Komandir dedi ki, *qardaşım göndərib, arxadadır, danışmışam, buraya gətirəcəklər.* Dedi, *içində hər şey: təzə uzunboğaz çəkmə, hərbi forma, siqaret var* (Azərin çəkdiyi siqareti xüsusilə tapşırmışdı – *red.*). Qardaşı hər şey göndərmişdi.

Oktyabrın 9-u tanka mərmi yükləyəndə bizə çoxlu şirniyyat vermişdilər, oturub yedik. Komandir başladı arzularını saymağa ki, buradan qayıdandan sonra nə edəcək. Bir az telefonla məşğul oldu. Sonra dedi ki, *bilməzdim, qardaşlarım məni bu qədər çox istəyirlər.* Dedim, niyə, komandir? O, nə sözdür? Orada bir gün əvvəl Ford pikap

sürmüşdü, çox xoşuna gəlmişdi. Dedi, *tankdan düşüb, pikap sürmək bir başqadır, tankdan sonra bu çox rahat gəlir.* Dedi, *qardaşımla danışanda demişəm ki, bu maşından ürəyim istəyir. O da mənə dedi ki, ürəyin hansı maşından istəyir, alacağam, təki sən gəl.* Komandir dedi ki, *mən qardaşıma bəhanə edib dedim, öz maşınım köhnəlib, filan şeyləri xarabdır.* Qardaşı deyib ki, onlar da düzəlib, təkərlər də dəyişilib. Hələ biz müharibədən qabaq Bakıda olanda komandir mənə zarafatla demişdi ki, *təkərin birini sən dəyiş.* Mən də demişdim ki, yaxşı, əsgərliyim qurtarsın, dəyişdirəcəyəm. Mən ona sual verdim ki, maşını aparıblar hərbi hissədən? (Həyəcan siqnalı veriləndə maşını aparıb qoymağa, adicə evdəkilərlə sağollaşmağa imkanı olmamışdı – *red.*) Dedi, *hə, hər şeyi düzəlib, qardaşım düzəltdirib, təkərini də dəyişdirib. Amma mən dedim ki, o maşın köhnəlib, mənim özümün ürəyim istəyən maşın var, qardaşım alacaq, razılaşmışıq.* Sonra məndən soruşdu ki, *sənin ürəyin nə istəyir?* Mən dedim, buradan salamat çıxa bilsək, görüşmək, gecə şəhəri gəzmək istəyərəm. Bilmirəm, istədiyi var idi, yoxsa yox, mənim yox idi. Dedim, ancaq buradan çıxıb, şəhəri gəzmək, rahat, sakit bir yerdə olmaq istəyirəm. Olduğumuz yer çox səs-küylü idi, dedim, ancaq sakit bir yerdə olmaq istəyirəm.

– *Murad başqa nə arzuladı? Arzusu nə idi?*

**Azər:** Onun arzusu ancaq döyüşmək idi. Döyüşsün, bir addım arxaya, geriyə çəkilməsin.

– *Müharibədən sonrakı arzuları haqqında nə deyirdi?*

**Azər:** Xarici ölkəni (Türkiyəni) gedib gəzmək istəyirdi. Ən böyük arzusu gedib oranı gəzmək idi. Bir də maşın həvəskarı idi.

Sonra dedilər ki, yemək vaxtıdır, yemək gəlib, deyəsən. Gedib, oturub yemək yedik. Komandir kolbasanı çox xoşlayırdı. Arxaya zəng edib MTT (Maddi-Texniki Təminat) rəisinə demişdi ki, *gələndə mənə kolbasa gətirərsiniz.* Bir az dərman-filan götürdük, boğazım ağrıyırdı, hamısını yığdıq tankın arxasına. Dedik, lazım olar.

– *Həmin gün necə oldu?*

**Azər:** Həmin gün (oktyabrın 11-i) səhər tezdən yeməyimizi yedik. Komandir məni 4–5 dəfə tanka göndərdi, getdim, gəldim. Sonra biləndə ki, mən yemək yeməmişəm, məni göndərdi yeməyə. Biz də mexaniklə gedib, konserv açıb, qazana tökdük. Dairəvi dönər çörəkləri gətirmişdilər, onları da götürdük, oturduq yeməyə. Yenicə başlamışdıq ki, atışma düşdü, yeyə bilmədik. Qazanı və çörəyi götürdüm ki, tankın üstündə yeyərik. Orada da gördük ki, yox, yeməyə vaxt yoxdur. Yeməyi atıb, mindik tanklara, getdik. Qabaqda irəlilədik. Sonra tankımızı vurdular.

– *Vurulanda sən bildin ki, sizi nişan alıblar?*

**Azər:** Xeyr, hiss etmədik, içəridə heç nə hiss etmədik. Bircə alov hiss etdim, alov qalxdı. Başım dəydi, sonra da gözüm tutuldu.

– *Həmin gün Muradın ürəyinə nə isə dammışdımı? Yoxsa ümidi var idi ki, müharibədən salamat çıxacaq?*

**Azər:** Həmişə qayıtmaqdan nəsə söz düşəndə deyirdi, *qismət, inşallah, yaxşı olar*.

Oktyabrın 4-ü Cəbrayıl istiqamətində döyüşürdük. Tankı maskalamak üçün üstünə ağac qırıb tökürdük. Üç-dörd ədəd yığıb tökəndən sonra dedim, day bəsdir, komandir. Komandir bəyənmədi, dedi ki, *üç dənə ağacla maşını gizlətmək olar? Tankın üstü tamam örtülməlidir.* Təzədən ağac gətirdik, maşını tamam maskaladıq. Bu vaxt düz yanımıza mərmi düşdü. Onda soruşdum ki, buradan sağ çıxmaq haqda nə düşünürsən, komandir? Demişdi ki, *qismət... Alnımızda nə yazılıbsa, o da olacaq. Haraya qaçsan, haraya getsən, lap arxada ol, istəyirsən, qismətində varsa, olacaq.*

Bir dəfə düz başımızın üstündən mərmi keçdi və yaxınımızda partladı. Biz onda yemək qızdırırdıq, heç nə olmamış kimi yeməyə davam elədik. Bu artıq bizim üçün adi bir şey idi.

Hava yağışlı idi, arxa cəbhədən adamlar gəlmişdi, onlarla şəkil çəkdirdik. Sonra qalxmağa davam etdik. Orada

meşə kimi ağaclıq, kolluq bir yer var idi, tam yadımda qalmayıb. Getdik oraya, orada döyüşdük. Geri qayıdanda düşmən texnikasına rast gəldik. Tam yadımda qalmayıb, amma, deyəsən, BTR idi. Bizimkilər bir tərəfindən yüngülvari vurmuşdular, ermənilər qoyub qaçmışdılar, içi mərmiylə dolu idi. Orada sevindim ki, komandir, bunu aparsaq, əla olar. Komandir dedi ki, *yox, biz burada dayansaq, onlar bizi görərlər. Bizə görə digər tanklarımız da vurula bilər.* Ona görə biz digər tanklara dedik ki, onlar bizi gözləməsinlər, biz arxadan gələcəyik. Düşüb erməni texnikasına baxdıq, işə salmağa çalışdıq, amma işə düşmədi. Məcbur qalıb tankımıza qoşub, gətirdik öz tərəfimizə. İçi mərmi ilə dolu olduğu üçün yolda bir-iki problem oldu, amma sağ-salamat gətirib çatdırdıq.

Mən bir az dikbaş idim, mərmi düşəndə əyilmirdim. Qismət, qismət deyirdim. Komandir məni danladı ki, *düz etmirsən, əyil aşağı. Mərminin haraya düşəcəyi bilinmir. Bir də belə etmə!*

*– Bilirəm, say demək çətindir, amma bilmirsən, siz birlikdə olduğunuz müddətdə Murad təxminən nə qədər ermənini məhv etmiş ola bilər?*

**Azər:** Birlikdə olarkən hərbi hissəni dağıtdığımız vaxt iki Kamaz (birinin içi şəxsi heyətlə dolu idi), iki UAZ vurduq, başqa bir hərbitəyinatlı minik maşını vurduq. Bir qənimət götürmüşük (BTR). Bir də əvvəldə dediyim, qaçıb səngərə girən həmin 25 nəfər şəxsi heyət var idi, onları vurduq. Əslində, tam say demək çətindir, çünki biz hərbi hissə, qərargah kimi strateji obyektləri, müxtəliftəyinatlı hərbi vasitələri vururduq, düşmənin atəş nöqtələrini susdururduq, "val"larını, səngərlərini və digər istehkamlarını dağıdırdıq, amma içində nə qədər adam olduğunu görmürdük.

*– Uğurlu atışlardan sonra Muradın dediyi ilk söz və ya nida və yaxud etdiyi ilk hərəkət nə olurdu?*

**Azər:** Tankın içində bir-birimizi görsək də, texnikanın səsindən bir-birimizi eşitmirdik, ancaq rabitəylə

danışırdıq. Tuşlayıcı hədəflərə yalnız monitordan baxır, tank komandiri isə həm də kiçik pəncərədən görə bilir. Atışı edəndən sonra mən komandirə baxırdım ki, görüm, hədəfi vurmuşuq? Erməniləri vuranda sevinirdik, ya əliylə əla işarəsi göstərirdi, ya da göz vurub gülürdü, ya da ki əlini uzadıb əlimi sıxırdı, qışqırırdıq. Uğurlu vuruşlardan sonrakı sevinc və fərəh hissi tamam başqa idi. Qayıdanda tankın giriş qapağından çıxıb, sevincdən qışqırırdıq ki, vurub dağıtdıq, qovduq onları.

– *Geri qayıdıb, tankdan düşəndə səni qucaqlayırdı?*

**Azər:** Xeyr, tankın içərisində yaxın otursaq da, hərəkətdə olanda çox yaxınlaşıb, qucaqlaşa bilmirdik, çünki tankın topu qalxıb enirdi.

Adətən, mərmini tanka tank komandiri yükləyir, tuşlayıcı isə atəş açır. O deyirdi ki, əziyyəti o çəkib mərmini yükləyir, mən isə ancaq düyməni basıb atəş açıram. Həm də orada heç kəs ona mərmi yükləməyi öyrətməmişdi. Bir nəfər var idi, ona bir-iki sual verdi, sonra özü girdi tankın içinə, düymələri basa-basa yükləməyi öyrəndi. Növbəti dəfə artıq mərmini təkbaşına yüklədi. Sonra mərmi yükləməyi mənə də öyrətdi. Dedi: *“Gəl indi əziyyətini özün çək, özün də vur”.* Bir dəfə mən bilərəkdən səhv etdim ki, görsün, yükləyə bilmirəm, özü yükləsin, çünki çox çətin idi.

– *Heç Muradın qorxduğu an olubmu?*

**Azər:** Xeyr, komandir heç vaxt qorxmurdu. Amma şəhid xəbəri gələndə çox pis olurdu. Gözləri dolurdu. Hamımız pis olub ağlayırdıq. Amma qorxmaq heç vaxt olmurdu.

– *Şəhid xəbəri gələndə qisas hissi alovlanırdımı?*

**Azər:** Bəli, hamımızda. Bir şey var ki, heç birimiz dayanmaq istəmirdik. Hansı gün ki çox irəli gedə bilmirdik, onun özü də pis olurdu, mən də. Ancaq irəli getmək, qələbə qazanmaq istəyirdik. Kəşfiyyatçılar irəlidə gedirdilər, keçə bilmədikləri çətin yer olanda bizə məlumat gəlirdi, biz həmin yeri vurub dağıdırdıq, onlar keçirdilər (Muradgilin tankı ən irəlidə xüsusi təyinatlılarla hərəkət edirdi – *red.*).



– *Vurulduğunuz üçün özünüzdə günah görürsənmi? Səhlənkarlıq etdiyinizi düşünürsənmi?*

**Azər:** Xeyr. Vurulduğumuz gün tankımız siqnal vermədi. Həmin gün tankımız xəbərdarlıq siqnalı versəydi, biz yenə bundan əvvəl bir neçə dəfə etdiyimiz kimi tankı maskalayıb gizlədərdik. Amma həmin gün tankımız hansısa səbəbdən siqnal vermədi.

– *Sən özün vurulanda bildin ki, Murad şəhid olub?*

**Azər:** Mən təkcə alov hiss etdim. Sonra özümdən getmişəm. Bir də xəstəxanada iki əməliyyatdan sonra ayıla bildim. Komandir haqda sonra öyrəndim.

– *Muradda ermənilərə qarşı ürəyiyumşaqlıq olurdumu heç?*

**Azər:** Xeyr, amma bir şey bizi narahat edirdi. Qarşımıza qadın və ya uşaq çıxsa, nə edərik?

– *Heç çıxıb?*

**Azər:** Xeyr. Həmişə düşünürdük ki, əlisilahlı kişilər çıxsa, heç, onları məhv edərik, amma qadın və uşaqlar məsələsi bizi narahat edirdi.

Bundan sonra nə işlə məşğul olacağımı soruşanda demişdim ki, MAHHXHQ olaraq qalıb, xidmət etmək istəyirəm. Mənə demişdi ki, *MAHHXHQ kimi niyə qalırsan? Mən sənə dəstək olaram, MAHHXHQ kimi yox, kurs keçib, zabit kimi qalarsan.*

Komandir hər şeydən inciyən adam deyildi. Ona edilən yaxşılığı heç vaxt unutmurdu. Bir problemi olsa belə, onu heç vaxt bəlli etmirdi. Problemini heç kimlə bölüşmürdü.

Cəbrayılda çox şirin nar var idi, hələ indiyə qədər elə gözəl nar yeməmişdim. Qırıb gətirdim, birlikdə yedik.

Vurulmamışdan bir gün qabaq təzə paltarlar gətirmişdilər, hamımız geyindik. Mənə demişdi ki, *elə hazırlaşırsan, elə bil görüşə gedirsən.* Gülmüşdük.

– *Murad təmizkar idi?*

**Azər:** Bəli, həmişə çox səliqəli idi, maşınının içi də həmişə təmiz olurdu. Paltarları səliqəli, uzunboğaz çəkməsi də təmiz olurdu.



*Beşaylıq Muradın ilk şəkillərindən biri*



*Murad anası Xavər xanımla Bakıdakı ilk mənzillərində*



*Qardaşları Sərxan və Orxanla*
*(Orxanın xatirələrində bəhs etdiyi şəkil)*



*Murad 105 saylı körpələr evi uşaq baxçasında*





*Murad 105 saylı körpələr evi uşaq baxçasında*



*Məktəbin ilk günü*
*(271 nömrəli tam orta məktəb)*



*Murad "Əlifba" bayramında*




*271 nömrəli tam orta məktəb, 3$^{b}$ sinfi*
*(Murad ən üst sırada soldan üçüncüdür)*

# III sinif

| № | Fənlər | Qiymətlər | | | | | Buraxılan dərslər | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | I rüb | II rüb | III rüb | IV rüb | İllik | Cəmi | Üzürlü | Üzürsüz |
| 1. | Ana dili | | 5 | | 5 | 5 | | | |
| 2. | Azərbaycan dili | | 5 | | 5 | 5 | | | |
| 3. | «xarici» dili | | 5 | | 5 | 5 | | | |
| 4. | Riyaziyyat | | 5 | | 5 | 5 | | | |
| 5. | Təbiətşünaslıq | | 5 | | 5 | 5 | | | |
| 6. | Təsviri incəsənət | | 5 | | 5 | 5 | | | |
| 7. | Musiqi və nəğmə | | 5 | | 5 | 5 | | | |
| 8. | Fiziki tərbiyə | | 5 | | 5 | 5 | | | |
| 9. | Əmək hazırlığı | | 5 | | 5 | 5 | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

Şagird haqqında qeydlər: (dərs ili ərzində aparılır)

Çox hazırlıqlı, məsuliyyətli şagirddir. Oxusu, yazısı, riyazi savadı, davranışı yoldaşlarına nümunədir. Dərslərini sərbəst yerinə yetirir.

Pedaqoji şuranın 8 N-li 30.05.06 il tarixli qərarı ilə

dördüncü sinfə keçir

Sinif rəhbəri N. Orucova

Psixoloq H. İsayeva

Direktor S. Məmmədov

M.Y.

*Muradın 271 nömrəli tam orta məktəbdəki şəxsi işindən*



*Murad (soldan birinci) Kulelidə kursant yoldaşlarıyla*



*Türkiyədə azərbaycanlı kursant yoldaşları Təbriz (sol üstdə) və Əhməd (sağ üstdə) ilə*



*Murad İzmirin Menteş düşərgəsində kursantların "cehennem haftası" adlandırdığı komando hazırlığı kursunda*



*Murad komando hazırlığı kursunda*



*Çanaqqalada “57. Alay Vefa Yürüyüşü”ndə*



*Murad Kulelidə təhsil alarkən*



*Anası Xavər xanımla*



*Murad İstanbulda,*
*Gülhane parkında*



*Dostu və kirvəsinin*
*qardaşı Emre ilə*



*Kuleli Askeri Lisesində*




*Murad İstanbul boğazında*



*Kulelidə çox sevdiyi gitarasını çalarkən*



*Murad Kuleli Askeri Lisesinin "Məzun günü"ndə*



*Murad qardaşı Orxanla*



*Gülhane parkında*



*Bakıda, İçərişəhərdə*




*Murad Türkiyədə silah sərgisində*



*Türkiyədə təlimdə*




*Kuleli Askeri Lisesində məzun fotosu*



*Kuleli Askeri Lisesində məzun fotosu*




*Kuleli Askeri Lisesində məzun fotosu*



*Murad (sağdan birinci) Kulelidə kursant yoldaşlarıyla*



*Türkiyədə silah sərgisində*




*Kuleli Askeri Lisesində məzun fotosu*




**M. NAGIYEV**
*As.Öğr.*
*4232 (12'nci Sınıf – 3'üncü Kısım)*
*Kuleli Askerî Lisesi*


# İSTANBUL VE HAYAT

Yeni bir gün başlat hayatta.
Sabah güneş kendini göstermeye başlar,
Sonsuz ufuklarda.
İlk ışıklar akseder deniz üstünde.

Öylece izlemeye başlarsın güneşin doğuşunu,
Sonra dayanamazsın bu güzellik karşısında,
İçini bir ferahlık kaplar.
Yüzün güler, hayran kalırsın bu eşsizliğe.

Her şey uçuverir aklından,
Kilitlenip kalırsın bu manzaraya,
Ama uzun sürmez bu güzellik,
Hayat gibi güzel görünür ilk başta.

Ve bitti artık bu doyumsuz güzellik,
Acı vermeye başlamıştır çok sevdiğin ışıklar.
Gözlerin kamaşır dayanamazsın bakamazsın,
Sonra yüzün yanmaya başlar.

Bir tokat yemiş gibi yüzün yanar,
Evet bir tokat, hayattan yediğin bir tokat.
Ne tuhaf değil mi?
İlk önce aldanıp sonra yanmak.



*Muradın "Mürekkebimdir Kuleli" kitabında çap edilən "İstanbul ve hayat" şeiri*




*Kuleli Askeri Lisesində məzun fotosu*



*Murad komando hazırlığı kursunda*




*Bakıda, Dağüstü parkda*




*Qardaşı Sərxanla Kulelidə*



# 4232 - MURAT NAGİYEV



Azerbaycan
okula gela
hareketleri

Arkadaşımızın
matematik derslerin

Türkiye Türkç
geçiren arkadaşımız
gönlünü adeta feth

Konuşurken –a
hatta tekmil vermes
verebileceği tavsiyes

Kulelide son ik
her sınav haftasınd
sermiştir.

Kuleli yıllarına
de başarılar dileriz.



'dan Kuleli'ye büyük umutlarla gelen kardeşimiz 1. Kısma girdiğinde hayallerindeki liğini ve buraya kaydolmakla ne kadar isabetli bir karar verdiğini bizlere hal ve iyle anlatmayı başarmıştır.

bir gözünün sürekli yarı açık olması hasediyle biz onu hep uykuda sandığımız nde gösterdiği üstün soru çözme kabiliyeti ve başarısıyla hepimizi şaşırtmayı bilmiştir.

esini Azerbaycan'da öğrenip geldiği için bizlerle çok daha hızlı bir kaynaşma süreci z gerek yaptığı esprilerle gerekse Azeri Türkçesine has sempatik kelimelerle hepimizin eylemiştir.

rtık küçüklükten gelen bi alışkanlık mıdır nedir bilemedik- sürekli alçak sesle konuşması i onu ne kadar cool gösterse de hasretini çektiği harbiye de bu davranışının ona zarar inde bulunmak zorundayız.

i yılını 1. Kısımdan uzakta geçirse de Murat kardeşimiz kısmından hiç kopmamış ve a kısma seri ziyaretler düzenleyerek bize olan bağlılığını bir kez daha gözler önüne

la birlikte vakit geçirmekten keyif aldığımız bu arkadaşımıza hasretini çektiği harbiye


T.C.
KARA KUVVETLERİ KOMUTANLIĞI
KULELİ ASKERİ LİSESİ KOMUTANLIĞI
MEZUNİYET BELGESİ

| | | | |
|---|---|---|---|
| T.C. Kimlik No | : 9005004076 | Diploma No. | : 18489 |
| Adı Soyadı | : MURAD NAGIEV | Dönem | : Doğrudan Geçen |
| Baba Adı | : MAYIL | Okul Numarası | : 4232 |
| Ana Adı | : XAVER | Alanı | : Fen Bilimleri |
| Doğum Yeri | : KAZAH / AZERBAYCAN | Yabancı Dil | : |
| Doğum Yılı | : 09/02/1997 | Bitirme Derecesi | : 50,09 Geçer |

Yukarıda kimliği yazılı öğrenci Kuleli Askerî Lisesinden başarı ile mezun olmuştur.

Ali IŞIK
Öğretmen Albay
Öğretim Başkanı

Muammer AYGAR
Kurmay Albay
Okul Komutanı

NOT : Bu belge diplomadaki bilgileri ihtiva etmekle beraber diploma yerine kullanılmaz.

*Kuleli Askeri Lisesi diplomu*




*Murad AAHM-in birinci kursunda*



*Murad Azərbaycandakı təlimlərdə*




*Kursant yoldaşları ilə təlimdə*
*(soldan sağa Şamxal, Heydər və şəhid Ümid Məmmədov)*



*Murad Lerikdə*



*Bakıda, Dağüstü parkda*



*Murad Qəbələdə*



*Qardaşları Orxan və Sərxanla*





*Murad Azərbaycanda təlimlərdə*



*Murad (oturanların arasında sağdan ikinci), Vasif müəllim*
*və tankçı kursant yoldaşlarıyla (AAHM "Qrup 86")*



*Murad anası Xavər xanım və Orxanın həyat yoldaşı Nərminlə*



*Dostlarıyla Yardımlıya gedərkən*
*(soldan sağa Əhməd, Heydər və Firudin)*



*Murad Azərbaycanda hərbi texnika ilə təlimdə*




*Murad dostları Əhməd (solda) və Firudinlə (sağda)*



*Anası Xavər xanımla*



*Murad Ağstafada təcrübədə*



*Heydər (solda) və Firudin (sağda) ilə AAHM-də “Məzun günü”ndə*



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi

HUİ üzrə **SERTİFİKAT** № 002407

| | | |
|---|---|---|
| Rütbəsi | : | leytenant |
| Soyadı | : | Nağıyev |
| Adı | : | Murad |
| Atasının adı | : | Mayıl |
| Təvəllüdü | : | 09.02.1997 |
| Müvəffəqiyyət göstəricisi (ÜOMG) | : | 75,04 |
| İxtisas sıralanması | : | 17 / 5 |
| Buraxılış sıralanması | : | 498 / 174 |
| İxtisası | : | Tank bölmə, hissə və birləşmələrin döyüşə tətbiqi |

Dövlət attestasiya komissiyasının sədri
general-leytenant Nizam Osmanov

HEYDƏR ƏLİYEV adına Azərbaycan
Ali Hərbi Məktəbinin rəisi
general-mayor Fizuli Salahov

Dövlət attestasiya komissiyasının katibi
polkovnik Ruslan Məmmədov

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi diplomu*



*Leytenant Murad Nağıyev*




QURU QOŞUNLARI
MURAD NAĞIYEV










*Murad anası Xavər xanımla*



*Çox sevdiyi qardaşı oğlu Atilla ilə*



*Murad çoxdan arzusunda olduğu avtomobili ilə*



*Murad döyüş yoldaşları ilə cəbhədə – Cəbrayıl rayonunun Şükürbəyli kəndində (soldan sağa Elvin, Azər və mayor Xurşudov)*



*Murad cəbhədə*



*Döyüş yoldaşları ilə*
*(soldan sağa Cavad, şəhid Namiq Həsənov və Azər)*



*Murad cəbhədə döyüş yoldaşları ilə*




*Cəbhədə döyüş yoldaşları ilə*
*(soldan sağa Elsevər, Namiq, Fərid, Rüfət və İsa)*




*Muradın Kuleli üzüyü, qol saatı və xəyalını qurduğu zabit ulduzları*




*Cəbhədə olarkən belə qolundan çıxarmadığı saatı,*
*sonuncu ətri, Kara Harp Okulu üzüyü və portmanatı*




*Muradın müxtəlif dövrlərdə istifadə etdiyi paqonlar və yaxalıqlar*



*Banunun hədiyyə etdiyi "tank", tankçı yaxalığı*
*və təlimlərdən xatirə saxladığı gilizlər*






AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
№ I-1329
Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 15 dekabr tarixli
2349 nömrəli Sərəncamı ilə

*Nağıyev Murad*
*Mayıl oğlu*
*(ölümündən sonra)*
"Vətən uğrunda"
medalı

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti






AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
№ I-1538
Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 24 dekabr tarixli
2358 nömrəli Sərəncamı ilə

*Nağıyev Murad*
*Mayıl oğlu*
*(ölümündən sonra)*
"Cəbrayılın azad olunmasına görə"
medalı

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

## Ergys Dollomaja
### *(Kuleli Askeri Lisesi və Kara Harp Okulundan kursant yoldaşı və dostu)*

– *Muradla ilk dəfə harada tanış olmusunuz?*

**Ergys:** Murad kardeşimle 2011 senesinde tanışmıştık. Ben o zaman Türkçe hazırlık sınıfını yeni tamamlamış ve 9. sınıfa geçmiştim. Murad kardeşim ise Azerbaycan'dan gelmişti ve Türkçeyi biliyordu. Ondan dolayı gelir gelmez bizim sınıfa geçmişti. Azerbaycan'dan gelen arkadaşlarımız için kısımlar (bölük) belirlenmiş ve Murad benim de olduğum 1. kısıma gelmişti. Benden 3 yaş küçüktü Murad ve zaman zaman beni yaşlı hissettiriyordu. Murad'ın yanında kendimi yaşlı hissediyordum, çünkü daha küçücük çocuktu. Üniformasını ilk kez giydiğinde üstünde bayağı (çox) bol duruyordu ama seneler geçecek ve Murad büyüyünce o üniforma eskisi gibi bol durmayacaktı artık.

– *Muradla hansı yaddaqalan xatirələriniz var?*

**Ergys:** Murad'la toplam 5 sene birlikte aynı okullarda okuduk ve bunun 4 senesi, belki de hepimizin en güzel yılları Kuleli Askeri Lisesinde geçti. En çok Murad'la olan hatıralarım tabii ki de Kuleli'den kalan hatıralar.

– *Bizə bir az onlardan danışın, zəhmət olmasa.*

**Ergys:** Kardeşimle aynı kısımda, aynı odada kaldık. Aynı yemek masasında yemek yedik. En güzel zamanları birlikte geçirdiğimiz gibi kötü zamanlarımız da oldu, ama onları da birlikte atlattık. Bizler ailelerimizden uzak, kimsesiz, küçük adımlarla büyük hayallerin peşine düştük. O subay (zabit) yıldızları hep hayallerimizdeydi. Yol bayağı uzun görünüyordu ama yolun sonunda o yıldızlara ulaşacağımıza inanıyorduk.

Herkesin bildiği gibi Murad'ın gitar çalma tutkusu vardı. Derslerden sonra boş vaktinde ya odada ya da kısımda gitar çalıyordu. Son sınıfta kaldığımız yer ana (əsas) tarihi binaydı. Uzun koğuş koridorundan geçerken

odamızdan gitar sesi gelirdi. Odaya girdiğimde Murad'ı ranzanın (ikimərtəbəli çarpayı) alt yatağında oturmuş gitar çalarken buluyordum. Normalde Murad ranzanın üst yatağında, ben de alt yatağında uyuyordum. Murad benim birinin yatağıma oturduğunda kızdığımı çok iyi biliyordu. O yüzden her zaman onu orada bulduğumda beni masum bir yüz ifadesi ve gülüşle karşılardı. Bunu görünce ben de ona kızamazdım, çünkü o, küçük kardeşim gibiydi.

Bunun gibi başka anılarımız derslerde oluyordu. Özellikle matematik dersinde Murad'a motivasyon geldiğinde, hem de gözlüklerini taktığında soruları bizden daha hızlı ve sorunsuz çözüyordu. Bazen sınav öncesi hiç çalışmamış gibi görünse de, matematik sınavlarında 90, 95, 100 notunu aldığını da çok iyi hatırlıyorum.

Ama tabi hayatımızın sadece derslerle geçmemesi lazımdı. Özellikle kış aylarında kar yağdığında bizim Kuleli'deki iç bahçe bembeyaz oluyordu. Gündüzler üstümüzde üniforma varken, akşamlar ise spor kıyafetlerle kar topu oynardık.

Belki de en güzel anılarımızı ailelerimizden uzakta geçirdiğimiz bayram tatillerinde yaşamışızdır. Tatillerde herkes evlerine giderken birçok yabancı uyruklu öğrenci okulda kalırdı. Okulun düzenlediği geziler, faaliyetler olurdu, ama bunların yanı sıra bizim aramızda anlaşıp yaptığımız geziler de vardı. Genelde bizim Arnavutlardan (alban) okulda ben kalırdım ve bayram tatillerini Azerbaycanlı kardeşlerimizle birlikte geçirirdik. Lunaparkta adrenalin dolu atraksiyonlara bindiğimizde yaşadığımız korku, İstanbul boğaz turunda ve Adalar'da bisiklet kiralayıp tur attığımız zamanlarda yaşadığımız o mutluluk hissi Murad kardeşimle en güzel hatıralarımızdan sadece birkaçı.

Kara Harp Okulu'na geçtiğimizde Murad'la aynı bölükte değildik ama kardeşim Murad şunu iyi biliyordu ki, herhangi bir sorun yaşadığında öbür bölükte onu destekleyecek bir dostu, bir abisi vardı. Benim için de aynı şey

geçerliydi. Kardeşim Murad uzakta da olsa, beni her zaman destekleyecekti.

Anlattıklarım belki çok kısa, ama Murad'la olan anılarımızı ne sayfalara ne de kitaplara sığdıramayız. Bir aile gibi yaşadığımız o 5 seneyi unutmak imkansız. O anılar hep akıllarımızda varken Murad kardeşimin bizimle var olduğundan ve her zaman aramızda olacağından eminim.

## Leytenant Anar Mərdanzadə, leytenant Elsevər Əliyev, leytenant Əbdülkərim Kərimli, leytenant Əhməd Əliyev, leytenant Əmrah Əmirov, leytenant Firudin Mahmudov, leytenant Gündüz Babayev, leytenant Nihat Sərdarlı, leytenant Tural Həkimbəyli və Təbriz Əhmədov

***(Kuleli Askeri Lisesi, Kara Harp Okulu və AAHM-dən kursant yoldaşları)***

– *Muradla necə tanış olmusunuz?*

**Əhməd:** İlk dəfə bir-birimizi 2011-ci ildə hava limanında tanıdıq. Murad, Təbriz, mən və başqa iki yoldaşımız İstanbuldakı Kuleli hərbi liseyində təhsil almaq üçün seçilmişdik və oraya yola düşürdük. Yadıma gəlir ki, Murad üstündə cizgi film personajı şəkli olan qısaqol köynək geyinmişdi. Həmişə həmin köynəyi yada salıb gülüşürdük. Ümumiyyətlə, Türkiyədə təhsil alarkən darıxmayaq deyə bir-birimizlə çoxlu zarafatlar edirdik. Çünki orada biz bir-birimizi ailəmizdən belə daha çox görürdük. Yeməyi birlikdə yeyir, dərslərimizi birlikdə oxuyur, asudə vaxtlarımızı birlikdə keçirirdik. Muradla 9 illik davamlı münasibətimiz olub, birlikdə çoxlu xatirələrimiz var. Ona görə də adam bilmir, hansından danışsın.

**Əmrah:** Muradı 2012-ci ilin sentyabr ayında Kuleli hərbi liseyində tanımışam. İlk dəfə qarşılaşanda sanki onu illərdir, tanıyırammış kimi hiss etmişdim. Onun insani keyfiyyətləri, ətrafındakılara qarşı isti münasibəti məni belə düşündürmüşdü.

**Anar:** Mən Kulelidə Muraddan iki sinif aşağı təhsil almışam. Daha sonra AAHM-də də kursant yoldaşı olmuşuq. Deyib-gülən, zarafatcıl oğlan idi. Bizə çox dəstək olub. Mən deyərdim ki, əgər hərbidə beş nəfər vətənpərvər insan varsa, onlardan biri Murad idi.

– *Muradın ətrafındakılara qarşı münasibəti necə idi?*

**Əhməd:** Murad istər Türkiyədə olsun, istər Azərbaycanda, istər mülki həyatda olsun, istərsə də hərbidə daima komandirlərinin və ətrafındakıların rəğbətini tez qazanırdı. Yəni biz onun qədər kimləsə yaxın münasibət yarada bilmirdik. Mənə elə gəlir ki, bu onun həm çox mədəniyyətli, həm də çox savadlı olması ilə əlaqədar idi. Müharibədən sonra hamı Muradı soruşurdu. Telefonum onunla bağlı suallarla dolub-daşırdı. Mən isə onlara dolğun cavab verə bilmir, özüm də kövrəlirdim.

**Elsevər:** Murad çox təmizqəlbli, gülərüz, mehriban bir insan idi. Hamıya xoş rəftar və isti münasibət göstərirdi. Muradın bu xüsusiyyətini tək cümlə ilə ifadə etmək olurdu: O, həyatı, yaşamağı və insanları çox sevir. Qəlbi sevgi dolu olan şəhidimiz heç vaxt istəməzdi ki, kiminsə xətrinə dəysin.

**Gündüz:** Məncə, şəhidlər, həqiqətən, bir gündə şəhid olmurlar, onlar şəhid doğulurlar. Bilmirəm, nədəndir, amma sanki Muradın davranışlarından, xeyirxahlığından, bir yoldaş kimi özünü aparmağından onun şəhid olacağını hiss edirdim.

– *Muradın yoldaşları ilə münasibəti necə idi?*

**Əhməd:** Dostlarına qarşı çox diqqətcil idi. AAHM-ə yeni gəlmişdik. Oradakı kursantlarla hələ yeni-yeni tanış olurduq. Başımız gündəlik fəaliyyətlərə o qədər qarışmışdı ki, öz ad günümü də yaddan çıxarmışdım. Baxmayaraq

ki, Muradın da başı qarışıq idi, o mənim ad günümü unutmamışdı. Murad yenə də təşkilatçılıq qabiliyyətini işə salmış, yoldaşlarımızla bir neçə saatın içində mənim üçün sürpriz ad günü ziyafəti təşkil etmişdi. Murad həm də dostlarına qarşı çox əliaçıq və qonaqpərvər idi.

**Təbriz:** O, dostlarını heç vaxt darda qoymazdı. Bir dəfə Bakıya gəlməliydim. Elə oldu ki, gecə gəlib çatdım. Mənim də Bakıda nə yaxın qohumum, nə də ki tanışım var. Onda məni Murad qarşıladı, evlərinə apardı. Heç vaxt yaddan çıxarmaram. Evlərinə getdik. Onlarda qaldıq. Ailəsi mənə süfrə açdı. Mən heç Muraddan xahiş etməmişdim ki, mənim üçün yer tapsın. Özü təşkil etmişdi. O da, ailəsi də məni buraxmırdılar. Birtəhər oradan çıxıb, bir az uzaqda yaşayan qohumlarımın yanına getdim.

**Nihat:** Muradın ürəyinin nə qədər saf və təmiz olduğunu hamı yaxşı bilsin, istəyirəm. Türkiyəyə təzə gəldiyim vaxtlar idi. Həm fərqli ölkəyə öyrəşmək bir az çətin gəlirdi, həm də hərbi həyat adamı lap sıxırdı. Muradla həmin vaxt tanış olmuşdum. O artıq 5 il idi ki, Türkiyədə təhsil alırdı. Muradla hər gün söhbət edirdik. Biz 4 nəfər gəlmişdik. O bizə oraya uyğunlaşmaqda kömək edirdi. Murad bizim üçün telefonundan internet açır, biz də onun sayəsində ailəmiz və yaxınlarımızla əlaqə saxlayırdıq. Kamp günlərində biz çadırda qalırdıq. Mən çadırın önünə gələndə Murad artıq özü internet açırdı. Bir telefonu var idi – “Samsung S5”. Ekranı da sınıq idi. Hələ də yadımdadır.

**Anar:** Murad Türkiyəyə təzə gələndə mənə də çox kömək etmişdi. O tək mənə yox, Kulelidə aşağı kurslarda təhsil alan hamıya dəstək olub. Hərbiyə ilk addımlarımızı atanda bizə hərbi sahə haqqında ilk məlumatları verən, istiqamətləndirən adamlardan biri olub. Murad bizə böyük qardaş olub, bizə maddi və mənəvi hər cür dəstək verib, bizə can yandırıb. Aprel döyüşləri vaxtı biz Kulelidə təhsil alırdıq, Muradgil isə artıq Kara Harp Okulunda idilər. Biz yuxarılara ərizə yazıb döyüşlərə qoşulmaq istəyirdik.

Muradla danışanda o mənə dedi ki, *siz hələ balacasınız, sizi aparmazlar, amma buraxsalar, biz gedərik. Gedə bilsəniz də, siz getməyin, biz gedək, çünki siz hələ körpəsiniz.*

Murad qərib ölkədə bizə valideyn əvəzi olub. Nə vaxt onun qapısını döymüşük, bizə heç vaxt yox deməyib. Azərbaycana qayıdanda bizə ürək-dirək, təsəlli verən də yenə Murad olub.

**Elsevər:** Hərbi təhsil aldığımız dövrdə dəfələrlə birlikdə növbətçi olmuşuq. Çox olub ki, Murad mənim yorğun olduğumu görüb və məni gedib istirahət etməyə məcbur edib. Özü də yorğun olmasına baxmayaraq, əlindən gələni edirdi ki, birlikdə xidmət etdiyi insan yorulmasın. Xidmətin sonunda da gülər üzlə soruşardı: *"Necə keçdi xidmət?"* Cavabında "əla" sözünü eşitmək onu çox sevindirərdi.

**Əbdülkərim:** Murad mənim ən pis vaxtlarımda yanımda olub. Atam vəfat edəndə 7 həftə ancaq öz yanında gəzdirmişdi. Məni heç vaxt tək qoymurdu. Kafeyə aparıb məcburi yemək yedizdirirdi. Stadiona aparıb çoxlu söhbət edir, məni sakitləşdirirdi. Həmin günlərdə mənim ən böyük dayağım Murad olmuşdu. Onun sayəsində ayaqda qala bilmişdim. Mənə çox öyüd-nəsihət vermişdi.

**Tural:** Muradla şənbə və bazar günləri buraxılış olanda evə birlikdə gedirdik. Mən Qaraçuxurda yaşayıram deyə yolumuz eyni idi. Elə vaxtlar olurdu ki, mənim yanımda pul olmayanda Murad öz cibindən mənim yol pulumu da verirdi və heç vaxt o pulu məndən geri götürmürdü. Çox ürəyiaçıq, səmimi bir dost, yoldaş qədri bilən bir insan idi.

Bir dəfə imtahanda mən Murada kömək edəndə müəllim bunu gördü və məni imtahandan uzaqlaşdırmaq istədi. Mən artıq imtahandan keçmişdim, amma buna görə mənim nəticəmi ləğv edəcəkdi. Murad müəllimə yaxınlaşıb dedi ki, mən ona kömək etmişəm və xahiş etdi ki, mənim yox, onun nəticəsini ləğv etsin. Murad belə mərd oğlan idi.

**Gündüz:** Muradla tez-tez söhbət edərdim, çünki o, qarşısındakı insanları dinləyə, onları anlaya bilirdi. Bir dəfə ona Qarabağ arzumdan danışdım. O mənə baxdı və dedi: *"İnanıram, Gündüz. İnşallah, sən bir gün o istəyinə nail olacaqsan".* Murad çox ürəyigeniş uşaq idi, heç bir şeyini dostlarından, yoldaşlarından əsirgəməzdi. Onun gözəl bir saatı var idi. Buraxılışlara gedəndə Murad bu saatı heç düşünmədən mənə verərdi.

**Təbriz:** Murad həm də tanımadığı adamlara qarşı rəhmli və əliaçıq idi. Kulelidə oxuyarkən bizi həftənin şənbə və bazar günləri məktəbdən çölə buraxardılar. Təqaüdümüz çox olmasa da, özümüzü birtəhər dolandırırdıq. Yenə həftəsonu Muradla gəzməyə çıxmışdıq. Axşam düşdüyü üçün hazırlaşırdıq, məktəbə qayıdaq. Mənim pulum qurtarmışdı, Muradın da cibində haradasa üç-dörd lirə pulu qalmışdı. O pulla da avtobusa minib geri qayıdacaqdıq. Bir qız yaxınlaşdı. Üst-başı elə də təmiz deyildi. Dedi ki, evə getməlidir, amma pulu yoxdur. Murad heç tərəddüd etmədən çıxarıb cibində nə qədər pulu var idisə, hamısını o qıza verdi. Biz də məktəbə piyada qayıtdıq. Demək istəyirəm ki, yaxşılıq edərkən özünü heç düşünməzdi. Ürəyindən yaxşılıq etmək gəlirdi və edirdi.

– *Muradın dərsləri necə idi?*

**Əhməd:** Murad həm nəzəri, həm də praktiki dərslərdə çox yaxşı idi. Qoşun təcrübəsinə birlikdə getmişdik. Bir dəfə sırada hərbi hissə komandiri taqım komandirlərini bir addım önə çıxardı. Onlarla birlikdə Muradla məni də önə çıxardı və hamımıza tank taqımının atəş sxemini çəkməyimizi tapşırdı. Hamımız çəkdik. Hərbi hissə komandiri ən axırda Muradın çəkdiyi sxemi yoxladı və heyrətini gizlədə bilməyib, üzünü sıraya tutub belə dedi:

– Kursant burada harikalar yaradıb, amma siz hələ də bir sxemi bitirə bilməmisiniz.

**Gündüz:** Təlimə gedəndə çox vaxt mən Muradla birlikdə qaçırdım. Onun çox iradəli bir zabit olduğunu görürdüm. Qısa bir vaxt ərzində o, qaçışını inkişaf et-

dirmişdi və artıq onu ən ön sıralarda görməyə başlamışdıq.

**Tural:** Televiziya çəkilişləri olanda onunla birlikdə tank-sürücülüyünə gedirdik. Müəllimlər tərəfindən seçilən, təqdir edilən kursant idi. Ona görə də onu həmişə çəkilişə dəvət edirdilər. Tank idarə etmək bacarığı da çox yüksək səviyyədə idi.

**Anar:** Ömürboyu yaddan çıxarmaram. Murad deyirdi ki, *AAHM-i bitirim, məzun olum, elə bir tankçı olacağam ki, hamı məni adla çəkəcək.* Dediyi kimi də oldu.

**Əhməd:** Murad həmişə tank-sürücülüyündən yüksək qiymətlər alırdı. Müəllimlər deyirdi ki, o, tankı çox rahat idarə edir. Sanki avtomobil sürür. Avtomobil demişkən, Murad avtomobili də çox peşəkar idarə edirdi.

**Firudin:** Muradın avtomobillərə marağı çox idi. Həm də sürəti çox sevirdi. 2019-cu ilin yay ayları idi. Bir dostumuz bizi Yardımlıya, qardaşının toyuna dəvət etmişdi. Biz də iki gün əvvəldən yola çıxıb, Lənkəranda Əhmədgilin evində qonaq olub, istirahət etmək qərarına gəldik. Murad Bakıdan icarəyə avtomobil götürdü. Bakı–Astara yolunda, körpünün üstündə ötmə əməliyyatı zamanı Muradı polislər saxladı. Hərbçi olduğumuz üçün bizə güzəşt etdilər və 60 manatlıq cərimə yazdılar. Nə qədər Muradı razı salmağa çalışsaq da, bizə imkan vermədi ki, cəriməni ödəyək. Özü ödədi. Murad çox ürəyiaçıq uşaq idi. Hər zaman əlindəkini paylaşardı. Biz də birtəhər onu razı saldıq ki, heç olmasa yolda yemək-içmək və yanacağı biz alaq.

**Əhməd:** Murad sürəti sevsə də, avtomobili çox diqqətli idarə edirdi. Yardımlıya gedən yol çox dar və təhlükəli yerlərdən keçirdi. Biz maşında deyib-gülür, əylənirdik, amma mən fikir verirdim ki, Murad bütün diqqətini yola verib. Onunla birlikdə maşında şəkil çəkdirmək istəyəndə o, maşını saxlayır, şəkil çəkdirib qurtardıqdan sonra yenidən yola davam edirdik. Mən ona deyirdim ki, rahat ol, biz sənə güvənirik. O isə deyirdi ki, *mən özümdən başqa*



*4 nəfərin məsuliyyətini daşıyıram. Ona görə də diqqətli olmalıyam.* Bundan bir az keçmiş bir sürücü qarşımızda təhlükəli qəza şəraiti yaratdı. Murad özünü itirmədən cəld manevr edərək qəza şəraitindən çıxmağı bacardı.

– *Murad asudə vaxtlarını necə keçirirdi?*

**Təbriz:** Murad gəzməyi sevən insan idi. Amma necə gəzmək? Boş-boş gəzməyi sevmirdi. Həm də şərt deyildi ki, cibində pulu olsun, pul xərcləsin. Əsas dünyagörüşünü artıracaq, ona dəyər qatacaq gəzintiləri sevirdi. Məsələn, İstanbulda oxuyanda gedib oradakı məscidləri, muzeyləri gəzər, bol-bol şəkil çəkdirər, tarixləri ilə maraqlanardı. Elə vaxt olub ki, Muradla İstanbul boğazını bu başından o başına piyada gəzmişik. Həmişə deyərdi ki, *başqa yerləri də gedib görmək istəyirəm*. Amma qismət beləymiş.

2015-ci ildə Kulelini bitirib Ankaraya köçdük. Orada Kara Harp Okulunda təhsilimizə davam etdik. Amma Murad da, mən də Kuleli üçün, İstanbul üçün çox darıxırdıq. İstirahət üçün oraya getmək istəyirdik. Ankarada çalışıb pulumuza qənaət edir, pul yığıb, həm yay, həm də qış tətillərində İstanbula gedirdik. Bu, əsasən, Muradın fikri idi. O bizim beynimizə salmışdı. Biz də birlikdə gedirdik.

**Nihat:** Murad Əhmədgilə qonaq gələndə biz uzun illər idi ki, bir-birimizi görməmişdik. Birlikdə Əhmədgildə yemək yeyib, keçmiş günləri yada salmışdıq. Dünənki kimi yadımdadır. O qədər xoşbəxt idik ki, "pis günümüz belə olsun" deyib söhbət edirdik. Lənkəranda xeyli gəzmişdik. Əhməd bizi görməli yerlərə aparmışdı. Murad çox maraqlı uşaq idi. Nə görürdüsə, sual verir və ona bir şey qoşub deyib-gülürdü.

**Əmrah:** Bizim Muradla olan dostluğumuz, yoldaşlıq münasibətlərimiz illər keçdikcə daha da güclənmişdi. Yay tətillərini belə birlikdə keçirirdik. 2016-cı ilin yay aylarında Muradı bizim kəndə – Goranboy rayonunun Zeyvə kəndinə dəvət etdim. Muradla kənddə gəzib əyləndik. O, uşaqlıqdan kənd çayında çimməyin arzusunda idi. Birlik-

də gedib çayda çimdik. Qarpız kəsib, kənd pendirini ləzzətlə yedik. Həmin gün həm də Muradla ata mindik.

*– Muradın incəsənətə marağından, şairliyindən xəbəriniz var idimi?*

**Tural:** Muradla dərs vaxtı arxa sırada birlikdə otururduq. Çox gözəl və mənalı şeir və qəzəllər yazırdı.

**Əhməd:** Murad incəsənətə lap əvvəldən maraq göstərirdi. Bizim incəsənət ilə yaxından-uzaqdan əlaqəmiz olmadığı üçün onun bu marağını o qədər də başa düşmürdük.

**Təbriz:** Kulelidə oxuyanda gitara almışdı. Özü özbaşına ifa etməyi öyrənmək istəyirdi. Hamımız deyirdik ki, özün tək necə öyrənəcəksən? Alınmayacaq. Amma o heç birimizin dediklərinə fikir vermədi. Özü internetdən maraqlandı, məktəbdə kursa yazıldı, özü təkbaşına öyrəndi. Bir gün oturmuşduq. Birdən "Cənab Leytenant" mahnısını ifa etməyə başladı. Məəttəl qalmışdım. Tək mən yox, hamımız məəttəl qalmışdıq ki, o təkbaşına ifa etməyi necə öyrəndi. Murad çox əzmkar uşaq idi.

**Əhməd:** Biz şeirə, musiqiyə uzaq olduğumuz üçün onun şairliyini də anlamırdıq. Bəzi şeirlərinə qulaq asırdıq, bəzilərini bilirdi ki, biz başa düşməyəcəyik, büküb atırdı. Ədəbiyyat müəllimləri isə onun şeirlərini yüksək qiymətləndirirdilər. Hətta şeirlərindən biri "Mürekkebimdir Kuleli" kitabında da çap olunmuşdu. İndi çox istəyərdim ki, onun bütün şeirlərini oxuyum. Öz səsiylə olmasa da, olar. Onsuz da səsi qulağımdadır. Və istərdim ki, onun gitara ifasına sona qədər və bölünmədən qulaq asım.

*– Muradla sonuncu dəfə nə vaxt danışmısınız?*

**Əhməd:** Biz Qazaxda idik. Oranın müdafiəsini gücləndirirdik. Axşam saatlarında zəng etmişdi Murad. Bir az danışdıq. Nə isə olacağını hiss etmişdi sanki. Dost-tanışlarımız arasında heç kəsin pis xəbəri gəlməmişdi və gəlməyəcəyinə də inanırdıq. Həmişəki söhbətlərimiz kimi bu məsələdə də bir az zarafat etdik. Amma səhəri gün dostlarımızın ilk şəhid xəbərini eşitdik. Hissləri Muradı

yanıltmamışdı. Bu xəbərdən sonra hansı vəziyyətə düşdüyümüzü, yəqin ki, hamı təsəvvür edə bilər.

Murad evimizdə qonaq olmuşdu. Valideynlərimin və dostlarımın qısa zamanda rəğbətini qazanmışdı. Uzun müddət onun şəhid olduğunu evdəkilərdən gizlətmişdim. Muradla bağlı çoxsaylı suallardan sonra həqiqəti demək məcburiyyətində qalmışdım.

**Gündüz:** Mən demək istəyirəm ki, Murad, sən və sənin kimi qardaşlarımız sayəsində, sizin hesabınıza, sizin qanınız, canınız bahasına biz qələbə qazandıq. Mən hər bir şəhid qardaşımın, bacımın qarşısında baş əyirəm. Murad, yaxşı ki az da olsa, səninlə xoş günlərimiz oldu. Hər zaman ürəyimizdə, tariximizdə bir qəhrəman olaraq qalacaqsan.

**Nihat:** Allah sənə rəhmət eləsin. “Şəhidlər ölməz” deyirlər. Sən də ölmədin. Qəlbimizdə yaşayırsan. Yaşatmaq üçün də əlimizdən gələni edəcəyik.

## Leytenant Əli Mustafayev
***(AAHM-dən kursant yoldaşı və dostu)***

**Əli:** Buraya gəlmək, danışmaq çətindir. Axı onun da anası var. Necə olur ki, onunla birlikdə oxuyan uşaqlar qayıdıb gəldilər, amma o yox. Mən tez-tez İkinci Fəxri xiyabanda onu ziyarət edirəm. Anamı da aparmışam. Bəlkə də, sən qardaşı olaraq onunla heç mənim qədər vaxt keçirməmisən.

– *Düzdür, biz ayda bir-iki dəfə ancaq görüşürdük.*

**Əli:** Axırıncı dəfə “Əcəmi”dəydik. Görüşüb, birlikdə oturmuşduq. Dedik, düşüb aşağıda söhbət edək. Siqaret çəkə-çəkə söhbət edirdik. Muradın istədiyi qız var idi. Bir az ondan danışdıq. Xəyalı var idi, arzusu var idi.

– *Heç sənə arzularından danışırdı?*

**Əli:** Arzusu o idi ki, tezliklə leytenant olsun. Öz aramızda zarafatlaşırdıq ki, gedib 1–2 il də Əfqanıstanda oxuyar-

san, bəlkə, ondan sonra sənə "leytenant" rütbəsi verməyi-filan fikirləşərlər (Muradgil Türkiyədə Kara Harp Okulunda 1-ci kursu bitirsələr də, oradan qayıtdıqdan sonra AAHM-də yenidən 1-ci kursdan başlamalı olmuşdular – *red.*).

Bir də, təxminən, aprel ayı idi. Düşmüşdük ikimiz də maşınların üstünə. O mənə şəkil göndərirdi, mən də ona. Müxtəlif maşınlara baxırdı. Deyirdi, *bahalılara gücüm çatmaz, amma normal qiymətə almaq olar.* Maşına həvəsli idi. Mən Naxçıvanda olanda təzə iş nömrəsi ilə zəng vurmuşdu. Onlarda toplantı olan vaxt idi. Dedim, maşın məsələsi nə yerdə qaldı? Dedi ki, *bir tanış var, onu gözləyirəm. Birini tapmışam 11 minə. Onu alacağam.* Şəklini istədim. Mənə o maşına oxşar maşının şəklini göndərdi ki, *bu maşındandır*. Murad Sumqayıtda olanda mənə şəkillər yollamışdı. Qrup yoldaşımız Çingiz ilə birlikdə idi. Dedi ki, *burada postlara çıxmışıq*. Dedim, cərimələrlə camaatın qanını içirsiniz də orada? Dedi, *yox, bizim elə işimiz yoxdur, sadəcə vətəndaşlara deyirik ki, maska taxsınlar, qaydalara əməl etsinlər. Sadəcə polislərə dəstək göstəririk ki, nə isə problem olsa, kömək edək*.

AAHM-də oxuyan vaxt biz tankçılar olsaq da, bizi qumbara atmaq üçün yer qazmağa aparırdılar. Deyirdik, bu bizim işimizdir? Ən çox da ona əsəbiləşirdik. Deyirdik, biz axı tankçıyıq. Bizə tanka aid şeylər öyrətsinlər. Başımızda "kaska", belimizdə silah, göbələyə oxşayırdıq.

*– Oxuduğunuz dövrdən hansısa xatirələr, başınıza gələn hadisələr yadında qalıbmı?*

**Əli:** O dörd ildə başımıza o qədər hadisələr gəlib ki... Ən çox buraxılışın həvəsində idi. Bəzən, əsas da 4-cü kursda olanda, gedib yemək-içmək filan alırdıq. Muradın yataqxanada iki çarpayının arasında gizli yeri var idi. Orada yeyib-içirdik. Onun da kinosu (serial) var idi, birlikdə "Söz" serialına baxırdıq. Maraqlı kinolara baxırdıq, bəzən hamımız birlikdə "PUBG" oynayırdıq. Ən çox kinoya baxırdı. Həmişə maraqlı kinolar axtarırdı, məndən də soruşurdu. Hansısa kino yadıma düşürdü, deyirdim, bax-

mısan? Deyirdi, *yox*. Oturub baxırdıq. Mənimlə arası yaxşı idi. Onunla tez-tez zarafatlaşırdım. Həmişə mənə cırnayırdı. Sonra, "qardaşım" deyib, öpüb qucaqlayırdım. Deyirdim, səni çox istədiyimdən edirəm. Bax gör 17 nəfərdən hansı ilə bu qədər zarafat edirəm? Deyirdi, *mənə hər sözü deyirsən, sonra da gəlib "qardaşım" deyirsən*. Yaş kateqoriyası var idi. Deyirdim, nə vaxt ikinci dərəcəyə keçəcəksən? Əslində, sən birinci dərəcəylə verməlisən də, ağsaqqal kişisən (Muradgil Türkiyə təhsil sisteminə uyğun olaraq əlavə bir il orta təhsil aldıqları üçün AAHM-dəki kurs yoldaşlarından yaşca böyük idilər – *red.*), sən bizimlə düz gəlmirsən axı, biz cavan oğlanlarıq. Deyirdi, *nə bilim, baxırlar ki, ona?* Hamını eyni götürürdülər axı. Dövlət imtahanında istəyirdi, bir az qabağa düşsün, turniki-filan az vursun, amma hamı ilə eyni oldu. Dövlət imtahanının qaçış hissəsinin axırıncı dövrəsində çox siqaret çəkdiyinə görə yaxşı qaça bilmədi. Onsuz dövlət imtahanından hamını keçirirdilər. Gördüm, o çıxdı, istəyirdim, mən də çıxam. Mənə dedi ki, *sən qaç, qaç*. Türkiyədən təzə gələndə çox yaxşı qaçırdı. Sonradan bizim dəstəyə qoşuldu, siqaret çəkməyə başladı. Qaça bilməyəndə hirslənirdi, çıxıb deyirdi, *nə yazırlar, yazsınlar*. Sonra peşman olub deyirdi: *"Gərək qaçardım e, niyə qaçmadım?"*

Qrupda ad siyahısında adı ən axırda idi. Həmişə deyirdim, narahat olma, sənə çatana kimi hamını kəsəcəklər, axırda yorulduqları üçün bircə səni keçirəcəklər. Həftənin axırını səbirsizliklə gözləyirdi. Bir də gördün, nədənsə kəsilib. Deyirdi, *yenə qaldım burada bu həftə. İdmandan keçirəm, müəllim iki yazır, müəllimin ikisini düzəldirəm, idmandan kəsilirəm*. Normativ imtahan olan gün çox vaxt özünü növbətçi yazdırırdı. Deyirdi, *mən sənin yerinə gedim*. Deyirdim, get. Amma elə olurdu ki, müəllim normativi növbəti həftəyə saxlayırdı. Murada şad xəbəri verirdik ki, normativ gələn həftəyə qaldı. Deyirdi: *"Düz deyirsiniz? Görüm gələn həftə kimin yerinə növbəyə gedirəm"*.



Bir dəfə təcrübədə olanda könlümüzə yeyib-içmək düşmüşdü, amma bizi hərbi hissədən çölə buraxmırdılar. Yalnız bazar günləri 3–4 saatlıq icazə verirdilər. Dedim ki, neyləyək, ay Murad? Dedi, *görüm neyləyirəm*. Qıraqla gizlənə-gizlənə gedib, tank qarajı tərəfdən çıxdıq. Hərbi hissəyə tez-tez maşınlar girirdi, amma biz bilmirdik ki, o maşınlardakı hərbi hissə komandiridir, ya kimdir. Ona görə də bizi heç kəs görməsin deyə yerə uzanaraq gizlənib, gözləyirdik. Birtəhər gedib çıxdıq NBM-in (Nəzarət Buraxılış Məntəqəsi) qabağına. Amma orada hərbi hissə komandiri bizi gördü. Biz planlaşdırmışdıq ki, tutulsaq, NBM-ə bizim üçün qoyulan pulu götürməyə getdiyimizi deyək. Biz ona salam verdik. O çevrildi, bizə baxdı, amma xoşbəxtlikdən heç nə demədi. Nə isə, getdik, Ağstafada tanış uşaq var idi, onunla danışıb görüşdük. Murad oraları yaxşı tanıyırdı. Oradan çıxıb gəldik, Ağstafada “0066” taksi xidməti var idi, sifariş etdik, minib getdik hərbi hissəyə. Gizlincə hərəmiz öz taborumuza gedib yatdıq.

Bəzən yeyib-içmək istəyəndə, Kənan adında, eyni Muradınkı tipdə maşını olan taksi sürücüsü var idi, ona zəng edib tapşırırdıq, bizə yemək-içmək, siqaret-filan alıb gətirirdi. Murad da yeməyindən qalmırdı. Onun otağında həmişə yemək olurdu. Həmişə kolbasa, qarpız, pendir, çörək aldırırdı. Alıb yığırdıq Muradın bölük komandirinin otağına. O, gecə evinə gedirdi, biz isə orada qalırdıq. Gecə Muradla yeyirdik.

Axırıncı dəfə təcrübə vaxtı hərbi hissədə Muradın telefonunu tutmuşdular. Ani yoxlama olmuşdu, orada Muradın telefonunu da əlindən almışdılar. Bir müddət telefonsuz qalmışdı. Onlar nə vaxt baxırdın, sənəd yazırdılar. Bir Murad idi, bir mən, bir də başqa bir yoldaşımız. Bizə heç nə elətdirə bilmirdilər. Amma axırda başımıza oyun açdılar. Bir dəfə videoçəkiliş var idi. Bizə dedilər, siz də dayanın sıranın qabağında. Biz oraya gedəndə zabitlər əl elədilər, amma biz başa düşmədik ki, gedək, yoxsa qayıdaq. Oradan da briqada komandiri deyirdi ki, kursantlar

da dayansın sırada. Elə oldu ki, biz başqa tərəfə getdik. Bir də gördük, hay-haray düşdü. Aləmi qatıblar bir-birinə ki, kursantlar yanıma gəlsinlər. Bizim də kitabçamız var idi, orada haqqımızda rəy yazırdılar. Onları da götürüb getdik. Dedilər, planşetlərini də götürsünlər, gedib ağ xəttdə dursunlar. Yoldaşlarımızdan biri dayısına zəng vurdu. Həmin vaxt da hərbi hissədə tank partlayan vaxt idi. Üstündən 40 gün-filan keçmişdi. Korpusdan zəng vurub bizi tapşırdılar. Əslində, hərbi hissə komandiri bizi bəlaya salmaq niyyətində deyildi, sadəcə qorxudurdu. Demişdi ki, onsuz da bu uşaqlarla işim yoxdur mənim. Telefonlarımızı qaytaranda komandir bizə dedi ki, mən bu telefonları sizə qaytarmasam, paketləyib AAHM-ə göndərsəm, nə olacaq? Bilirdik ki, ya həbsdir, ya da məktəbdən xaric edəcəklər. Gülüb dedi ki, zarafat edirəm, mən indiyə qədər heç kəsi tutdurmamışam, bundan sonra da tutdurmaram. Bizi öpüb qucaqladı, sonra da telefonlarımızı qaytardı.

Yenə təcrübədə olduğumuz vaxt Murad bir gün Ağstafaya gedirdi. Nə isə işi var idi. Mənə də təklif etdi, amma mən gedəsi olmadım. Xahiş etdim ki, mənə telefon üçün şarj kabeli alsın. O kabeli hələ də saxlayıram. Telefonumu onunla şarj edirəm.

Bəzən çölün düzündə Muradla telefonda mahnı qoyub oynayırdıq. Səngər qazan vaxtlarımız idi. Murad deyirdi ki, *mənim işimə-gücümə bax. Bunlar mənim Türkiyədə birinci kursda etdiklərimdir. Üstündən beş il keçib, yenə gəlmişəm, əlimə beli almışam, səngər qazıram*.

Rəhmətlik Ümid (şəhid Ümid Məmmədov) var idi. O, qrup komandiri olanda, Murad da böyük kursdur axı, həmişə Muradla bir-birlərini qırırdılar. Murad deyirdi, *yox, sənin dediyini etməyəcəyəm*. Muradla mən də tez-tez küsüb-barışırdıq. Zarafat edəndə, bir də görürdün, xətrinə dəydi. Mən onu çox istəyirdim, o, sifət edəndə dözə bilmirdim, gedib qucaqlayırdım, barışırdıq. Deyirdim, sən mənim qaqamsan, sən məndən küsürsən? Könlünü alan-

dan sonra deyirdim, icazə verirsən, yenə zarafat edim səninlə?

Məzuniyyət olanda Muradla görüşüb, şəhərdə gəzirdik. Bulvarda da gəzmişik neçə dəfə. Hərdən də uşaqlarla bir yerə yığışırdıq. Uşaqlara da həmişə deyirdim ki, nə olsun, eyni kursda oxuyuruq? Murad bizdən yaşca böyükdür. Mən həmişə Muradın hörmətini saxlayırdım. Onun mənimlə etdiyi zarafatı mən qayıdıb onunla etmirdim. Bunları digər yoldaşlarımıza da deyirdim. Amma özümdən də çox Muradla zarafat edən yox idi. Nə etsəm də, məndən incimirdi, mənim zarafatlarımı götürürdü.

Bir neçə dəfə mənə deyib ki, *evə birlikdə gedək*. Deyirdim ki, belə mənə uzaq düşür. Murad deyirdi, *yox e, gəl birlikdə gedək, narahat olsan, gələn dəfə gəlməzsən*. 3–4 dəfə olub belə. Birlikdə gəlib, evinizin yanında düşüb, avtobusla getmişəm öz evimizə. Sadəcə yol yoldaşı olaq deyə... Gəlib burada düşürdük, deyirdim, ay Murad, bəs mən belə gedə bilməyəcəyəm axı, bir bu qədər yol da təzədən evə getməliyəm. Deyirdi ki, *gəl səni aparıb ötürüm, özüm geri qayıdaram yenə*. Razı olmurdum.

O vaxt bizi olduğumuz yataqxanadan başqa bir yataqxanaya köçürürdülər. Bizi yerləşdirdikləri yer də çox köhnə idi, SSRİ-nin vaxtından qalmışdı. Murad gedib üzlük, kabel-filan almışdı. Oturub kabeli çəkdik. Muradın yatağı ən yaxşı yerdə idi. Orada elektrik cərəyanı yaxşı işləyirdi, qısaqapanma-filan olmurdu. Hamımız telefonumuzu orada şarj edirdik. Əhmədlə çox yaxın olsa da, o hər dəfə Muradın yerində uzananda Murad hirslənirdi. Yerində kimsə uzananda əsəbiləşirdi. Əhmədlə bir-birlərini çox istəyirdilər, tez-tez dava eləsələr də, tez də barışırdılar.

Murad heç vaxt kin saxlamazdı. Bəzən yadından çıxırdı, dava etdiyi üçün danışdırmamalı olduğu adamla gedib söhbət edirdi.

Ənvər (şəhid Ənvər Əliyev) adında uşaq var idi, onunla eyni buraxılışdan idi, o da şəhid oldu. Birlikdə oxuduqları üçün Muradla yaxın idilər.

AAHM-dəki uşaqların bəziləri namaz qılırdılar. Murad həmişə onların hörmətini saxlayırdı.

İxtisas seçimindən söz düşəndə deyirdik ki, motoatıcı-filan seçərdin də. Murad da deyirdi ki, *bir minatəmizləyən qalmışdı, bir də tankçı. Baxdım ki, minatəmizləyən olmaqdansa, tankçı olmaq yaxşıdır* (Muradgil Türkiyədən gələndə artıq AAHM-də ixtisas seçimi tamamlandığı üçün onlar boş qalmış ixtisaslardan birini seçməli olmuşdular – *red.*).

Murad ən çox Türkiyəyə qayıtmağı arzulayırdı. Deyirdi, *yenidən orada oxumağa gedəcəyik*. Sevinirdi. Deyirdim, inşallah, gedərsən, amma həvəslənmə, birdən getməzsən, darıxarsan. Bir semestr sonra aydın oldu ki, onlar gedəsi olmadılar. Tərslikdən həmin il birinci kurslar üçün yenidən Türkiyə seçimi başladı. Deyirdi, *görürsən mənim bəxtimi? Hamını qaytardılar, Daxili Qoşunların kursantlarını qaytardılar, indi də yenidən seçimlər var, amma biz qayıda bilmədik.*

Müharibə başlamamışdan bir az əvvəl idi. Söhbət etmişdik bir az. Müharibə başlayan gün ona nə qədər zəng etsəm də, zəng çatmadı. Ümid demişdi ki, Murad itkin düşüb. Deyirdim, yəqin tapılar da. O qədər uşaqlar var idi, itkin düşürdülər, amma sonra gedib onları irəlidə tapırdılar. Salamatlıq olurdu. Sonra eşitdim ki, Murad da, Ümid də şəhid olublar.

Bir dəfə təcrübə vaxtı gecənin bir yarısı acmışdıq, könlümüzə qarpız-pendir-çörək düşmüşdü. Həmin gün də hərbi hissə komandirinin günü idi deyə NBM-ə tərəf gedə bilmirdik. Kənana zəng elədik, alıb gətirdi. Pulunu verib, NBM-dən götürdük. Gizlincə qayıdırdıq. Qərargahın qabağından keçəndə mən zarafatla dedim ki, tuta bilmədiniz, tuta bilmədiniz... Tabora girib yemək yemək istəyəndə tabor komandiri bizi saxladı ki, neyləyirsiniz burada? Aldıqlarımızı bölüb, yarısını öz taborundakı uşaqlara saxladı, yarısını da bizə verdi.

Təyinatımız çıxanda uşaqlar başladılar mənimlə zarafatlaşmağa ki, sən Naxçıvana düşəcəksən. Deyirdim,

yox, mən oraya düşməyəcəyəm. Getdim, içəridə Naxçıvanı çəkdim. Məndən sonra Murad gəldi. Bakıya düşmüşdü. Amma özü Ağcabədini istəyirdi. Əzizə (Rəhimli) deyirdi ki, *qardaşım, sən Ağcabədiyə getmə, qal Bakıda, oraya mən gedim*. Elə oldu ki, ikisi də elə Bakıda oldular.

– *Törəndən sonra məzuniyyət verilməyəndə Murad neylədi?*

**Əli:** Pis olmuşdu. Deyirdi, *bu qədər oxudum, başa düşdüm, virusdur da, virusa görə törənə heç kəsi dəvət edə bilmədik, amma daha bu nədir? İki saatdan sonra durub hərbi hissəyə gedəcəyəm? Elə şey olur?* Amma bir tərəfdən sevinirdi ki, *heç olmasa Bakıya düşdüm, evə gedə biləcəyəm, məni leytenant formasında görə biləcəklər*. Mən Naxçıvana gedəndə əlini kürəyimə vurub dedi ki, *get, sənə yaxşı yol, get, öl Naxçıvanda, elə canın çıxacaq orada sənin.*

## Leytenant Əziz Rəhimli
### *(AAHM-dən kursant yoldaşı və dostu)*

– *Muradla necə tanış olmusunuz?*

**Əziz:** Muradı kursant vaxtlarımızdan, 2016-cı ildən tanıyıram. İlk tanışlığımız həmin ilin avqust ayında olub. Mən özüm AAHM-ə mülkidən gəlmişəm, hərbi lisey oxumamışam. Murad isə Türkiyədə hərbi lisey təhsili almışdı, sonra orada bir il də hərbi akademiyada oxumuşdu. Amma Türkiyədəki siyasi vəziyyətə görə onlar geri qayıtmalı olmuşdular. İlk gələndə ixtisas olaraq tankçı fikirləşməmişdi. Onlar gələndə biz artıq ixtisas seçimini etmişdik, Muradgilə isə az seçim qalmışdı. Bir minatəmizləyən qalmışdı, bir də tankçı. Qaçışı əvvəl-əvvəl zəif olsa da, sonradan düzəltdi. Ümumiyyətlə, öz üzərində həmişə çalışan biri olub. Tanka görə məndən üstün idi. Savadlı idi. Nə deyirdin, götürürdü, götürmə qabiliyyəti çox güclü idi. Heç bir imtahandan kəsri olmayıb. Baxmayaraq ki, mən hər il kəsilirdim. Bir dəfə kəsri oldu, onda da nizamnamə-

dən saxlamışdılar. Yəni sırf adam qalmalı idi deyə saxlamışdılar. Bizim yaxın münasibətimiz var idi. Onunla tez-tez zarafatlaşırdıq. Sadəcə, hərdən elə olurdu ki, bəzi zarafatlardan inciyirdi.

AAHM-də birinci və ikinci kursda kursantlar çox sıxılır, çünki əsgər kimi olurlar. Ancaq üçüncü kursdan etibarən bir az boşluqlar yaranır. Smartfon işlədə bilirsən. Birinci və ikinci kursda tez-tez yoxlama olur. Zabitlər elə psixoloji mühit yaradırlar ki, biz heç özümüz bir-birimizlə əlaqə qura bilmirik. Murad Türkiyədə oxuduğu üçün onların sistemindəki psixologiyanı mənimsəmişdi. Ona görə də ilk vaxtlar uşaqlarla münaqişələr olurdu.

– *Yüksəkfikirli idi, yoxsa necə?*

**Əziz:** Yüksəkfikirli deməyim, amma daha çox oranın psixologiyasını bəyənirdilər. Orada tamam fərqli sistem var. Orada bir az müasirlik idi, sərbəstliyə öyrəşmişdilər, burada isə çox sıxılırdılar. Həm də çox yorulurduq. Birlikdə çox vaxt keçirə bilmirdik. Gəlirdik, yatıb-dururduq, səhər yenidən yorğun-arğın gedirdik. Yalnız üçüncü kursdan sonra artıq yavaş-yavaş boşalmalar başlamışdı.

Maşına həvəsli idi. Maşın almamışdan qabaq icarəyə götürürdü çox vaxt. Lənkərana getmişdik. Baxmayaraq ki, onun maşını deyildi, bir neçə günlük götürmüşdü, yenə də aldığı şeyə çox tez bağlanırdı. Onun götürdüyü şeyə nə isə deyəndə xətrinə dəyirdi. Götürdüyü maşının arxaya baxmaq üçün olan güzgüsü yox idi. Bir az zarafatlaşdım, amma gördüm ki, inciməyə başladı, xətrinə dəymişəm. Namiqin (Səfərov) maşını ilə onun maşınını müqayisə edirdik. Bir dəfə ona demişdim ki, Namiqin maşınından xoşum gəlir, almaq istəyirəm. Mənə demişdi ki, *alma*. Dedim, niyə? Dedi ki, *onu görmürsən, maşını necə sürür?* Bizim hərbi hissənin yolu pisdir. Demişdi ki, *görürsən də, o yolda necə sürür maşını? Ona görə də onun maşını dağılır, alma.*

Murad mənim xətrimi çox istəyirdi. Yeganə adamam ki, mənə görə o, kredit götürmüşdü. Telefon almışdıq. Muradla qardaş qədər yaxın idik. Məni Bakıda qulluq etməyə

Murad razı salmışdı. Demişdi ki, *qal, getmə başqa yerə. Maşın alacağam, birlikdə gedib-gələrik*.

Bir dəfə işə gecikmişdim. Birinci dəfə gecikəndə komendant xəbərdarlıq etmişdi. İkinci dəfə gecikəndə Murad düz yaşadığım evə gəlmişdi. Qapını döyüb məni oyatmışdı. Sadəcə yaşadığım binanı tanıyırdı. Axtarıb, soruşub, yaşadığım bloku, mərtəbəni tapıb, gəlib məni yuxudan oyatmışdı.

Muradla eyni hərbi hissədə, eyni tank taborunda olsaq da, döyüş haqqında elə də çox şey deyə bilmərəm, çünki həmin vaxt biz ayrılmışdıq. Mən üçüncü bölükdə idim, o, ikinci. Döyüşdən yeganə xatirəm odur ki, bizim bölük mühasirəyə düşəndə tanklar "itkin" verilmişdi. Biz qayıdanda yoldaşlarımızdan biri mənə demişdi ki, Murad sənə görə narahat olub, ağlamışdı. Elə bilib, şəhidsən. Sonra mən istədim, zəng edib bir az zarafatlaşım onunla, amma zəng çatmadı. Ondan sonra əlaqə qura bilmədim. Sonra biz bir dəfə də müşahidəyə getdik. Mənim tankım nasaz oldu, geri qayıtdım. Onda Murad artıq 4 gün idi ki, şəhid olmuşdu. Gələndə dedim ki, Murada salam deyərsiniz, amma mənə onun şəhid olduğunu demədilər. Arxaya keçib yemək yeyirdim. Yoldaşlarımızdan biri: "Başın sağ olsun", – dedi. Bizdə də bir nəfər gizir şəhid olmuşdu, elə bildim, ona görə deyir. Dedim, hə, çox sağ ol, amma çox üstündə durmadım. Sonra dedi ki, Murad şəhid olub. Onda xəbərim oldu.

## Bəsdi Əliyeva
### *(105 saylı körpələr evi uşaq bağçasında müəllim)*

1999-cu ildə bizim qrupa bir uşaq gəldi. Onun adı Murad idi. Murad çox şirin və mehriban uşaq idi. İlk baxışdan insanın diqqətini cəlb edirdi.

Biz hər məşğələdə Azərbaycanın dövlət himnini səsləndirərdik. Muradım sağ əlini ürəyinin üstünə qoyub, sol əlində də bayraq tutardı. Bir gün soruşdum ki, Murad, sən böyüyəndə nə olacaqsan? Tərəddüd etmədən dedi:

– *Müəllim, mən zabit olacağam!*

Mən də: “Afərin, mənim balam, inşallah, sən zabit olarsan!” – dedim.

Tədbirlərdə Murad həmişə bizdən xahiş edirdi ki, ona zabit forması geyindirək. Biz də Murada istədiyi şəraiti yaradırdıq. Murad əynində zabit forması, əlində bayraq zala daxil olurdu.

Daha sonra Murad bağça ilə vidalaşıb, məktəbə yollandı. İllər sonra anası Xavər xanımla təsadüfən yolda rastlaşdıq. Soruşdum ki, Xavər xanım, mənim Muradım necədir, harada təhsil alır? Dedi ki, Bəsdi müəllim, Murad artıq AAHM-in sonuncu kursunda təhsil alır. Mən də sevindim, dedim ki, şükürlər olsun.

Mənfur düşmənlərimiz hücum edəndə eşitdim ki, mənim zabit balam – Muradım da cəbhəyə yollanıb, qəhrəmancasına şəhid olub.

“Şəhidlər ölməz, vətən bölünməz” deyirlər. Muradım, sən hər zaman bizim qəlbimizdə yaşayacaqsan. Axı sən bizim üçün, vətənimiz üçün, torpağımız üçün şəhid olmusan. Ruhun şad olsun, mənim balam.

## Rüxsarə Əlizadə
***(271 nömrəli tam orta məktəbdə direktor müavini)***

Muradgilin ailəsinin üç övladı bizdə təhsil alıb – həm Orxan, həm Sərxan, həm də Murad. Murad onların ən kiçiyi idi. Üçü də dərs əlaçısı idilər. Bu şagirdlərin uğuru bizim məktəbi həmişə ön sıralarda aparıb. Murad indi bizi başqa cür ön sıralara qatdı.

Muradın bütün təhlükələrə baxmayaraq, bilə-bilə zabitliyi seçməsi, hərbi liseyə daxil olması, onun qələbəmizdəki rolu bizim də fəxrimizdir. Açığı, mən Muradın bizim məktəbdən çıxıb hərbi liseyə getməsini istəmirdim, çünki Murad dərs əlaçısı idi, bütün dərslərini yaxşı oxuyurdu, həm də dostları ilə ünsiyyətdə çox diqqətcil idi. Hətta mən ondan soruşanda ki, Murad, zabit olmağı, həqiqətən, ürəkdən istəyirsiniz? O demişdi ki, *bəli, müəllim, mən getmək istəyirəm.* Murad liseyə qəbul imtahanında da öz bilik-bacarığını göstərdi. Yüksək bal topladığı üçün onu Türkiyənin ən nüfuzlu hərbi liseylərinin birində təhsilini davam etdirmək üçün göndərdilər.

Muradgilin qış tətili bizimkindən sonra olurdu. O hər Bakıya gələndə birinci bizim məktəbə gələrdi. Gəlib müəllimlərlə görüşər, bir də dərslərdə oturmaq üçün icazə alardı. Hiss olunurdu ki, darıxır.

Muradın şəhidlik xəbərini eşidəndə biz, təbii ki, çox məyus olduq. Bu həm qürurvericidir, həm də çox kədərlidir. Qürurvericidir, ona görə ki, belə bir məqama yüksəlmək, bu ali rütbəyə çatmaq, canını vətən üçün fəda etmək insanlığın ən yüksək zirvəsidir. Murad öz bilik və bacarığını hərb meydanında da göstərdi və düşmənə qalib gəlməyimizdə əvəzsiz rolu ilə seçildi.

Dostlarının, tanışlarının danışıqlarından eşitdim, anası ilə söhbətlərimizdə öyrəndim ki, nə qədər istəyiblər, onu geri çəksinlər, qorusunlar, o həmişə ön sıralarda gedib. Özü də deyib ki, *mən tankımla gedəcəyəm*.

Həmişə deyirdilər ki, biz inanmırıq, yaxşı oxuyan şagirdlər orduya getsinlər. Murad və yoldaşları göstərdilər ki, bu heç də belə deyil. Şəhid olanlar o ali zirvəyə ucaldılar, digərləri isə qələbə ilə geri qayıtdılar.

## Nazilə Əbdülhəsənova
### *(271 nömrəli tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi)*

Heç vaxt təsəvvür etməzdim ki, vaxt gələcək, şagirdim – şəhid Murad haqqında xatirələrimi bölüşəcəyəm. Murad V–VIII siniflərdə şagirdim olub. Azərbaycan dili və ədəbiyyat fənnini öyrətmişəm ona, həm də sinif rəhbəri olmuşam. Sinfin ən çalışqan, ağıllı, bacarıqlı, oxumağa can atan şagirdlərindən biri idi. Murad sinif yoldaşlarına qarşı mehriban, istiqanlı, xoşrəftar idi. Azərbaycan dili və ədəbiyyata böyük marağı var idi. Xalqımızın qəhrəmanlıq tarixini, ulu keçmişini sevə-sevə öyrənərdi.

Həmişə öndə, qabaqda getmək istəyirdi. Bir komandir kimi şagirdləri öz arxasınca aparmağa qadir idi. Sinifdə həmişə ilk partada əyləşərdi. İstənilən suala cavab verməyə hazır idi. Mən bir müəllim kimi müşahidə edirdim ki, Murad gələcəkdə yaxşı hərbçi, komandir ola bilər.

Əlavə dərs saatları olanda hamıdan birinci Murad bizə gələrdi. Mən soruşanda ki, nəyə görə qaça-qaça gəlmisən belə? O cavab verərdi:

– *Müəllim, mən istəyirəm, hamıdan birinci olam!*

Fevral ayı gələndə mən həmişə Muradı xatırlayıram. Desəniz, nəyə görə? Fevralın 9-u Murad dünyaya gəlmişdi, 12-si isə mən. Məktəbdə həmişə fevralın 9-u olanda Murad deyərdi:

– *Müəllim, biz eyni ayda dünyaya gəlmişik.*

Murad bu sözləri deyəndə gözlərində sevinc, fərəh hiss olunurdu. Bu an mənim heç vaxt yadımdan çıxmır.

Yaxşı yadımdadır, Murad 8-ci sinifdə oxuyanda hərbi məktəbə sənədləri hazırlayarkən çox həyəcanlı idi. Mən həyəcanının səbəbini soruşanda o dedi ki, *müəllim, mənim boğazımdakı badamcıqlar əməliyyatla götürüldükdən sonra mən sağlamlıq haqqında arayış ala bilərəm. Vaxta isə çox az qalıb. Bilmirəm, sənədləri vaxtında çatdıra biləcəyəm, ya yox.*

O çox həyəcanlı idi. Mən onu qucaqlayaraq öpdüm və dedim:

– Qorxma, Murad, səndə ki bu əzm, bu iradə var, bunun öhdəsindən gələcəksən, hər şeyi vaxtında çatdıracaqsan.

Doğrudan da, o, əməliyyat olundu. Sağlamlıq haqqında arayışı alıb, sənədlərini vaxtında hərbi məktəbə təqdim etdi.

Beləliklə, Murad 8-ci sinifdə məktəbdən ayrılıb hərbi məktəbə daxil oldu. Ara-sıra sevimli müəllimi kimi mənə zəng vurar, uğurları barədə danışardı, problemlərini bölüşərdi. Hətta bitirdiyi 271 nömrəli orta məktəbə gələr, müəllimlərlə görüşərdi.

Azərbaycanın işğal altında olan torpaqlarını azad etmək üçün başlanılan haqq savaşında Murad da cəbhəyə yollandı. Əsl qəhrəman kimi erməni işğalçılarının torpaqlarımızdan qovulmasında fəal iştirak etdi. 2020-ci il oktyabrın 11-də Cəbrayıl rayonu istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucaldı. Bu xəbəri ilk dəfə məktəbimizin direktor müavini Rüxsarə müəllim göz yaşları içində məktəb kollektivinə çatdırdı. Bütün məktəb sanki matəm içində idi. Məktəbimizin direktoru Fuad müəllimin təşəbbüsü ilə məktəb kollektivi Muradın xatirəsini birdəqiqəlik sükutla yad etdi. Məktəb rəhbərliyinin təşəbbüsü ilə Muradın xatirəsini əbədiləşdirmək üçün məktəbin dəhlizində xatirə guşəsi yaradılıb. Şagirdlər hər gün bu guşəyə tər çiçəklər düzür, onu qürurla anırlar.

## Bənövşə Mənsimova
***(271 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi)***

Mən Murada V sinifdən VIII sinfə qədər 4 il dərs demişəm. Çox mehriban, gülərüz, çox çalışqan şagird idi. Murad həmişə dərsə hazır olardı, həmişə istəyərdi ki, tapşırıqları hamıdan birinci həll etsin. Onun tapşırıqları həll edib tez qabağa – mənim yanıma qaçmağı gözümün qabağından getmir. Mən onunla fəxr edirəm.

## Polkovnik-leytenant Vasif Məlikov
***(AAHM-də zirehli tank texnikaları müəllimi)***

– *Buyurun, müəllim, özünüzü təqdim edin.*

**Vasif:** Mən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (AAHM) Maddi-texniki təminat kafedrasının döyüş maşınları silsiləsində baş müəllim vəzifəsində çalışıram. Nağıyev Murad və onların qrupuna tankların ümumi quruluşu və tankların praktiki sürücülüyü məşğələlərindən dərs keçmişəm. Nağıyev Murad və Əliyev Əhməd Türkiyədə Kuleli Askeri Lisesi və Kara Harp Okulunda bir neçə il təhsil aldıqdan sonra AAHM-ə gələrək təhsillərini burada davam etdirmişdilər.

– *Murad haqqında təəssüratlarınızı bizimlə bölüşə bilərsinizmi?*

**Vasif:** Muradın həm insan olaraq, həm də bir kursant kimi xətrini çox istəyirdim. Mənə qardaşım qədər doğma idi. O özünü çox intizamlı, tərbiyəli, qanacaqlı və qabiliyyətli bir kursant kimi tanıtmışdı. Eyni zamanda Murad öz bilik və bacarıqları ilə özünü daima diqqətdə saxlatmağı bacarırdı. Təhsildə özünü normal göstərərək yaxşı qiymətlər alırdı. Nağıyev Murada hər hansı əmr və ya göstəriş verildikdə o çalışırdı ki, cəld, tez bir zamanda o

əmri yerinə yetirib məruzə etsin. Mən müşahidə edirdim ki, ona hər hansı zarafatyana və ya ciddi irad olunanda Muradın yanaqları qızarır. Bu onun utandığına işarə idi və Muradın qanacaq-qabiliyyətindən xəbər verirdi. Mənim ona qarşı böyük sevgi, məhəbbətim var idi, çünki Murad öz savadı, bacarığı, qanacaq-qabiliyyəti, tərbiyəsi ilə özünü elə göstərirdi ki, mən gələcəkdə onu general kimi görmək ümidi ilə yaşayırdım.

– *Muradın gələcəkdə bu cür istedadlı və bacarıqlı bir tankçı olacağını kursant vaxtlarından anlamaq olurdumu?*

**Vasif:** Murad tankçı ixtisası peşəsinə çox həvəslə yanaşaraq özünü daim göstərməyə çalışırdı. Poliqonda (çöl çıxışları) tank-sürücülük məşğələlərini də onlara mən tədris edirdim. Hətta bir dəfə belə bir hadisə oldu. Praktiki dərslərin birində tankadromda (tank-sürücülük sahəsi) sürücülük məşğələsi idi. Tank-sürücülük dərslərində kursantlarla birgə sürücü təlimatçı da məşğələdə iştirak edir və tankda yerləşərək kursantlar tankı idarə edərkən onlara təlimat verir. Nağıyev Muradın növbəsi çatdıqda mən onu tanka göndərərək məruzəsini qəbul etdim ki, sürücülük məşğələsinə hazırdır və irəli əmri verdim. Nağıyev Murad hərəkətə təcrübəli şəkildə başladı. Tankı elə idarə edirdi ki, sanki neçə illik praktiki təcrübəsi var. Bir də gördük ki, təlimatçı gizir tankın arxasınca qaçır. Soruşdum ki, bu kimdir? Dedilər ki, tankda təlimatçı yoxdur, Nağıyev Murad tankı təkbaşına idarə edir. Mən təlimatçıya ehtiyac olmadığı üçün giziri geri qaytardım, çünki Nağıyev Murad öz təcrübəsini artıq ilk hərəkətdə göstərdi və mən bildim ki, o, çalışmanı təlimatçı olmadan yerinə yetirəcək. O, çıxış xəttindən özü sərbəst şəkildə çıxıb, təkbaşına 5–6 kilometrlik marşurutu keçərək bütün təbii və süni maneələri dəf etməklə vaxtında normativi yerinə yetirdi və əla qiymətə layiq görüldü. Mən Murada bütün qrup qarşısında öz təşəkkürümü bildirərək onu kursant yoldaşlarına nümunə göstərdim və ona qarşı olan məhəbbətim daha da artdı.

AAHM-də tək mən yox, eləcə də digər müəllim və zabitlər də Muradın gələcəkdə uğurlu bir tankçı zabit olacağına əmin idilər. Muradgilin qrupuna tank silahlarının öyrənilməsi və tank atışlarının aparılmasını öyrədən polkovnik-leytenant Məlikov Anar da, onlara taktika və döyüş əməliyyatlarının idarə edilməsi fənlərini tədris edən polkovnik-leytenant Quliyev İqbal da Muradın bayaqdan sadaladığım bütün keyfiyyətlərinin əyani şahidi olmuşdular. Onlar Murad haqqında danışarkən onun tərbiyəsi və savadı ilə seçildiyini, intizamlı, qabiliyyətli, kollektivdə xüsusi hörmətə malik bir kursant olduğunu, istər müəllim kollektivi, istərsə də kursant heyəti tərəfindən necə çox sevildiyini qeyd edib, Muradın praktiki atışlarda necə fəal iştirak etdiyini və yüksək nəticələr göstərdiyini vurğulamışdılar. Murad özünü belə tanıtdıran və göstərən bir kursant idi.

*– Muradın şəhid olduğunu eşidəndə hansı hissləri keçirdiniz?*

**Vasif:** Nağıyev Murad mənim üçün arxa-dayaq idi. Onun şəhid olduğunu eşidəndə mən çox pis vəziyyətə düşdüm və ümidlərim puç oldu, çünki mən onu gələcəkdə yüksək vəzifələrdə, pillələrdə görmək arzusu ilə yaşayırdım. Murad aramızda olmasa da, o daima ürəyimizdə, qəlbimizdə yaşayır və yaşayacaqdır. Tək Murad yox, eynilə bütün şəhidlərimiz bizim qəlbimizdə yaşayacaqlar.

## Ayşən Baxışova
***(AAHM-də sosiologiya müəllimi)***

Murad haqqında keçmiş zamanda danışmaq çox ağrılıdır. Onu az bir müddətdə tanıdıq, amma belə tez itirəcəyimizi təxmin edə bilməzdik.

Ağıllı, məsuliyyətli, verdiyi sözü tutan kursantımız idi Murad Nağıyev. Gənc ömründə nə qədər gözəl arzuları vardı, heç bilmədik, amma savadlı zabit olacağı bəlli idi.

Üzündən, gözlərindən saflıq yağırdı, yaxşı ailədə düzgün tərbiyə aldığı məlum idi. Bir az məsum, bir az da utancaq-xasiyyətli idi Murad. Amma dərslə, mövzu ilə bağlı fikirlərini, düşündüklərini səlis, inamla, əsaslı şəkildə bildirirdi. Onu dinləmək maraqlı idi. Sonradan bildim ki, Türkiyədə təhsil almış kursantlarımızdan idi Murad, yəqin ki, bu da onun dünyagörüşünə təsir etmişdi. O hər bir ananın malik olmaq istədiyi oğul, müəllimin fəxri, ordunun zabiti oldu. Sevərək geyindiyi hərbi uniformanı, səbirlə gözlədiyi zabit paqonlarını doyunca gəzdirə bilmədi. Amma onların haqqını şərəflə qoruyaraq daşıdı.

Bu gün Muradın ailəsinə səbir diləyirik, "Başını dik tut, sən şəhid ailəsisən", – deyirik, övladlarımızın qisası alındı. O oğulların haqqı bizim əbədi borcumuz oldu! Allah bizi onların ruhu qarşısında utandırmasın.

## Mehriban Əliyeva

***(AAHM-də ingilis dili müəllimi)***

Murad Türkiyədə Kuleli liseyini bitirib Kara Harp Okuluna qəbul olmuşdu. Müəyyən səbəblərə görə onların təhsili orada yarımçıq qaldı, onlar AAHM-ə gəlib təhsillərini davam etdirdilər. O vaxtlar uşaqlar çox stresli idilər. Arzuları sanki yarımçıq qalmışdı. Muradı təzə gələndə tanımasam da, onun kimi başqa gələn uşaqlara, sonralar Muradın özünə də deyirdim ki, Allah bilən məsləhətdir. Bəlkə də, sizin oradan yarımçıq gəlməyiniz yaxşılığa doğrudur. Nə biləydim sonunun belə olacağını.

Vətən müharibəsi başlayanda hamı kimi mən də çox həyəcanlanmışdım. Başqalarının ailəsindən, qonşusundan 1–2 nəfər müharibəyə gedəndə mənim yüzlərlə kursantım müharibədə iştirak edirdi. Özü də hamısı ön cəbhədə, odun-alovun içində döyüşürdü.

Bu müharibədə mənim çox kursantım şəhid oldu. Hamısı da ayrı-ayrı yandırdı məni. Amma 2020-ci ilin mə-

zunları məni daha çox yandırdı. Çünki 2020-ci ilin kursantları çox bəxtsiz oldular. Pandemiya başqa insanlara ziyan vurduğu kimi kursantlara da öz təsirini göstərdi. Bütün ilboyu buraxılışa getmədilər. Novruz bayramında nə özləri evə getdilər, nə də ailələri onların yanına gələ bildi. Bayram şirniyyatları yemədilər. Bütün gün telefonsuz, sosial şəbəkəsiz yaşadılar.

Sonunda da məktəbi bitirdilər. Onların "Məzun günü" də soyuq, qısa oldu. Diplomlarını verib yola saldılar. Mən tədbirin kiçik bir hissəsini televizordan izlədim və inanın, hönkürtü ilə ağladım. Onlar məzun oldular, amma heç məzuniyyətə də getmədilər. Birbaşa diplomlarını alıb hərbi hissələrinə yollandılar və cəmi 2–3 ay leytenant maaşı aldılar. Onunla da həyatları sona çatdı.

Dərs dediyim kursantların arasında ilk Murad Nağıyevin şəhid xəbəri gəldi. Onu şəxsən tanımağım bir başqa təsir edirdi mənə. Murad çox savadlı, ağıllı, mədəni kursant idi. Bu məktəbə gələndən sonra oxumaqdan bir az soyumuşdu, çünki Türkiyəyə başqa arzularla qəbul olmuşdu. Amma, necə deyərlər, biz nəyin necə olacağını bilmərik. Allah hər şeyi özü bilir.

Dərsdə danışanda həmişə üzü gülürdü. Nə olsa da, həmişə təbəssümü üzündə olurdu. Həkim dişlərinə breket qoymuşdu. Deyirdim: "Ay Murad, dişlərini düzəltdirirsən ki, qızlara göyçək görünəsən?" Gülürdü, qızarırdı. Çox abırlı balaydı.

## Naizə Salmanova

***(AAHM-də ingilis dili müəllimi)***

Baxıram şəhidlərimizin şəkillərinə, hamısı gülüzlü, mələksimalı, çoxu da südqoxulu ana uşağı... Kimisi boybuxunlu, kimisi də cələf-cılız... Amma onların göstərdikləri igidliyə, şücaətə baxanda insan belə bir xalqın, belə bir millətin nümayəndəsi olduğu üçün qürur duyur.

Mən Muradgilə "A" qrupunda dərs deyirdim. Bu qrupda oxuyan uşaqlar ingilis dilindən bilik səviyyəsinə görə seçilmiş, yəni daha yaxşı oxuyanlar idi. Onların çoxu Türkiyədə təhsil alan, lakin daha sonra siyasi vəziyyətə görə geri çağırılanlar, geri qaytarılanlar idi. Ona görə də bu uşaqlarda bir az ruhdüşkünlüyü var idi. Mən onları həvəsləndirməyə, ruhlandırmağa səy göstərirdim. Əlimdən gəldiyi qədər onları tanımağa çalışırdım. Bildiyiniz kimi, hərbi məktəbdə oxuyan uşaqlar vaxtından əvvəl böyüyüb kişiləşirlər. Murad da belə idi. Amma təbiətcə çox sakit idi. Yalnız dərsə qaldıranda mənə məlum olurdu ki, o, dərsə hazırlıqlı bir kursantdır. Mən ən çox onda olan abır-həyanı qiymətləndirirdim. Murada dərsdə sual verəndə, ya da bir irad tutanda o çox utanardı. Yanaqları qıpqırmızı qızarar, utancaq baxışlarını yerdən qaldıra bilməzdi. Muradda olan bu abır-həya indiki gənclərimizdə çox az tapılan bir keyfiyyətdir. Mən hər dəfə uşaqlara deyərdim ki, siz hamınız öz ailənizin güzgüsüsünüz. Onlar razılaşmaz, deyərdilər ki, xeyr, müəllim, insanı mühit formalaşdırır.

Bir gün axşam dərsində, yəni fakültativdə idik. Onlar "A" qrupu olduqları üçün əlavə dərslər keçirdik ki, xarici dili daha yaxşı mənimsəsinlər. Dərsin son günləri idi. Uşaqlar buraxılışa hazırlaşdıqları üçün dərsə gələnlərin sayı az idi. Buna baxmayaraq mən yenə də dərsi tam ciddiyyətlə keçir, verdiyim tapşırıqları tələb edirdim. Dərsdə olanların içərisində Murad da var idi. Kursantlar mənə dedilər:

– Ay müəllim, onsuz da dərsin son günləridir. Nə qədər dərs keçmək olar? İcazə verin, Murad öz şeirlərini oxusun.

Özüm də ədəbiyyat həvəskarı olduğum üçün mənə maraqlı gəldi. "Sən şeirmi yazırsan?" – deyə soruşdum. Murad utandı, yanaqları həmişəki kimi allandı. Mən onu ürəkləndirdim. "Məşhur şairlər yetişdirən bir torpağın oğlu, əlbəttə ki, şeir yazar", – dedim. Oxudu şeirlərini səsi titrəyə-titrəyə. "Nə gözəl şeirlərin var, Murad", – dedim. Bəzisi vətənə aid idi, bəzisi də sevgiyə. "Sevdiyin biri

varmı?" – deyə soruşdum. O da həmişəki kimi utana-utana: *"Xeyr, yoxdur. Elə-belə yazmışam",* – dedi. "Gözəl şeirlərdir. Çox gözəl şeirlərin var. Bunları çapa ver", – dedim.

Onlar həvəslə törənə hazırlaşırdılar, yəni buraxılış gününü gözləyirdilər. Sonra pandemiya başladı, biz nə görüşə bildik, nə də vidalaşa. Ulduzlarını doya-doya taxa bilməyən sevimli tələbələrim, heyif sizlərə... Heyif yarımçıq qalan ömrünüzə, yarımçıq qalan arzularınıza... Çiçək ömrü, gül ömrü yaşayan gül balalarımız...

## Sevinc Abdullayeva
### *(AAHM-də hərbi psixologiya və pedaqogika müəllimi)*

Mən Murada bir semestr dərs demişəm. IV kursun axırlarında, sonuncu kursun son semestrlərində "Hərbi psixologiya və pedaqogika" fənnini tədris etmişəm.

Ümumiyyətlə, mən çalışırdım ki, qruplarda dərslərdə maksimum ciddiyyətimizi saxlayaq. Əlavə söhbətlərə yer verəndə istər-istəməz uşaqlarda dərsə qarşı bir qədər qeyri-ciddilik yaranırdı. Bir dəfə ixtisasla bağlı qrupa sual vermişdim, bir qədər dərsdən kənara çıxmalar oldu. Uşaqlar Muradla zarafat etdilər ki, Muradın saçları tökülür, heç kim ona baxmayacaq. Mən də dedim ki, işiniz olmasın, gül kimi uşaqdır, qızların minnəti olsun. Amma Murad heç ciddiyyətini pozmadı, çevrildi və üzlərinə ciddi-ciddi baxdı deyə mən də müdaxilə etmədim. Mənim Muradın bu hərəkətindən çox xoşum gəldi. Mən həmişə Murada "Nağıyev" deyə müraciət edirdim. Dedim ki, Nağıyev, narahat olma, mən sənə bir dərman deyəcəyəm, onu çəkərsən, onda saçların tökülməyəcək. Murad dərsdən sonra yaxınlaşıb dedi ki, *müəllim, o dərmanın adını mənə deyin, zəhmət olmasa.* Mən dedim ki, mən o ampulanı sənin üçün alaram, istifadə edərsən. Sonra birdən auditoriyada yanlış anlaşılma olar deyə bir qədər uzatdım, almadım.

Bir gün Murad yenidən yaxınlaşıb ampulanın adını soruşdu. Dedim ki, Murad, fikrimdən çıxıb, mən onu özüm sənə alaram. *“Müəllim, lazım deyil”,* – deyə təkid etdi. Sonra dərsimiz olmayan bir vaxtda çağırıb dərmanı ona verdim, dedim ki, budur, istifadə edərsən. Sonradan dərsə girəndə müşahidə etdim ki, Murad müəllimin ona etdiyi yaxşılıqdan sui-istifadə etmədi. Dərsdə heç vaxt özünü qeyri-ciddi aparmadı.

O, istənilən məsələdə çox ağıllı cavablar verirdi. Müəllimlər otağında həmişə dərsdən sonra kursantları müzakirə edirik. Murad barəsində ortaq dərs dediyimiz müəllimlər də eyni fikirdə idi. Hamımız deyirdik ki, o çox ağıllı kursantdır, kaş bizim millətimizin uşaqları Murad kimi olardı. Sanki Allah ən yaxşıları seçib yanına aparıb. Bütün şəhidlərimizin hamısı say-seçmə uşaqlardır.

Düzdür, hər övlad ananın gözünün işığıdır, ayrıseçkilik salmaq düzgün deyil, ancaq Muradın yoxluğuna inana bilmirəm. Müharibə gedən vaxt dərsdə kursantlar dedilər ki, keçən ilin məzunlarından Nağıyev adında tankçı şəhid olub. Dedim: “Necə yəni Nağıyev şəhid olub?! Ola bilməz! Tez mənə şəklini göstərin!” Şəklini gördüm. Heç cür inana bilmədim, uzun müddət özümə gələ bilmədim. Mən elə bilirəm ki, Murad nə vaxtsa, haradasa yenə mənim gözümə görsənəcək. Haradasa qarşımıza çıxacaq. Murad elə uşaqlardan idi. Baxmayaraq ki, onların qrupunda uşaqların sayı az idi, onların hər birinə kifayət qədər dərsdə vaxt ayırırdım, onların qrupundan yadımda qalan tək uşaq Muraddır, Nağıyevdir.

Dərs dediyim tankçıların içində Nağıyev çox ağıllı olması, siması, ciddiliyi ilə yaddaşımda qalıb. Düzdür, onların yaşları çox az idi, ancaq mən həmişə dərsdə deyirəm ki, insanların özünü dərk etməsi, formalaşdırması bu dövrə təsadüf edir. Əgər insanda dərketmə formalaşıbsa, onlar o yaşda özlərini təsdiq etməyə çalışırlar. Və özünü təsdiq etmək, kişi cinsinin nümayəndəsi kimi özünü təqdim etmək hər insanda olmur. Muradda bu formalaşmışdı.

Sonradan pandemiyaya görə karantin olduğu üçün dərslər olmadı. Muradgili dərslərdə görə bilmədik. Hətta "Məzun günü" onlarda qapalı oldu, bizi mövcud vəziyyətə görə oraya buraxmadılar. O uşaqlarla sağollaşa bilmədik.

Muradın anasının əllərindən öpürəm. Sağ olsun ki, Murad kimi ağıllı, tərbiyəli övlad böyüdüb. Qürur duysun ki, belə bir ağıllı balanın anasıdır, nə qədər ağrılı olsa da, nə qədər ağır olsa da. Mən həmişə Nağıyev Muradı nümunə çəkirəm. Mən Muradın anasının qarşısında baş əyirəm. Biz həmişə müəllimlərlə danışanda deyirik ki, bizim cəmiyyətimizə Murad kimi uşaqlar lazımdır. Ağıllı, tərbiyəli, sözünün və danışığının yerini bilən... Qısa müddətdə biz o uşaqları tanısaq da, onlar bizim əbədi olaraq xatirəmizdədirlər. Nə qədər vaxt keçirsə keçsin, biz o uşaqları, Nağıyev Muradı unuda bilmərik, bizim buna haqqımız yoxdur. Məkanı cənnət olsun. Allah ailəsinə səbir versin, dözüm versin. Amin.

## Elçin Məmmədov
***(dostu)***

**Elçin:** Bəzi hissləri sözlərlə ifadə etmək çox çətindir. Bəzən sözlər hisslərin ifadəsi üçün gücsüz olur, aciz qalır. Muradla bizim dostluğumuzu hansısa hərflər, sözlər və ya cümlələrlə izah edə bilmərəm.

*– Muradla necə tanış olmusunuz?*

**Elçin:** İlk tanışlığımız bağçada olub. Deyir, "Murad" sözünü yaza bilmirdim, amma Murad olduğumu bilirdim. Hərfləri tanımırdıq, amma bir-birimizin adını bilirdik. Daha sonra məktəbdə sinif yoldaşı olduq, birlikdə oxuduq, birlikdə böyüdük. Murad hərbi liseyə qəbul oldu, sonra AAHM-də təhsilini davam etdirdi. Mən universitetə qəbul oldum, amma bizim yollarımız heç ayrılmadı, çünki dostluğumuz daimi və əbədi idi. Hər il yayda Azərbaycanın səfalı, görməli yerlərinə gəzməyə gedər, Qubada, Nabranda gözəl vaxt keçirib əylənərdik. Yaşasaydı, indi dostluğumuzun 20 ili tamam olacaqdı.

*– Muradın uşaq vaxtı hərbiyə marağı, həvəsi var idimi?*

**Elçin:** Bizim sinifdə hərbinin nə olduğunu bilən təkcə Murad idi. Hamıya hərbidən danışardı. Biz bilmirdik, hərbi forma nə rəng olur, amma Murad bizə hərbi həyatdan danışırdı.

Hər adam onun kimi ola bilməzdi. O yaşdan – səkkizinci sinifdən əsgər çəkməsi geyinmək hər adam üçün deyil, amma o bunu bacardı. 8-ci sinifdə hərbi liseyə imtahan verəndə ən yüksək balı Murad yığmışdı, çünki özü istəyirdi hərbçi olmağı. Bir söz var, deyir ki, bir şeyə həvəsin varsa, nə olur olsun, onu əldə edə bilərsən. Murad özü istəyib getdiyi üçün o balı da yığmışdı. Qəbul imtahanında 400-dən artıq bal toplamışdı. Səhv etmirəmsə, Türkiyəyə ən yüksək bal toplayan 4–5 nəfər gedirdi və o gedənlərdən biri də Murad idi. O, Egey dənizinin sahillərində təlimlərdə olub, komando kursu keçib. Bunların hamısında yüksək nəticə göstərib.

Murad hərbçi formasını özü üçün əziz saxlayırdı. Hər şeydən əziz... Forması həmişə ütülü, səliqəli olardı. Həmişə deyirdi ki, *hərbçi hər zaman təmiz olmalı, Azərbaycan hərbçisinə yaraşan formada olmalıdır*.

*– Murad necə insan idi?*

**Elçin:** O çox ürəyiyumşaq, hər kəsə yardım etmək istəyən, ünsiyyətcil, mərd, əliaçıq insan idi. Həmişə üzü gülərdi. Yaddaşımızda ancaq gülər üzü ilə qaldı. Onun haqqında nə qədər danışsam, azdır. Olduğu hər yerdə, istər məhəllədə, istərsə də təhsil aldığı və işlədiyi yerlərdə hamı Muradın xətrini çox istəyərdi. Murad öz tərbiyəsi, mədəniyyəti ilə hamının qəlbində yaxşı xatirə qoydu. İnanmıram, kimsə çıxa və deyə ki, mən ondan pislik gördüm. Mən onun 4–5 müəllimini tanıyıram. Hamısı Murada tək hərbçi olduğuna görə yox, həm də öz şəxsiyyətinə görə hörmət edirlər. Mən onun kursant yoldaşlarını da, işlədiyi hərbi hissədən iş yoldaşlarını da tanıyıram. Onlar zəng edirlər, onu yada salırlar, deyirlər ki, yeri görünür, yoxluğu bilinir.

Muradla müharibə vaxtı tez-tez telefonla danışırdıq. Bir hadisəni danışım sizə. Müharibənin qızğın vaxtı idi. Mənim dayım oğlugilin Füzulidə oteli var. Murad Füzulidə olan vaxt mən dayım oğluna tapşırmışdım ki, ona baş çəkib, nəyə ehtiyacı var – maraqlansın. Dayım oğlu iki dəfə onun üçün yemək də aparmışdı. Yalnız yoldaşları da süfrəyə oturandan sonra Murad özü də oturub yemək yemişdi.

Murad öz peşəsinə böyük hörmət və məsuliyyətlə yanaşırdı. Bir dəfə müharibə vaxtı Muradla danışanda axırıncı dəfə nə vaxt çimdiyini soruşdum. O da dedi ki, *axırıncı dəfə Bakıda çimdiyimdir*. Muradla sağollaşıb, dayım oğluna dedim ki, oteldə Murad üçün otaq hazırlasın. Heç olmasa, gedib çimsin, həm də bir az dincəlsin. Dayım oğlu Muradgilin yanına gedib onu otelə aparmaq istəyəndə Murad getməyib. Nə qədər təkid etsə də, o qısa müddətlik də olsa, öz yerini tərk etməyə razı olmayıb. Deyib ki, *bir il də burada qalsaq, yerimdən tərpənəsi deyiləm*.

Dayım oğlu Muradın tabeçiliyindəkilərin hamısını aparmağı təklif etsə də, Murad yenə razı olmayıb və deyib:

– *Bu ərazini bizə tapşırıblar. Buranı tərk edə bilmərik!*

Qismət, tale, alın yazısı Muradı bizdən ayırdı, onu ən böyük zirvəyə – şəhidlik zirvəsinə ucaltdı. Murad indi bizim xatirələrimizdə yaşayır.

## Lamiyə Əliyeva

***(271 nömrəli tam orta məktəbdən dostu və sinif yoldaşı)***

Biz Muradla məktəbdə parta yoldaşı, yol yoldaşı olmuşuq. Məktəbdən evə, evdən məktəbə birlikdə gedib, gəlirdik. Daha sonra Murad Türkiyəyə ilk səfərindən geri qayıdanda azarkeşi olduğum "Fenerbahçe" klubunun formasını və şərfini mənə hədiyyə etmişdi. Murad sevdiklərinə sürpriz etməyi çox sevirdi. Onun bu hədiyyəsi məni çox sevindirmişdi.

Murad, ümumiyyətlə, dostlarına, sevdiklərinə qarşı həssas idi. Onları hər zaman güldürməyi xoşlayırdı. 5-ci sinifdə oxuyarkən partaya aramızda çəkdiyim xətti keçdiyinə görə ondan küsmüşdüm. Murad isə növbəti gün könlümü almaq üçün mənə məktəbdə özünə yemək alacağı pulla çoxlu dəftərə yapışdırıb kolleksiya düzəltdiyimiz yapışqanlı şəkillərdən almışdı. Mən niyə bu qədər çox aldığını soruşanda o belə cavab vermişdi: *"Çox aldım ki, bir də məndən küsməyəsən də, ay Lamış".*

Muradla son görüşüm təsadüfən baş vermişdi. Getdiyim bir məkanda sosial şəbəkə hesabımdan şəkil paylaşmışdım. Üstündən çox keçməmiş Murad mənə zəng etdi və belə dedi:

– *Salam, deyəsən, sən də buradasan. Gəlim, görüşək?*

Mən isə: "Hə, əlbəttə, gəl, ay Murad. Çox yaxşı olar. Uzun müddətdir, səni görmürdüm", – dedim. Gəldi. Bir xeyli söhbətləşdik, zarafatlaşdıq. Mən ona: "Nə vaxt

evlənirsən, ay Murad?" – deyə sual verdim. O isə: *"Ay Lamış, qoy bir işlərimi yoluna qoyum, daha sonra, inşallah, toy edəcəyəm",* – dedi. Hələ sözləşdik ki, sinif uşaqları ilə vaxt edib hamımız görüşək... Həmin gün xatirə şəkli də çəkdirdik, amma bilməzdim ki, o gün Muradla son görüşüm, həmin şəkil də onunla çəkdirdiyim son şəklim olacaq...

Yerin qəlbimdə həmişə ayrı olacaq, əziz dostum Murad...

## Aysu Ələkbərova
### *(dostu)*

Muradla tanışlığımız illərə dayanır. 2011-ci ildən bəri bir-birimizi tanıyırıq. Onunla bağlı unudulmayacaq qədər dəyərli və silinməz xatirələrim var. Danışmağa hansından başlayım bilmirəm – qəlbi daima vətən eşqi ilə döyünən igid hərbçidənmi, yoxsa mənə hər zaman dəstək olan, dərdimi, sirrimi dinləyən, birlikdə ürəkdən deyib-güldüyüm o gözəl dostdanmı?

Deyə bilərəm ki, həyatımda yaşadığım sayılı xoşbəxt günlərdən biri də Muradla İstanbulda keçirdiyimiz gündür. Ümumiyyətlə, İstanbul dedikdə ağlıma ilk Murad gəlir. İstanbula imtahan vermək üçün getmişdim. Günümün xoş və yaddaqalan keçməsi üçün əlindən gələni etməsi, imtahan həyəcanıma şərik olması, xəstələndiyim üçün mənə dərman alması, xatirə şəkillərimiz və o şəkillərdə üzümüzdə olan təbəssüm hələ də gözümün qabağından getmir. Azarkeşi olduğumuz "Qalatasaray" futbol klubunun uğurlarını həmişə bir-birimizlə bölüşürdük. İstanbuldan mənə aldığı, üzərində həmin klubun rəngləri olan və yazılarla bəzədilmiş hədiyyəlik fincanı hələ də saxlayıram. Muradla bağlı o qədər xatirələr var ki, xatırladıqca bir üzümdə gülüş yaranır, bir üzümdə kədər. Həqiqətən, bir dost kimi mənə çox ağırdır.

Vətənə bağlılığı, hərbi sahəyə olan marağı, mərdliyi və cəsarəti onu digərlərindən fərqləndirirdi. Hələ onda böyüməmişdik. Gələcəkdən xəbərsiz gələcəyin xəyallarını qurarkən belə Murad özünü hərbi həyatdan kənarda görmürdü. Oxuduğu hərbi məktəblər – Kuleli və Kara Harp Okulu ("Harbiye") ilə daima fəxr edirdi. İstanbulu çox sevirdi və oraya bağlılığı bir başqa idi. Ankaraya Kara Harp Okuluna gedəndə o yerləri gəzdirmək üçün mənə söz vermişdi. Amma qismət deyilmiş. 2016-cı ildə oradan geri dönəndə içində bir boşluq hissi var idi. Paylaşım etmişdi:

*Elveda şeref timsali üniformam;*
*Ne çok yakışmıştın bana,*
*Seni her giydiğimde.*
*Senin gibi lekesiz olsun diye bu vatan,*
*Ne sonsuz ideallerim vardı.*
*Ama dalından koparılan bir çiçek gibi,*
*Koparıyorlar seni benden...*
***Yaşa Var Ol Harbiye!***

Ən son – müharibədən bir ay əvvəl Bakıya gələndə vaxt məhdudiyyətindən görüşə bilməmişdik. Buna görə məndən çox incimişdi. Ona qısa vaxtda görüşəcəyimizə dair söz vermişdim. Yarımçıq qaldı verilən sözlər...

Şəhid olmamışdan bir gün əvvəl gecə yuxuda gördüm. Sanki sağollaşıb getdi. Oyananda yuxunun təsirindən çıxa bilməmişdim. Nə qədər mesaj yazsam da, ondan xəbər ala bilmədim. Şəhid olduğu gecə aldığım o xəbərlə sarsıldım.

Hələ də yuxu kimi gəlir. "Murad yaşayır, sadəcə uzaqda oxuyur və bir gün geri qayıdacaq" düşüncəsiylə yaşayıram. Ali zirvəni fəth edərək Murad, bəlkə də, öz muradına çatdı. Bizim qəlbimizdən torpaq həsrətini silsə də, onun həsrətini heç nə silə bilməyəcək. Murad daima qəlbimizdə, xatirələrimizdə yaşayacaq.

## Zeynep Yılmaz
***(Türkiyədə dostu)***

Murat'la 2014 yılında sosyal medyada tanışmıştık. Sonra arkadaş olduk. Dostluk kelimesinin anlamını ilk kez onun sayesinde anladım diyebilirim. Moralimin bozuk olduğunu ben söylemeden dahi anlar, *"Neyin var?"* diye sorardı.

2015 yılında ikimiz de üniversiteyi kazanmıştık. Ankara'da görüştük, çok güzel zaman geçirdik. Sanki çocukluğumuzdan beri tanışıyorduk. Beni otogardan yolcu ettiği zaman bile görevlilere emanet ederdi.

Doğum günlerimizin arasında sadece iki gün fark var. İlk benim doğum günümü, sonra da Murat'ınkini kutlardık.

Sınavlardan yorulduğu zaman bazen şikayet ederdi, ama zorluklara rağmen hiç pes etmez, mesleğini daha çok severdi. İnsanlara karşı her zaman zarif bir duruşu vardı. Kalp kırmaktan kaçınır, her zaman daha ince düşünürdü. Birini seviyorsa, lafta değil de, ciddi anlamda çok severdi.

En son geçen yıl okulun sonlarına doğru konuşmuştuk. Hayatının nasıl gittiğinden ve okulunun biteceğinden bahsetmişti. Sonradan işe güce nasıl daldıysak artık, birbirimizle ne görüşebildik ne de konuşabildik. Bir gün Murat'a yazayım da nasıl olduğunu sorayım diye düşündüm. Yazdım, ama cevap gelmedi. Azerbaycan'da savaş başladığını bildiğimden Google'da arama yaptım ve Murat'ın isminin karşısında "Şehit" kelimesini görünce inanamadım.

Murat benim için çok değerli, çok özel bir arkadaştı. Benim için hep özel ve kıymetli kalacaktır.

## Zəhra Xankişiyeva və Hüsniyə Əhmədova
***(qonşuları)***

*Ən böyük əsərdir dünyada hünər,*
*O da övlad kimi doğulsun gərək.*

**Zəhra:** Nağıyevlər ailəsi ilə 2002-ci ildən tanışıq. Yaxın qonşu olmuşuq. Ailənin 3 oğul övladının hər biri davranışı, tərbiyəsi, gözəl əxlaqı ilə seçilirdi. Onları uşaqlıqdan necə sakittəbiətli tanımışıqsa, elə həmin qaydada da tanımağa davam edirik.

**Hüsniyə:** Mən Muradı 2008–2009-cu illərdə tanımışam. O vaxt onun 11–12 yaşı var idi.

**Zəhra:** Murad uşaqlıqdan fərqli idi. Mehribanlığı ilə hər kəsin qəlbində məhəbbət qazanmışdı. Saflığı və gülümsər çöhrəsi ilə də seçilirdi. Onunla rastlaşanda istər-istəməz insanın üzündə təbəssüm yaranırdı. Onun müsbət aurası qarşı tərəfdə də öz izini buraxırdı.

**Hüsniyə:** Murad uşaq olmasına baxmayaraq, çox ağıllı və mərd idi. Demək olar ki, uşaqdan böyüyə hər kəs onun xətrini çox istəyirdi. Murad qonşuluqdakı hər kəsin sevgisini, hörmətini qazanmışdı. O, rastlaşdığı hər kəslə salamlaşar, əhvalını soruşardı. Üzündən gülüş heç əskik olmazdı. Köməyə ehtiyacı olanlara hər zaman gülərüzlə kömək edərdi. Yaşının az olmasına baxmayaraq, Muradın sözündə, hərəkətlərində böyüklük var idi.

**Zəhra:** Muradın uşaqlıqdan fədakarlığı, xeyirxahlığı özünü büruzə verirdi. Məhəllədə gənc anaların uşaqlarını arabada gəzdirərək onlara kömək edərdi. Uşaqdan böyüyə heç kəs bu qardaşlardan narazılıq etməzdi.

**Hüsniyə:** Heç vaxt yadımdan çıxmaz. Bir gün Murad dərsdən gəlirdi. Mən də həyətdə uşağı gəzdirirdim. Murad çantasını evə qoyandan sonra gəlib mənə dedi ki, *verin, uşağı bir az da mən gəzdirim*. O, uşağı gəzdirdiyi vaxt mən də yeməyini hazırlayıb gəldim. Murad evə qayıdanda dedi ki, *nə zaman lazım olsa, köməyə hazıram*.

Dedim ki, çox sağ ol, gələcəkdə sənin uşaqların olsun, mən də onları saxlayıb sənin xəcalətindən çıxacağam. Murad gülümsəyib demişdi: *"Hələ o vaxta çox var. Bilmək olmaz, onda kim harada olacaq".*

**Zəhra:** Bizim xalqa vurulmuş ləkənin təmizlənməsinin mümkünsüzlüyü ilə illər idi ki, yatmışdıq. Murad və yoldaşlarının qəhrəmanlıqlarının səs-küyü ilə oyandıq. Murad adını eşidəndə səksənirik. Çünki onda tapdıq bu adın ucalığını, onda tapdıq qəhrəmanlığı, şücaəti, bir sözlə, insanlığa aid bütün gözəl xüsusiyyətləri.

**Hüsniyə:** Muradın şəhid xəbərini eşidəndə çox sarsıldım. Bu xəbərin yalan olması üçün çox dua etdim, amma olmadı. Mən bir qonşu kimi Muraddan çox razı olmuşam. Allah da ondan razı olsun, məkanı cənnət olsun.

**Zəhra:** Giley-güzar sevən deyiləm, tək bircə dəfə şikayət etmək istəyirəm Muraddan. Elə Muradın özünə... Müharibə başlayanda anandan səni soruşdum, dedi ki, gedib. Nəsə ürəyimdə qalmışdı ki, Murad, nə üçün görüşmədən, xeyir-dua almadan getdin? Gözləyirdim ki, gələsən, sənin özündən soruşum. Amma qismət olmadı. Sonradan bildim ki, anan ilə də görüşmədən getmisən. Qonşular səninlə bağlı xatirələrini bölüşəndə həm qısqanıram, həm də məyus oluram, Murad. Ona görə ki, mən səninlə oturub söhbət etmədim, Murad. Çox təəssüflər olsun ki, çox yaxın məsafədə yaşamağımıza baxmayaraq, səninlə bağlı xatirələrim anılardan və bir də sənin təbəssümlü çöhrəndən ibarətdir.

Xavər ana, bağışla bizləri. Min bir əziyyətlə, çətinliklə uşaq böyütdünüz. Bəhrəsini görməmiş odunda, alovunda yandınız. Elə bir alov ki, həmişə yanacaq, ömürboyu həmişə közərəcək. Övlad həsrəti ilə yanan anaların ürəkləri eyni dərddən yanar, amma hərəsinin öz rəngi, öz yanğısı olar.



**Zəhra, Hüsniyə:** Vətənin taleyi onun vətəndaşlarının hamısından asılıdır. Sənətindən asılı olmayaraq hər kəs öz sahəsində vətənə övladlıq borcunu ödəməli, vətənin qüdrəti üçün öz əməyini əsirgəməməlidir. Dünyada hər şeyi zövqə, imkana görə dəyişmək olar, bircə vətəndən və anadan başqa. Murad, siz vətən qarşısında borcunuzu cəsarətlə, şərəflə, ən yüksək adla – "Şəhid" adı ilə ödədiniz!



Həyata başlayarkən sanki biz itirmiş başlamışıq. Sanki gələcək xəyallarımızı olmayacaq bir gerçəklik kimi yaşamışıq. Hər qurduğumuz xəyallara özümüzdən parçalar əlavə etmişik və hər yıxılan xəyalımızla öz parçalarımızı məhv etmişik. Birazda batmışıq hər səfərində. Ancaq heç bir zaman yaşadıqlarımızdan dərs çıxarmağı bacarmamışıq. Hər səfərində inanılmaz bir ümidlə baxmışıq həyata. Ancaq ümidlərimiz bir ulduz tək sönəndən sonra yatdığımız şirin yuxudan acı şəkildə oyanmışıq. Amma çox şirin gələn yuxumuzu başqa bir ulduzda yaşamağa çalışmışıq. Sanki o ulduzlar bir-birilə yarışırmışcasına əlimizdən sürüşüb çıxırlar. Biz o ulduzlarımızı öz qaranlıq səmamızda saxlamağı bacara bilməmişik.

Qaranlıq səmamın ulduzu idi
Parlayan sönməyən saf xəyyalarım
Keçmiş günlərimin məlhəmi idi
Qaranlıq dünyada boş xəyallarım.

# Muradın qələmindən

## Kuleli

Bir sevdadır Kuleli,
O, senin içindedir, ama sen onun puslu gecelerinde...

*İstanbul, Türkiyə*
*14 oktyabr 2013*

**Gece**

Bu sessiz, karanlık geceyi
hayallerinle aydınlatan ay yüzlü meleğimsin.
Hep düşüncelerimde, hep kalbimdesin.
Ve bir gün sonsuzadek yanımda olacağına inandığım
sevdiceğimsin...

*İstanbul, Türkiyə*
*4 noyabr 2013*



* * *

Hayattan hiçbir haz alamayan birisinden ne beklersiniz ki, benden de ne bekleyesiniz?

*İstanbul, Türkiyə*
*23 noyabr 2013*

*   *   *

Dilediğim dileğin kabul olacağını bilsem, çocukluğuma dönmeyi dilerdim...

*İstanbul, Türkiyə*
*24 noyabr 2013*

## Kaybetmek

Hayat çok hızlı akıp geçiyor. Daha dün gelmişim gibi bu okula, lakin seneye okul da bitiyor.

Bu geçen zamanda hayat bizden neler aldı, neler verdi... Dönüp bakınca geçmişe çok şey kaybetmişim, ancak hiçbir şey kazanamamışım.

Ve şimdi çok korkuyorum. Kalan bu zamanımda yine de bir şey kazanmadan, kumar oynayıp da kaybeder gibi, elimde olanları kaybederim diye...

*İstanbul, Türkiyə*
*25 noyabr 2013*

**Acı**

Pencere önünde oturup Boğazı izlerken
sen geliyorsun gözümün önüne...
Sonra hava kapanıp da yağmur başlayınca
Boğazın hızlanan akıntısında kaybolup gidiyorsun,
Kalbimin derinliğinde kaybolur gibi...
Nasıl ki boğulan birisi çok azap çeker,
sen de öyle azap çekiyorsun kalbimin derinliğinde...
Fakat bunu sen değil, ben hissediyorum katbekat.
Taki o kaybolduğun yerden kurtulup da
bir güneş gibi doğana kadar...
İşte o zaman bütün acılarım diniyor...

**Not:** Ancak ben hala acı çekiyorum...

*İstanbul, Türkiyə*
*28 noyabr 2013*



## Vatan uğruna

14 yaşında giydik üniformayı cılız bedenlerimize,
Gençliğimizi harcadık Vatan uğruna.
Ama hiçbir zaman keşke demedik biz,
Siz sıcak yataklarınızda uyuyun diye.
Bakmayın gülüp eğlendiğimize.
Siz gezip tozarken,
Biz ayağımız yara-bere içinde eğitim yaptık.
Siz sevgilinizle müziğin ritminde kendinizi kaybederken,
Biz düdük sesiyle kollarımız parçalanana kadar
"Vatan sağolsun!" diyerek süründük.
Siz alkolden üç kuruşluk insanların kollarına düşerken,
Biz yanı başımızda susuzluktan bir heykel gibi
yerlere yapışan adamlar gördük.
Siz "aşk" dediniz, biz "Vatan" dedik.
Ne yaptıysak, olmadı,
Kötü olan yine biz olduk.
Olsun, biz yine susar, bir sigara daha yakarız.
Ama şunu asla unutmayın:
Şayet bir gün güneş bizimle doğup, bizimle batmazsa,
Sizin için de artık güneş doğmayacaktır.

**Not:** Bizi TSK'yı yıpratanlar diye lanse etmeye çalışanlara ufak bir cevap olur mu bilmem...

*İstanbul, Türkiyə*
*4 fevral 2014*

## Anladım

Anladım artık, sevgili,
Bu hislerimin sonu yok.
Ucunda sana kavuşmak yok.
Ne yazık ki anladım.
Anladım senin için birşey ifade etmediğimi,
Arkadaştan öte olmadığımı.

*İstanbul, Türkiyə*
*21 oktyabr 2014*

## İstanbul

İstanbul, hapsettin beni içine, hayatımı çaldın
Bütün hayatımı, mutluluğumu, yaşama sevincimi aldın.
İlk önce sevdirdin, sonra nefret ettirdin kendine.
Aldıklarınla beraber verdiklerin de oldu
Yalnızlık, mutsuzluk, boşluk, hiçlik.
Ve bir hayat da sundun,
anlamsız bir hayat.
Arada anlam yükledin hayatıma,
ama onu da aldın.
Bu sefer acı verdin...
Kimse verdiklerini görmesin diye
bir de sahte gülüş verdin.
Bugün yüzümdeki maskeyi düşürdün,
Çünkü sevdiğimi vermedin.
İçine hapsettin.
Orada olduğunu bile-bile alamadım onu
Bir ömür boyu görememekle tehdit ettin...

*İstanbul, Türkiyə*
*12 noyabr 2014*



## Emre'ye veda

Kalbimde derin bir acı,
Hayatımda yeni bir vurulma.
Hayattan yeni bir kahpelik,
Sırtımda derin bir yara.

Yaşlı gözlerimde boş bakış.
Giden var fani dünyadan.
Yerleşen var gönlüme,
Yerleşen var kalbimin derinliğine.

Acım büyük, yüküm ağır,
Aldı seni benden hayat.
Kopardı seni bizlerden.
Ama kalbimdesin, gardaşım,
Kalbimdesin, arkadaşım.

Gittin be, gardaşım, gittin,
Çok uzaklara gittin.
Yetişemediğim yerlere gittin,
Gelemediğim, ulaşamadığım yerlere.

Biliyor musun inanamadım gitmene?
Hep yanımda olacağını düşünmüştüm,
Beni asla bırakmayacağını düşünmüştüm.
Ama hayat kopardı seni bizlerden.

Hep şikayet ederdim hayattan,
Hep sana dert yanardım.
Hep sen dinlerdin beni,
Hep sen destek olurdun bana.

Gittin be, gardaşım, gittin.
Boşluk var hayatımda,
Yeri dolmayacak bir boşluk.
Büyük bir yara var asla kapanmayacak.

Ama biliyorum yine de yanımdasın,
Hep izliyorsun bir yerlerden beni.
Tam da düşündüğüm gibi oldu,
Hiçbir zaman bırakmayacaksın beni.

*İstanbul, Türkiyə*
*2 yanvar 2015*

## İstanbul ve hayat

Yeni bir gün başlat hayatta.
Sabah güneş kendini göstermeye başlar,
Sonsuz ufuklarda.
İlk ışıklar akseder deniz üstünde.

Öylece izlemeye başlarsın güneşin doğuşunu,
Sonra dayanamazsın bu güzellik karşısında,
İçini bir ferahlık kaplar.
Yüzün güler, hayran kalırsın bu eşsizliğe.

Her şey uçuverir aklından,
Kilitlenip kalırsın bu manzaraya,
Ama uzun sürmez bu güzellik,
Hayat gibi güzel görünür ilk başta.

Ve bitti artık bu doyumsuz güzellik,
Acı vermeye başlamıştır çok sevdiğin ışıklar.
Gözlerin kamaşır dayanamazsın bakamazsın,
Sonra yüzün yanmaya başlar.

Bir tokat yemiş gibi yüzün yanar,
Evet bir tokat, hayattan yediğin bir tokat.
Ne tuhaf değil mi?
İlk önce aldanıp sonra yanmak.

*İstanbul, Türkiyə*
*2015*

## Sevgilim

Gözlerinde bulduğum huzuru
sonsuz ve ebedi uykumda bile bulamam, sevgilim...
Hayat ancak sana baktığım kadar anlamlı
ve güzel ola bilir.
Sana hasret kaldığım her an
hayatımın son baharını anımsatır.
Susuz kalmış toprak gibiyim,
sana susuyorum...

*Bakı, Azərbaycan*
*2019*

## Sen bir ömürsün

Bir hayatsın sen, bir ömürsün...
Benim bu hayatta yaşayacağım kadar sonsuz bir sevgisin...

*Bakı, Azərbaycan*
*9 avqust 2020*

## Sevdiğim

Gözlerinde bulduğum huzuru
ebedi uykumda bile bulamam, sevdiğim.
Değil seni üzmek, seni severken bile
incineceğinden korkarım, sevdiğim...

*Bakı, Azərbaycan*
*10 avqust 2020*



## Hasretin

Her an içimi yakıyor hasretin, sevgili,
Kalbim duracak, ciğerim sönecekmiş gibi.
Her an içimi yakıyor hasretin,
Kül olup bitecekmiş gibi...

*Bakı, Azərbaycan*
*11 avqust 2020*

## Bir tek

Bir tek sana aşık bu deli gönlüm,
Bir tek senin o saf kalbine.
Bir tek sana aşık bu çılgın ruhum,
Bir tek senin o masum bakışlarına.

*Bakı, Azərbaycan*
*12 avqust 2020*

**Papatyam**

Papatyam kırmızı gül olmaya karar vermiş,
ama dikenli bir gonca olmuş sadece...
Ama ben papatyamı istiyorum,
bembeyaz, tertemiz, saf, narin papatyamı...

*Bakı, Azərbaycan*
*22 sentyabr 2020*



* * *

Sən qaranlıq həyatıma günəş olacaq insansan...

*İstanbul, Türkiyə*
*9 dekabr 2013*

*   *   *

Üzüm nə qədər istəyir gülsün,
ancaq içim yanandan sonra nə mənası var ki...

*İstanbul, Türkiyə*
*10 dekabr 2013*

## Təbrik

Hər kəsin bayramını ürəkdən təbrik eləyirəm... Bu il, inşallah, sizə düşərli olar və bütün arzularınız çin olar.

Yeni bir ili daha arxada buraxdıq, yəni həyatımızdan bir il daha tükəndi. Bəs bu bir ildə nə qazanmısınız? Heç fikirləşmisiniz? Fikirləşməyinizi məsləhət görərdim. O zaman hər şeyi daha yaxşı anlayardınız...

Yuxarıda yazdığım "bütün arzularınız çin olar" diləyi... Nəyə görə arzularınızın çin olmasını heç bir şey etmədən gözləyəsiniz? Bu bir il ömrünüzdən tükəndiyi kimi, eyni zamanda arzularınızın reallaşmasının da tükənməsi deməkdir. Ona görə də geri qalan illərinizi səmərəli tükədin ki, gələcəkdə peşman olmayasınız...

Mutlu yıllar.

*İstanbul, Türkiyə*
*31 dekabr 2013*

## İstərəm

Gözlərin dəniztək cəlb edər məni,
Dalaraq dərinə üzmək istərəm.
Seyr edib qəlbinin gözəlliyini,
Bütün sirlərini bilmək istərəm.

Sabahlar günəştək şölə saçarkən,
Səmaya baxanda görərdim səni.
Gecələr sönməyən ulduz olardın,
Sevdiyim, səmada izlərdim səni.

Xəyalımda can verib silərdim dərdi,
Dünyanın kədərin silib atardın.
Qəlbimə sevinci bəxş edərək sən,
Simanda sevginin həzzin dadardım.

*Bakı, Azərbaycan*
*15 mart 2019*



## Qismətim

Həsrət olub, kədər olub gerçəyim,
Yalnız qalmaq olub mənim qismətim.
Günəş sönüb, buz bağlayıb ürəyim,
Ölmək olub mənim tək bir istəyim.

Qələm oldu mənim dostum, yoldaşım,
Kağız oldu dərmanımla sirdaşım.
Yaşar oldu kədər dolu sözlərim,
Qaranlığa dözməz oldu, neyləyim.

Qələm bitdi, dözməz oldu dərdimə,
Kağız yandı, külə döndü, dözmədi.
Şeirlərim ağlar oldu həsrətə,
Sevən getdi, ölümüm də gəlmədi.

*Bakı, Azərbaycan*
*28 mart 2019*



## Bəlkə, doğdum*, nəfəs aldım o yanda

Sevgim sığmaz yerə, göyə, dünyaya,
Sevgim sığmaz bu bədənə, bu cana,
Qəlbim dözməz bu həsrətə, ayrılığa,
Sevən dözməz yarsız qalan bir ana.

Könlüm yandı, külə döndü bu yolda,
Ürək söndü, ölüm qaldı bu canda,
Yellər əsdi, tufan qopdu həyatda,
Sevən köçdü, bədən qaldı dünyada.

Sevmək mənə haram oldu həyatda,
Həyat qurdum, yalan oldu xəyalda,
Ümid bitdi, ömür getdi, dayanma,
Bəlkə, doğdum, nəfəs aldım o yanda.

*Bakı, Azərbaycan*
*29 mart 2019*

**Doğuldum*

## Qaytar

Qaytar mənim itirdiklərimi,
Ötən illərimi, gedən günlərimi.
Qaytar mənim uşaqlığımı,
Gəlib keçən qızıl zamanlarımı.

Qaytar mənim cavanlığmı,
Ötüb keçən hər anımı.
Qaytar mənim gecələrmi,
Axıb gedən hər damlamı.

Durdur indi bu anımı,
Boş-boşuna axıb gedən zamanımı.
Durdur indi gəncliyimi,
Tükənən hər yaşlarımı.

*Bakı, Azərbaycan*
*28 sentyabr 2019*



**Bu dünyanın dərdi bitmir**

Bu dünyanın dərdi bitmir,
Ömrüm gedir, kədər keçmir.
Boğur həyat, nəfəs gəlmir,
Ruh əlacsız, bədən bitkin, dərdlər bitmir.

Dünya dönür, zaman keçir,
Dərd qədəhim dolub daşır.
Göz yaşlarım coşub axır,
Bu dünyanın dərdi bitmir.

Keçən zaman hey aparır,
Həyat alır, heç nə vermir.
Əllər boşdur, gedən candır,
Bu dünyada hər şey dərddir.

*Bakı, Azərbaycan*
*18 oktyabr 2019*

## Baxma elə

Nə olar, sevgilim, baxma elə,
Qəlbimi yandırıb-yaxma elə.
Aşiqəm mən sənin o gözlərinə,
Nə olar, sevgilim, baxma elə.

O baxışların hüzur verib qəlbimə,
O gözlərin sığal çəkib könlümə.
Həsrət verib zülm verir sevənə,
Nə olar, sevgilim, baxma sən elə.

*Bakı, Azərbaycan*
*10 dekabr 2019*



**Nə çarə**

Bu nə bəxtdir əngəl olub ömrümə,
Günəş doğmur, zülmət çöküb könlümə,
Kədər girib, qüssə girib qəlbimə,
Bu nə gündür, doğmaq bilmir ürəyimə.

Sevgi vardır bu ürəkdə bir yarə,
Məlhəm olmur bu həyata, nə çarə,
Həsrət çəkir bu vücudum o yarə,
Həyat gülmür, ömür bitir, nə çarə!

*Bakı, Azərbaycan*
*2019*

## Sevgimsən

Həsrətlə gözlədiyim sevgimsən mənim,
Sükutun bitişi, qələmin sehri.
Könlümün ən gözəl şeirisən mənim,
Dərdlərimin sonusan, sabahın səsi.

*Bakı, Azərbaycan*
*6 avqust 2020*



## Dərmanım ol

Gəl sən mənim dərmanım ol,
Səndə yarın əlacı bol,
Bu qəlbimə məlhəmim ol,
Sənsiz dərdim dünyaca bol.

Keçmişini silim sənin,
Gələcəyin olum sənin,
Olum işıq bu gününə, sabahına,
Sevgim yetər hər anına.

Üzümdəki gülüşümsən,
Sevincimsən, kədərimsən,
Qəmzəndəki çiçəyimsən,
İcazə ver, sevim səni.

Nə olar, mənə elə baxma,
Bu ürəyimi söküb atma,
Sevgimə sən yalan baxma,
Bu hissimi heçə sayma.

*Bakı, Azərbaycan*
*10 avqust 2020*

## Sənsiz

Sənsiz keçmir günlərim,
Hey sızlayır, qan ağlayır ürəyim,
Sənsiz dinmir gözlərim,
Buz kimidir yalnız qalan əllərim.

Sönmüş ürək, solmuş ruhum,
Bitmək bilmir fani ömrüm,
Sənsiz sönməz eşq alovum,
Sənsiz durmaz bu vücudum.

Tut əlimdən, sar qollarınla,
Yanan canıma gəl məlhəm ol,
Sönmüş ürəyimə od ol,
Sığal çək ruhuma, cənnətim ol.

*Bakı, Azərbaycan*
*16 avqust 2020*



**Bilirsən, nələri fikirləşirəm?**

Bilirsən, nələri fikirləşirəm? –
Solmayan sevgimin saf olmağını.
Bilirsən, nələri fikirləşirəm? –
Cavabı olmayan suallarımı.
Bilirsən, nələri fikirləşirəm? –
Səbəbin bilmədiyim qərarsızlığını,
Bir seltək çağlayan duyğularımı.
Bilirsən, nələri fikirləşirəm? –
Niyəsin bilmədiyim qaçışlarını,
Səbəbi olmayan qorxularını.
Bilirsən, nələri fikirləşirəm? –
Qaranlıq gecətək susqunluğunu,
Bəzən də dəniztək çılğınlığını.
Bilirsən, nələri fikirləşirəm? –
Sevgimin səbəbsiz cavabsızlığın,
Hisslərin hüzünlü hayqırışını,
Qəlbimin səssizcə ağlayışını...

*Bakı, Azərbaycan*
*16 sentyabr 2020*

**Varımsan**

Nə yaxşı ki varımsan!
Hər bir dərdimə dərmanımsan.
Sən olmasan, necə olaram mən?
Belə bir xoşbəxtliyi, sevgini görmüşkən...

Nə yaxşı ki varımsan!
Hər bir dərdimə dərmanımsan.
Sən olmasan, necə olaram mən?
Belə bir gözəlliyi, özəlliyi görmüşkən...

*Bakı, Azərbaycan*
*25 sentyabr 2020*



## Fikrim hey ondadır

Könlüm qalıb o yanlarda,
Ana Vətən səslər məni.
Bir canımı orda qoyub,
Burda torpaq səslər məni.

Hər bir günüm dərd-kədərdir,
Sağım, solum alov alıb.
Bir tərəfdə Ana Vətən,
Bir tərəfdə yarım qalıb.

Yarım orda nigarandır,
Mənim fikrim hey ondadır.
Könlüm yanır, qubardadır,
Ağlım, fikrim hey ondadır.

*Cəbrayıl, Azərbaycan*
*7 oktyabr 2020*



## Oldu

Sevginin toxumun əkdi qəlbimə,
Qəlbimdə güllər, çiçəklər açdı.
Yarımın baxışı sindi qəlbimə,
Sevgimin günəşi şölələr saçdı.

Yarım gələrkən baharla gəldi,
Ürəyim durmadan çiçəklə doldu.
O yarım ruhuma sevgiylə gəldi,
Ürəyim yarımın heyranı oldu.

Həyatım mənalı bir filmə döndü,
Baş rolda yarımın sevgisi oldu.
Qaranlıq dünyam cənnətə döndü,
Oranın mələyi cananım oldu.

Üzümdə bitməyən sevincim oldu,
Qəlbimdə sönməyən alovum oldu.
İstisi könlümə sevgiylə doldu,
Həyat da mənimçün səbəbli oldu.

*Cəbrayıl, Azərbaycan*
*8 oktyabr 2020*

**Son**

Hər zaman, hər nəfəsdə,
səninləyəm, bir dənəm.
Bir an olsun, yorulmadan, bezmədən,
sonsuzadək sevərək, səninləyəm, bir dənəm.
Həyatımın və həyatının,
hər anında birlikdəyəm, birlikdəyik, bir dənəm.

Bu günümə, sabahıma,
hər anıma səni qatdım, sevgilim.
Ömrüm deyib, ömrümə qatdım, sevgilim.
Yaşadıqca biz olmağa söz verdim,
Hər gün dua etdim,
bir-birimizin olmağını arzu etdim, sevgilim.

*Cəbrayıl, Azərbaycan*
*9 oktyabr 2020*



## Ömür

Sevmək mənim ümid yerim,
Gülmək mənim dərd-kədərim.
Yaşamaqdır mənim cəzam,
Ölüm isə azadlığım...



## Xəyallarım

Həyata başlayarkən sanki biz itirmiş başlamışıq. Sanki gələcək xəyallarımızı olmayacaq bir gerçəklik kimi yaşamışıq. Hər qurduğumuz xəyallara özümüzdən parçalar əlavə etmişik və hər yıxılan xəyalımızla öz parçalarımızı məhv etmişik. Bir az da batmışıq hər səfərində. Ancaq heç bir zaman yaşadıqlarımızdan dərs çıxarmağı bacarmamışıq. Hər səfərində inanılmaz bir ümidlə baxmışıq həyata. Ancaq ümidlərimiz bir ulduztək sönəndən sonra yatdığımız şirin yuxudan acı şəkildə oyanmışıq. Amma çox şirin gələn yuxumuzu başqa bir ulduzda yaşamağa çalışmışıq. Sanki o ulduzlar bir-birilə yarışırmışcasına əlimizdən sürüşüb çıxırlar. Biz o ulduzlarımızı öz qaranlıq səmamızda saxlamağı bacara bilməmişik.

*Qaranlıq səmamın ulduzu idi,*
*Parlayan, sönməyən, saf xəyallarım.*
*Keçmiş günlərimin məlhəmi idi,*
*Qaranlıq dünyada boş xəyallarım.*

*Bakı, Azərbaycan*





*Vətəndə izi,*
*dillərdə sözü qaldı...*

## İlin dörd payız fəsli

Şəhid məzarlarında hər fəsil payız fəsli kimi yaşanar. Bu məzarların üzərinə dolan gözlərdən hey yağış yağar. Məzarların önündə zirvəsi bəyazqarlı dağa bənzəyən şəhid analarının oğul naləsi daş məzarların önündə əkssəda qoparar. Hər gün dilsiz daş məzarlar eyni görüntüyə şahid olar. Kaş ki o məzarlar dilə gəlib anaların nələr çəkdiklərini deyə biləydi. Əgər o an yaşanılsaydı, onda Xavər ananın çəkdiklərini məzarlar hər kəsə bəyan edərdi. Hər gün bir məzar daşına çilənən göz yaşları, hər gün oğul məzarına çəkilən ana nəvazişi... Ah, sən demə, şəhid analarının ürəklərinin qüvvətləri də qüdrətləri kimidir. Bəlkə də, biz elə düşünürük. Balası daşa dönən ana çoxdan ruhunun məzarını ziyarət edib. Axı bilirik, balası ölən ana ruhunu balası ilə birgə dəfn edir. Çöhrəsi də gün-gündən həsrətli vətən torpağı kimi cadar-cadar olur. Hər dəfə “Murad” deyəndə o cadarlar göz yaşları ilə dolur. Səsindəki nisgil vətən torpaqlarında əsən küləyin həzin səsinə bənzəyir. Hər kəlməsi kədər, nisgil, qəm qoxan şəhid anasının köksündə döyünən ürəyinin döyüntüsü hər dəfə oğul məzarı üzərində duyulanda bütün şəhid məzarları bu səsi duyur. Çünki o ürək tək Murad üçün döyünmür. O ürək Murad kimi vətənin sinəsindən tər dərilən bütün şəhidömürlülər üçün döyünür. Bir şəhidin anası bütün şəhidlərin anası olur. Hər şəhidin kəm həyatından kəmömürlü Muradına bir pay çıxarır Xavər ana. Axı onun Muradı hələ muradına çatmamışdı. Axı onun Muradı general olacaqdı. Muradın çatmadığı arzuları duyanda ürək titrəyir. Axı nə yaşadı ki, nə də görə? Nə sevgi bağından yar adlı çiçək dərdi, nə də övlad adlı bəhər. Xavər ananın min bir zəhmətlə böyütdüyü oğul min bir arzusu ilə birgə bu dünyadan köçdü. Özü getdi, vətəndə izi, dillərdə sözü qaldı.

Payızda köçdü Murad. Köçəri quşlar kimi qanadlanıb Qarabağın həsrətli torpaqlarında süzdü. Bilirdi, köçəri quşlardan fərqli olaraq o, bir daha geri dönməyə bilər. Ancaq sonu nə olur olsun, getməkdə qərarlı idi. Murad illərdir, köçkün həyatının sızıltısını hiss etmişdi. Hər bahar köçəri quşlar geri dönsə də, artıq 30 bahar idi ki, qarabağlılar Qarabağa geri dönmürdülər. Qarabağda açan çiçəklər sanki həsrət qoxurdu. 2020-ci ilin payızına kimi... Həmin tarixdən sonra gələn baharda açan çiçəklər şəhid qoxuyur. Xavər ana da həmin qoxunu bala qoxusu kimi ciyərlərinə çəkir. Həm alrəngli çiçəklərə baxanda, həm də bayrağa baxanda ruhu titrəyir. Axı onlar qan rəngindədir...

***Manya Səxavətqızı***

*(Şairə, publisist, "Vətən Fədailəri" layihəsinin rəhbəri)*

## Tarix yazanları tarix yaşadacaq

Vətən onu qoruyanların çiynində Vətəndir. Vətən anadır! Vətən namusdur! Əsrlərboyu davam edən, 1990-cı illərdə daha da kəskinləşən hadisələr Qarabağın üzərinə qara buludlar gətirdi. Üzdəniraq qonşuların Azərbaycanın dinc əhalisinə qarşı uzun illər öncə hazırladıqları məkrli planları, Xocalıda törətdikləri soyqırımı, azərbaycanlıların əzəli-əbədi torpaqlarından zorla çıxarılması düz 30 ildir ki, hər bir azərbaycanlının ürəyində nifrətə, qisasa çevrilmişdi. Şuşanın işğalından sonra dünyaya gələn körpələr hər il televiziyalarda yayımlanan verilişlərdən, eləcə də hərbi vətənpərvərlik və milli-mənəvi dəyərlərin təbliğinə yardımçı olmaq üçün təşkil olunan tədbirlərdən bilirdilər ki, mənfur düşmən xalqımızın başına nə bəlalar gətirib. O körpələr qisasa qisas, qana-qan, cana-can deyə-deyə böyüdülər. Həmin qəhrəman oğullardan biri də leytenant Murad Nağıyev idi.

Murad Qazax rayonunda dünyaya göz açıb. Qazax rayonunun 7 kəndi işğal olunmuşdu. Murad bunları dərk etdikcə onun qisas hissi daha da artırdı. O, Şuşanın işğalından 5 il sonra – 1997-ci ildə anadan olub. Lakin Muradı da Şuşanın tapdaqda qalması narahat edirdi. Elə bu səbəbdən də Murad təhsilini hərb sahəsi üzrə seçdi. Hərbi təhsilini uğurla başa vuran Murad çox qısa zamanda Vətən müharibəsinin qəhrəman simalarından birinə çevrildi. Tank komandiri vəzifəsini icra edən Murad, *"Öndə mən gedəcəyəm"*, – deyib Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid oldu. Qəhrəmanlar hər zaman öndə olar. Hər zaman birinci gedər. Murad da öndə getdi, seçildi, Şəhid oldu.

"Qazax" Xeyriyyə İctimai Birliyinin üzvləri Şəhid leytenant Murad Nağıyevin ailəsini ziyarət etdilər. İctimai Birlik Qazax və Ağstafadan olan Şəhidlər haqqında film çəkilişlərinə başlayıb. Həmin filmlərdə Qazax və Ağstafa rayonlarında yaşayan, orada dəfn olunan Şəhidlərlə bərabər Azərbaycanın digər şəhər, rayonlarında yaşayan, əslən Qazax–Ağstafa rayonlarından olan Şəhidlərin də döyüş yolu lentə alınır. İctimai Birlik tərəfindən Murad Nağıyev haqqında da film çəkildi. Həmin film "Qazax" Xeyriyyə İctimai Birliyinin "YouTube" kanalında yerləşdirildi. Filmlər həmçinin disk şəklində ali təhsil müəssisələrinə, orta məktəblərə də təqdim olunacaq.

Biz Vətən müharibəsində xalq, ordu, dövlət birliyinin şahidi olduq. Vətən müharibəsinin Şəhidləri qalib ölkənin Şəhidləridir. Onlar torpağa tapşırılanda qalib ordunun əsgəri, zabiti olaraq dəfn olundular. Fəxri xiyabanın fəxrinə çevrildi Şəhidlər. Murad Nağıyev də Fəxri xiyabanda uyuyur. İndi onu qazaxlılar, Muradın məktəb, tələbə dostları, müəllimləri, döyüş yoldaşları ilə bərabər bütün Azərbaycan tanıyır. Xarici dövlətlərdən gələn qonaqlar da Fəxri xiyabanda Şəhidlərimizi ziyarət edir. Şəhidlər "dünyaya ədalətin bərpası"nın ən dəyərli mesajıdır: "Biz öldürərik, ölərik, ancaq düşmənə bir qarış torpağımızı vermərik".

Biz hər zaman Şəhid ailələrinin, qazilərin, Azərbaycan ordusunda qulluq edən zabit və əsgər heyətinin yanındayıq. Allahdan Şəhidlərimizə rəhmət diləyirik. Qazilərimizə şəfalar diləyirik. Muradın anası Xavər xanıma, qardaşlarına, doğmalarına başsağlığı verir və deyirik: Siz başınızı hər zaman dik tutun. Murad Azərbaycan xalqının Zəfər Tarixini yazan Qəhrəman zabitdir. Qəhrəmanları nəinki doğmaları, bütövlükdə Azərbaycan xalqı da heç vaxt unutmayacaq. Tarix yazanları tarix yaşadacaq!

*Dərin ehtiramla:*

***Professor İlham Pirməmmədov***

*(“Qazax” Xeyriyyə İctimai Birliyi*
*İdarə Heyətinin sədri)*

## Eşq və Həyat...

Gənc hərbçimiz – şəhid zabit Murad Nağıyevin şeirləri ilə tanış olduqca ədəbiyyatdan müharibəyə, müharibədən ədəbiyyata aparan yollar haqqında düşüncələrə qərq olmaya bilmirsən... Əslində, ədəbiyyat antimüharibə fəlsəfi mahiyyətindədir; ancaq “müharibə ədəbiyyatı” deyə biləcəyimiz nə qədər örnəklər var... Mən nəyi nəzərdə tuturam? İlk sırada, Azərbaycan Vətən müharibəsində – 27 sentyabrda baş vermiş tarixi əks-hücum, bu hücum və 44 gündə yaşananlarda ədəbiyyatın yeri və rolunu nəzərdə tuturam. Əlbəttə, müharibədəki tarixi Zəfərimiz “A”dan “Z”yə hər şeydən, bütün əməli çalışma sahələrindən asılı idi, bununla belə, ədəbiyyatın özünəxas ruhlandırıcı rolu, missiyası danılmazdır. Buraya “Qarabağın bir kəndini yüz “Nobel”ə dəyişmərəm” (Xalq yazıçısı ANAR) fikrindən tutmuş, Xəlil Rza Ulutürkün, Zəlimxan Yaqubun, onlarla digər sənətkarlarımızın döyüşə qanadlandıran poeziyası daxildir, məncə, heç biri təsirsiz ötüşməyib; şəhid şairlə-

rimiz – Ülvi Bünyadzadənin, Nizami Aydının həyat yolu da gənc vətən oğullarının heç nəyə baxmadan irəli atılmasında özünəxas rola malik olub; istər şifahi, istər yazılı olsun – fərq etməz, əsgərlərimizin, zabitlərimizin, bütövlükdə Ordumuzun hisslərini, düşüncələrini, diləklərini və istəklərini məhz söz sənəti üzərindən obrazlı şəkildə ifadə etməsinə dair onlarla misallar var. Milli Qəhrəman Mübariz İbrahimovun əlyazma məktubu da, şəhid şair Ülvi Bünyadzadənin "And"ı da mənə şeir kimi gəlir... Hərbçinin, özəlliklə zabitin missiyası, mandatı bəllidir, lakin hər şey texnika ilə, silahla, güllə, mərmi ilə həll olunmur ki? Bayraq, Şuşa, Torpaq, Xarıbülbül, Zəfər, Şəhidlik... önəmli dərəcədə Ruh, Eşq, Sevda, Həsrət, Ümid, İnam hadisəsi, təcəllasıydı! Ali Baş Komandanın sözlərini xatırlayıram: "Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!"

Ədəbiyyatdan müharibəyə yollar göründüyü kimi, müharibədən ədəbiyyata da sonsuz yollar vardır. Müharibə dövründə, müharibə sonrası, hətta çox illər keçdikdən sonra poetexnologiyalar, poetik kəşflər səviyyəsində insanların minalanmış ərazi üstündə, güllə yağışı altındakı hiss-həyəcanı ilə tanış ola bilirik. 1941–45-ci illər müharibəsindəki Azərbaycan Qəhrəmanlarını önəmli dərəcədə onlar haqqında yazılmış bədii əsərlər, filmlər, rəsm, büst və heykəllər də sənətin gücü ilə yaşadıb. "Ana və poçtalyon", "Ukrayna partizanlarına", "Tütək səsi", "Uzaq sahillərdə", "General", "Alov saçan sətirlər", habelə "Azərbaycan legion ədəbiyyatı"... – hər birini riqqətlə xatırlayırıq...

* * *

Nurüzlü leytenantımız – Azərbaycan Vətən müharibəsinin şəhidi Murad Nağıyev (Murad Mayıl oğlu Nağıyev 09.02.1997, Qazax – 11.10.2020, Cəbrayıl) özü yazan, özü döyüşən, öz vətəninin ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda şəhid olan yanar ürək yiyəsi cavanlarımızdandır! Bəlkə də, Qazax doğumlu olması səbəbindəndir – onda şairlik istedadı vardı, həncəri deyərlər, o yazmaya bilməzdi... Qazax, əlbəttə, görkəmli hərbçiləri ilə də ün qazanıb, bununla belə şeirimizin paytaxtı fəxri statusu məhz Qazaxa şamil edilir. Və Murad Nağıyev bu iki sahəni qoşa qanad kimi daşıyıb! Hərbçi kimi yetişib, bir döyüşən hərbçinin ala biləcəyi ən yüksək zirvəni – Şəhid adını qazanıb, bir şəhidin ruhunu şad edəcək ən yüksək amala – Zəfərə nail olub və bir gənc şair kimi incə qəlbini şeirlərlə ifadə edib. *"14 yaşında giydik üniformayı..."* Şeirlərini qardaş Türkiyə türkcəsində qələmə alan zabitimiz sanki bununla da dövlət böyüklərimizin "Bir millət, iki dövlət", "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" formullarının həyatiliyini və Vətən müharibəsində qardaş Türkiyənin mənəvi, siyasi dəstəyini şeir şükranlığı ilə şəkilləndirib!

Murad adının energetikasını, ürəyinin hərarətini Vətəninə həsr edib! Bu misralar ondan yadigardır:

*Yeni bir gün başlat hayatta.*
*Sabah güneş kendini göstermeye başlar,*
*Sonsuz ufuklarda.*
*İlk ışıklar akseder deniz üstünde.*

*Öylece izlemeye başlarsın güneşin doğuşunu,*
*Sonra dayanamazsın bu güzellik karşısında,*
*İçini bir ferahlık kaplar.*
*Yüzün güler, hayran kalırsın bu eşsizliğe.*

Və ya:

*Yaşlı gözlerimde boş bakış.*
*Giden var fani dünyadan.*
*Yerleşen var gönlüme,*
*Yerleşen var kalbimin derinliğine.*

**Ruhuna alqış!**
**VƏTƏN SAĞ OLSUN!**

**Qeyd:** Murad özü bir arkadaşı üçün belə yazırdı:

*Ama biliyorum yine de yanımdasın,*
*Hep izliyorsun bir yerlerden beni.*
*Tam da düşündüğüm gibi oldu,*
*Hiçbir zaman bırakmayacaksın beni.*

***Əkbər Qoşalı***

*(Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti,*
*Beynəlxalq "Alaş" Ədəbi Mükafatı laureatı)*

***Barat Vüsal***

*(AYB Qazax Filialının sədri,*
*Əməkdar incəsənət xadimi)*

## Muradım mənim

*23 yaşında Vətən müharibəsində qəhrəmancasına şəhid düşmüş tank komandiri Murad Nağıyevin cavan ömrünə və gözəl şeirlər yaradan könlünə hörmətlə*

Muradım, sənə də qanım qaynadı,
Sən də balammışsan, Muradım mənim!
Bir yox, Şuşa qalam qala-qalaymış,
Sən də qalammışsan, Muradım mənim!

Nə atılsa, dəydi hədəfə, niyə?
Deyim, tezcə oldu qələbə, niyə?
Vətən, yurd uğrunda çünki cəbhəyə
Sən də yollanmışsan, Muradım mənim!

Sən də könülmüşsən, şeirin oxuram!
Gülüstan qoxurmuş dilin, qoxuram.
Sən də varaqmışsan, indi baxıram,
Sən də qələmmişsən, Muradım mənim!

Dedin: Vətən, qurban bu can önündə,
Dedin, mən də qurban, qurban önündə.
Sən də yaxşımmışsan düşman önündə,
Sən də əlammışsan, Muradım mənim!

Vətən deyir: sənə qalam deyirəm,
Varmış, Allah, neçə balam, deyirəm.
Nədən sağalmayır yaram, deyirəm,
Sən də yarammışsan, Muradım mənim!

Sən də bu dünyaya gəlib getmişsən,
Neçə dəfə şəhid olub getmişsən...
Sən də şəhidlərtək ölüb getmişsən,
Sən də yaranmışsan, Muradım mənim!

Baxtım oyanıbmış birdən baxtım ki,
Baxdım necə sönüb birdən baxtım ki.
Lalalar içində birdən baxdım ki,
Sən də lalammışsan, Muradım mənim!

Nə yaxşı baxmadın cavan yaşına,
Dəyib nə yaxşı ki, güllə döşünə.
Nə yaxşı Vətənin, yurdun başına
Sən də dolanmışsan, Muradım mənim!

Barat, Murad adlı balan var idi,
Bir gözəl, bir mələk oğlan var idi.
Dünyada ən əvvəl kəlam var idi
Sən də kəlammışsan, Muradım mənim!

***Zöhrə Qaraqızı***

*(AYB-nin üzvü, Prezident mükafatçısı)*

## Sənlə qoşadır adı

*Vətənimizin azadlığı və bütövlüyü uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış Murad balamızın anası Xavər xanıma təsəlli və böyük hörmətlə*

Bir ana tanıyıram,
Gecəsi-gündüzü yox.
Düşmən vurduğu yara,
Sinəsində oxdu, ox.



Bütün günü oxşayır
Balasının boyunu.
Ana görə bilmədi,
Bircə oğul toyunu.

Vətən darda olanda
Oğul cəbhəyə getdi.
Ucaldı şəhidliyə,
Ölməzliyə o yetdi.

Ürəyi param-parça,
Başına qar ələndi.
Özü-özünə deyir,
Bu Allahdan gələndi.

Ana yalnız ümidi
Bağlayıb qara daşa.
Baxıb dözmək də olmur,
Gözündən axan yaşa.

Vətən yaşasın deyə,
Tək Muradlar çox olub.
Düşmənlərin gözünə,
Bu balalar ox olub.

Muradlar ucaldıbdı
Vətəninin adını.
Vətən heç vaxt unutmaz,
Öz doğma övladını.

Sən özün bir qəhrəman,
Sən böyütdün Muradı.
Hamı sənə baş əyir,
Sənlə qoşadır adı.



***Heydər Paşazadə***
*(Muradın AAHM-dən kursant yoldaşı)*

## Murad

**M**ərdlərlə dastanlar yazanda, dünya,
**U**tandın Muradı alanda, dünya?
**R**əvamı gözlərin yumdu dünyaya?
**A**xı bir damla qanına dəyməzsən, dünya.
**D**ağlıq Qarabağda ŞƏHİD-sən, dünya.

***Manya Səxavətqızı***
*(Şairə, publisist,*
*"Vətən Fədailəri" layihəsinin rəhbəri)*

## Şəhid Murad

Əvvəllər sevgini dilə gətirib,
Həsrətli qəlblərə toxunurdun sən.
İndi o həsrətli sətirlərini,
Oxuyan hər insan çəkir qüssə-qəm.

Vətənin uğrunda fəda elədin,
Ömrünün ən gözəl gənclik çağını.
Vətəni cənnətə çevirən, şəhid,
İndi bəzəyirsən cənnət bağını.

O gül camalını oxşaya bilmir,
Qoxundan doymayan həsrətli anan.
Sən Ana Vətənə can verən gündən,
Elə bil anan da verib şirin can.

Sənin arzun idi vətən yolunda,
Şəhidtək canından keçəsən, Murad.



Deyirdin: “Hər insan dünyadan köçüb,
Bacarmaz dünyada qoysun gözəl ad”.

Tutduğun eşq yolu səni ucaltdı,
Şəhadət adlanan gözəl zirvəyə.
Qanından iz düşən bayraq çevrilib,
Həsrətli dağlarda sanki örpəyə.

Qəhrəman oğullar illərdən sonra,
Qalibtək bitirdi Haqq savaşını.
Daha Qarabağdan əsən küləklər,
Şəhidim, oxşayır məzar daşını.

## İtib xoşbəxtliyim

Oğul, həsrətinə tuş gələn qəlbim,
Elə bil get-gedə gücün itirir.
Daha həyatıma gələn hər fəsil,
Özüylə həsrəti, qəmi gətirir.

Sənsiz bu həyatın nəyini sevim?
Mən sevə bilmirəm daha həyatı.
Bu dünya qaranlıq zindan kimidi,
İtirdim xoşbəxtlik adlı Muradı.

Bir məzar, bir də ki cansız şəkillər,
Mənə sirdaş olub, mənə dost olub.
Hər dəfə qəbrinə düzdüyüm gültək,
Ömrün qönçə vaxtı dərilib, solub.

Daha taleyimin ilməsi qaçıb,
Tikdiyim ümidlər bir-bir sökülür.
İlin dörd fəsli də payızdır mənə,
Gözlərim buluddur, yağış tökülür.

## Şəhid Murad

Ötən zamanla birgə böyüyür həsrətin də,
Ölümsüzlük yazıldı sənin bəxt-qismətində,
Neçə ürək çırpınır qəmin əsarətində,
Sən olan xoş çağları, Murad, unutmaq olmur,
Sənin qəlbdəki yerin dolmur, şəhidim, dolmur.

Sən ömrünü vətəni yaşatmaqçün yaşadın,
Açılan hər səhəri "Vətən" deyib başladın,
Həsrətli torpaqları əzizləyib, oxşadın,
Əllərinin istisi donub torpaqda qaldı
Cismin torpağa döndü, ruhun göyə ucaldı.

Qəlblərdə yaşayırsan, elin şəhid balası,
Zamanla da sağalmaz qəlbin şəhid yarası,
Biz bilirik cənnətdi şəhidlərin dünyası,
Cənnətinin nuruna qərq olub Azərbaycan
Özü dünyadan köçüb, adı tarixdə qalan.

***Cavanşir Musayev***
*(Şair)*

## Şəhid Murad Nağıyev

Sən vətən uğrunda gedib döyüşdün,
Neçə ürəkləri sən eylədin şad.
Qəlbində nə qədər arzular vardı,
Muradına çatammadın, ay Murad.

Sənin yoxluğunla barışmayırlar,
Atan, anan səninçün həsrət çəkirlər,
Bala həsrətiylə, bala dağıyla,
Qəlbinə ən acı min dərd əkirlər.



Sənin qardaşların da darıxır sənsiz,
Onların döyünən ürəyi sənsən.
Ayrılıb getmisən çox uzaqlara,
Cənnətdə cənnətin mələyi sənsən.

***Hətəm Allahverdiyev***

*("Qanun press" qəzetinin baş redaktoru)*

## Sən bizə şərəfsən

O nakam ömrünlə sən tarix yazdın,
Ən uca zirvədə ad da qazandın.
Şəhidlik şərbətin içib, ucaldın,
Bizim üçün əzizdir hər zaman adın,
Tanrıdan kama yetər muradın.

Sən bizə şərəfsən, sən bizə əziz,
Səninlə fəxr edir bütün elimiz.
Məzarın olubdur qürur yerimiz,
Sən yoxsan deməyə gəlmir dilimiz,
Gələrik ziyarətə, bil, hər birimiz.



# SON SÖZ YERİNƏ

*44 günlük Vətən müharibəsində şəhid düşmüş qəhrəman oğullarımızın əziz xatirəsinə və igid qazilərimizin şərəfinə ithaf olunur.*

## Qarşınızda bir ömür sayqı duruşundayız!

Vətən sizə can dedi, Vətənə can verdiniz,
Damarları təpimiş torpağa qan verdiniz.
Otuz il otuz yerdən yaraları çatlayan,
Millətə qırx dörd gündə şəfayla şan verdiniz!
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Bir çağrışı bəs etdi Ali Baş Komandanın,
Yüz illərə tən oldu – hökmünə bax bir anın?!
Vahimədən yağılar pərən-pərən oldular,
Haləsi böyüdükcə çəkdiyiniz hilalın.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Belə cəng, belə savaş yer üzü görməmişdi,
Nə dağı, nə dərəsi, nə düzü görməmişdi...
Bu xalq on min doqquz yüz əlli gecə yaşayıb,
On min doqquz yüz əlli gündüzü görməmişdi.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Xan Araz Sizi görcək qəhərlənib ağladı,
Köhlən Xudafərinin şahə qalxdı tağları.
O taydan bir ün qopdu, yer-göy lərzəyə gəldi,
Bu tayda ucalınca sənin zəfər bayrağın!
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!



Azğın düşmənlərinə çoxları çıxdı yiyə,
Avropa diş qıcadı, Asiya getdi küyə...
Ancaq birə-beş artdı gücünüz, qüdrətiniz,
"Hər zaman yanındayız!" – haykırınca Türkiyə.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Nərənizdən Şuşada qaya qopdu, daş yandı,
O gün qaş qaralmadı, qaralacaq qaş yandı.
DƏMİR YUMRUĞunuzun zərbindən yer titrədi,
Odlu nəfəsinizdən düşmən başa-baş yandı!
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Ruhlar səltənətində ucalıqlar sizindir,
Uca başlar sizindir – uca dağlar sizindir.
Başqa yerdə gəzməsin haqqı haqq arayanlar,
Məmləkətdə haqq olan bütün haqlar sizindir.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Ürəyim parçalansın, üzüm ağ olsun! – dedi,
Heç nəyimiz olmasın, Qarabağ olsun! – dedi.
Bundan böyük ibadət görünməyib cahanda –
Şəhid doğan analar: "Vətən sağ olsun!" – dedi.
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

Azərbaycan adını sinənizdən asdınız,
Yeni tarix yaradıb, yeni dastan yazdınız.
Qazi hüzurlarıdır daha səcdə yerimiz,
Şəhid məzarlarıdır ən müqəddəs andımız!
Adınızla tarixə möhürləndi bu payız,
Qarşınızda bir ömür sayqı duruşundayız!

***İbrahim İlyaslı***

*(Ə.Kərim adına Poeziya Evinin direktoru,*
*Türk Ədəbiyyatı Vakfının fəxri üzvü)*



## KİTABIN İÇİNDƏKİLƏR

**Bir əldə qılınc, bir əldə qələm**......5
**Muradın həyat yolu**......8
**Murad xatirələrdə**......11

Xavər Məhəmmədi *(anası)*......13
Orxan Nağıyev *(qardaşı)*......16
Sərxan Nağıyev *(qardaşı)*......25
Nərmin Səfərli *(Orxanın həyat yoldaşı)*......31
Banu Hümbətli......34
Tamella Süleymanova *(xalası)*......67
Tahirə Məhəmmədi *(xalası)*......68
Aynurə və Samirə Həsənovalar *(xalası qızları)*......70
Türkanə Əsgərova *(xalası oğlunun həyat yoldaşı)*......72
Elnurə Bingöl *(kirvəsinin həyat yoldaşı)*......73
Ayişə Səfərli *(Nərminin bacısı)*......74
Fidan Hümbətli *(Nərminin bibisi qızı)*......77
Polkovnik-leytenant Ramin Kərimov
*(tabor komandiri)*......80
Baş leytenant Namiq Səfərov *(döyüş yoldaşı, dostu),*
Gizir Elsevər Hümmətli *(döyüş yoldaşı,*
*Muradın komandiri olduğu tankın mexaniki)*......84
Əsgər Azər Abdullazadə *(döyüş yoldaşı,*
*Muradın komandiri olduğu tankın tuşlayıcısı)*......100
Ergys Dollomaja *(Kuleli Askeri Lisesi və*
*Kara Harp Okulundan kursant yoldaşı və dostu)*......113
Leytenant Anar Mərdanzadə, leytenant Elsevər Əliyev,
leytenant Əbdülkərim Kərimli, leytenant Əhməd Əliyev,
leytenant Əmrah Əmirov, leytenant Firudin Mahmudov,
leytenant Gündüz Babayev, leytenant Nihat Sərdarlı,
leytenant Tural Həkimbəyli və Təbriz Əhmədov
*(Kuleli Askeri Lisesi, Kara Harp Okulu və*
*AAHM-dən kursant yoldaşları)*......115

Leytenant Əli Mustafayev
*(AAHM-dən kursant yoldaşı və dostu)* ................................123
Leytenant Əziz Rəhimli
*(AAHM-dən kursant yoldaşı və dostu)* ................................130
Bəsdi Əliyeva
*(105 saylı körpələr evi uşaq bağçasında müəllim)* .........133
Rüxsarə Əlizadə
*(271 nömrəli tam orta məktəbdə direktor müavini)* .....134
Nazilə Əbdülhəsənova
*(271 nömrəli tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi)* ..................................................................135
Bənövşə Mənsimova *(271 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi)*..................................................................137
Polkovnik-leytenant Vasif Məlikov
*(AAHM-də zirehli tank texnikaları müəllimi)*....................137
Ayşən Baxışova *(AAHM-də sosiologiya müəllimi)* ..........139
Mehriban Əliyeva *(AAHM-də ingilis dili müəllimi)* ........140
Naizə Salmanova *(AAHM-də ingilis dili müəllimi)*..........141
Sevinc Abdullayeva *(AAHM-də hərbi psixologiya və pedaqogika müəllimi)* ...........................................................143
Elçin Məmmədov *(dostu)*.......................................................146
Lamiyə Əliyeva *(271 nömrəli tam orta məktəbdən dostu və sinif yoldaşı)* ..............................................................148
Aysu Ələkbərova *(dostu)*.......................................................149
Zeynep Yılmaz *(Türkiyədə dostu)* .........................................151
Zəhra Xankişiyeva və Hüsniyə Əhmədova
*(qonşuları)*...........................................................................152

**Muradın qələmindən**
*(Siz "aşk" dediniz, biz "Vatan" dedik)*........................................155

**Vətəndə izi, dillərdə sözü qaldı**..........................................195

**Son söz yerinə** ....................................................................211

MURAD

Bakı, "Təhsil", 2022.

Kompüter tərtibatçıları ***Səbinə Məmmədova,***
***Əmiraslan Zaliyev***
Üz qabığı ***Bəhruz Seyfulla***
Korrektoru ***Günel Məmmədova***

Çapa imzalanmışdır 02.02.2022. Kağız formatı 60x90 $^{1}/_{16}$.
Fiziki çap vərəqi 16,5. Sifariş 6. Tiraj 350.

"Təhsil Nəşriyyat-Poliqrafiya"
müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.: (994 12) 567 81 28/29
Faks: (994 12) 567 82 68
e-mail: tahsil_az@yahoo.com



Murad Nağıyev
Bakı, 2020





**Fikrim hey ondadır**

Könlüm qalıb o yanlarda,
Ana Vətən səslər məni.
Bir canımı orda qoyub,
Burda torpaq səslər məni.

Hər bir günüm dərd-kədərdir,
Sağım, solum alov alıb.
Bir tərəfdə Ana Vətən,
Bir tərəfdə yarım qalıb.

Yarım orda nigarandır,
Mənim fikrim hey ondadır.
Könlüm yanır, qubardadır,
Ağlım, fikrim hey ondadır.

**Murad Nağıyev**